

YUSİFƏLİ HƏSƏNOV

# AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ İDMAN və TURİZM ƏLAQƏLƏRİ SİSTEMİNDƏ




Azərbaycan Respublikası beynəlxalq idman və turizm əlaqələri sistemində

YUSİFƏLİ HƏSƏNOV

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**YUSİFƏLİ HƏSƏNOV**

# AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ İDMAN VƏ TURİZM ƏLAQƏLƏRİ SİSTEMİNDƏ

**(1991-2005-ci illər)**

**Bakı - 2015**

*Bakı Dövlət Universiteti nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış Dissertasiya Şurasının qərarı ilə çap olunur*

**Elmi redaktoru**
tarix üzrə elmlər doktoru **S.A.Sayadov**

**Rəyçilər**
tarix üzrə elmlər doktoru, professor **İ.M.Məmmədov**
tarix üzrə fəlsəfə doktoru **H.A.Alıyev**
tarix üzrə fəlsəfə doktoru **H.N.Həsənov**

**Həsənov Yusifəli Lətif oğlu.** Azərbaycan Respublikası beynəlxalq idman və turizm əlaqələri sistemində (1991-2005-ci illər). Bakı, Elm və Təhsil, 2015. – 224 s., illüstrasiyalı

Monoqrafiyada Azərbaycan Respublikasında idman və turizmin inkişafını şərtləndirən və təmin edən idman və turizm təşkilatlarının strukturlarının yaradılması, idman və turizm sahəsində maddi-texniki bazanın möhkəmləndirilməsi, bu məqsədlə dövlət proqramlarının hazırlanması, regional və beynəlxalq idman və turizm təşkilatları ilə əlaqələrin qurulması və ölkəmizin bu təşkilatlarda fəal iştirakı, müxtəlif ölkələrlə müvafiq müqavilələrin bağlanması məsələləri işıqlandırılır.

Kitab mütəxəssislər və geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

**© Y.L.Həsənov, 2015**

# G İ R İ Ş

Ötən əsrin 80-ci illərinin ikinci yarısında Şimali Azərbaycanda müstəqillik uğrunda ümumxalq hərəkatı başlandı. Elə bu dövrdə süni surətdə ortaya atılmış qondarma "Dağlıq Qarabağ problemi" tədricən kəskinləşərək Ermənistan-Azərbaycan münaqişəsi səviyyəsinə qalxdı və ölkəmiz qonşularımız tərəfindən təcavüzkar müharibəyə cəlb olundu. Şübhəsiz ki, doğma torpaqları düşməndən müdafiə edənlərin cərgəsində idmançıların və turizm sahəsində çalışanların sayı az olmamışdır. Müharibə bütün sahələrə olduğu kimi, Azərbaycan idmanı və turizminə də ağır zərbələr vurdu. Ölkənin neçə-neçə güclü, perspektivli idmançısı, məşqçisi, idman və turizm mütəxəssisi Vətən uğrunda döyüşlərdə şəhid oldu. İşğal edilmiş Azərbaycan ərazilərində yerləşən minlərlə idman meydançası, stadion və zal, saysız-hesabsız idman avadanlığı, onlarla turizm müəssisəsi erməni təcavüzkarları tərəfindən yerlə yeksan edildi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdi. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edənlər respublikada siyasi sabitlik yarada bilmədilər. Siyasi hərc-mərclik və müharibə, torpaqlarımızın işğalı ölkə idmanını xeyli geriyə atdı, bir çox idman bazaları baxımsızlıq üzündən yararsız vəziyyətə düşdü, onlardan təyinatı üzrə istifadə olunmadı, idman qurğuları və avadanlıqları dağıdıldı. Yüksək idman ustalığına malik perspektivli idmançılar, bacarıqlı idman mütəxəssisləri, məşqçilər ölkəni tərk etməyə başladılar. Bir sözlə, idman dövlət qayğısından kənarda qaldı.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra mövcud iqtisadi və siyasi potensialına söykənərək, milli dövlətçiliyini bütün istiqamətlərdə möhkəmləndirməklə yanaşı, xarici siyasətini də formalaşdırmağa, beynəlxalq münasibətlər sisteminə daxil olmağa başladı. Respublikamız iqtisadi-siyasi sahədə qazandığı imkanlardan səmərəli istifadə edərək, dünya idman və turizm əlaqələrində beynəlxalq hüquq subyekti kimi təmsil olunur, bu sahələrdə hazırladığı strategiyanı uğurla həyata keçirirdi. Bu baxımdan, 1991-2005-ci illərdə Azərbaycan Respublikasında idman və turizmin inkişafı fonunda respublikamızın beynəlxalq idman və turizm əlaqələrinin öyrənilməsi problemin əsas hissəsini təşkil edir. Eyni zamanda, yaxın və uzaq dövlətlərlə idman və turizm sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulması və inkişaf perspektivlərinin elmi-nəzəri cəhətdən araşdırılması, mövcud problemlər və onların həlli yollarının nəzəri-konseptual baxımdan tədqiqi, görülmüş tədbirlərin və onların nəticələrinin ümumiləşdirilməsi və obyektiv qiymətləndirilməsi mühüm elmi və praktik əhəmiyyət kəsb edir. Əsərin aktuallığı, elmi, nəzəri və əməli əhəmiyyəti də onun monoqrafiya səviyyəsində yazılmasını şərtləndirir. Bununla yanaşı, 1993-cü ildən sonra idmana və turizmə dövlət qayğısı sahəsində yüksək nailiyyətlərin əldə olunması, Milli Olimpiya Komitəsinin (MOK) yenidən təşkilatlanması və olimpiya oyunlarında Şimali Azərbaycan idmançılarının uğurları, ölkəmizin beynəlxalq və regional idman və turizm təşkilatlarında layiqli təmsil olunması, bu istiqamətdə dünya dövlətləri ilə əlaqələri, idman və turizm sahəsində beynəlxalq idman tədbirlərinin respublikamızda təşkili və respublikamızın beynəlxalq nüfuzunun artmasında və tanınmasında bu sahələrin böyük rol oynaması da problemin aktuallığını şərtləndirən amillərdəndir. Elə bir sıra mötəbər beynəlxalq yarışların Bakıya salınması, Beynəlxalq Olimpiya Təşkilatlarının müxtəlif toplantılarının respublikamızda təşkili bu fikirləri təsdiqləyir. Təbii ki, idmanın inkişafı bir ölkənin hüdudları ilə məhdudlaşa bilməz. MOK öz fəaliyyətində bu məsələyə

xüsusi diqqət yetirmişdir. Əgər 1997-ci ilin avqustundan – 2001-ci ilin martınadək beynəlxalq əlaqələrin yaradılmasına, dünya və qitə idman təşkilatları ilə əməkdaşlığın qurulmasına və tədricən inkişaf etdirilməsinə xüsusi önəm verilirdisə, 2001-2004-cü illəri əhatə edən olimpiya dövrü yaradılmış əlaqələrin sıx əməkdaşlığa keçməsi ilə səciyyələnmişdir.

Bu mövzunun araşdırılması müasir Azərbaycan Respublikasının beynəlxalq idman və turizm əlaqələrinin mahiyyətini dərk etməyə, bu əlaqələr sistemində Azərbaycanın tutduğu yeri müəyyənləşdirməyə imkan verir.

İkincisi, göstərilən sahədə aparılan elmi araşdırmalar Azərbaycan Respublikasının idman və turizm sahəsində yeritdiyi siyasət konsepsiyasını yeni nəzəri müddəalarla zənginləşdirməklə yanaşı, bu əlaqələrin taktika və strategiyasını başa düşmək, milli-dövlət maraqlarının həyata keçirilməsini təmin etmək baxımından da aktualdır.

Üçüncüsü, dünyada inteqrasiya proseslərinin genişləndiyi, o cümlədən turizmin iqtisadi əhəmiyyətinin artdığı, təmiz ekoloji mühitin get-gedə daraldığı və turizm üçün böyük üstünlük kəsb etdiyi müasir dünyada ölkəmizin zəngin turizm potensialından istifadə imkanlarının aktuallığı, bu baxımdan Azərbaycan Respublikasının turizm sahəsində beynəlxalq əməkdaşlığının mövcud vəziyyəti və gələcək perspektivlərinin elmi təhlili mühüm məsələlərdəndir.

Dördüncüsü, Azərbaycan Respublikasının idman və turizm sahəsində regional və beynəlxalq təşkilatlar, o cümlədən dünya dövlətləri ilə əlaqələrinin, bağlanmış müqavilələrin, görülmüş işlərin, dövlətimizin beynəlxalq olimpiya oyunlarında və turizm sərgilərində iştirakı və qazandığı uğurların öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Beşincisi, Dağlıq Qarabağ müharibəsi nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində idman və turizmin maddi-texniki bazasının ermənilər tərəfindən vəhşicəsinə dağıdılması, işğal altındakı torpaqlarımızın "müstəqil dövlət"in ərazisi kimi qə-

ləmə verilməsi, burada müxtəlif idman tədbirlərinin keçirilməsi, Dağlıq Qarabağdakı turizm obyektlərinin Ermənistan turizm marşrutlarına daxil edilməsi bu istiqamətdə obyektiv tarixi həqiqəti ortaya qoymağı, onları tutarlı elmi dəlillərlə bir daha əsaslandırmağı aktual və əməli bir vəzifəyə çevirir.

Göstərmək lazımdır ki, araşdırılan problem indiyədək istər Azərbaycanda, istərsə də xaricdə ayrıca tədqiqat obyekti olmamışdır. Doğrudur, mövzunun bəzi aspektlərinə, özəlliklə idmana dair publisistik səviyyədə müəyyən yazılarda toxunulsa da, problemin bütöv və bir sıra ciddi istiqamətlərinin, xüsusilə də turizm sahəsində əlaqələrin mövcud vəziyyətinin və gələcək perspektivlərinin elmi şəkildə araşdırılmasına ciddi ehtiyac duyulmaqdadır.

Keçmiş Sovet İttifaqında və sosializm düşərgəsi ölkələrində yenidənqurmanın başlanması, fərqli ideoloji sistemdə yaşayan insanlar arasında yeni münasibətlərin formalaşması yeni eranın başlanmasına səbəb oldu. Hər il ölkəmizdə və xaricdə keçirilən turizm və idman sahəsindəki çoxsaylı beynəlxalq konfranslar, görüşlər, yarışlar, sərgilər və digər mühüm tədbirlər müxtəlif ölkələrdən turistləri cəlb etməklə yanaşı, nailiyyətlərimizi də görməyə və iqtisadi imkanlarımızın genişlənməsinə şərait yaradır.

Azərbaycan Respublikasının 1991-2005-ci illərdə idman və turizm sahəsində beynəlxalq əlaqələrinin əsas istiqamətlərinin tarixi bu monoqrafiyanın tədqiqat obyektidir. Bu dövrdə separatizm, terror, müharibə və qaçqınlar problemi ilə üzləşməsinə baxmayaraq, Azərbaycan Respublikası iqtisadi yüksəlişə nail olmuş, idman və turizmin inkişafı və təbliği baxımından əhəmiyyətli yol qət etmişdir.

Ölkədə idman və turizmin inkişafı üçün atılan addımlar Azərbaycan dövlətinin beynəlxalq aləmdə etibar və nüfuzunun artması demək idi. Əsərdə Azərbaycan Respublikasında idman və turizmin inkişafını şərtləndirən və təmin edən idman və turizm təşkilatlarının bütün strukturlarının yaradılması, idman və turizm sahəsində maddi-texniki bazanın möhkəmləndirilməsi,

bu məqsədlə dövlət proqramlarının hazırlanması, regional və beynəlxalq idman və turizm təşkilatları ilə əlaqələrin qurulması və ölkəmizin bu təşkilatlarda fəal iştirakı, müxtəlif ölkələrlə müvafiq müqavilələrin bağlanması məsələləri nəzərdən keçirilmişdir.

Monoqrafiyada Azərbaycan Respublikasının idman və turizm sahəsindəki əlaqələrinin istiqamətləri, bağladığı müqavilələrin əhəmiyyəti göstərilir, bu sahədə dövlətimizin maraqları əsaslandırılır və təhlil olunur.

Əsərdə Azərbaycan Respublikasının Beynəlxalq Olimpiya Hərəkatına qoşulması, bu sahədə qazandığı uğurlar, respublikada beynəlxalq standartlara cavab verən olimpiya idman qurğularının istifadəyə verilməsi və bütün bunların ölkəmizin idman və idman turizmi əlaqələrində mühüm amilə çevrilməsindən bəhs olunur.

Ölkələr arasında idman və turist mübadiləsi həmin ölkələrin qarşılıqlı münasibətlərindən, xüsusilə də siyasi və iqtisadi münasibətlərindən çox asılıdır. Normal diplomatik münasibətlər, idman və turizm sahəsində saziş və müqavilələrin olması, kommunikasiya və nəqliyyat vasitələrindən birgə istifadə, turist reklamı mübadiləsi və s. ölkələr arasında turist axınının və idman əlaqələrinin güclənməsinə səbəb olur. Məhz buna görə də Azərbaycan Respublikasının Avropa, Rusiya və digər MDB ölkələri, Türkiyə, İran, Pakistan, Çin və ərəb ölkələri ilə idman və turizm əlaqələri tarixinin seçdiyimiz zaman kəsiyində də öyrənilməsi son dərəcə elmi və böyük əməli-siyasi əhəmiyyət kəsb edir.

Araşdırdığımız mövzunun xronoloji çərçivəsi 1991-ci ildən 2005-ci ilədək olan dövrü əhatə edir. Əsərdə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyası prosesinin başlanmasından onun regionda və dünyada real siyasi və iqtisadi qüvvəyə çevrilməsinə qədər keçdiyi yol ardıcıl şəkildə göstərilmişdir. Bu çərçivə təkcə idman və turizm sahəsində deyil, digər sahələrdə də Azərbaycan Respublikasının yeni inkişaf mərhələsinə daxil olması ilə nəticələnən

tarixi hadisələrin gedişini izləməyə imkan verir. 1991-2005-ci illər, həqiqətən də, Azərbaycan Respublikası üçün qəti dəyişikliklər dövrü oldu. Azərbaycan Respublikası başqa sahələrlə yanaşı idman və turizmdə də regional və beynəlxalq əlaqələrini inkişaf etdirdi. 1997-ci ildə İ.H.Əliyevin MOK-a prezident seçilməsi Olimpiya Hərəkatının ölkəmizdə yeni bir vüsət almasına təkan verdi.

Qeyd etmək lazımdır ki, indiyədək idman və turizm əlaqələri sahəsində Azərbaycan Respublikasının fəaliyyətini bütövlükdə əhatə edən xüsusi kitab yazılmamışdı. Doğrudur, bəzi müəlliflər öz monoqrafiyalarında və dərs vəsaiti kimi nəşr olunmuş əsərlərində Azərbaycan Respublikasının idman və turizm əlaqələrini işıqlandırmaq baxımından müəyyən cəhdlər göstərmiş və qüvvə sərf etmişlər. Onlar bu məsələyə başqa aspektlərdən yanaşsalar da, həmin əsərlərdə qiymətli faktoloji materiallar verilmişdi. Bu əsərlər arasında idman tarixi üzrə A.Abiyev və D.Quliyevin "Helsinkidən başlayan yol..." (bu kitabda idmançılarımızın ilk təmsil olunduğu 1952-ci il olimpiya oyunlarından 2000-ci il Sidney oyunlarına qədərki tarixdən və zəhmət, əzm hesabına qazanılan uğurlardan bəhs olunur), A.Əliyev və D.Quliyevin "Bədən tərbiyəsi və idman tarixi" (bu dərslikdə yuxarıda qeyd olunan kitablardan fərqli olaraq dünyada bədən tərbiyəsi və idmanın tarixindən, həmçinin ölkəmizdə bu sahənin inkişafından bəhs olunur), A.Əliyev və N.Əsgərovanın "Müstəqil Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi (1991-2006)" (müstəqillik illərində Azərbaycan Respublikasında idmanın inkişafından və bu sahəyə dövlətin qayğısından bəhs olunur), E.Acalov, Ş.Əzizova və V.Əkbərovun "Bədən tərbiyəsi və idman tarixi" (bu əsərdə də ümumdünya və Azərbaycan idmanının inkişafı tarixinə toxunulur), D.Quliyev və A.Səfərovanın "Azərbaycan idmanının dünəni və bu günü" (kitab ölkə idmanının keçdiyi şərəfli idman tarixindən bəhs edir), D.Quliyevin "Azərbaycan idmançıları olimpiya oyunlarında (1952-2008)" (adından da göründüyü kimi, ölkəmizin idmançılarının SSRİ tərkibində

və müstəqillik illərində olimpiya oyunlarında iştirakından bəhs edilir), "Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısı (1970-2000)" (Heydər Əliyevin Azərbaycan idmançılarına göstərdiyi diqqət və qayğı, idman sahəsində onun apardığı siyasət öz əksini tapmışdır), "Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi 1900-2000" (düz bir əsr ərzində ölkəmizdə idmanın inkişaf tarixindən və idmançılarımızın olimpiya oyunlarındakı uğurlarından bəhs edilir) və digər əsərləri qeyd etmək lazımdır. Turizm sahəsində isə ilk növbədə C.Məmmədov, H.Soltanova və S.Rəhimovun "Beynəlxalq turizmin coğrafiyası" (turizmin yaranması tarixindən və beynəlxalq turizmdən bəhs olunur), İ.Hüseynov və N.Əfəndiyevanın "Turizmin əsasları" (turizmin bir elm kimi müxtəlif sahələrindən söhbət açılır), S.H.Rəhimovun "Turizm ekskursiya işinin təşkili" (turizm nəzəriyyəsinin əsaslarından, turizmin dünyada və ölkəmizdə inkişaf tarixindən, əhəmiyyətindən, statistikasından, bazarından, beynəlxalq turizm təşkilatlarından bəhs edilir), B.Ə.Bilalovun "Turizm fəaliyyətinin tənzimlənməsi" (turizmlə bağlı beynəlxalq konvensiyalar, müqavilələr təhlil edilir, beynəlxalq və milli turizm təşkilatlarının fəaliyyəti araşdırılır, beynəlxalq hüquq nöqteyi-nəzərindən turizm səfərlərinin müxtəlif aspektləri işıqlandırılır, bu sahənin hüquqi bazası, sahibkarlıq fəaliyyəti və s. şərh edilir), S.T.Yeqanlı, E.M.Hacıyevin "Turizm" (turizmin tarixi, coğrafiyası, inkişaf siyasəti və s. bəhs edilir) adlı dərs vəsaitlərini, C.Məmmədovun və B.Bilalovun "Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları" (bu monoqrafiyada dünya miqyasında turizmin hazırkı vəziyyətindən, ölkəmizdə gəlmə turizmin problemlərindən və Azərbaycanda mövcud olan turist marşrutlarından danışılır), V.Zeynallının "Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarə olunmasının iqtisadi-coğrafi problemləri", A.Əhmədov, E.Hacıyev və Z.Zamanovun rus dilində qələmə aldıqları "Beynəlxalq turizm" (beynəlxalq turizmin dünyadakı müasir vəziyyətindən bəhs edilir), S.Yeqanlı və E.Hacıyevin yenə rusca yazdıqları "Beynəlxalq turizm və Azərbaycan Respub-

likasında turizmin inkişafı" (monoqrafiyada beynəlxalq turizmdən və Azərbaycanda turizmin inkişafından, turizmin maliyyələşdirilməsindən, investisiyaların qoyulmasından və s. bəhs edilir), F.İ.Qurbanovun "Azərbaycanda turizmin inkişaf problemləri" (monoqrafiyada turizmin nəzəri məsələləri, dünya turizminin təcrübəsi və Azərbaycanda turizmin inkişaf problemləri nəzərdən keçirilmişdir), Ə.Əlirzayev, S.Aslanovanın "Turizmin inkişafının sosial iqtisadi problemləri (kitabda ölkəmizdə turizmin inkişafının sosial-iqtisadi rolu araşdırılır) adlı monoqrafiyalarını və V.Dərgahovun "Azərbaycanın Xəzərsahili bölgəsinin rekreasiya-turizm ehtiyatları" (əsərdə ölkəmizin dənizsahili bölgələrində turizmin imkanlarından və inkişaf perspektivlərindən bəhs edilir) mövzusundakı dissertasiyasını göstərmək olar. Bu əsərlər turizm və idman sahəsində artan elmi-pedaqoji tələbatı ödəmək məqsədilə, Azərbaycanda turizmin inkişaf etdirilməsinin dövlətimiz üçün çox vacib olduğu faktı əsas tutularaq yazılmışdır. Həmin əsərlərdəki nəzəri məsələlər, ən başlıcası isə praktiki tövsiyələr bizim monoqrafiyada nəzərə alınmışdır.

Lakin adlarından da göründüyü kimi, bu əsərlərin heç biri araşdırdığımız problemi bizim seçdiyimiz xronoloji çərçivədə tədqiq etməmişdir (bu, heç onların qarşılarına qoyduqları elmi, pedaqoji, publisistik vəzifələrə də aid deyildi). Məhz elə bu vəziyyət də adı çəkilən zaman kəsiyində həmin problemin öyrənilməsini şərtləndirmişdir.

Bu monoqrafiyanın qaynaq bazasını təşkil edən mənbələri biz şərti olaraq dörd qrupa ayırırıq. Birinci qrupu Gənclər, İdman və Turizm Nazirliyinin, Turizm Baş İdarəsinin, Milli Olimpiya Komitəsinin, Dövlət Statistika Komitəsinin sənədləri, Beynəlxalq Olimpiya Komitəsinin və Beynəlxalq Turizm Təşkilatının hesabat materialları təşkil edir.

İkinci qrup Azərbaycan Respublikasının idman və turizm sahəsində bağlamış olduğu saziş və müqavilələrdən, həmçinin iqtisadi, elmi-texniki, mədəni əməkdaşlıq üzrə komissiyaların iclaslarının sənədlərindən, idman və turizm sahəsində ölkə-

lərarası əlaqələrə dair hesabatlardan ibarətdir.

Əsərdə təhlil edilən mənbələrin üçüncü qrupuna dövlətimizin idman və turizmə göstərdiyi qayğını əks etdirən qanunlar, idman və turizmin inkişafına dair dövlət proqramları, hər il Bakıda təşkil olunan Azərbaycan Beynəlxalq Turizm Sərgisinin materialları daxildir.

Mənbələrin dördüncü qrupunu kütləvi informasiya vasitələrində dərc olunmuş sənədlər və materiallar təşkil edir. Bunlar əsasən "İdman", "Olimpiya dünyası", "Turizm yenilikləri", "WTO news", "Azərbaycan", "Xalq" qəzetləri və «Панорама Азербайджана», "Olimpiya" jurnallarında dərc olunmuş yazılardır.

Onu da qeyd edək ki, adı çəkilmiş qaynaqların materiallarının bir hissəsi müvafiq idarə və təşkilatların cari arxivlərindən əldə olunmuşdur.

Bu monoqrafiyada 1991-ci ildən 2005-ci ilədək olan dövrdə Azərbaycan Respublikasında idman və turizmin vəziyyətini, onun bu sahədəki beynəlxalq əlaqələrini, bu istiqamətdə müxtəlif dövlətlərlə bağladığı müqavilələr və onların yerinə yetirilməsini, Olimpiya oyunlarında, turizm sərgilərində iştirakının əhəmiyyətli nəticələrini təhlil etmək məqsədi qarşıya qoyulmuşdu. Bu əsas elmi məqsədə nail olmaq üçün monoqrafiyada aşağıdakı konkret vəzifələri həll etmək cəhdi göstərilmişdir:

– Azərbaycanda idman və turizm sahəsində əldə olunan nailiyyətlərin ötəri xarakter daşımadığını vurğulamaq, idman və turizmin inkişaf etdirilməsinin son dərəcə zəruri olduğunu əsaslandırmaq;

– Müasir dünyada idman və turizm əlaqələrinin qarşılıqlı surətdə faydalı olmasının üstünlüyünü göstərmək;

– Ölkəmizin idman və turizm potensialının dünyaya tanıtdırması prosesini izləmək, dövlətin idman və turizm sahəsində yürütdüyü siyasətin bu sahəyə təsiri məsələlərini, Azərbaycanın beynəlxalq idman və turizm əlaqələrinin xarakterini tədqiq etmək, terrorizm və separatizmlə üzləşən Azərbaycanın idman və

turizm sahəsində uğurlu əlaqələrinin genişlənməsi prosesində ideoloji amilin rolunu əməli şəkildə qiymətləndirmək;

– İdman və turizm əlaqələri sistemində Azərbaycan Respublikasının formalaşan nüfuzunu səciyyələndirmək, onun Beynəlxalq Olimpiya Hərəkatına qoşulmasının və uğurlu iştirakının ölkəmizin tanınmasında müstəsna əhəmiyyətini təsdiq etmək;

– Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsinin iqtisadi əhəmiyyətini göstərmək;

– Ölkəmizin idman, turizm və Olimpiya Oyunlarındakı uğurlarını təhlil edib, qiymətləndirmək;

– Azərbaycan Respublikasının beynəlxalq turizm sahəsində yürütdüyü rəsmi siyasətin xüsusiyyətlərini, bu siyasi xəttin əməli, siyasi-iqtisadi əhəmiyyətini açıb göstərmək;

Monoqrafiyanın metodoloji əsasını elmi tarixilik metodu təşkil edir. Problemə belə yanaşma Azərbaycan dövlətinin idman və turizm sahəsində yeritdiyi siyasəti obyektiv mövqedən təhlil etməyə imkan verir. İdman və turizm sahəsində bağlanmış bəzi dövlətlərarası saziş və müqavilələrin bəndlərinin yerinə yetirilməməsi monoqrafiyada öz əsaslı tənqidini tapmışdır.

Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasında idman və turizmin inkişafına dair dövlət proqramları tədqiqatın metodoloji bazasının təməlini təşkil edir. Bu sənədlərdə idman və turizmin yüksək inkişaf səviyyəsinə qaldırılması məsələsi daha aydın şəkildə öz əksini tapmışdır.

Apardığımız araşdırmalar nəticəsində əldə etdiyimiz elmi yenilik ondan ibarətdir ki, burada Azərbaycan Respublikasının idman və turizm əlaqələrinin həm nəzəri əsasları təhlil edilmiş, həm də ilk dəfə olaraq bu problemə ümumiləşdirilmiş şəkildə diqqət yetirilmiş, eyni zamanda, idman və turizm əlaqələrində fəaliyyətin tənqidi təhlili verilmişdir.

Azərbaycan Respublikasında idman və turizmin, xüsusilə idmanın inkişafına və Olimpiya Hərəkatının genişlənməsinə dair xeyli əsərlər yazılmışdır. Lakin indiyədək tarixi baxımdan çox qısa, qazanılan nailiyyətlər baxımından isə çox parlaq olan bu

dövrə dair xüsusi elmi araşdırma aparılmamışdır.

Bu monoqrafiya Azərbaycan Respublikasının idman və turizm sahəsində əlaqələrinin elmi üslubda araşdırılmasına yönəldilmişdir. Müxtəlif ölkə və təşkilatlarla bağlanmış müqavilələrin, sazişlərin və uyğun olaraq hökumətlərarası komissiyaların idman və turizm sahəsində gördüyü işlərin nəticələri bu monoqrafiyada ətraflı şəkildə nəzərdən keçirilib qiymətləndirilmişdir.

Monoqrafiyanın əsas müddəa və nəticələrindən Azərbaycan tarixinə dair tədqiqatların yazılmasında, elmi-pedaqoji fəaliyyətdə, yəni beynəlxalq əlaqələr tarixi və nəzəriyyəsi, Vətən tarixi və regionşünaslıq ixtisasları üzrə bakalavr və magistr pilləsində kadrların hazırlanmasında, habelə Azərbaycan diplomatlarının praktiki fəaliyyətlərində istifadə oluna bilər.

Eyni zamanda, monoqrafiyanın yekun hissəsində şərh edilən məsələ və problemlərdən parlament deputatlarının qanunyaradıcılığı fəaliyyətində də istifadə oluna bilər.

# I FƏSİL

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA İDMANIN VƏZİYYƏTİ VƏ RESPUBLİKANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNDƏ ONUN YERİ

## §1. Azərbaycan Respublikasında idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi

Tarixi məxəzlər inandırıcı şəkildə sübut edir ki, Azərbaycan qədim və zəngin idman ənənələrinə malik olan ölkədir və uzaq keçmişdən etibarən burada idmanın müxtəlif növləri inkişaf etmişdir. Müxtəlif dövrlərdə idmançılarımız bir sıra yarışlarda uğurlu nəticələr əldə etmiş, ölkəmizin şərəfli idman tarixinə öz adlarını yazmışlar [157, s.60-108, 165-182]. Ədalət naminə qeyd etmək lazımdır ki, məhz sovet dövründə Şimali Azərbaycan idmanı yüksək inkişaf mərhələsi keçmişdir [140, s.25-30]. Lakin məsələ burasındadır ki, sovet dövründə idman siyasətinin müəyyənləşdirilməsi, idmana qayğı göstərilməsi, idmanı yüksəltmək və təbliğ etmək kimi məsələlər bilavasitə Moskvadan ümumittifaq səviyyəsində həll olunurdu. Belə mövqe respublikamızda bədən tərbiyəsi və idmanın ardıcıl, planlı və məqsədyönlü şəkildə inkişafına mane olur, Azərbaycan SSR-də yeni idmançılar nəslinin müntəzəm yetişdirilməsinə, maddi-texniki bazanın arzuolunan səviyyədə möhkəmləndirilməsinə imkan vermirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası suveren ölkənin beynəlxalq aləmə inteqrasiyasına, beynəlxalq təşkilatlarda təmsil olunmasına, həmin təşkilatların keçirdiyi mötəbər tədbirlərdə iştirakına real hüquqi əsaslar verdi və geniş imkanlar yaratdı [116, s.5-6]. Ölkəmiz bütün sahələrdə, o cümlədən idman sahəsində də beynəlxalq aləmə çıxmaq imkanı qazandı. İdmançılarımız dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda öz milli dövlətimizin bayrağı altında çıxış etməyə başladılar. Milli turizm sənayesi planlı turist göndərişi və qəbulundan qurtararaq, müharibə və sosial-iqtisadi çətinliklərə baxmayaraq, möhkəm zəmin üzərində ayağa durmaq üçün yollar axtarmağa başladı.

Ümummilli lider H.Ə.Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı ilə Azərbaycan Respublikası öz tarixinin, bərpa edilmiş müstəqilliyinin yeni, sabit dövrünə qədəm qoydu. Bütün sahələrdə olduğu kimi, idman və turizm sahəsində də böyük irəliləyiş, dünya miqyasında respublikamızın tanınması və uğurla təmsil olunması başlandı [140, s.247-256; 5]. Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında idmançılarımızın qələbələri xalqda milli mənlik və qürur hissini gücləndirdi [138, s.149]. Lakin təəssüflə qeyd etmək lazımdır ki, işğal olunmuş ərazilərimizdə sovet dövründən qalmış minlərlə idman qurğuları, turizm obyektləri, bir sözlə, idmanın və turizmin maddi-texniki bazası erməni faşistləri tərəfindən talanmış və tamamilə məhv edilmişdi. Bu faktlar 1994-cü il aprelin 18-də Beynəlxalq Olimpiya Komitəsinin (BOK) o vaxtkı rəhbəri X.A.Samarançın, onu müşayiət edən Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti J.Roqqun və Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) prezidenti M.V.Rananın ölkəmizə səfəri zamanı da qaldırılmışdı [138, s.75-77]. Ümummilli liderimiz H.Ə.Əliyev dövlətin bu sahədə gördüyü və görəcəyi işlər barədə qonaqlara məlumat verməklə yanaşı, BOK prezidentinin diqqətini erməni təcavüzü və işğal altında olan ərazilərdəki idman qurğularının məhv olunmasına cəlb etmişdi. Qeyd etmək lazımdır ki, Erməni-

stanın işğalçılıq siyasəti və bununla bağlı faktlar sonralar da dəfələrlə beynəlxalq idman təşkilatlarının diqqətinə çatdırılmışdır.

1994-cü il iyulun 26-da dövlətin gənclərlə iş və idman sahəsində siyasətinin xüsusi əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan dövlətinin tarixində ilk dəfə Gənclər və İdman Nazirliyi yaradılmışdır [93, s.3, 32]. Bundan azacıq sonra qədim Naxçıvan torpağında da gənclərlə iş və idman istiqamətində yeni siyasətin formalaşdırılması məqsədilə 1995-ci ildə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi fəaliyyətə başlamışdır. Bu nazirlik Azərbaycan Gənclər və İdman Nazirliyinin bütün tapşırıq və təkliflərini ardıcıl həyata keçirmiş, həmçinin İran və Türkiyənin müvafiq qurumları ilə münasibətlər qurmuşdur [93, s.43, 45]. Bütün bunlar müharibə və işğala baxmayaraq, 1994-2005-ci illərdə dövlətimizin idmana əsaslı diqqət və qayğısının bariz nümunəsi, idmanın maddi-texniki bazasının gücləndirilməsinə yönəldilmiş siyasətin əməli təzahürü idi [138, s.119-121]. Nəticədə hər şəhərdə, rayonda, qəsəbədə idman qurğuları istifadəyə verilmişdir. Bu illər ərzində respublika hökumətinin böyük səyi, diqqəti və qayğısı sayəsində idmanın maddi-texniki bazasının genişləndirilməsinə, bədən tərbiyəsi və idmanın kütləviliyinin yüksəlməsinə və inkişafına geniş imkanlar yaranmışdır [127, s.174-177; 141, III c., s.127-131; IV c., s.466-473]. Məhz bunun nəticəsində müəyyən fasilədən sonra 1994-cü ildən başlayaraq, Azərbaycan idmançıları rəsmi beynəlxalq yarışlarda 12 qızıl, 15 gümüş və 22 bürünc medal əldə etmişdilər [138, s.29]. Prezident H.Əliyev yuxarıda qeyd edilən bütün bu tədbirlərin həyata keçirilməsini təmin etmək, sürətləndirmək məqsədilə 1995-ci il martın 5-də verdiyi fərmanla respublikamızda xüsusi idman fondu yaratmışdır [103, s.40]. İdman fondunun olması ölkəmizdə sağlam həyat tərzinin təbliğ edilməsinə, uşaq və yeniyetmələrin kütləvi surətdə idmana cəlb edilməsinə, bu sahəyə marağın artmasına, müvafiq maddi-texniki bazanın möhkəmləndirilməsinə, respublika idmanının beynəlxalq idman ailəsinə inteqrasiya olunmasına təminat vermişdir. İdmanın inkişafı üçün Prezident Fon-

dundan xeyli əsaslı vəsait də ayrılmışdı. Dövlətin idmana göstərdiyi qayğısı sayəsində 1995-2005-ci illərdə idmançılarımız rəsmi yarışlardan ölkəmizə 572 qızıl, 453 gümüş, 636 bürünc, ümumilikdə, 1661 medal gətirərək neçə-neçə mötəbər yarışlarda bayrağımızı uca zirvələrə qaldırmışdılar [96, s.85].

23 dekabr 1995-ci ildə Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər Çoudrinin Azərbaycana səfəri zamanı mərhum prezident H.Ə.Əliyev tərəfindən beynəlxalq idman federasiyasının dünyada yeganə müsəlman rəhbəri cənab Ənvər Çoudrinin şərəfinə Bakıda ənənəvi beynəlxalq boks turnirinin keçirilməsi təklif edilmiş və bu turnir qısa müddətdə ənənəvi yarış halını alaraq, dünyada ən nüfuzlu boks turnirlərindən birinə çevrilmişdir [138, s.78]. Fevral 1995-ci ildə prezident H.Ə.Əliyev "1996-cı ildə Atlantada keçiriləcək XXVI Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" sərəncam imzalamış, sərəncama əsasən Atlanta Olimpiadasına hazırlıqla bağlı xüsusi təşkilat komitəsi yaradılmış və dövlət bu oyunlarla bağlı bütün problemlərin həllini öz üzərinə götürmüşdür [138, s.33]. 1996-cı ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Atlantada 197 ölkənin 10788 idmançısının iştirak etdiyi Olimpiya Oyunlarına qatılaraq 23 idmançı ilə təmsil olunmuşdur [81, s.53-61]. Nəticədə, Atlantada sərbəst güləşçimiz N.Abdullayev müstəqil dövlətimizə ilk gümüş Olimpiya medalını qazandırmışdır. Ümumən ölkəmiz 1996-cı ildə ayrı-ayrı idman növləri üzrə 80-dən çox turnirdə təmsil olunmuşdur. Bu uğurlar ilk növbədə ölkəmizin fəal idman siyasətinin əməli nəticəsi idi [141, IV c., s.466-473]. Həmin dövrdə dövlətin idman siyasəti yeni idman məktəblərinin açılmasını, köhnəlmiş idman qurğularının bərpasını, yeni idman obyektlərinin tikilib istifadəyə verilməsini, olimpiya idman növləri ilə yanaşı, qeyri-olimpiya, o cümlədən zehni bacarıq, istedad tələb edən idman növlərinin də tərəqqisinə xüsusi diqqət yetirilməsinə yönəldilmişdi. 1991-2005-ci illərdə ölkəmizdə mövcud olan idman qurğuları, stadionlar, bunlardakı tribunaların sayı, üzgüçülük hovuzları, kompleks idman qurğuları, atıcılıq tirləri

və bu qurğularda bədən tərbiyəsi ilə məşğul olanların sayına diqqət yetirməklə dövlətin idman siyasətinin müsbət nəticələrini görmək mümkündür [190, s.125-173; 96, s.85].

Elə 1997-ci il də ölkəmizin idman aləmi üçün xüsusilə əlamətdar olmuşdur. Prezident H.Ə.Əliyevin 1 fevral 1997-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında dövlət quruculuğu sahəsində gənclərin müstəsna rolu və 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunun keçirilməsi nəzərə alınaraq fevralın 2-ni Azərbaycanda gənclər günü elan etmişdi [93, s.3]. Sonra isə ölkəmizdə ilk dəfə olaraq 23 dekabr 1997-ci ildə bütün idman mütəxəssislərinin, idman təşkilatlarının gözlədiyi "Bədən tərbiyəsi və idman haqqında" qanun qəbul edilmişdir [127, s.165; 157, s.211-218]. Yenə həmin ildə milli idman tariximizdə özünəməxsus yer tutan daha bir hadisə baş vermiş – Milli Olimpiya Komitəsinin hesabat-seçki konfransı keçirilmiş və burada İ.H.Əliyev bu komitənin prezidenti olmaqla, MOK-un yeni rəhbərliyi seçilmişdi. Bu, ölkəmizdə idmanın inkişafına güclü təkan vermişdir. İ.H.Əliyevin başçılığı ilə idman nümayəndə heyətlərimizin 1997-ci ildən sonrakı dövrdə Beynəlxalq və Avropa Olimpiya Komitələrinin iclaslarında fəal iştirakı və onun bu qurumların rəhbərləri ilə keçirdiyi görüşlər ölkəmizin dünya olimpiya hərəkatına fəal şəkildə qoşulmasını nümayiş etdirir və ölkəmizin dünya dövlətləri arasında nüfuzunun artmasında mühüm rol oynayır. 1998-ci ildə Azərbaycan Respublikasının beynəlxalq olimpiya hərəkatı yoluna qədəm qoyması idman əlaqələrimizin genişlənməsi sahəsində müstəsna rol oynamışdır. Ölkəmizdə idmanın və Olimpiya hərəkatının durmadan yüksəlməsi naminə görülən tədbirlərin məntiqi nəticəsi olaraq 1998-ci ildə Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında (QOO) dünyanın 67 ölkəsinin cərgəsində ilk dəfə bizim də nümayəndə heyətimiz iştirak etmişdir [90]. Naqano QOO-da respublikamız beş idmançı ilə təmsil olunmuşdu. Əsas prinsipi bu yarışlara qatılmaq olan ölkəmiz öz adının QOO-nun iştirakçı dövlətləri sırasında tarixə

yazılmasına nail olmuş və 18 gün üçrəngli bayrağımız Naqanoda dalğalanmışdı [128, s.105]. 1998-ci ildə Azərbaycan Respublikası idman lobbisinin beynəlxalq təşkilatlarda nüfuzu hissediləcək şəkildə artmışdı. Azərbaycan Respublikası MOK-nun yüksək vəzifəli nümayəndələri AOK-un Olimpiya Oyunlarına hazırlıq və texniki əməkdaşlıq komissiyalarına üzv seçilmişdilər. Azərbaycan Respublikası beynəlxalq yarışların keçirilməsi üçün yüksək səviyyəli şərait yaratmağa qadir olan ölkə kimi tanınmağa başlanmışdı. Daha sonra, yəni 28 dekabr 1998-ci ildə "Bədən tərbiyəsi və idman haqqında" qanunun tətbiq edilməsi barədə prezident fərmanı verilmişdi [127, s.165]. Bu qanun ölkəmizdə idmanın inkişafının hüquqi bazasının təməli olmuş, nəticədə, 1999-cu ildə dünyanın müxtəlif ölkələrində keçirilmiş 179 beynəlxalq yarışda Azərbaycan Respublikasının 1200 nəfər idmançısı iştirak etmişdi [138, s.31-73]. Ümumilikdə, 1999-cu il idmançılarımızın əldə etdikləri nailiyyətlərin artması baxımından daha əlamətdar olmuşdu. Həmin il yeniyetmələr arasında boks üzrə Avropa çempionatı ilə əlaqədar olaraq Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Bakıya gəlmiş və Azərbaycan boksunun inkişaf etdiyini, Avropada qabaqcıl sıralara çıxdığını bildirmişdi.

Şimali Azərbaycanda idmanın inkişafı, onun maddi-texniki bazasının gücləndirilməsi, dünya standartlarına cavab verən qurğuların tikilməsi, idmanla məşğul olanların sayının artması suveren Azərbaycan Respublikasının inkişafının hazırkı mərhələsində ümumbəşəri dəyərlərin tərkib hissəsi kimi bədən tərbiyəsi və idmana mühüm yer verildiyinin, bədən tərbiyəsi və idman hərəkatına dövlətin başlıca prioritetlərindən biri kimi baxıldığının sübutudur. Yuxarıda qeyd etdiyimiz "Bədən tərbiyəsi və idman haqqında" qanun, 3 fevral 2000-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Bədən tərbiyəsi və idmanın inkişafına dair dövlət proqramı" ölkə vətəndaşlarının bədən tərbiyəsi və idmanla məşğul olmaq hüquqlarını qorumuş və Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sisteminin fəaliyyəti və in-

kişafı üçün hüquqi zəmin yaratmışdı. Bu istiqamətdə görülən işlərin nəticəsi olaraq, 2000-ci ildə idmançılarımız Sidney olimpiadasında 2 qızıl, 1 bürünc medal qazanaraq, 199 ölkə arasında 34-cü yerə çıxmışdır [81, s.62-86]. Sidney olimpiadasından az sonra, 18-20 oktyabr 2000-ci ildə XI paraolimpiya oyunlarında idmançılarımız 1 qızıl, 1 gümüş medal qazanmış və bu qələbələrin ölkəmizdə idman proqramının həyata keçirilməsinin nəticəsi olduğunu sübut etmişlər. Azərbaycan Respublikası MOK-nun hərtərəfli fəaliyyəti nəticəsində ölkəmizin BOK, AOK və digər beynəlxalq idman qurumları ilə əlaqələri inkişaf etmişdir. İdman əlaqələrini daha da möhkəmləndirmək məqsədilə 21 oktyabr 2000-ci ildə H.Ə.Əliyev BOK-un və AOK-un prezidentlərini qəbul etmişdi. Təbii ki, AOK-un 2000-ci il noyabrın 16-dan 19-na kimi Varşavada keçirilən 29-cu Baş Assambleyasında Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin 2001-ci ildəki ilk iclasını aprelin 6-da Bakıda keçirmək haqqında qərar qəbul etməsi ölkəmizin dünya idman əlaqələri sistemində layiqli yer tutmasının göstəricisi idi. Ümumiyyətlə, Azərbaycan Respublikası MOK-nun fəaliyyəti beynəlxalq idman qurumları tərəfindən dəstəklənmiş, BOK-un ən yüksək qiymətinə layiq görülmüşdü. Ölkəmizdə idmana qayğı günü-gündən güclənirdi. 2001-ci il martın 26-da MOK-un yeni inzibati binasının tikintisi başa çatdırılmışdı. İdman uğurlarını davamlı etmək üçün respublikanın müxtəlif bölgələrində dünya standartlarına uyğun olimpiya idman kompleksləri tikilib istifadəyə verilmişdi [138, s.43-87]. İlk dəfə olaraq Bakıda keçirilən Avropa top komandaları kubokunun final yarışlarında komanda idman növlərində Azərbaycanın qadın voleybolçuları “Azərreyl” komandası Avropa miqyasında böyük uğur əldə edərək, Avropa qadın voleybol komandaları arasında top komanda kubokunu qazanmışdı. Yenə də idman əlaqələrinin genişlənməsi sahəsində 2002-ci ilin mayında Bakıda yaşlılar arasında sərbəst güləş üzrə 45-ci Avropa çempionatı keçirilmişdi.

2002-ci ilin fevralında Azərbaycan Respublikasının idman-

çıları ikinci dəfə ABŞ-ın Solt Leyk Siti şəhərində keçirilmiş XIX Qış Olimpiya Oyunlarında iştirak etmişdilər [128, s.111-113]. 78 dəst medal uğrunda 77 ölkənin 2523 idmançısının mübarizə apardığı bu yarışlarda ölkəmiz iki idman növü ilə təmsil olunmuşdu. Fiqurlu konkisürmənin idman rəqsləri yarışlarında iştirak edən Azərbaycan idmançıları 32 ölkənin nümayəndələri arasında 17-ci yeri tutmuşdular. QOO-da çox gənc olan ölkəmiz üçün bu, uğurlu bir nəticə idi.

İdmanın maddi-texniki bazasını inkişaf etdirməyi qarşısına məqsəd qoyan Azərbaycan Respublikası MOK-u Naxçıvanda da iki zaldan ibarət universal idman kompleksinin inşasını muxtar respublikanın blokadada olmasına baxmayaraq, qısa müddətdə, yəni 15 iyun 2002-ci ildə başa çatdırmışdı. Həmçinin Bakıda taekvondo, stend atıcılığı və yelkənli qayıqsürmə idman növlərinin inkişafına real imkanlar açan taekvondo mərkəzinin, stend atıcılığı üzrə idman kompleksinin və yaxtklubun açılmasını da çox yüksək qiymətləndirmək lazımdır [138, s.103,105,106]. Eyni zamanda, hələ sovet dövründən qalmış İdman-Konsert Kompleksi, T.Bəhramov adına Respublika Stadionu, Bakı İdman Sarayı, Respublika Velotreki müasir standartlara cavab verəcək səviyyədə yenidən təmir olunmuşdu [138, s.109-112]. Azərbaycan Respublikası MOK-u ölkədə idman sahəsində gördüyü işlərin uğurlu nəticələrinə əsaslanaraq, 11 oktyabr 2002-ci ildə bu təşkilatın yaradılmasının onillik yubileyini təntənə ilə qeyd etmişdi [103, s.5-6].

Yuxarıdakı faktlardan göründüyü kimi, respublikamızda idmanın maddi-texniki bazası dövlətin qayğısı, idmana rəhbərlik edənlərin bacarığı sayəsində daim möhkəmləndirilmiş, idman əlaqələri inkişaf etmiş və genişlənmişdi. Nəticədə, idmanın müxtəlif növlərində idmançılarımız beynəlxalq yarışlarda möhtəşəm qələbələr qazanmış, Azərbaycan Respublikası idmanın inkişaf səviyyəsinə görə dünyada qabaqcıl ölkələrdən birinə çevrilmişdi. Beləliklə, baş verən siyasi və iqtisadi sabitlik, bütün sahələrdə əlaqələrin genişlənməsi ölkənin beynəlxalq aləmə inteq-

rasiyasında mühüm rol oynamış və nəticədə beynəlxalq idman qurumları bir çox mötəbər idman yarışlarının, Avropa və dünya çempionatlarının ölkəmizdə təşkilinə razılıq vermişlər. 2003-2005-ci illərdə Azərbaycan Respublikasında yüksək təşkilatçılıqla keçirilən belə yarışların sayı və miqyası ildən-ilə genişlənmişdi. Bu tədbirlərin sayının çoxalmasını isə bu sahədə beynəlxalq əlaqələrin genişlənməsi kimi qəbul etmək lazımdır.

Sonda, onu da xüsusi qeyd etmək istəyirik ki, mötəbər beynəlxalq yarışlarda iştirak, ölkəmizin özündə də belə yarışların təşkili təkcə sərt idman mahiyyətli və əhəmiyyətli tədbirlər deyildi. Respublikamızın rəhbərliyi belə yarışlarda iştirakla xalqımızın və dövlətimizin çağdaş dövrdə yaşadığı problemlər haqqında beynəlxalq ictimaiyyətə obyektiv məlumat vermək üçün bu idman forumlarının imkanlarından geniş istifadə edirdilər.

## §2. Azərbaycan Respublikasının beynəlxalq idman əlaqələri

Ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yenidən beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu subyektinə çevrilmiş, ikitərəfli və çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaranmışdı. Dünya dövlətlərinin böyük əksəriyyəti ilə diplomatik əlaqələr quran Azərbaycan Respublikası artıq BMT və ATƏT başda olmaqla, nüfuzlu beynəlxalq və regional təşkilatlarda layiqincə təmsil olunur. Xarici siyasətdə dövlətin götürdüyü kursun idman sahəsində davam etdirilməsinə cavabdeh olan Gənclər, İdman və Turizm Nazirliyi də özünün beynəlxalq əlaqələrini ardıcıl inkişaf etdirmişdir. Çağdaş dövrdə bu işi həyata keçirmək üçün BMT, o cümlədən UNESCO, Avropa Şurası, Avropa Birliyi, Avropa Gənclər Forumu, Avropa İdman Konfransı, BOK, ÜTT və s. beynəlxalq təşkilatların proqramlarına qoşulmaq, xarici ölkələrin, xüsusən MDB ölkələrinin müvafiq

qurumları ilə birbaşa əlaqələr yaratmaq əsas vəzifələrdən biri olmuşdur [5]. UNESCO-nun Dövlətlərarası Bədən Tərbiyəsi və İdman Komitəsinin 20-21 oktyabr 1998-ci ildə Parisdə keçirilən 2-ci və 30 noyabr-3 dekabr 1999-cu ildə Uruqvayın Punta del-Este şəhərində keçirilən 3-cü müşavirələrində Azərbaycan Respublikası İdman nazirinin müavini iştirak etmişdi.

Qeyd etmək lazımdır ki, dopinqə qarşı mübarizə məsələləri hazırda dünyanı narahat edən ciddi məsələlərdən biridir. Buna görə də BMT və Avropa Şurası kimi siyasi təşkilatlar da bu problemin həllinə ciddi diqqət yetirirlər. Azərbaycan Respublikası da bu problemə ciddi əhəmiyyət verdiyindən 3-5 mart 2003-cü ildə Kopenhagendə keçirilən idmanda dopinq üzrə ümumdünya konfransında təmsil olunmuşdu. Yenə də 9-10 yanvar 2003-cü ildə Parisdə UNESCO tərəfindən bədən tərbiyəsi və idman məsələlərinə dair keçirilən dairəvi masada nazir Ə.Qarayev yaxından iştirak etmişdi.

Ölkəmizin Avropa dövlətləri ilə əlaqələrinin dərinləşməsi və inkişaf etdirilməsi Azərbaycan Respublikasının Avropa qurumlarında iştirakına əlverişli şərait yaratmışdı. Bu təşkilatların arasında Avropa Şurası (AŞ), ATƏT, Avropa Birliyi (AB) mühüm yer tutur və ölkəmizin bu təşkilatlarla əlaqələri müstəqillik qazandığımız ilk illərdən başlayır (1996-cı ildən AŞ ilə Azərbaycan Respublikası arasında daimi əlaqələr qurulmuş, 26-30 iyun 2000-ci ildə Azərbaycan AŞPA-nın növbəti iclasında AŞ-ə üzv seçilmişdi) [140, s.82-95; 174]. Həmin dövrdə idman sahəsində AŞ ilə əlaqələr əsasən Gənclər və İdman Direktorluğu vasitəsi ilə həyata keçirilmişdi. Bu əlaqələr nəticəsində ölkəmiz 14-15 avqust 1998-ci ildə Tallində Avropa Dama Federasiyasına üzv seçilmişdir [86]. Nümayəndələrimiz AŞ-ın İdmanın İnkişafı Komitəsi, işçi qruplarının iclaslarında və idman üzrə müxtəlif seminarlarında müntəzəm olaraq iştirak etmişdilər. Bu, həm də o deməkdir ki, AŞ Azərbaycan Respublikasını gələcəyi olan idman ölkəsi kimi qəbul edirdi. Hazırda Avropa üzrə idman sahəsində üç mühüm sənəd–Avropa idman xartiyası, idman tədbir-

ləri, xüsusilə də futbol matçları zamanı tamaşaçılar tərəfindən zorakılığa və nalayiq hərəkətlərə dair Avropa Konvensiyası və Avropa Antidopinq Konvensiyası fəaliyyət göstərir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası hər iki konvensiyanı imzalamış və ratifikasiya etmişdi [5]. Hər üç sənəd üzrə "Öhdəliklərin icrası layihəsi çərçivəsində" AŞ-nın ekspertləri 2001, 2002 və 2003-cü illərdə Azərbaycan Respublikasında məsləhət səfərlərində olmuş və faydalı tövsiyələr hazırlamışlar [5]. Bunlarla yanaşı, 13-14 may 2004-cü ildə Strasburqda AŞ tərəfindən təşkil olunmuş "Avropa yolayrıcıları – idman demokratiyanın giriş qapısıdır" adlı tədbirdə Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyinin nümayəndələri iştirak etmişlər [5]. Tədbirdə AŞ-na üzv dövlətlərin idman sahəsində yaxşı təcrübə nümunələrinin üzv dövlətlərin nümayəndələri tərəfindən təqdimatı keçirilmişdi. Azərbaycan tərəfi "Yeniyetmələrin respublika oyunları"nı yaxşı təcrübə nümunəsi kimi təqdim etmişdi. Daha sonra 17-25 iyul 2004-cü ildə AŞ-nın Gənclər və İdman Direktorluğu ilə birlikdə Quba Olimpiya Kompleksində Qafqaz regionundakı qaçqın və məcburi köçkün uşaqlar üçün yay düşərgəsi təşkil edilmişdi [5]. Düşərgədə Gürcüstandan 14 və Azərbaycan Respublikasından 28 məcburi köçkün uşaq dincəlmişdi. Bu tədbir Avropa Şurasının gələcəkdə böhran və fəlakətlər baş vermiş regionlarda uşaqlar üçün düşərgələrin təşkilini nəzərdə tutan "Ballones Rouges" adlı tədbir üçün pilot layihə kimi həyata keçirilmişdi. Bunun ardınca respublikamızın idman həyatı üçün çox mühüm hadisə baş vermiş, 13 avqust-2 sentyabr 2004-cü ildə nazir Ə.Qarayev XXVIII Yay Olimpiya Oyunları ilə bağlı Afinaya səfər etmiş, Yay Olimpiya Oyunları zamanı "Azərbaycan günü"nün təşkil olunmasına nail olmuş, nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirmişdir [83].

2-3 mart 2005-ci ildə Strasburqda AŞ İdmanın İnkişafı Komitəsinin 28-ci illik iclası və 4 mart 2005-ci ildə SPRİNT proqramı koordinasiya və planlaşdırma iclaslarında respublika İd-

man Nazirliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri İ.Mədətov iştirak etmiş və o, burada AŞ-nın İdmanın İnkişafı Komitəsinin büro üzvü seçilmişdi [5]. Sonra 19-20 may 2005-ci ildə AŞ-nın Gənclər və İdman Direktorluğu və Bolqarıstan hökuməti tərəfindən "İdmanda yeni tərəfdaşlıq" mövzusunda təşkil olunmuş dəyirmi masada da ölkəmiz layiqincə təmsil olunmuşdu. Hökumətlərin idmanla bağlı milli siyasətlərinin müəyyənləşdirilməsində Avropa İttifaqı qərarlarının təsiri, hökumətlərin idman siyasətinin şərtləndirilməsində AŞ İdmanın İnkişafı Komitəsinin praktiki təsiri, Yeni Avropa İdman Konvensiyasının tərtib olunması və digər məsələlər ətrafında maraqlı müzakirələr aparılmışdı. Yekunda müzakirə edilən məsələlərə dair tövsiyələr qəbul edilmişdi. Xatırladaq ki, bu tədbirdən iki gün əvvəl başa çatmış AŞ dövlət başçılarının 3-cü sammitinin fəaliyyət planında idmanın dəstəklənməsinə xüsusi yer ayrılmışdı. Göründüyü kimi, AŞ ilə Azərbaycan Respublikasının idman əlaqələri daimi olmuşdu. Bunu şuranın bütün tədbirlərində iştirakımız da sübut edir. Belə ki, 27-30 iyun 2005-ci ildə Strasburqda keçirilmiş AŞ İdmanın İnkişafı Komitəsinin büro iclasında həmin komitənin büro üzvü İ.Mədətov iştirak etmiş, 2005-ci ilin avqustunda "İdman tədbirlərində və xüsusilə futbol matçlarında tamaşaçıların zorakılığı və nalayiq davranışlarına dair Avropa Konvensiyası" üzrə hesabat anketi doldurularaq AŞ Daimi Komitəsinə göndərilmişdi. 15-16 sentyabr 2005-ci ildə AŞ, Dünya Antidopinq Agentliyi və Rusiya Bədən Tərbiyəsi və İdman Agentliyi ilə birgə Moskvada təşkil olunmuş "Dopinqə qarşı mübarizə sahəsində təhsil" mövzusundakı simpoziumda İdman Tibb Mərkəzinin baş həkimi iştirak etmişdi. Tədbirdə dopinqlə mübarizə sahəsində maarifləndirmə işinin qurulması, idmançı və məşqçilərin təhsilinin təşkili sahəsində iştirakçı ölkələrdə mövcud vəziyyət və bu sahədə görülməsi zəruri olan tədbirlər barəsində müzakirələr aparılmışdı. Yenə də 23-24 sentyabr 2005-ci ildə Serbiya və Çernoqoriyanın Novi Sad şəhərində AŞ-nın İdmanın İnkişafı Komitəsinin SPRİNT Proqramı çərçivəsində keçirilmiş İdman

İnformasiya Şəbəkəsi adlı seminarda idman və beynəlxalq əlaqələr şöbələrinin aparıcı məsləhətçiləri iştirak etmişdi. İştirakçılar təmsil etdikləri ölkələrdə mövcud idman informasiya şəbəkəsi mövzusunda çıxış etmişdilər. Seminar zamanı Sloveniya və Rumıniyada mövcud olan idman informasiya şəbəkəsinin təqdimatı keçirilmiş və bu sistemlər Avropada yaxşı nümunə kimi təqdim edilmişdi. İdmanın İnkişafı Komitəsinin 2005-ci il oktyabrın 10-da və noyabrın 29-30-da Strasburqdakı büro iclasında da ölkəmiz təmsil olunmuşdur. AŞ ilə əlaqələrimizə intensivlik vermək və həm də ölkədə idmana dövlət qayğısı sahəsində yenilikləri göstərmək məqsədilə 10-17 oktyabr 2005-ci ildə Avropa Antidopinq Konvensiyası monitorinq qrupuna təqdim etmək üçün bu sahədə ölkəmizdə görülmüş işlər barəsində geniş hesabat hazırlanmış və xüsusi anket doldurularaq Avropa Şurasına göndərilmiş, UNESCO Baş Assambleyası tərəfindən Beynəlxalq Antidopinq Konvensiyasının qəbul edilməsi ilə bağlı materiallar tərcümə edilmiş, bədən tərbiyəsi və idman sahəsində antidopinq nəzarətinin təşkili və keçirilməsi ilə bağlı əsasnamə hazırlanmışdı. Yuxarıda sadalanan faktlar AB və AŞ ilə Azərbaycan Respublikası arasında normal idman əlaqələrinin mövcudluğuna əyani sübutdur. Məhz bu əlaqələr imkan vermişdir ki, Avropa İttifaqına və Avropa Şurasına üzv dövlətlərlə daha sıx əlaqələr qurulsun.

1992-ci il yanvarın 3-də ölkəmizin dövlət müstəqilliyini tanıyan Fransa müasir dövrdə respublikamızın sıx əməkdaşlıq etdiyi dövlətlərdən biridir [140, s.108-115]. Bu baxımdan Fransa ilə ölkəmiz arasında idman əlaqələri xüsusi əhəmiyyət kəsb etdiyindən idman təşkilatlarımızın nümayəndələri, idmançılarımız Fransanın müvafiq idman qurumlarının keçirdikləri tədbirlərdə yaxından iştirak etmişdilər [13, "Azərbaycan-Fransa əlaqələri haqqında"]. 1999-cu il iyulun 5-13-də respublika İdman Nazirliyinin təşkilati və müəssisələrlə iş idarəsinin mütəxəssisləri Bordo Universitetində təşkil edilmiş "Dil və idman" adlı kursun dinləyicisi olmuşdular [13, v.1]. Fransa Gənclər və İdman Nazirli-

yinin təşkilati və maliyyə dəstəyi ilə keçirilən bu kurs idman mütəxəssisləri üçün təşkil edilmişdi. Boksçularımız 1999-cu ildə Lilldəki beynəlxalq turnirdə, karateçilərimiz 2000-ci ilin yanvarında Fransanın açıq birinciliyində, taekvondo ustalarımız may ayında, cüdoçularımız martda Parisdə və apreldə Klermon Ferronda beynəlxalq turnirlərdə iştirak etmişlər. "Şəfqət nuru" xeyriyyə cəmiyyətinin təşəbbüsü və yaxından köməkliyi ilə Bakı Xoreoqrafiya Məktəbində təhsil alan bir qrup kimsəsiz uşaq futbol üzrə Fransa milli yığma komandasının keçmiş oyunçusu, hazırda isə məşqçi kimi fəaliyyət göstərən Erik Qerinin yubileyinə həsr edilmiş futbol matçına dəvət almış və 2002-ci ilin iyununda Fransada olmuşlar [13, v.4].

Azərbaycan Respublikası ila Fransa arasında idman sahəsində əməkdaşlıq haqqında saziş layihəsi 24 yanvar 2003-cü ildən hazır olsa da, imzalanmamışdı. Lakin buna baxmayaraq, yuxarıda sadalanan faktlardan aydın olduğu kimi, ölkələrimiz arasında idmanın müxtəlif sahələrində əlaqələr mövcud olmuşdu. Məsələn, 1999-cu ildə stend atıcılığı üzrə Pousendə keçirilən Avropa çempionatında, 1999-cu ildə Rionda kamandan oxatma üzrə keçirilən dünya çempionatında, 1999-cu ildə güllə atıcılığı üzrə Bordoda keçirilən Avropa çempionatında və 5-7 may 1999-cu ildə taekvondo üzrə Fransada keçirilən beynəlxalq turnirdə, 1999-cu ildə boks üzrə Lilldəki beynəlxalq turnirdə, 3-4 fevral 1999-cu ildə Ormanda qılıncoynatma üzrə dünya kuboku mərhələsində, 3-4 fevral 2000-ci ildə yenə də Fransada keçirilən qılıncoynatma yarışlarında ölkəmizin idmançıları iştirak etmişdilər. 24-27 noyabr 2000-ci ildə Beynəlxalq Qılıncoynatma Federasiyası və Frans-Luans şirkətinin dəvətinə əsasən Y.Jemayeva və Azərbaycan Qılıncoynatma Federasiyasının prezidenti Y.Məmmədov Sent-Etyendə futbol üzrə Fransa birinciliyində matçın açılış mərasimində topa ilk zərbə vurmaq şərəfinə nail olmuş və oradaca idmançıların xahişi ilə salonun divarlarında "Azərbaycan" sözündən sonra imza etmişlər. Bu tədbirdə, eyni zamanda, Y.Məmmədova 65 illiyi münasibətilə 1823-cü ilin istehsalı

olan qılınc bağışlanmışdı. 22-24 yanvar 2000-ci ildə karate (WKF) üzrə Parisin açıq birinciliyində, 4-6 fevral 2000-ci ildə Fransada yunan-Roma güləşi üzrə lisenziya turnirində (ölkəmizdən H.Oktay bu turnirdə hakimlik etmişdi), 3-9 iyul 2000-ci ildə gənclər arasında dünya birinciliyində (qeyd etmək yerinə düşər ki, 1995-ci ildə yenə də idmanın göstərilən növündə idmançılarımız Bezansonda Avropa çempionatında təmsil olunmuşlar), 12-13 mart 2000-ci ildə cüdo üzrə Fransa paytaxtında “A” kateqoriyalı beynəlxalq turnirdə, 22-23 aprel 2000-ci ildə Klermon-Ferronda gənclər arasında cüdo üzrə “A” kateqoriyalı beynəlxalq turnirdə Azərbaycan Respublikası da təmsil olunmuşdu. Yuxarıdakı faktlar idman sahəsindəki əlaqələrimizin iki ölkə arasındakı qarşılıqlı münasibətdə heç də sonuncu rol oynamadığını əyani şəkildə göstərir.

Fransa ilə Azərbaycan Respublikası arasında idmanın müxtəlif sahələrində əlaqələr 2001-ci ildə də intensiv şəkildə davam etdirilmişdir. 11-15 sentyabr 2001-ci ildə Kannda yeniyetmələr və gənclərin sambo üzrə dünya birinciliyi, 24-27 oktyabrda Şantedə yenə də sambo üzrə gənclər və kişilər arasında beynəlxalq turnir, 23-24 noyabrda sərbəst güləş üzrə Nicedə beynəlxalq turnir, noyabr-dekabrda şahmat üzrə 20 yaşadək gənclərin dünya birinciliyi (komanda yarışı), noyabrda fiqurlu sürüşmə üzrə Qran-Pri İSU, 10-11 fevralda Parisdə cüdo üzrə “A” kateqoriyalı beynəlxalq turnir, dəvətə əsasən aykido üzrə beynəlxalq turnir, iyunda cu-çitsu üzrə beynəlxalq turnir, 26 oktyabr–1 noyabrda qılıncoynatma üzrə dünya çempionatı və 3-4 fevralda Orleanda sablya üzrə dünya kubokunun mərhələsi (Qran-pri) yarışlarında ölkəmizin idmançıları uğurla çıxış etmişlər.

Aralarında belə sıx idman əlaqələrinin mövcud olduğu Fransa və Azərbaycan Respublikası idmançıları 2002-2003-cü illərdə də qarşılıqlı olaraq, hər iki ölkədə təşkil olunmuş bir sıra yarışlarda iştirak etmişlər [13, v.3]. 2002-ci ilin martın 23-dən 25-dək Fransada taekvondo üzrə keçirilən Antoni adına beynəlxalq turnirdə Azərbaycan Respublikasının yığma komandası 35

ölkənin 500 idmançısının iştirak etdiyi bu yarışda 9 qızıl və 1 gümüş medal qazanaraq komanda hesabında 1-ci olmuşdu.

Ölkəmizdə keçirilməsi planlaşdırılan beynəlxalq yarışlarda iştirak etmək üçün digər ölkələrin nümayəndələri ilə yanaşı Fransa idmançılarına da dəvətlər göndərilmişdir. 2002-ci ilin mayın 2-dən 4-dək Bakıda keçirilən sərbəst güləş üzrə 45-ci Avropa çempionatında Fransa komandası iştirak etmiş, 20-27 fevral 2003-cü ildə Avropa kuboklar kuboku uğrunda turnirin 1/8 mərhələsində qadınlardan ibarət "ABU" həndbol komandamız Fransanın Besanson klubu  ilə görüşmüş və martın 26-dan 31-dək Orleanda qilıncoynatma üzrə beynəlxalq "Qran-Pri" turniri keçirilmişdi.

2003-cü ilin martında bədii gimnastika üzrə Fransada keçirilən beynəlxalq turnirdə, 2003-cü ilin iyulunda yenə də bu ölkədə keçirilmiş "Yeniyetmələrin Olimpiya Həftəsi"ndə, həmçinin sentyabrda yunan-Roma güləşi üzrə dünya çempionatında ölkəmizin yığma komandası iştirak etmişdir. Beləliklə, qeyd etmək mümkündür ki, əvvəlki illərdə olduğu kimi, XXI əsrin ilk illərində Azərbaycan Respublikası ilə Fransa arasında idman əlaqələri dövlətimizin idmana qayğısı sahəsində kifayət qədər intensiv inkişaf etdirilmişdir.

1991-ci ildə ölkəmiz dövlət müstəqilliyi qazandıqdan az sonra dekabrın 31-də dövlət müstəqilliyimizi tanıyan ilk böyük dövlətlərdən biri də Böyük Britaniya oldu. Mühüm beynəlxalq təşkilatların üzvü olan İngiltərənin dəstəyinə ölkəmizin ciddi şəkildə ehtiyacı olduğu üçün respublika rəhbərliyi bu ölkə ilə əlaqələrin genişləndirilməsinə xüsusi fikir verirdi [140, s.95-103]. Bu əlaqələrdə idmanın da payı az olmamışdır və ölkəmizin idman sahəsində fəaliyyətinin əsas istiqamətlərindən biri də beynəlxalq əlaqələrin qurulması idi. Bu, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, idmançılarımızın, mütəxəssislərimizin, idman xadimlərimizin beynəlxalq yarışlarda və digər tədbirlərdə iştirakına şərait yaradılmasına, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xeyli kömək edirdi. Bu cəhətdən Böyük

Britaniyanın müvafiq qurumları ilə əlaqələr qurulmasına, bu ölkədə keçirilən müxtəlif tədbirlərdə idmançılarımızın iştirakına xüsusi diqqət yetirilmişdi və indi də yetirilir. Məhz bu siyasətə müvafiq olaraq prezident H.Ə.Əliyevin 1994-cü il fevralın 23-25-də İngiltərəyə səfəri zamanı Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökumətləri arasında "Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş" (8 sənəd, o cümlədən "Hava yollarında əməkdaşlığa dair saziş") fevralın 23-də Londonda imzalanmışdı [8, v.1]. Bu müqavilənin 10-cu maddəsinə görə, tərəflər idman təşkilatları arasındakı əməkdaşlığı və hər iki ölkədə keçirilən idman tədbirlərində iştirakı təşviq etməlidirlər. Bu müqavilə hər iki ölkə arasında idman əlaqələrinin sonrakı inkişafında əsas bünövrə olmuş, 11-19 oktyabr 1999-cu ildə Azərbaycan Respublikasında Britaniya həftəsi keçirilmişdi. Britaniya Şurasının Bakıdakı nümayəndəliyi ilə keçirilən görüşlərdə həmin həftə çərçivəsində idman tədbirlərinin də keçirilməsi planlaşdırılmışdı. 7-11 yaşlı uşaqlarla məşğul olan futbol, otüstü xokkey və tennis üzrə məşqçilər üçün nəzərdə tutulan seminarda ölkəmizdən 25 nəfər məşqçi-müəllim iştirak etmişdi [8, v.2-3]. Seminarda istifadə olunan və İngiltərədən gətirilmiş digər idman ləvazimatları məşqçilərə hədiyyə edilmişdi. Seminarı İngiltərədən gəlmiş məşqçilər keçirmişdilər.

Britaniyanın "Samaritans Purse" adlı xeyriyyə təşkilatının təşəbbüsü ilə qaçqın, köçkün və kimsəsiz ailələrdən olan uşaqların sevincinə şərik olmaq məqsədilə 2000-ci ilin iyununda müvafiq proqram əsasında İngiltərənin tanınmış futbol klublarının veteranları Sumqayıt və Bakı şəhərlərində, habelə Sabirabad və Göyçay rayonlarında futbol məşqləri, oyunları keçirmişlər. Bu proqramın əsas məqsədi bu uşaqlara "Yeni il" hədiyyələrinin gətirilməsi olmuşdu. Proqramın son mərhələsi dekabrda başa çatmışdı.

Azərbaycan Respublikasında idmanın bu cür inkişaf səviyyəsi idmanın inkişaf etdiyi ölkələrlə, o cümlədən Almaniya ilə

idmanın müxtəlif sahələrində əlaqələr qurulmasına geniş imkan yaratmışdı. Qeyd etmək lazımdır ki, 1991-ci il dekabrın 12-də suveren dövlətimizin müstəqilliyi Almaniya tərəfindən rəsmi olaraq tanınmış, 1992-ci il fevralın 2-də dövlətlərimiz arasında diplomatik münasibətlər yaradılmış, müxtəlif istiqamətlərdə əlaqələrimiz tədricən formalaşdırılmışdı [140, s.103-108]. 1995-ci il dekabrın 22-də Azərbaycan Respublikası ilə Almaniya federal hökuməti arasında "Mədəni əməkdaşlıq haqqında saziş" imzalanmışdı [4, v.2]. Sazişin 12-ci maddəsində tərəflər öz ölkələrinin idmançı, məşqçi, idman rəhbərləri və komandaları arasında görüşləri təşviq etməyi, o cümlədən məktəb və ali təhsil ocaqlarında idman sahəsində əməkdaşlığa yardım göstərməyi qəbul etmişlər. Sazişin 16-cı maddəsinə əsasən "Mədəni əməkdaşlıq üzrə Azərbaycan-Almaniya qarışıq komissiyası"nın tərkibinə İdman Nazirliyinin mütəxəssisi də daxil edilmişdi. Bu sazişə əlavədə idman sahəsində əməkdaşlıq çərçivəsində rəsmi tapşırıq ilə ezam olunmuş və ya vasitəçiliklə göndərilmiş digər mütəxəssislərə münasibət də şamil edilmişdi [4, v.2].

Azərbaycan Respublikası və Almaniya arasındakı əlaqələrdə ölkələrin ayrı-ayrı regionları da xüsusi yer tutmuşdu. Belə ki, Sumqayıt və Lüdviqşhafen şəhərləri arasında 30 ildən artıqdır ki, dostluq münasibətləri mövcuddur. 25 sentyabr – 2 oktyabr 2003-cü ildə Münhendə "Hamı üçün idman və volontyorlar" – TAFİSA-nın XVIII ümumdünya konqresi keçirilmişdi. Konqresdə respublikamızın İdman Nazirliyinin elm və təhsil idarəsinin rəisi iştirak etmişdi [4, v.4]. Konqresə beş qitədən əlli beş ölkəni təmsil edən 150-dən çox nümayəndə toplaşmışdı. Keçmiş SSRİ ölkələrindən yalnız Azərbaycan və Litva respublikaları konqresdə təmsil olunmuşdu. Konqresin açılışında BMT-nin icraçı koordinatoru Almaniyanın Federal İdman Naziri, Beynəlxalq Olimpiya Komitəsinin üzvü, Almaniyanın dövlət katibi, TAFİSA-nın prezidenti və başqaları iştirak etmişlər. Halbuki 30 il əvvəl TAFİSA-nın konqresində 19 ölkədən cəmisi 25 nəfər iştirak edirdi. Konqresin gedişində-28 sentyabr 2003-cü ildə bizim

nümayəndəmiz "Azərbaycanda idmana dövlət qayğısı və volontyorluğun inkişafı" mövzusunda məruzə ilə çıxış etmişdi. Konqresdə həm də Azərbaycan Respublikasında idmanın inkişafı və maddi-texniki bazası haqqında məlumatın verilməsi ölkəmizin təbliği baxımından da mühüm rol oynamışdı.

Azərbaycan tərəfi həmişə idmançılara viza verilməsi prosedurunun maksimal surətdə asanlaşdırılmasına çalışmışdı [4, v.5]. Buna misal olaraq 1-9 avqust 1999-cu ildə Bakıda böyük müvəffəqiyyətlə keçirilən yeniyetmələr arasında boks üzrə dördüncü Avropa çempionatını göstərmək olar. Bu çempionatda Avropanın 24 ölkəsindən olan komandalar içərisində Almaniyanın idmançıları da iştirak etmişdi. Bütün xarici iştirakçılar Bakıya vizasız gəlmişdilər. Ümumiyyətlə, respublikamızın müvafiq orqanları ölkəmiz idman tədbirləri keçirdikdə vizaların sadələşdirilməsi üçün həmişə bütün imkanlardan istifadə etməyə çalışır.

Azərbaycan Respublikası idman sahəsində Avstriya Federativ Respublikası ilə də əlaqələr yaratmışdı. 2001-ci ilin dekabrında ölkəmizin idman naziri Avstriyada səfərdə olarkən, turizmlə yanaşı müvafiq qurumlarla idman əlaqələrini müzakirə etmişdi [46, v.6]. Ölkələrimizin idmançıları Avstriyada keçirilən müxtəlif yarışlarda fəal şəkildə iştirak edirlər [46, v.6].

Son dövrlərdə Azərbaycan Respublikası ilə Rumıniya arasında beynəlxalq idman əlaqələri də artan xətt üzrə inkişaf etmişdi. Azərbaycan Respublikası və Rumıniya hökumətləri arasında 1995-ci ilin iyulun 2-də Buxarestdə elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında saziş imzalanmışdı [30, v.1-3]. Müqavilənin 17 və 21-ci bəndlərinə əsasən tərəflər müvafiq təşkilatlar arasında olan razılaşmalara əsasən bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın inkişafını dəstəkləmək, təşkil etdikləri elmi, mədəni, ədəbi, idman və digər tədbirlər barədə qarşılıqlı şəkildə məlumat vermək və iştirak etmək barədə razılaşmışlar. Elə bu müqaviləyə və ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Rumıniya hökumətlərarası komissiyanın birinci iclas protokolunun icrası ilə əlaqədar

Rumıniyanın müvafiq qurumları ilə əlaqələrin qurulmasına və həyata keçirilməsinə daim diqqət yetirilmiş və bunun qanunauyğun nəticəsi kimi ölkələrimiz arasında idman sahəsində də əməkdaşlıq uğurla inkişaf etmişdir. 13-16 may 2004-cü ildə Buxarestdə keçirilmiş cüdo üzrə Avropa çempionatında, 26 aprel-3 may 2004-cü ildə Bakıda keçirilmiş AİBA prezidenti professor Ə.Çoudrinin Kuboku uğrunda boks üzrə 8-ci Beynəlxalq turnirdə, 16-22 noyabr 2004-cü ildə Bakıda keçirilmiş hərbçilərin XXX dünya çempionatında, 11-13 mart 2005-ci ildə Bakıda keçirilmiş taekvondo üzrə oğlanlar arasında 15-ci və qızlar arasında 8-ci Avropa birinciliyində, 9-10 aprel 2005-ci ildə Bakıda keçirilmiş "B" kateqoriyalı beynəlxalq cüdo turnirində və 27-29 may 2005-ci ildə Bakıda voleybol üzrə qadınlar arasında keçirilmiş dünya çempionatının ikinci seçmə mərhələsində idmançılarımız iştirak etmişlər.

Tədqiqat dövründə Azərbaycan Respublikası ilə Polşa arasında da beynəlxalq idman əlaqələri diqqəti cəlb edir. Belə ki, iki ölkənin səfirlikləri zəruri yazışmalar aparmış, səfirliklər vasitəsilə müqabil tərəfin qurumları ilə əlaqə saxlanılmışdır. Polşanın idman qurumlarının nümayəndələri vaxtaşırı Azərbaycan Respublikasında keçirilən idman tədbirlərinə, ölkəmizin idmançıları isə Polşada keçirilən idman yarışlarına dəvət olunmuşlar [29, v. 1-5]. 1997-ci il avqustun 26-da Varşavada imzalanmış "Azərbaycan və Polşa hökumətləri arasında mədəni və elmi əməkdaşlıq haqqında saziş"in 15-ci və 20-ci maddələrində göstərilir ki, tərəflər gənclər və idman sahəsində əməkdaşlığı ayrıca sazişlər əsasında dəstəkləyəcəklər [29, v.4]. Bununla əlaqədar saziş layihəsi hazırlanmış, lakin o hələ də imzalanmamışdır [29, v.5]. Buna baxmayaraq, ölkəmiz ilə Polşanın gənclər və idman strukturları arasında əməkdaşlıq davam etdirilmişdir [166]. 2001-ci ilin iyununda Polşa Dövlət İdman İdarəsinin vitse-prezidenti Azərbaycan tərəfinin dəvətinə əsasən ölkəmizdə səfərdə olmuş, onunla gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur [29, v.6]. Azərbaycan Respublikası idman nazirinin

müavini 21-23 iyun 2001-ci ildə Polşada keçirilmiş "Şərqi Avropa ölkələrində idmanın strukturu və maliyyələşdirilməsi" mövzusunda hökumətlərarası görüşdə iştirak etmişdir [29, v.7]. Görüş zamanı Polşanın bir sıra idman rəsmiləri ilə görüşlər keçirilmiş və qarşılıqlı maraq doğuran sahələr üzrə müzakirələr aparılmışdır. Həyata keçirilmiş səfərlər zamanı qarşılıqlı olaraq ölkələrimizin idman siyasətləri öyrənilmiş, təcrübə mübadiləsi aparılmışdır. Bundan başqa, görülən işlərin nəticəsi olaraq hər iki ölkədə keçirilmiş idman tədbirlərində idmançılar qarşılıqlı olaraq iştirak etmişdilər. Belə ki, 5-10 yanvar 2004-cü ildə Bakıda keçirilmiş qadın komandaları arasında voleybol üzrə olimpiya təsnifat turnirində Polşa yığma komandası iştirak etmişdir. 2004-cü ilin aprelində Varşavada keçirilmiş boks üzrə Olimpiya lisenziya turnirində Azərbaycan boksçuları Afina Yay Olimpiya Oyunlarına lisenziya əldə etmişlər [29, v.8]. 26 aprel – 3 may 2004-cü ildə isə Bakıda Ə.Çoudrinin kuboku uğrunda boks üzrə VIII beynəlxalq lisenziya turnirində iştirak etmiş Polşa idmançılarından biri gümüş, digəri isə bürünc medal qazanmışdı. 14-16 yanvar 2004-cü ildə həndbol üzrə Azərbaycan yığma komandası Polşada keçirilmiş Avropa çempionatının seçmə oyunlarında və 13-22 noyabr 2004-cü ildə isə Bakıda hərbçilər arasında cüdo üzrə dünya çempionatında Polşa idmançıları mübarizə aparmışdılar [29, v.8]. 14-16 yanvar 2005-ci ildə Polşada həndbol üzrə kişilər arasında Avropa çempionatının seçmə oyunları keçirilmişdi. Azərbaycanın həndbol üzrə yığma komandası da bu yarışlarda qüvvəsini sınamışdı [29, v.9]. 2005-ci ilin martın 12-13-də Varşavada keçirilmiş cüdo üzrə kişilər arasında "A" kateqoriyalı beynəlxalq turnirdə Azərbaycan yığma komandası da iştirak etmişdi.

Avropa voleybol klublarının ən nüfuzlu yarışlarından sayılan Çempionlar liqasında ölkəmizin qadınlarından ibarət "Azərreyl" voleybol klubu 10 noyabr 2004-cü ildə Kalişdə keçirilmiş oyunda yerli "Kalisiya Vinyari" klubunu 3:0 hesabı ilə məğlub etmişdi. 25 yanvar 2005-ci ildə Bakıda keçirilmiş cavab görüşü

də eyni hesabla "Azərreyl"in qələbəsi ilə başa çatmışdı [29, v.9]. Göründüyü kimi, ölkələr arasında idmanın müxtəlif növlərində idman əlaqələri müntəzəm xarakter almış və daha da genişlənməsi üçün ümidverici amillər güclənmişdi.

Azərbaycan Respublikası və Macarıstan hökumətləri arasında beynəlxalq idman əlaqələri də maraqlı olmuşdu. Ölkəmizin idman naziri Ə.Qarayev 7 oktyabr 1997-ci ildə Amsterdamda XIII Avropa İdman konfransında Macarıstanın Milli Fiziki Tərbiyə və İdman İdarəsinin rəisi, Dövlət katibi, Olimpiya Komitəsinin vitse-prezidenti ilə görüşmüş və ikitərəfli idman əlaqələrinin perspektivləri müzakirə olunmuşdu [23, v.3].

2004-cü il ərzində Azərbaycan Respublikasının bir neçə yeni diplomatik nümayəndəliyi fəaliyyətə başlamışdı. Ölkəmizin Macarıstandakı səfirliyi fəaliyyətə başladığından Azərbaycan Respublikası ilə bu ölkə arasında əlaqələrin möhkəmlənməsi istiqamətində aparılan işlər xeyli intensivləşmişdi. Nəticədə 18 aprel 2005-ci ildə "Azərbaycan və Macarıstan hökumətləri arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş"in və "Azərbaycan və Macarıstan hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş"in layihələrinə ölkənin bir sıra nazirlikləri tərəfindən baxılmış və ümumilikdə bəyənilmişdi [23, v.4-5]. 24 mart 2006-cı ildə Macarıstan tərəfi diplomatik kanallar vasitəsilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Macarıstanın Gənclər, Ailə, Sosial Məsələlər və Bərabər İmkanlar Nazirliyi arasında gənclər sahəsində əməkdaşlıq haqqında birgə bəyanat layihəsi təqdim etmişdi [23, v.6-7].

Azərbaycan Respublikası və İtaliya arasında beynəlxalq idman əlaqələri də xüsusi əhəmiyyət kəsb etmiş və hər iki ölkə arasında gənclərlə iş, idman və turizm sahələrində müəyyən işlər aparılmışdı. Belə ki, son illərdə respublikamızın Gənclər, İdman və Turizm Nazirliyinin əməkdaşları, Azərbaycan Gənclər Təşkilatlarının Milli Şurasının və müxtəlif gənclər təşkilatlarının nümayəndələri öz italiyalı həmkarları ilə beynəlxalq forum, kon-

qres və digər tədbirlərdə görüşmüş və fikir mübadiləsi aparmışlar [19, v.1-19]. Ümumən, respublikamızın beynəlxalq əlaqələrinin güclənməsi fonunda Azərbaycan idmançıları müxtəlif idman növləri üzrə İtaliyada keçirilən beynəlxalq yarışlarda, eləcə də İtaliya idmançıları ölkəmizdə təşkil olunan idman tədbirlərində iştirak etmiş və edirlər [19, v.17]. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik:

2002-ci ilin dekabrında start verilmiş Avropa voleybol konfederasiyaları çempionlar liqasının ilk dövrə oyunlarında ölkəmizin "Azərreyl" və İtaliyanın "Voley Modena" klubları Azərbaycanın və İtaliyanın voleybol meydançalarında qarşılaşmışlar. 29 mart–6 aprel 2003-cü ildə İtaliyada stolüstü tennis üzrə keçirilmiş yarışlarda ölkəmizin idmançıları da iştirak etmişdilər. İdmançılarımız həmin ilin sentyabrında İtaliyada təşkil olunmuş stend və güllə atıcılığı üzrə dünya kubokunda və oktyabrda Milanda keçirilmiş dünya kubokunun final mərhələsində, 2004-cü ilin aprelində Milanda güllə atıcılığı üzrə dünya kubokunun mərhələsində, dekabrda voleybol üzrə qadınlar arasında Milanda keçirilmiş Avropa çempionlar liqasında ("Azerreyl" komandası) iştirak etmişdi. Həmin ayda Romada keçirilmiş sərbəst və yunan-Roma güləşində yeni qaydaların tətbiqi üzrə hakimlər seminarında iki nümayəndəmiz ölkəmizi təmsil etmişdi.

İntensivləşən idman əlaqələrimizin bariz nümunəsi kimi aşağıdakı faktları da göstərmək olar. 2002-ci ildə idmançılarımız İtaliyada keçirilmiş cüdo üzrə beynəlxalq turnirdə, kikboksinq üzrə Avropa çempionatında, stend atıcılığı üzrə dünya kubokunun final mərhələsində, sambo üzrə Milanda keçirilmiş beynəlxalq yarışda, həmin ilin sentyabrında Bakıda təşkil olunmuş futbol üzrə matçda iştirak etmişlər. 9-10 avqust 2003-cü ildə İtaliya gimnastları Bakıda təşkil olunmuş dünya kubokunun mərhələsində, 23-24 avqustda cüdo üzrə kadetlər arasında Avropa birinciliyində çıxış etmişlər. 2003-cü ilin sentyabrında futbol üzrə 2004-cü il Avropa çempionatının qrup yarışları çərçivəsində Bakıda keçirilmiş oyunda Azərbaycan və İtaliya komandaları qarşı-

laşmışlar. 2004-cü ilin aprelində Bakıda keçirilmiş bədii gimnastika üzrə dünya kubokunun mərhələsində, aprel-mayda boks üzrə Ə.Çoudrinin kuboku uğrunda beynəlxalq olimpiya lisenziyası turnirində, noyabrda həndbol üzrə qadınlar arasında dünya çempionatının seçmə yarışlarında İtaliya idmançıları da iştirak etmişlər. 2005-ci ilin yanvarında Turində keçirilmiş fiqurlu konkisürmə üzrə Avropa çempionatında ölkəmiz də çıxış etmişdi. Lakin təəssüflər olsun ki, ölkələrimiz arasında idman sahəsində əməkdaşlıq haqqında rəsmi müqavilə hələ də imzalanmamışdı. Müqavilənin imzalanması bu istiqamətdə əməkdaşlığın güclənməsində mühüm rol oynaya bilər. Son illər ölkəmizin idmançıları müxtəlif idman növləri üzrə İtaliyada keçirilən beynəlxalq yarışlarda, Avropa və dünya çempionatlarında, turnirlərdə, idman festivallarında, eləcə də İtaliya idman nümayəndə heyətləri ölkəmizdə təşkil olunmuş idman tədbirlərində uğurla iştirak etmişdilər.

İdman sahəsində Azərbaycan Respublikasının geniş əlaqələrinin mövcud olduğu ölkələrdən biri də Çexiyadır. Müstəqilliyin ilk illərində bu əlaqələr zəif olsa da, idmana dövlətin qayğısı və fəal idman siyasəti nəticəsində 2000-ci ildən sonra bu əlaqələr xeyli möhkəmlənmişdi. Nəticədə idmançılarımızın bu ölkədə keçirilən idman yarışlarında iştirakı müntəzəm hal almağa başlamışdı. Ölkəmizin idmançıları 14-16 mart 2004-cü ildə Praqada keçirilmiş cüdo üzrə kişilər arasında "A" kateqoriyalı lisenziya, 10-15 may 2004-cü ildə Brunoda voleybol üzrə qadınlardan ibarət komandalar arasında "Sprinq CUP" beynəlxalq turnirində iştirak etmişdilər [9, v.14]. Dövlətin idmana qayğısı sayəsində maddi-texniki bazanın gücləndirilməsi ölkəmizdə bir sıra mötəbər idman yarışlarının keçirilməsinə imkan verdi ki, bu da bir çox ölkələrin idmançıları ilə yanaşı Çexiya idmançılarının da ölkəmizdə keçirilən idman yarışlarında iştirakını təmin etdi. Misal üçün, 27-31 may 2004-cü ildə Bakıda çex komandasının da iştirak etdiyi otüstü hokkey üzrə qadınlar arasında Avropa ölkələrinin çempion klub komandalarının 31-ci "Trofi" kuboku yarışları

keçirilmişdi [9, v.14]. 11-13 mart 2005-ci ildə Bakıda taekvondo üzrə gənclərin Avropa birinciliyində Çexiya idmançıları iştirak etsələr də, medalçılar sırasına çıxa bilməmişlər. 2005-ci il mayın 13-dən 15-nə kimi Bakıda bədii gimnastika üzrə Azərbaycan Gimnastika Federasiyasının Kuboku uğrunda yarış və 3-9 oktyabr 2005-ci ildə Bakıda bədii gimnastika üzrə dünya çempionatı keçirilmişdi. Bu mötəbər yarışlarda Çexiya idmançıları da iştirak etmişdilər. Faktlara əsasən qeyd etmək lazımdır ki, ölkələrimiz arasında hüquqi bazanın yaradılması idman əlaqələrimizin genişlənməsinə güclü təsir edərdi.

Keçmiş sosialist düşərgəsinə daxil olan Yuqoslaviyadan ayrılmış Sloveniya və Xorvatiya ilə Azərbaycanın beynəlxalq idman əlaqələri də nəzərə çarpacaq dərəcədə güclənmişdi. Məsələn, Sloveniya idmançıları ölkəmizdə təşkil olunmuş beynəlxalq idman tədbirlərinə dəvətlər almış və bizim idmançılarımız da bu ölkədə keçirilən tədbirlərdə iştirak etmişdilər [34, v.1-21]. Belə ki, 2004-cü ilin mayında voleybol üzrə qadınlar arasında Avropa çempionatının seçmə oyunlarının 1-ci dövrəsi Sloveniyada, 2-ci dövrəsi isə Bakıda keçirilmiş və hər iki görüşdə komandamız qalib gəlmişdi. 2004-cü ildə cüdoçularımız Lüblyanada Avropa çempionatında, güləşçilərimiz Murska-Sobotada gənclər arasında ”Hərbçilərin XXX dünya çempionatında” və taekvondo üzrə Avropa birinciliyində Sloveniya idmançıları ilə birlikdə iştirak etmişlər. Sloveniyaya giriş-çıxış vizalarının rəsmiləşdirilməsi prosedurasının çətin olması və bu ölkəyə vizaların Ankaradan alınması zərurəti ölkələrimiz arasında turistlərin, gənclər qruplarının və idmançıların mübadiləsinə və səfərlərinə maneələr, əngəllər yaradır. Bu səbəbdən, ölkəmizin vətəndaşları üçün viza alınması prosedurasının sadələşdirilməsi və bəzi hallarda sərhəddə viza alınmaq imkanının verilməsi ölkələrimiz arasında yalnız gənclər, idman və turizm sahələrində deyil, digər sahələrdə də əlaqələrimizin inkişafına kömək edə bilər. 3-5 iyun 2005-ci ildə Azərbaycan Respublikasının prezidenti İ.H.Əliyev Sloveniya və Xorvatiyaya rəsmi səfər etmişdi. Bu səfər bütün sahələrdə ikitə-

rəfli əlaqələrin inkişafına zəmin hazırlamışdı.

Finlandiya ilə Azərbaycan Respublikası arasında beynəlxalq idman əlaqələri də ardıcıl şəkildə inkişaf etmişdi. Finlər və bizim idmançılar qarşılıqlı olaraq hər iki ölkədə təşkil olunan idman tədbirlərində, müxtəlif yarışlarda iştirak edirlər [12, v.1-10]. Buna misal olaraq 2002-ci il iyulun 5-15-dək Lahtidə güllə atıcılığı üzrə dünya çempionatında, yenə də həmin il oktyabrın 20-25-dək Helsinkidə keçirilmiş pauerliftink üzrə dünya çempionatında idmançımızın dünya çempionu adına layiq görülməsini göstərmək olar. Finlandiya ilə gimnastika sahəsində də əlaqələrimiz nəticə vermişdi. 23-25 aprel 2004-cü ildə Bakıda bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışlarında, 2005-ci il mayın 13-dən 15-nə kimi Bakıda bədii gimnastika üzrə Azərbaycan Gimnastika Federasiyasının kuboku uğrunda yarışlarda və 3-9 oktyabr 2005-ci ildə yenə də Bakıda bədii gimnastika üzrə dünya çempionatında Finlandiya idmançıları da iştirak etmişlər. Azərbaycan-Finlandiya əlaqələrində maraqlı istiqamətlərdən birini idman turizmi sahəsində əlaqələrin qurulması cəhdləri təşkil edir. Bunun bariz nümunəsi kimi 2004-cü ilin dekabrında Gənclər, İdman və Turizm Nazirliyində fin iş adamları ilə idman turizmi sahəsində əməkdaşlıq üzrə görüşün keçirilməsi və görüşdə Azərbaycanda qolf klubunun yaradılması layihəsinin müzakirəsini qeyd etmək olar. 2005-ci ildə idman əlaqələrimizin davamı kimi 11-13 mart 2005-ci ildə Bakıda taekvondo üzrə gənclərin Avropa birinciliyində Finlandiya idmançılarının iştirakını və 17-28 avqust 2005-ci ildə Espoda keçirilmiş atletika üzrə açıq Avropa çempionatında paraolimpiyaçılarımızın 3 qızıl və 3 bürünc medal qazanmalarını göstərə bilərik. Məlumdur ki, dövlət başçılarının qarşılıqlı səfərləri ölkələrin bir-birinə yaxınlaşmasında, əlaqələrin genişlənməsi və güclənməsində mühüm amildir. Bu baxımdan 23 sentyabr 2005-ci ildə Finlandiya Respublikası prezidenti xanım Tarya Halonenin Azərbaycana səfərini mühüm hadisə hesab etmək olar.

Azərbaycan Respublikası ilə Yunanıstan arasında qurulan

beynəlxalq idman əlaqələri də bu iki ölkənin qarşılıqlı beynəlxalq əlaqələrində mühüm yer tutur. İki ölkə arasında idman sahəsində əlaqələrin hüquqi bazasını 1997-ci il aprelin 11-də Bakıda Azərbaycan Respublikası ilə Yunanıstan hökumətləri arasında təhsil, mədəniyyət və elm sahəsində əməkdaşlıq haqqında imzalanmış saziş təşkil edir [42, v.3]. Həmin sazişin 8-ci maddəsinə görə tərəflər idman və bədən tərbiyəsi təhsili sahələrində, onların müvafiq idman təşkilatları arasında birbaşa əlaqələrin genişləndirilməsini və əməkdaşlığın inkişafını təşviq etməli idilər. Bu əməkdaşlığın məzmunu və təfərrüatı əvvəlcədən yuxarıda qeyd olunan təşkilatlar tərəfindən müəyyənləşdirilmişdi. Hüquqi bazanın olmasına baxmayaraq, idman əlaqələrimiz nəzərə çarpacaq dərəcədə deyildir.

Azərbaycan Respublikası ilə Bolqarıstan arasında da beynəlxalq idman əlaqələri formaca və məzmunca xeyli zəngin olmuşdu. Beynəlxalq tədbirlərdə və görüşlərdə, xüsusilə Avropa Şurası xətti ilə keçirilən tədbirlərdə bizim nümayəndələrimiz Bolqarıstan idmançıları və gəncləri ilə görüşmüş, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmiş, habelə Bolqarıstanda keçirilən mühüm beynəlxalq tədbirlərin və idman yarışlarının iştirakçısı olmuşlar [7, v.1-27]. İdmançılarımız son illərdə Bolqarıstanda keçirilən ağırlıqqaldırma və sambo üzrə Avropa çempionatlarında, yunan-Roma güləşi üzrə Avropa çempionatı, cüdo və basketbol üzrə beynəlxalq turnirlərdə fəal iştirak etmiş və Azərbaycanda idmanın inkişafını bariz şəkildə təsdiq edən layiqli qələbələr qazanmışlar. Bolqarıstan idmançıları da ölkəmizdə keçirilən yarışlarda iştirak etmişlər. Faktlara müraciət edək. 2003-cü ilin avqustunda və 2004-cü ilin aprelində Bakıda bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışları, 2005-ci ilin mayında isə bədii gimnastika üzrə Azərbaycan Gimnastika Federasiyasının kuboku yarışları, ardınca 26-31 iyul 2005-ci ildə Quba Olimpiya İdman Kompleksində qadınlar arasında voleybol üzrə qran-pri yarışları, 3-9 oktyabr 2005-ci ildə isə Bakıda bədii gimnastika üzrə XXVII dünya çempionatı keçirilmişdi. Hələ bunlar-

dan bir qədər əvvəl – 2004-cü il yanvarın 5-10-da Bakıda voleybol üzrə qadınlar arasında olimpiya təsnifat turniri baş tutmuş, burada hər iki ölkənin idmançıları iştirak etmişdilər. 2004-cü ilin fevralında Sofiyada sərbəst güləş üzrə, həmin ilin aprelində Plovdivdə boks üzrə beynəlxalq lisenziya turniri, 23-24 noyabr 2004-cü ildə Bakıda həndbol üzrə qadınlar arasında dünya çempionatı keçirilmişdi. Həmin yarışlarda sərbəst güləş üzrə E.Əsgərov, boks üzrə R.Hüseynov Afina Olimpiadasına vəsiqə əldə etmişlər. 17 noyabr 2004-cü ildə T.Bəhramov adına Respublika Stadionunda Azərbaycan və Bolqarıstan futbol komandaları arasında yoldaşlıq görüşü keçirilmişdir ki, bunu da əlaqələrimizə mühüm töhfə hesab etmək olar.

Hər iki ölkənin atletləri qarşılıqlı şəkildə 11-13 mart 2005-ci ildə Bakıda taekvondo üzrə gənclərin Avropa birinciliyində, 2005-ci ilin aprelin 12-dən 17-nə kimi Varnada keçirilmiş sərbəst və yunan-Roma güləşi üzrə Avropa çempionatında iştirak etmişlər. Göründüyü kimi, iki ölkə arasında 2000-ci ildən sonra normal idman əlaqələri mövcud olmuşdur ki, bu da belə əlaqələrin getdikcə dərinləşən və genişlənən miqyasına dəlalət edir, eyni zamanda, dövlətin idmana qayğısının da bilavasitə nəticəsidir.

Azərbaycan Respublikası ilə qardaş Türkiyə arasında beynəlxalq idman əlaqələri, təbii ki, xüsusi maraq kəsb edir. Ölkələr arasında qardaşlıq və dostluq əlaqələrinin, əlalxüsus gənclər, idman və turizm sahəsindəki əlaqələrin genişlənməsi xüsusi əhəmiyyətə malik olduğundan hər iki dövlət bu sahələrə ciddi diqqət yetirmişdi. Bu, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, gənclərin, idmançıların, mütəxəssislərin, idman xadimlərinin beynəlxalq yarışlarda və beynəlxalq tədbirlərdə iştirakına şərait yaradılmasına, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xeyli kömək edir. Bu əlaqələrin güclənməsi və inkişafı baxımından Türkiyə-Azərbaycan arasında 9 fevral 1994-cü il fevralın 9-da və 1996-cı il fevralın 4-də imzalanmış idman sahəsində əməkdaşlığa dair saziş və protokolun əhəmiyyəti böyük olmuşdur [36, v.6, 12]. Sonuncu protokolun 12-ci maddəsi-

nə görə tərəflərdən birinin bu tarixin qurtarmasından bir ay əvvəl onun dəyişdirilməsi üçün yazılı müraciət etməməsi halında müqavilə müddətinin iki il daha uzanacağı, buna görə də yeni bir müqaviləyə ehtiyac olmayacağı nəzərdə tutulur. Göründüyü kimi, ölkələrimiz arasında idman əlaqələrinin hüquqi bazası elə müstəqilliyimizin ilk illərində yaranmışdı. Digər tərəfdən, bir sıra sahələrdə olduğu kimi, idman sahəsində də dövlətimizə Türkiyə tərəfindən sanballı qardaş köməyi göstərilmişdi. Bununla əlaqədar qeyd etmək yerinə düşər ki, Bakı şəhərində fövqəladə vəziyyətlə bağlı olaraq UEFA Azərbaycan milli və olimpiya futbol komandalarının Avropa çempionatındakı seçmə oyunlarının MDB və ya Baltikyanı ölkələrin birində keçirilməsi üçün qərar çıxartmış və bu qərarı Azərbaycan tərəfinə bildirmişdi [36, v.7]. Bu qərarı nazir Ə.Qarayev Türkiyə gənclik və idman naziri Ş.Erdemə bildirmiş, bununla əlaqədar olaraq maliyyə səbəbləri, iqlim şərtləri, xüsusilə tamaşaçı rəğbəti kimi hallarla bağlı bu oyunların Türkiyə Respublikasında keçirilməsini xahiş etmişdi. Respublikamızın xahişinə Türkiyədən razılıq cavabı alınmışdı. Bundan sonra UEFA oyunlarının Trabzonda keçirilməsi üçün qərar verilmişdi. Bununla bağlı Azərbaycan tərəfi Türkiyə tərəfinə dərin minnətdarlığını bildirmişdi. 1994-cü il noyabrın 16-da Trabzonda, 15-də isə Aşqabadda ölkəmizin müvafiq olaraq milli və olimpiya komandaları İsrailin hər eyniadlı komandaları ilə görüşmüş və bu görüşlərdə ev sahibi kimi çıxış etmişdi [36, v.5]. Türkiyə tərəfi Azərbaycan və İsrail heyətlərini qəbul etmiş və yerləşdirmişdi. Eyni zamanda, yeni yaradılmış olan Gənclər və İdman Nazirliyinin imkanlarının olmamasını nəzərə alan Türkiyə tərəfi Azərbaycana kömək edərək, onları qarşılamaq, iaşə, mehmanxana və nəqliyyat problemlərini həll etmişdi. Bununla yanaşı, qonaq idmançılara məşq sahələrinin verilməsini və hər iki stadiona maliyyə baxımından kömək edilməsini təmin etmişdi. Ümumilikdə, 50 nəfərdən ibarət Azərbaycan heyəti Trabzondakı Qara Dəniz Texniki Universitetinin yataqxanasında dörd gün müddətində təmənnasız olaraq yerləşdirilmişdi [36, v.5].

İki ölkə arasında idman əlaqələrində mühüm yerlərdən birini Azərbaycan Respublikasında və Türkiyədə inkişaf etmiş idman sahələrində məşqçi və kadrların mübadiləsi tutmuşdu. Bu baxımdan təqdirəlayiq haldır ki, cüdo üzrə məşqçilər H.Əhmədov və İ.Musa 1992-1996-cı illərdə Türkiyə yığmasına rəhbərlik etmişlər.

Türkiyə hökuməti "Qara Dəniz və Avrasiya idman oyunları" (KASO) adı altında olimpiya statuslu idman oyunları təşkil etmək üçün çalışmalara başlamışdı. Dörd ildən bir keçiriləcək bu oyunların birincisinin 1996-cı ildə Türkiyədə reallaşdırılması planlaşdırılırdı [36, v.8-10]. Qara dəniz və Avrasiya ölkələri arasında mövcud əlaqələri daha da qüvvətləndirmək, bu ölkələr arasında sosial sahələrdə də yaxınlaşma yaratmaq məqsədini daşıyan bu layihəyə Azərbaycan Respublikası da tərəfdar çıxdığını və iştiraka hazır olduğunu bildirmişdi. Lakin müxtəlif səbəblərdən bu oyunların tədqiq olunan dövr çərçivəsində keçirilməsi mümkün olmamışdı.

Məlumdur ki, Azərbaycan Respublikasının idmançıları Atlantada Olimpiya oyunlarında ilk dəfə olaraq, müstəqil milli komanda kimi çıxış etmişdilər. Demokratik inkişaf yolunda olan ölkə üçün yüksək idman forumunda iştirak etmək çox əhəmiyyətli olduğundan, Azərbaycan tərəfi Atlantada yalnız idman nəticələri göstərməyə deyil, həmçinin 197 ölkədən iştirak edəcək idmançılarla əlaqələrin yaradılmasına çalışmışdı [36, v.11]. Buna görə də Azərbaycan-Türkiyə idmançıları qarşısında duran problemləri müzakirə etmək, idmanın müxtəlif sahələrində əməkdaşlıq məsələlərini öyrənmək üçün Atlantada Olimpiya oyunları zamanı Azərbaycan gənclər və idman naziri Türkiyə gənclər və idman işləri üzrə dövlət naziri, Gənclər və İdman Nazirliyinin baş müdiri ilə görüşmüşdü.

Türkiyədə hər il qeyd edilən 19 May Atatürkü anma, gənclik və idman bayramı çərçivəsində 15-21 may 1997-ci ildə gənclik həftəsi keçirilmişdi [37, v.18]. "Gənclik həftəsi" zamanı ölkənin bütün vilayətlərindən gələn gənclər Ankaradakı tədbirlər-

də iştirak edirlər. 1998-ci ildə Türkiyə Respublikasının 75-ci ildönümü münasibətilə 15-21 may 1997-ci ildə keçirilən XVI gənclik həftəsinin Ankaradakı proqramının beynəlxalq xarakter alması, bu məqsədlə hər ölkədən də bir nəfər gəncin Türkiyəyə dəvət edilərək 80 vilayətdən gələcək gənclərin təmsilçilərilə birlikdə tədbirlərə qatılması qərarlaşdırılmışdı. Azərbaycan Respublikasından da bu tədbirlərə ingiliscə bilən 16-23 yaşlı bir gəncin iaşə və mehmanxana xərcləri Türkiyə Gənclər və İdman Baş Müdirliyi, gediş-gəliş və yol məsrəfləri isə iştirakçı tərəfindən qarşılanmaq surətilə dəvət edilməsi məqsədə uyğun sayılmışdı.

Türkiyə-Azərbaycan idman əlaqələrində hər iki ölkənin dövlət başçılarının da qarşılıqlı səfərləri az rol oynamamışdı. Bu baxımdan 4-8 may 1997-ci ildə prezident H.Ə.Əliyevin Türkiyəyə səfəri müxtəlif sahələrdə, o cümlədən idman sahəsində əlaqələrimizə müsbət təsir etmişdi. Səfərdə ölkəmizin Gənclər və İdman naziri də iştirak etmiş və iki ölkə arasındakı gənclər və idman əlaqələrinin daha da genişləndirilməsi məqsədi ilə görüşlər keçirmişdi. Qeyd etmək lazımdır ki, dövlət və hökumət rəhbərlərinin, o cümlədən müvafiq qurum başçılarının sonrakı görüşləri də bu əlaqələrə öz töhfəsini vermişdi. Bu baxımdan Türkiyənin milli güləşlər üzrə keçirilən yarışlarının sponsoru, biznesmen, Krıkpınar ağası H.Şahinin və Ədirnə şəhərinin başçısı H.Sədəfçinin 9-11 fevral 1998-ci ildə Bakıya səfərini əhəmiyyətli hesab etmək olar [37, v.14].

İdman sahəsində əlaqələri daha da genişləndirmək məqsədilə 9 fevral 1994-cü ildə imzalanmış protokola əlavə olaraq 1997-ci il mayın 5-də yenə də Ankarada "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında gənclər və idman sahəsində əlavə protokol" imzalanmışdı [37, v.17]. Məhz bu saziş ölkələrimiz arasında gənclər və idman sahəsində əməkdaşlığın artmasına və möhkəmləndirilməsinə böyük imkanlar yaratmışdı [37, v.18]. Həmin sazişlərə görə illik iş proqramlarının tərtib edilməsi nəzərdə tutulmuşdu. Bu əsasla Azərbaycan

tərəfi 1998-ci il üçün öz proqramını Türkiyə Gənclik və İdman Baş Müdirliyinə göndərmiş və 1998-ci ildə imzalanması nəzərdə tutulmuş protokola əsasən Türkiyə idmançılarını 1998-ci ildə Azərbaycan Respublikasında keçiriləcək yarışlara dəvət etmişdi [37, v.19]. Bu cəhətdən qardaş Türkiyənin müvafiq qurumları ilə əlaqələr qurulmasına və Türkiyədə keçirilən müxtəlif tədbirlərdə gənclərin və idmançıların iştirakına ayrıca diqqət yetirilmişdi. Belə ki, 1997-ci ildə Konyada cüdo üzrə "Mövlanə" turnirində idmançılarımız fəal iştirak etmiş və eyni vaxtda keçirilən bədən tərbiyəsi və idmanın tarixi ilə bağlı seminarda Azərbaycan Cüdo Federasiyasının baş katibi Z.Məmmədov geniş məruzə ilə çıxış etmişdi. 1998-1999-cu illərdə stend atıcılığı üzrə yığma komandamızın üzvləri İstanbulda keçirilən təlim-məşq toplantısında, 1999-cu ildə idmançılarımız Türkiyədə keçirilən kamandan oxatma qran-pri yarışında, həndbol üzrə qızlar arasında beynəlxalq turnirlərdə, 2000-ci ildə həndbol üzrə gənclərdən ibarət yığma komandalarımız Türkiyədəki beynəlxalq turnirdə, 2000-ci ilin yanvarında Trabzon şəhərinin həndbol üzrə kişilərdən və gənclərdən ibarət komandaları Bakıda keçirilən yarışlarda iştirak etmişlər. Həmçinin 23-27 yanvar 2000-ci ildə Azərbaycan Futbol Federasiyasının dəvəti ilə Trabzon şəhərinin yığma komandası Bakıya gəlmiş, həndbol üzrə 19-27 aprel 2000-ci ildə respublikanın gənclərdən ibarət yığma komandası Trabzona dəvət olunmuşdur. Faktlardan da göründüyü kimi, Azərbaycan Respublikası ilə Türkiyənin idman əlaqələri ardıcıl, sabit və getdikcə yüksələn xarakter almışdı [37, v.26-30]. Xüsusilə ölkələrimizin cüdo üzrə federasiyalarının əməkdaşlığını qeyd etmək lazımdır. Cüdo üzrə isə Türkiyə və Azərbaycan Federasiyaları arasında qarşılıqlı dostluq əlaqələrinin saxlanılması, Azərbaycan cüdoçularının Ankara, İzmir, İstanbul şəhərlərində Trabzon, Rizə, Girəsun, Samsun, Eskişehir bələdiyyələri tərəfindən təşkil olunmuş turnirlərdə iştirakı, həmçinin 2000-ci ildə Türkiyədən güləş üçün ləvazimatlar və tatamilərin alınması və s. buna misal ola bilər. Fərəhlə qeyd etmək lazımdır ki, idman təhsili sahəsində

yaxşı əlaqələrimizin nəticəsində 2000-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 277 türkiyəli gənc təhsil almışdı [37, v.47].

Ancaq yuxarıda sadalanan əlaqələrimizlə yanaşı anlaşılmazlıqlar da olmuşdu. Belə ki, futbol üzrə Azərbaycan yığma komandası 3-14 mart 1999-cu ildə təlim-məşq toplanışı və Rusiyanın, İsveçin, Finlandiyanın və digər ölkələrin komandaları ilə görüşlər keçirmək üçün Kiprə səfər etmişdi [37, v.28]. Səfər Türkiyə ictimaiyyəti tərəfindən narazılıqla qarşılanmışdı. Bu narazılığı yumşaltmaq üçün Gənclər və İdman Nazirliyinin mətbuat xidməti bəyanat vermişdi. Bu məsələ ilə bağlı eyni zamanda Azərbaycan Respublikasının Rusiyadakı səfirliyi Cənubi Kiprin Rusiyadakı məsləhətçisi ilə görüşmüşdü [37, v.31].

2002-ci ildə futbol üzrə Koreya və Yaponiyada keçirilən XVII dünya çempionatı finalları çərçivəsində Azərbaycan xalqının və futbol azarkeşlərinin göstərdiyi yüksək hissiyyat və yaxın maraqdan, Türkiyə milli yığma komandasının böyük uğurunun Bakıda böyük izdiham və təntənə ilə qeyd edilməsindən türk xalqı və türk milli komandasının təsirləndiyini, təbii olaraq bu dəstəyin alınan nəticədə ən böyük rol oynadığını xüsusi qeyd etmək olar. Bu hadisə idman sahəsində Azərbaycan-Türkiyə əlaqələrinin çox yüksək olduğunu bir daha göstərmişdi.

Ölkələrimizin gəncləri və idmançıları arasında ənənəvi dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirmək və genişləndirmək məqsədi ilə Türkiyənin idman üzrə məsul dövlət naziri 2001-ci ildə Azərbaycan Respublikasına dəvət edilmişdi. 2001-ci ildə Türkiyənin idmançıları Azərbaycan Respublikasında keçirilən aşağıdakı yarışlara dəvət olunmuşlar [37, v.43]: 12-19 iyunda otüstü hokkey üzrə "Qurtuluş Günü"nə həsr olunmuş turnirə, 28-30 sentyabrda cüdo üzrə general H.Aslanovun xatirəsinə həsr olunmuş turnirə, 12-18 noyabrda su polosu üzrə Azərbaycan Respublikasının Konstitusiya gününə həsr olunmuş turnirə və 12-17 dekabrda boks üzrə Ə.Çoudrinin şərəfinə keçirilən turnirə.

Göstərilən yarışlarda iştirak edən türkiyəli idmançıların bütün yaşayış və yemək xərclərini Azərbaycan tərəfi öz üzərinə götürmüşdü.

15-17 avqust 2002-ci ildə Azərbaycan Respublikası nümayəndə heyətinin Türkiyəyə səfəri zamanı turizmə aid məsələlərlə yanaşı, idman üzrə məsul dövlət naziri ilə görüşdə idman, idman təhsili sahəsində əlaqələrin genişləndirilməsi də müzakirə edilmiş və xüsusi protokol imzalanmışdı [37, v.32]. Türkiyənin gənclər və idman məsələləri üzrə baş direktoru K.Mutlu ilə görüşdə ölkələrimizdə idman növləri üzrə rəsmi yarışlara hər iki tərəfin idmançılarının qatılması, birgə təlim-məşq toplanışlarının keçirilməsi, məşqçilik və hakimlik seminarlarına Türkiyə və Azərbaycan mütəxəssislərinin cəlb edilməsi məsələləri diqqət mərkəzində olmuşdur. Razılığa əsasən hər iki ölkənin idman təmayüllü tədris müəssisələrinin tələbə və elmi-pedaqoji kadrlarının mübadiləsi nəzərdə tutulmuşdu. Görüşlərdə "İdman sahəsində əməkdaşlıq haqqında saziş"i (9 fevral 1994-cü il) və "Gənclik və idman sahəsində əməkdaşlıq haqqında" əlavə protokolu (5 may 1997-ci il) daha işlək hala gətirmək məqsədilə gənclər və idman proqramlarının hazırlanması üçün iki ölkənin gənclər və idman təşkilatlarının məsul şəxslərinin vaxtaşırı görüşməsi haqqında razılığa gəlinmişdi. Bu protokol iki əsl nüsxədə 16 avqust 2002-ci ildə Ankarada hazırlanmış və imzalanmışdı [37, v.44]. Bu və bu kimi digər tədbirlərin hesabına 2002-2004-cü illərdə Türkiyə-Azərbaycan idman əlaqələri daha da canlanmışdı. Həm də qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikası və Türkiyə arasında hava nəqliyyatı haqqında ikitərəfli saziş (7 may 1992-ci il) və protokolun (13 aprel 2004-cü il) imzalanması bütün sahələrdə, o cümlədən turizm və idman sahəsində də əlaqələrin inkişafı üçün geniş imkanlar açmışdı [37, v.5; 53, v.45].

Azərbaycan Respublikası ilə Türkiyə arasında idman əlaqələri təkcə ikitərəfli əsas üzərində deyil, həm də onların üzv olduğu müxtəlif təşkilatlar çərçivəsində aparılmışdı. Məsələn, 2005-

ci ildə islam ölkələrinin idman nazirlərinin iclası və həmrəylik oyunlarında Azərbaycan Respublikası, Türkiyə və Şimali Kipr Türk Respublikasının idman nazirləri görüşərək çoxtərəfli əməkdaşlığın inkişaf yollarını müzakirə etmişlər [37, v.57]. Onu da qeyd etmək lazımdır ki, bu cür əlaqələr hər iki dövlətin üzv olduğu digər təşkilatlar çərçivəsində də həyata keçirilmişdi.

2005-ci ildə ölkələrimizin idmançıları Bakı, İstanbul, İzmir, Antalya, Marmaris şəhərlərində keçirilmiş cüdo, boks, gimnastika, sərbəst və yunan-Roma güləşi, atletika, taekvondo, kamandan oxatma, qılıncoynatma, həndbol, voleybol və alpinizm üzrə 10-dan çox müxtəlif yarışlarda iştirak etmişlər [37, v.60]. Voleybol üzrə qadınlar arasında 2004-2005-ci illər Avropa çempionlar liqasının qrup mərhələsi oyunları çərçivəsində ölkəmizin "Azərreyl" klubu Türkiyənin "Beşiktaş" komandası ilə Bakıda və İstanbulda qalibiyyətli iki matç keçirmişdi. 2005-ci il mayın 24-dən iyunun 1-ə kimi Marmarisdə keçirilmiş sərbəst və yunan-Roma güləşi üzrə beynəlxalq turnirdə iştirak etmiş yeniyetmələrdən ibarət yığma komandamız bir qızıl, iki gümüş və iki bürünc medal əldə etmişdi. Həmin il avqustun 11-21-də İzmirdə keçirilmiş tələbə idmançıların XXIII universiadasında Azərbaycan komandası atletika, taekvondo, kamandan oxatma, sərbəst və yunan-Roma güləşi, qılıncoynatma idman növündə 38 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuşdu. 2005 ci ilin avqustunda Türkiyədə alpinizm üzrə təşkil olunmuş "Ağrı dağına yürüş" adlı beynəlxalq tədbirdə tərkibində 4 nəfər olan komandamız da iştirak etmişdi. 2005-ci il noyabrın 12-15-də Antalyada yeniyetmələr arasında cüdo üzrə ənənəvi beynəlxalq turnir keçirilmişdi. 2005-ci ildə bu qardaş ölkənin də nümayəndələri bizim ölkədə keçirilmiş yarışlarda fəal iştirak etmişlər [37, v.61]. 11-13 martda Bakıda taekvondo üzrə gənclərin Avropa birinciliyi keçirilmiş, bu yarışlarda Türkiyə idmançıları dörd qızıl, dörd gümüş və dörd bürünc medal əldə edərək medalların ümumi sayına görə ölkələr arasında ikinci yerə çıxmışdılar. 22-28 martda Bakıda Ə.Çoudrinin kuboku uğrunda yarışda, 9-10 apreldə Bakıda

kişilər arasında “B” kateqoriyalı beynəlxalq cüdo turnirində, 5-9 mayda ümummilli liderimiz H.Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmə boksçuların və general H.Aslanovun xatirəsinə həsr olunmuş cüdoçuların beynəlxalq turnirlərində Türkiyə komandaları fəal iştirak etmişdi. Mayın 3-11-də Bakıda qadınlar arasında həndbol üzrə Azərbaycan və Türkiyə komandaları arasında yoldaşlıq görüşləri keçirilmişdi. Mayın 13-dən 15-dək Bakıda bədi gimnastika üzrə Azərbaycan Gimnastika Federasiyasının kuboku uğrunda yarışlarda Türkiyə gimnastika məktəbinin yetirmələri də təmsil olunmuşdular. Yenə də həmin il oktyabrın 3-9-da Bakıda bədii gimnastika üzrə keçirilmiş dünya çempionatına Türkiyə idmançıları da qatılmışdı. Oktyabrın 18-də Bakı idman sarayında voleybol üzrə qadınlar arasında 2005-2006-ci illər Avropa çempionlar liqası çərçivəsində oyun keçirilmişdi. Ölkəmizi bu mötəbər turnirdə təmsil edən “Azərreyl” klubu paytaxtda Türkiyənin “Vakıf Bank Güneş” (İstanbul) komandasını qəbul etmişdi. 12 aprel 2006-cı ildə Azərbaycan və Türkiyə milli futbol komandaları arasında görüş keçirilmişdi. Ardınca 11-15 aprel 2006-cı ildə isə Türkiyə Futbol Federasiyasının rəhbərləri Azərbaycana səfər etmişdi. Ümumiyyətlə, tədqiqat dövrünün xronoloji çərçivəsində idman sahəsində əməkdaşlıq ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsində mühüm sahələrdən biri kimi davam etdirilmiş, bu əlaqələrin ayrılmaz və üzvi tərkib hissəsi olmuşdu.

Azərbaycan Respublikası ilə ABŞ arasında beynəlxalq idman əlaqələri də, təbii ki, xüsusi əhəmiyyət kəsb edirdi. Ancaq ABŞ ilə Azərbaycan Respublikasının məsafəcə bir-birindən uzaqda yerləşməsi idman sahəsində sıx əlaqələr yaradılmasına xeyli çətinlik törətmişdi. Buna baxmayaraq, Azərbaycan Respublikasının idman qurumları ABŞ-ın əlaqədar qurumları ilə əlaqələr yaratmış və idmançılarımızın müxtəlif tədbirlərdə iştirak etməsi üçün bütün imkanlardan istifadə etməyə çalışmışlar [3, v.1-6]. Belə ki, Azərbaycan idmançıları 1995-ci ildə ABŞ-da keçirilmiş xüsusi idman oyunlarında, sərbəst güləş üzrə dünya

çempionatında iştirak etmiş, “Turan” futbol komandası ABŞ tərəfinin dəvəti ilə orada bir neçə yoldaşlıq görüşü keçirmiş, 1996-cı ildə stend atıcılarımız dünya kubokunun növbəti mərhələsinin, basketbol üzrə iki komandamız “Bob Krouzi” beynəlxalq turnirinin, digər nümayəndələrimiz paraolimpiya yarışlarının iştirakçısı olmuşdular.

1996-cı ilin ən böyük idman hadisəsi ABŞ-ın Atlanta şəhərində keçirilən XXVI Yay Olimpiya Oyunları olmuşdu. Azərbaycan idmançıları da həmin tədbirdə fəal iştirak etmişdilər [3, v.7]. Gənclər və idman naziri Ə.Qarayev 22-27 iyun 1997-ci ildə Milli Məclis sədrinin birinci müavini A.Rəhimzadənin rəhbərlik etdiyi parlament nümayəndə heyətinin tərkibində ABŞ-da səfərdə olmuşdu [3, v.8]. Səfər zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına, xüsusən gənclər və idman problemlərini əhatə edən məsələlərə geniş diqqət yetirilmişdi. Qaçqın və məcburi köçkün uşaqlarının problemləri də diqqət mərkəzində olmuşdu. Onu da qeyd etmək lazımdır ki, mərhum prezident H.Ə.Əliyevin ABŞ-a rəsmi səfərləri gənclər və idman sahəsində əməkdaşlığın genişləndirilməsi işinə çox böyük kömək etmişdi [3, v.9]. Azərbaycan tərəfi birgə idman tədbirləri, məşq toplanışları, amerikalı idmançılar və komandalarla vaxtaşırı görüşlər, məşqçi kadrlar və yeni məşq metodikası materialları mübadiləsini əhatə edən proqramın hazırlanması, idmanın maddi-texniki təchizatı və idman infrastrukturunun inkişafı sahəsində qarşılıqlı faydalı əməkdaşlıq şəraitinin yaradılması, idmançılarımıza müasir idman avadanlığı, idman geyimlərinin verilməsi sahəsində kömək göstərilməsi istiqamətində ABŞ-la əməkdaşlığın qurulmasına çalışmışdı. Bunun nəticəsi olaraq Rüfət və Emil İsrafilbəyov qardaşları ilk azərbaycanlı boksçular olaraq Baltimorda şöhrət qazanmışlar [3, v.10]. Ötən illər ərzində gənclərdən ibarət idmançı nümayəndə heyətlərimiz qarşılıqlı olaraq hər iki ölkədə təşkil olunmuş gənclər və idman tədbirlərində iştirak etmişlər [3, v.11-14]. Bunun bariz nümunəsi kimi 1997-1999-cu illərdə ABŞ idmançılarının Bakıda Ə.Çoudrinin şərəfinə keçirilmiş boks üzrə

beynəlxalq turnirlərdə iştirakını qeyd etmək olar. 24-30 oktyabr 2002-ci ildə isə hərbçi taekvondoçular arasında ABŞ-da keçirilmiş dünya çempionatında komandamız bir qızıl və üç bürünc medal qazanmışdı. 10-14 sentyabr 2003-cü ildə Nyu-Yorkda təşkil olunmuş sərbəst güləş üzrə dünya çempionatında idmançılarımız da qüvvələrini sınamışlar. 2004-cü ildə ölkəmizdə, 2005-ci ildə ABŞ-da boks üzrə Azərbaycan-ABŞ yoldaşlıq görüşləri keçirilmişdi. 2005-ci il mayın 13-15-də Bakıda təşkil olunmuş bədii gimnastika üzrə Azərbaycan Gimnastika Federasiyasının kuboku yarışlarında və oktyabrın 3-9-da XXVII dünya çempionatında ABŞ idmançıları iştirak etmiş, 17-19 iyun 2005-ci ildə Las-Veqasda keçirilmiş qılıncoynatma üzrə Qran-pri yarışlarında idmançımız qüvvəsini sınamışdı. Göründüyü kimi, Azərbaycan-ABŞ idman əlaqələri idmanın müxtəlif sahələrini əhatə etmişdi. Lakin düşünürük ki, bu əlaqələrin miqyasını heç də qənaətbəxş saymaq olmaz. Çünki həmin əlaqələrin daha geniş və dərin olması üçün kifayət qədər potensial var.

Tədqiq olunan dövrdə Azərbaycan Respublikası ilə MDB (ölkəmiz 1993-cü il sentyabrın 24-də bu təşkilata daxil olmuşdur) ölkələri, o cümlədən də Rusiya Federasiyası arasında beynəlxalq əlaqələr, o cümlədən idman əlaqələri miqyasına və intensivliyinə görə xüsusilə fərqlənmişdi [140, s.125-131]. Bu da əsassız deyildir. Çünki Azərbaycan Respublikası ilə Rusiya Federasiyası və digər sabiq müttəfiq respublikalar arasında idman əlaqələri SSRİ dövründə çox geniş və güclü olmuşdur. Bu əlaqələr müstəqillik dövründə əvvəlki illərlə müqayisə ediləcək səviyyədə olmasa da, davam etdirilmişdi. Bütün sahələrdə olduğu kimi, idman sahəsində də Rusiya Federasiyası ilə əlaqələrin müntəzəm xarakter alması üçün iki ölkə arasında müqaviləyə ehtiyac duyulurdu. Buna görə də Rusiya Federasiyası Bədən Tərbiyəsi Komitəsi ilə Azərbaycan Respublikasının Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi arasında 26 oktyabr 1993-cü ildə Sankt-Peterburqda 1993-1997-ci illəri əhatə edən 13 maddədən ibarət əməkdaşlıq sazişi imzalanmışdı [31, v.8]. Sazişin 13-cü bəndinə

əsasən tərəflərdən biri saziş vaxtının başa çatması müddətindən 6 ay əvvəl onun dəyişdirilməsi barəsində yazılı müraciət etməzsə, saziş müddəti avtomatik olaraq daha 5 il müddətinə uzadılır. Azərbaycan tərəfi digər ölkələrin müvafiq qurumlarını əməkdaşlıq proqramları çərçivəsində respublikamızda keçirilən beynəlxalq idman tədbirlərinə, o cümlədən Rusiya idmançılarını da idman qurumları arasındakı sazişə əsasən ölkəmizdə keçirilən idman yarışlarına dəvət etmişdi. Belə hallarda yaşayış və ölkədaxili nəqliyyat xərclərini Azərbaycan tərəfi öz üzərinə götürmüşdü. Bunlara misal olaraq iki dəfə Sovet İttifaqı Qəhrəmanı H.Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə beynəlxalq turniri, Qarabağda şəhid olmuş beynəlxalq dərəcəli idman ustası R.İsmaylovun xatirəsinə həsr edilmiş sambo üzrə beynəlxalq turniri, Çoudrinin kuboku uğrunda boks üzrə beynəlxalq turniri, dünya azərbaycanlılarının həmrəylik gününə həsr edilmiş minifutbol üzrə beynəlxalq turniri və b. göstərmək olar.

İki ölkə arasında idman sahəsində sazişdən əlavə 1996-cı il yanvarın 18-də Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası hökumətləri arasında 2000-ci ilə qədər olan dövrdə iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında saziş"in 15-ci maddəsinə əsasən tərəflər müxtəlif sahələrlə yanaşı turizm və idman sahəsində də qarşılıqlı münasibətlərin təmin olunmasında birgə tədbirlər görməli idilər. Bununla əlaqədar olaraq bu iki ölkənin müvafiq qurumları idman sahəsində qarşılıqlı münasibətlərin inkişafını davam etdirmiş və idmançılarımız həmin saziş əsasında idman tədbirlərində iştirak etmişlər. Bundan əlavə, ölkəmizin aparıcı idmançılarının Rusiyanın idman bazalarında birgə məsul yarışlara hazırlığı ilə əlaqədar təlim-məşq toplanışları keçirilmiş və bu ənənə indi də davam etməkdədir.

Ölkədə siyasi və iqtisadi vəziyyətin normallaşması ilə əlaqədar Azərbaycan və Rusiya xalqları arasında mədəni əlaqələr də genişlənmişdi. Belə ki, Moskvanın keçmiş meri Y.Luşkov Bakıda olarkən iki hökumət arasında bağlanmış müqavilənin 21

və 25-ci bəndlərinə müvafiq olaraq Gənclər və İdman Nazirliyinə 18 avqust 1997-ci ildə azərbaycanlı uşaqlardan ibarət qrupun Moskvanın 850 illiyinə həsr olunmuş şənliklərdə iştirakını, həmçinin moskvalı bir qrup uşağın Azərbaycan Respublikasında istirahətini, 1998-ci ildə yeniyetmələrin ümumdünya idman oyunlarında Azərbaycan nümayəndələrinin iştirakını təmin etmək həvalə olunmuşdu. Müqavilənin 25-ci bəndinə əsasən 11-19 iyul 1998-ci ildə Moskvada 140 ölkənin nümayəndələrinin iştirakı ilə Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında yeniyetmələrin I Ümumdünya İdman Oyunlarında Azərbaycan idmançılarının iştirakı üçün hazırlıq işləri görülmüş və bu məqsədlə may ayında ümumrespublika yarışları keçirilmişdi [103, s.407]. Həmçinin Rusiya və Moskva şəhər hökumətləri ilə Azərbaycan Respublikası hökuməti arasında bağlanmış sazişlərdə də Azərbaycan nümayəndə heyətinin bu oyunlarda iştirakının vacibliyi öz əksini tapmışdı. Bu məsələ ilə bağlı oyunların təşkilat komitəsindən Azərbaycan Respublikasının Milli Məclisinə və Xarici İşlər Nazirliyinə, oradan da Gənclər və İdman Nazirliyinə müvafiq sənədlər daxil olmuşdu [25, v.17]. Müvafiq proqrama əsasən həmin idman oyunlarında Azərbaycan nümayəndə heyətinə 350 yer ayrılmışdı. Bu oyunlarda bir nəfərin iştirak etmək xərci min iki yüz ABŞ dolları təşkil edirdi. 1998-ci il üçün təsdiq olunmuş büdcədə bu oyunlarda respublikanın nümayəndə heyətinin iştirakı nəzərdə tutulmamışdı. Ölkənin iqtisadiyyatının vəziyyəti nəzərə alınaraq bu oyunlarda iştirak edəcək nümayəndə heyətinin 150 nəfərdən ibarət olması məqsədəuyğun sayılmışdı. 13-18 may 1998-ci ildə bu tədbirlə əlaqədar Bakıda 800 idmançının iştirakı ilə müxtəlif növlər üzrə respublika final yarışları keçirilmişdi. Moskvada keçiriləcək Ümumdünya İdman Oyunlarında idmançılarımızın iştirakının təşkilini Milli Olimpiya Komitəsi öz öhdəsinə götürmüşdü. Nümayəndə heyətinin komplektləşdirilməsi ilə bağlı təşkilat komitəsi yaradılmış və bütün məsələlərin icrası "Azəridmanservis" müəssisəsinə həvalə edilmişdi. Müvafiq proqrama əsasən nəzərdə tutulmuş nümayəndə heyətinin

tərkibinə olimpiya hərəkatında misilsiz əməyi olan idmançılar, olimpiya, dünya, Avropa çempionları, idman veteranları, mətbuat və informasiya işçiləri, bədii qruplar və s. daxil edilmişdi. Bu oyunların keçirilməsində əsas məqsəd MDB-də, Rusiyanın diyar və vilayətlərində olimpiya hərəkatını təbliğ etmək olmuşdu [31, 1.Программа «регионы России и страны СНГ – на всемирных юношеских играх 1998 года»]. "Bədən Tərbiyəsi və İdman" haqqında qanunun tətbiq edilməsinə dair Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 1998-ci il tarixli fərmanının 3-cü bəndinin 2-ci abzasına uyğun olaraq hazırlanmış və Nazirlər Kabinetinin 3 fevral 2000-ci il sərəncamı ilə təsdiq edilmiş "Bədən tərbiyəsi və idmanın inkişafının dövlət proqramı" - nın 8-ci və 9-cu bəndləri Rusiya Federasiyası ilə əməkdaşlığı nəzərdə tuturdu. Proqrama və bağlanmış müqavilələrə uyğun olaraq 2000-2001-ci illər ərzində Azərbaycan Respublikasının idman nümayəndə heyətləri Rusiya Federasiyasının müxtəlif şəhərlərində təşkil olunmuş bir sıra idman yarışlarında iştirak etmiş və eləcə də respublikamızda keçirilmiş çoxsaylı idman tədbirlərində Rusiya idmançıları təmsil olunmuşdular. 2000-ci ilin 9-11 martında Ryazanda üzgüçülük üzrə yeniyetmələrdən ibarət komandamız Avrasiya liqasının birinciliyində, 2000-ci ilin sentyabrında Beynəlxalq Poliatlon Federasiyasının təşəbbüsü ilə Anapada keçirilmiş beynəlxalq poliatlon yarışında, gənc futbolçularımız 19-29 oktyabr 2000-ci ildə Həştərxan vilayətinin qubernatoru A.P.Qujvinin kuboku uğrunda beynəlxalq turnirdə, həndbol üzrə yeniyetmə qızlardan və qadınlardan ibarət yığma komandalarımız 2000-ci ilin aprel və dekabr aylarında Həştərxan vilayətində keçirilmiş beynəlxalq turnirdə, bundan başqa, boks üzrə Dağıstanda, Saratovda və Vladimirdə keçirilmiş beynəlxalq turnirlərdə fəal iştirak etmişlər. Sadalananlarla yanaşı qeyd etmək vacibdir ki, Rusiyanın basketbol federasiyası Azərbaycan basketbol federasiyasını hamiliyə götürmüş və kişilərdən ibarət basketbol üzrə yığma komandaya praktiki köməklik göstərmək məqsədilə Rusiyanın basketbol federasiyası məşqçi

B.Xalitovu Bakıya ezam etmişdi. Həmçinin Rusiyanın basketbol federasiyası 2000-ci ilin may ayında Azərbaycanın basketbol komandasını Rusiyanın tələbə liqasında keçirilən yarışlarda iştirak etməyə buraxmış və bu idman növü üzrə təcrübə mübadiləsinin aparılması məqsədilə Azərbaycan basketbol federasiyasına metodiki ədəbiyyat göndərmişdi. Bundan başqa, qadınlardan ibarət basketbol komandamız 2000-ci ildə Rostov, Pyatiqorsk və Volqoqrad şəhərlərində keçirilmiş yoldaşlıq görüşlərində iştirak etmişdi.

16-19 mart 2000-ci ildə Moskvada MDB-yə üzv ölkələrin idman nazirlərinin yığıncağında Azərbaycan tərəfi üç nəfərdən ibarət nümayəndə heyəti ilə iştirak etmişdi. Bu yığıncaqda əsasən iki məsələ-milli yığma komandaların 2000-ci ildə Sidneydə keçiriləcək Olimpiya Oyunlarına hazırlığı və iştirakı dövründə MDB ölkələri idman təşkilatlarının əməkdaşlığı və onların 2000-2004-cü illərdə əməkdaşlığının əsas istiqamətləri müzakirə edilmişdi. Müzakirə iştirakçıları Sidneydə keçiriləcək Olimpiya Oyunlarına hazırlıqla əlaqədar idmançıların ikitərəfli və çoxtərəfli təlim-məşq toplantılarının keçirilməsi, MDB ölkələri yığma komandaları idmançılarına elmi və tibbi yardım göstərilməsi, vətəndaşlıqlarını dəyişmiş idmançıların MDB ölkələrinin yığma komandalarının tərkibində çıxış etmələrinin təsdiq edilməsi, MDB ölkələri ərazilərində Avstraliyaya xüsusi tariflərlə aviareyslərin təşkil edilməsi, MDB ölkələri nümayəndələrinin beynəlxalq idman təşkilatlarında daha səmərəli fəaliyyət göstərməsi məsələlərini müzakirə etmiş və müvafiq sənəd imzalamışdılar. Eyni zamanda müşavirə iştirakçıları 2000-2004-cü illərdə əməkdaşlığın aşağıdakı əsas istiqamətlərini müəyyənləşdirmişdilər: əməkdaşlığın müqavilə – hüquq bazasının yaradılması, bədən tərbiyəsi və idman sahəsində qanunvericilik və normativ hüquqi sənədlərin təhlil edilməsi, ictimai bədən tərbiyəsi və idman təşkilatlarına əhalinin sağlamlığına yönəlmiş fəaliyyətdə hərtərəfli dövlət köməyi göstərilməsi, kütləvi idman, bədən tərbiyəsi–idman hərəkatının, o cümlədən uşaq, gənclər, tələbə, qadın və əlil-

lər idmanının inkişaf etdirilməsi, təhsil və elmi-tədqiqat işlərində qarşılıqlı fəaliyyət göstərilməsi, MDB ölkələri yığma komandalarının dopinq yoxlamalarının keçirilməsi, onların elmi-metodiki problemlərinin və tibbi-bioloji təminat sahəsində işlərinin əlaqələndirilməsi, idman qurğularının lahiyələşdirilməsi, tikintisi və istismar edilməsi sahəsində, idmanın maddi-texniki bazasının inkişafında təlim-məşq toplantıları və idman konsert tədbirlərinin keçirilməsi zamanı təhlükəsizliyin təmin olunmasında əməkdaşlıq edilməsi, idman federasiyaları, regional təşkilatlar, sərhəd rayonları səviyyəsində, həmçinin Olimpiya oyunları da daxil olmaqla iri beynəlxalq tədbirlərin keçirilməsi zamanı əlaqələr yaradılması, beynəlxalq idman təşkilatlarında, xüsusən Avropa Şurası İdmanın İnkişafı Komitəsində birgə fəaliyyət göstərilməsi, beynəlxalq idman federasiyalarında birgə fəaliyyətin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, idman informasiyası mübadiləsi, vahid elektron məlumat bankının yaradılması və çap materiallarının yayılması. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı nazir Ə.Qarayev Azərbaycan Respublikasında dövlət idman siyasəti, idmana göstərilən qayğı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin fəaliyyəti, ölkəmizin Avropa Şurasının idman qurumlarında iştirakı, habelə ölkəmizdə keçirilən beynəlxalq idman tədbirləri haqqında geniş məlumat vermişdi. Həmçinin Ermənistanın təcavüzü nəticəsində işğala məruz qalmış ərazilərimizdə çoxlu sayda idman qurğularının dağıdılması, eyni zamanda vaxtilə bütün birlik ölkələrinin idmançılarının hazırlıq keçdikləri Kür Olimpiya Bazasında qaçqınların və məcburi köçkünlərin yaşaması ucbatından onun lazımi səviyyədə istifadə olunmamasından danışmışdı.

Belə müşavirələrin hər il keçirilməsinin vacibliyini nəzərə alan iştirakçılar 2001-ci ildə növbəti belə toplantının Kiyevdə keçirilməsi barədə qərar çıxardılar. Müşavirə keçirilən günlərdə bizim nümayəndə heyətimiz tərəfindən Gürcüstan, Qazaxıstan, Moldova, Ukrayna, Rusiya bədən-tərbiyəsi və idman dövlət idarəetmə orqanlarının rəhbərləri ilə ikitərəfli görüşlər keçirilmiş,

mövcud hökumətlərarası sazişlərin yerinə yetirilməsi vəziyyəti və gələcək perspektivləri müzakirə edilmiş, eyni zamanda Rusiyanın bir sıra idman federasiyalarının rəhbərləri ilə danışıqlar aparmışdı [31, Список Министерств Комитетов по физической культуре и спорту].

9-10 yanvar 2001-ci ildə Rusiya Federasiyasının prezidenti V.Putinin Azərbaycan Respublikasına səfərindən sonra bu əlaqələrin yaxşılaşması və genişlənməsi prosesi başlanmışdı. Öz növbəsində Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyevin 2002-ci ilin yanvarında Moskvaya dövlət səfəri bir çox istiqamətlərdə ikitərəfli münasibətlərin inkişafına xüsusi təkan vermişdi [31, v.42]. Bununla əlaqədar gənclər, idman və turizm kimi mühüm sahələrdə də uzunmüddətli əlaqələrin yaradılması, inkişaf etdirilməsi və genişləndirilməsinə ehtiyac duyulmuşdu. Beləliklə, ölkələrimiz arasında idman sahəsində, idmançılar və idman təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsi məqsədilə Rusiya Federasiyasının idmançıları 2001-ci ildə Azərbaycanda keçirilən aşağıdakı yarışlara dəvət edilmişlər: 12-18 martda minifutbol üzrə Novruz bayramına həsr olunmuş ənənəvi turnir, 12-19 iyunda otüstü xokkey üzrə Qurtuluş gününə həsr olunmuş turnir, 28-30 sentyabrda cüdo üzrə general H.Aslanovun xatirəsinə həsr olunmuş turnir, 12-17 dekabrda boks üzrə 1983-1984 təvəllüdlü idmançılar üçün Ə.Çoudrinin turniri. Yuxarıda göstərilən yarışlarda iştirak edən idmançıların bütün yaşayış xərclərini Azərbaycan tərəfi öz üzərinə götürmüşdü.

2001-ci ilin aprelində Moskvada keçirilmiş həndbol üzrə Rusiya çempionatını idarə etmək üçün bizim mütəxəssislər-beynəlxalq dərəcəli hakimlər İ.Əsgərov və V.Neçay dəvət edilmişdilər. 8-9 may 2001-ci ildə Tulada keçirilmiş idman rəqsləri üzrə regionlararası “Arzu-2001” VI ənənəvi açıq turnirində, yenə də mayda Mahaçqalada keçirilmiş sərbəst güləş üzrə beynəlxalq turnirdə, iyunda Xasavyurt və iyulda Krasnoyarskda sərbəst güləş üzrə beynəlxalq turnirlərdə, sentyabrda Anapada poliatlon üzrə dünya çempionatında, oktyabrda cüdo üzrə Moskvada keçi-

rilən Qran-pri turnirində Azərbaycan idmançıları, həmçinin 2001-ci ilin martında Pyatiqorsk və Volqoqrad komandaları Bakı turnirində, 14-17 may 2001-ci ildə Bakıda sərbəst güləş üzrə beynəlxalq turnirdə, habelə 13-21 oktyabr 2001-ci ildə Bakıda keçirilən boks üzrə yeniyetmələr arasında dünya çempionatında Rusiya komandaları fəal iştirak etmişlər.

Azərbaycan-Rusiya hökumətləri arasında mədəni və elmi əməkdaşlıq haqqında 6 iyun 1995-ci il tarixli sazişi və informasiya mədəniyyət mərkəzlərinin təsisi və fəaliyyət şəraiti haqqında 3 iyul 1997-ci il tarixli hökumətlərarası sazişi əsas tutaraq hər iki tərəf 2000-2002-ci illərdə mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlıq üzrə uzunmüddətli proqramı həyata keçirməyin məqsədəuyğunluğu barədə anlaşmaya müvafiq olaraq mədəniyyət, təhsil, elm və idman müəssisə və təşkilatları arasında bilavasitə əlaqələrin inkişafına, mədəniyyət və elm nümayəndələrinin, o cümlədən gənclərin və qadınların şəxsi təmaslarının möhkəmləndirilməsinə, Rusiya hökumətinin, onun subyektlərinin və regionlarının rəhbərliklərinin və Azərbaycan hökumətinin dəstəyi ilə birbaşa mübadilələrin təşkilinə hər vasitə ilə kömək etməli, mədəniyyət, elm, təhsil, informasiya və idman sahəsində birgə yaradıcı kollektivlərin və birgə müəssisələrin yaradılmasına çalışmalı, Azərbaycan və Rusiya xalqlarının siyasi, mədəni və ictimai həyatında əlamətdar tarixlərə və hadisələrə həsr olunmuş müxtəlif tədbirlərin keçirilməsinə lazımi diqqət yetirməlidirlər. Proqramın 4-cü hissəsinin 1-ci bəndi idman mütəxəssislərindən, məşqçilərindən və komandalardan ibarət nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsi yolu ilə bədən tərbiyəsi və idman sahəsində əlaqələrin inkişafını nəzərdə tuturdu. Proqramdakı tədbirlərin həyata keçirilməsinin konkret şərtləri və müddətləri, o cümlədən maliyyə şərtləri qarşılıqlı məsləhətləşmələr yolu ilə müəyyən olunması nəzərdə tutulurdu. Bütün hallarda (xüsusi olaraq əvvəlcədən şərtləşdirilən hallardan başqa) göndərən tərəf öz nümayəndə heyətinin paytaxtdan-paytaxta və geriyə yol xərcini çəkirdi. Qəbul edən tərəf özündəki mövcud normalar üzrə

onların yerləşdirilməsi, yeməklə, tərcüməçilərlə, lazımi tibbi xidmətlə, habelə ölkə daxilində nəqliyyatla təmin olunması üzrə xərclərini ödəməli idi. 1999-cu il noyabrın 5-də Bakıda Azərbaycan və rus dillərində iki nüsxədə imzalanmış proqramın yerinə yetirilməsi ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişlənməsinə və dərinləşməsinə imkan yaratmalı idi [31, v.36]. 24 aprel 2001-ci ildə Moskvada və 10 aprel 2002-ci ildə Bakıda imzalanmış "İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının 5-ci və 6-cı iclas protokolları"nın "Humanitar əməkdaşlıq haqqındakı fəsli"nin 9-cu bəndində Rusiya və onun regionları ilə Azərbaycan arasında idman sahəsində əməkdaşlığı genişləndirmək nəzərdə tutulurdu [31, v.43]. Həmçinin komissiya həmsədrlərinin 19 dekabr 2002-ci il tarixli görüş protokolunun yerinə yetirilmə planının icrası ilə əlaqədar Azərbaycan tərəfi Rusiyanın Dövlət İdman Komitəsi ilə daimi sıx əlaqədə fəaliyyət göstərmiş və idman sahəsində dövlətlərarası əməkdaşlığın fəallaşması, idman nümayəndə heyətlərinin hər iki ölkənin keçirdiyi yarışlarda iştirakı, bu sahədə təcrübə mübadiləsinin aparılması üçün birgə səylər göstərmiş və lazımi tədbirlər görmüşdür [31, v.44]. İdmançılarımız Rusiya Federasiyasının müxtəlif şəhərlərində boks, cüdo, voleybol, bilyard və universal döyüş üzrə rəsmi yarışlarda iştirak etmişdilər [32, v.45].

Ölkə və müvafiq qurum rəhbərlərinin səfərləri, bağlanmış saziş, protokol və müqavilələr və s. imkan vermişdir ki, Azərbaycan idmançıları Rusiyada, Rusiya idmançıları isə Azərbaycanda keçirilən müxtəlif idman yarışlarında iştirak etsinlər. Buna misal olaraq 14-24 iyun 2002-ci ildə Moskvada MDB və Baltikyanı ölkələri idmançılarının iştirak etdikləri yeniyetmələrin beynəlxalq idman yarışlarında Azərbaycanın 160 idmançısı 13 idman növündə ölkəmizi təmsil etmiş və bu yarışlarda atletlərimiz iki qızıl, bir gümüş və dörd bürünc medal qazanmışdılar. Yenə 2002-ci ildə idmançılarımız Rusiyanın müxtəlif şəhərlərində velosiped idmanı, cüdo və dama üzrə yarışlarda, Volqoqrad və

Kaspiyskdə boks üzrə keçirilmiş beynəlxalq turnirlərdə, boks üzrə iyunda Permdə keçirilmiş Avropa çempionatında, 20-23 sentyabrda yunan-Roma güləşi üzrə Moskvada 47-ci dünya çempionatında, 2 noyabrda cüdo üzrə Qran-pri beynəlxalq turnirində, 28 noyabr-2 dekabr 2002-ci ildə yeniyetmələr arasında rus bilyardının "piramida" növü üzrə dünya çempionatında, 7-9 noyabr Sankt-Peterbuqda hərbçilər arasında universal döyüş üzrə III dünya çempionatında və 1-4 noyabr 2002-ci ildə Moskvada yeniyetmələr arasında bilyard üzrə dünya kubokunun üçüncü mərhələsində Azərbaycanı uğurla təmsil etmişdilər.

Eyni zamanda Rusiya idmançıları 2002-ci ildə Bakıda sərbəst güləş, cüdo, atçılıq idmanı, yüz xanalı dama, həndbol, boks, sərbəst güləş və taekvondo üzrə keçirilmiş müxtəlif yarışlarda, gənclər arasında sərbəst güləş üzrə 45-ci Avropa çempionatında, boks üzrə Ə.Çoudri turnirində, cüdo üzrə general H.Aslanovun xatirəsinə həsr olunmuş və yelkən idmanı üzrə beynəlxalq turnirlərdə, 20-28 sentyabr 2002-ci ildə Bakıda Milli Olimpiya Komitəsinin 10 illiyinə və Azərbaycan Cüdo Federasiyasının yaradılmasının 30 illiyinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnirdə, 6-8 oktyabr 2002-ci ildə Milli Olimpiya Komitəsinin 10 illiyinə həsr olunmuş Bakı Dövlət Cıdır Meydanında ölkəmizdə atçılıq idmanının maneələri dəf etmə növü üzrə ilk dəfə keçirilmiş beynəlxalq turnirdə, 25-27 oktyabr 2002-ci ildə Bakıda Milli Olimpiya Komitəsinin 10 illik yubileyinə həsr olunmuş yüz xanalı dama üzrə beynəlxalq turnirdə, 11-13 dekabrda A.Ağalarovun xatirəsinə həsr edilmiş yeniyetmələr arasında boks üzrə keçirilmiş beynəlxalq turnirdə və 6-8 yanvar 2003-cü ildə Bakıda Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş N.İsayevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə beynəlxalq turnirdə təmsil olunmuşlar.

23-26 oktyabr 2002-ci ildə həndbol üzrə qadınlardan ibarət yığmamız Bakıda Rusiyanın "Astraxanoçka" komandası ilə yoldaşlıq görüşündə, 25-26 yanvarda Bakıda taekvondo üzrə MDB ölkələrinin birinci açıq çempionatında iştirak etmişlər. Ölkələri-

miz arasında idman sahəsində əlaqələrin daha da möhkəmləndirilməsi üçün Rusiyanın Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri Azərbaycana dəvət olunmuş, həmin komitə tərəfindən hazırlanan idman nazirlərinin koordinasiya şurasının əsasnaməsinin layihəsinə İdman Nazirliyində baxılmış, əlavə təkliflər verilmiş və bu qurumun işində nazirliyin iştirakı nəzərdə tutulmuşdu.

Göründüyü kimi, Rusiya Federasiyası ilə əlaqələrimizdə, o cümlədən idman əlaqələrində hökumətlərarası komissyanın rolu böyük olmuşdu. Bu baxımdan Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın yeddinci iclas protokolunun icrası ilə bağlı qeyd etmək lazımdır ki, əməkdaşlığın genişləndirilməsi üçün lazımi tədbirlər görülmüşdü [32, v.50]. İdmançılarımız 2003-cü ildə də Rusiya Federasiyasının müxtəlif şəhərlərində təşkil olunan bir sıra idman yarışlarında iştirak etmişdilər. Belə ki, 8 yanvar 2003-cü ildə Moskvada voleybol üzrə qadınlar arasında çempionlar liqasının növbəti oyununda "Azerreyl" komandası Rusiyanın "Uraloçka" komandası ilə qarşılaşmış, 25-26 yanvarda cüdo üzrə super "A" kateqoriyalı Moskva beynəlxalq turnirində, 3-7 fevralda Sankt-Peterburqda boks üzrə beynəlxalq turnirdə, 6-9 mart 2003-cü ildə Moskvada bədii gimnastika üzrə Qran-Pri turnirində, A.Xarlampiyevin xatirəsinə həsr olunmuş sambo üzrə turnirdə, 11-18 iyun 2003-cü ildə Yekaterinburqda dünyanın aparıcı qadın voleybol komandalarının iştirakı ilə beynəlxalq turnirdə, Rostovda 1-5 iyulda yunan-Roma güləşi üzrə yeniyetmələr arasında Avropa çempionatında, 2-6 sentyabr 2003-cü ildə Mahaçqalada boks üzrə beynəlxalq turnirdə, 9-10 may 2003-cü ildə Tverdə cüdo üzrə beynəlxalq turnirdə, habelə Sankt-Peterburqda beynəlxalq cüdo turnirində iştirak etmişlər. Eyni zamanda 2003-cü ildə Azərbaycan idmançıları mayda bilyard və bodibildinq üzrə Sankt-Peterburqda təşkil olunmuş dünya və Avropa çempionatlarının iştirakçısı olmuş, Azərbaycan həndbolçuları iyunun 13-21-də Volqoqradda beynəlxalq turnirdə qüvvələrini sınamışlar.

Bununla yanaşı Rusiya idmançıları da həmin ildə ölkəmizdə keçirilən çoxsaylı idman tədbirlərində təmsil olunmuşdular. Bunlara misal olaraq, onların 2003-cü ilin martın 18-22-də Bakıda Ə.Çoudrinin kuboku uğrunda keçirilmiş turnirdə, 9-11 avqustda Bakıda keçirilmiş gimnastika üzrə Dünya Kubokunun mərhələsində, 23-24 avqustda Bakıda yeniyetmələr arasında cüdo üzrə Avropa çempionatında, həmin ilin avqustunda at idmanı üzrə keçirilmiş beynəlxalq yarışda və 26-29 sentyabrda cüdo üzrə beynəlxalq turnirdə iştirakını göstərə bilərik.

Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın səkkizinci iclas protokolunun icrasına uyğun olaraq 2004-cü ildə hər iki ölkədə keçirilmiş idman tədbirlərində bu ölkələrin qarşılıqlı olaraq nümayəndə heyətləri iştirak etmiş, onlar idmançıların bir-birilərinin ərazilərində təşkil olunan yarışlarda iştirakına xüsusi diqqət yetirmişlər [32, v.51]. Belə ki, 23-24 apreldə Bakıda bədii gimnastika üzrə "World Cup 2004"-dünya kubokunun mərhələ yarışlarında, 26 aprel-3 mayda Ə.Çoudrinin kuboku uğrunda səkkizinci beynəlxalq boks turnirində, 7-10 mayda H.Ə. Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında beynəlxalq boks turnirində, 3-4 apreldə sərbəst güləş üzrə dünya kuboku yarışlarında, 27-31 mayda qadınlardan ibarət otüstü hokkey üzrə Avropa klubları arasında "Trofi kuboku" uğrunda yarışlarda, 13-22 noyabrda hərbçilər arasında keçirilmiş cüdo üzrə dünya çempionatında, 7-12 dekabrda əməkdar idman ustası, əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim A.Ağalarovun xatirəsinə həsr edilmiş gənclər arasında beynəlxalq boks turnirində Rusiya idmançıları fəal iştirak etmişdilər. Eyni zamanda 17-27 fevral 2004-cü ildə Moskvada "Aeroflot-2004" şahmat turnirində, 20-27 fevralda voleybol üzrə qadınlardan ibarət respublika yığma komandasının Moskvada təlim-məşq toplanışında, fevralda Moskvada təşkil olunmuş bədii gimnastika üzrə beynəlxalq turnirdə, 1-4 martda Moskvada sambo üzrə beynəlxalq turnirdə, 3-7 martda Volqoqradda boks üzrə gənclər arasında beynəlxalq turnirdə, 4-10 martda Volqoqradda

gənclərdən ibarət yığma komandalar arasında keçirilən həndbol üzrə beynəlxalq turnirdə, apreldə Yekaterinburqda qadınlardan ibarət voleybol komandaları arasında "Yeltsin kuboku " uğrunda beynəlxalq turnirdə, 14-15 mayda Sankt-Peterburqda bədii gimnastika üzrə beynəlxalq turnirdə, 27-31 mayda Kalininqradda bilyardın "Piramida" növü üzrə açıq Avropa çempionatında, 25-30 iyunda Moskvada MDB ölkələri zəhmətkeşlərinin Beynəlxalq İdman Oyunlarında və sentyabrda Saratovda yeniyetmələr arasında boks üzrə Avropa birinciliyində, Azərbaycan Respublikasından olan atletlər yarışmışdılar. Həmin ilin oktyabrında qadınlardan ibarət voleybol üzrə Azərbaycan yığma komandası Moskvada təlim-məşq toplanışında olmuş, Azərbaycan idmançıları 28 noyabr-2 dekabrda isə Omskda bədii gimnastika üzrə beynəlxalq turnirdə iştirak etmişdilər. Onu da qeyd edək ki, yuxarıda haqqında danışdığımız müqavilə, saziş, protokol və sair bu kimi sənədlərlə yanaşı "Azərbaycan və Rusiya arasında 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq proqramı"nın imzalanması ölkələrimiz arasında gənclər və idman sahəsində əlaqələrin genişlənməsinə yeni imkanlar yaratmışdı [32, "Azərbaycan və Rusiya Federasiyası arasında 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq proqramı ilə bağlı 2004-cü ildə həyata keçirilmiş tədbirlər haqqında arayış"].

Əvvəlki illərdə olduğu kimi 2005-ci ildə də Azərbaycan Respublikasının idmançıları Moskva, Sankt-Peterburq, Volqoqrad, Yekaterinburq, Kalininqrad, Saratov, Omsk, Tver, Nijnevartovsk, Noginsk və Rusiya Federasiyasının başqa şəhər və bölgələrində şahmat, voleybol, bədii gimnastika, sambo, sərbəst və yunan-Roma güləşi, boks, taekvondo, qılıncoynatma, həndbol, futbol və sair üzrə keçirilmiş çoxsaylı yarışlarda iştirak etmişdilər [32, v.56]. 2005-ci ildə Rusiyada Azərbaycan ilinin keçirilməsi ilə əlaqədar idmançılarımız sərbəst və yunan-Roma güləşi, cüdo və taekvondo idman növləri üzrə Moskva və Dərbənddə keçirilmiş müxtəlif yarışlarda qüvvələrini sınamışdılar. Öz növbəsində Rusiya idmançıları da 2005-i ildə Bakıda keçi-

rilmiş sərbəst güləş, bədii gimnastika, şahmat, boks və cüdo üzrə keçirilmiş yarışlarda, həmçinin 23 oktyabr-9 noyabrda Şəkidə Azərbaycanın Dövlət Müstəqilliyi gününə həsr olunmuş qadınlar arasında şahmat üzrə beynəlxalq turnirdə və 26-31 iyulda Qubada voleybol üzrə qadınlar arasında Qran-pri turnirində iştirak etmişdilər [32, v.59]. Ölkələrimiz arasında idman sahəsində əlaqələrin daha da möhkəmləndirilməsi üçün Rusiyada keçirilən idman tədbirləri, yarışların təqvimi, şərtləri barədə ölkəmizə məlumat verilməsi, idman təşkilatları tərəfindən hazırlanmış normativ sənədlərin göndərilməsi, Moskvada yerləşən dopinq nəzarəti laboratoriyasından Azərbaycan idmançılarının güzəştli qaydada istifadə etməsi, Rusiya mütəxəssisləri üçün təşkil olunan seminarlara azərbaycanlı hakimlər, məşqçilər və digər mütəxəssislərimizin dəvət olunması, Azərbaycan idmançılarına Rusiya idmançıları ilə birgə təlim-məşq toplanışlarında iştirak etmək imkanının yaradılması əlaqələrimizin müntəzəm xarakter almasına və daha da möhkəmlənməsinə səbəb olardı.

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan Respublikasının geniş əlaqələr qurduğu ölkələrdən biri də Belarus Respublikası idi. Hələ 1999-cu ildə "Azərbaycan və Belarus hökumətləri arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş"in layihəsi hazırlanmışdı. Lakin təəssüf ki, bu saziş tədqiqat dövrü çərçivəsində imzalanmamışdı. Buna baxmayaraq, 1991-2005-ci illərdə Belarus ilə digər sahələrlə yanaşı idman istiqamətində də sıx əlaqələr mövcud olmuşdur. Əlaqələrimizə intensivlik vermək üçün 29 mart 2004-cü ildə "Azərbaycanın bədən-tərbiyəsi və idman yönümlü dövlət və ictimai təşkilatlarının siyahısı" və "2004-cü ildə Azərbaycanda keçirilən beynəlxalq idman tədbirləri haqqında məlumat" Azərbaycanın müvafiq qurumu tərəfindən Belarusun İdman və Turizm Nazirliyinə göndərilmişdi. Həmçinin Azərbaycan və Belarus Respublikaları arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 31 mart 2004-cü il tarixli birinci iclas protokolunun 7.1 bəndinin və 5 noyabr 2004-cü il tarixli ikinci iclas protokolunun

icrası ilə əlaqədar da ölkələrimiz arasında idman sahəsində xeyli iş görülmüşdü [6, v.14]. Protokollara uyğun olaraq Azərbaycan tərəfi Belarus idmançılarını aşağıdakı tədbirlərə dəvət etmişdir: şahmat üzrə Bakı kuboku uğrunda 15-ci beynəlxalq turnir, 12 noyabr Konstitusiya gününə həsr olunmuş su polosu üzrə beynəlxalq turnir, əməkdar idman ustası, əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim A.Ağalarovun xatirəsinə həsr olunmuş beynəlxalq turnir, 1985-1987-ci il təvəllüdlü idmançıların boks üzrə beynəlxalq turniri, sərbəst və yunan-Roma güləşi üzrə beynəlxalq turnir, otüstü hokkey üzrə beynəlxalq turnir, futbol üzrə gənclər arasında beynəlxalq turnir, zəhmətkeşlərin beynəlxalq spartakiadası, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general H.Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnir [6, v.16].

Ölkələr arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın tələblərinə uyğun olaraq Belorusiyanın idmançıları ölkəmizdə təşkil olunan beynəlxalq idman tədbirlərinə dəvət olunduqları kimi bizim idmançılarımız da bu ölkədə keçirilən tədbirlərdə iştirak etmişlər [6, v.17]. Belə ki, 2004-cü il yanvarın 25-dən fevralın 10-dək kişilərdən ibarət basketbol üzrə Azərbaycan yığma komandası Minskdə təlim-məşq toplanışında olmuş, 26-28 martda idmançılarımız Belarusda kişilər arasında cüdo üzrə keçirilmiş Olimpiya lisenziya turnirində iştirak etmişlər.

Belarus idmançıları da Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq yarışlarda fəal təmsil olunmuşdular [6, v.18]. Onlar 2004-cü ildə Bakıda bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışlarında, Ə.Çoudrinin kuboku uğrunda boks üzrə səkkizinci beynəlxalq lisenziya turnirində iştirak etmişdilər. 29 may və 5 iyun 2004-cü ildə müvafiq olaraq Bakıda və Minskdə həndbol üzrə qadınlardan ibarət Azərbaycan və Belarus yığma komandaları arasında Avropa çempionatının seçmə (play off) matçları da ölkələrimizin idman əlaqələrinin genişlənməsi istiqamətində mühüm hadisələr kimi qiymətləndirilə bilər.

2005-ci ildə də Azərbaycan və Belarus respublikaları ara-

sında müxtəlif əlaqələr kontekstində idman əlaqələri də mühüm yer tutmuşdu. 11-13 mart 2005-ci ildə Bakıda taekvondo üzrə gənclərin Avropa birinciliyi, 22-28 mart 2005-ci ildə Bakıda Ə.Çoudrinin kuboku uğrunda boks üzrə doqquzuncu beynəlxalq turnir, 9-10 aprel 2005-ci ildə Bakıda kişilər arasında "B" kateqoriyalı beynəlxalq cüdo turniri, 2005-ci ilin mayın 13-dən 15-nə kimi Bakıda bədii gimnastika üzrə Azərbaycan Gimnastika Federasiyasının kuboku uğrunda yarış, 5–11 sentyabr 2005-ci ildə Bakıda otüstü xokkey üzrə qadınlar arasında Avropa milli komandalarının "TROFİ" çempionatı, 23-27 sentyabr 2005-ci ildə Bakıda MDB-yə üzv olan dövlətlərin beşinci Beynəlxalq İdman Oyunları, 3-9 oktyabr 2005-ci ildə Bakıda bədii gimnastika üzrə dünya çempionatı keçirilmişdi.

Məlumdur ki, müstəqil Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində türkdilli dövlətlərlə, o cümlədən də Mərkəzi Asiya ölkələri və Qazaxıstanla münasibətlər xüsusi yer tutur. 1991-2005-ci illərdə siyasi və iqtisadi əlaqələri güclü olan Azərbaycan ilə Qazaxıstan arasında beynəlxalq idman əlaqələri də maraqlı olmuşdu. Təbii ki, bu əlaqələrin inkişafında ölkə rəhbərlərinin qarşılıqlı səfərləri mühüm rol oynamışdı. 9 avqust 1995-ci ildə Azərbaycan Respublikasının prezidenti mərhum H.Ə.Əliyev Qazaxıstan prezidenti N.A.Nazarbayev tərəfindən görkəmli qazax şairi və mütəfəkkiri Abay Kunanbayevin anadan olmasının 150 illiyi münasibət ilə Qazaxıstana dəvət edilmiş, sonrakı illərdə də belə səfərlər davam etdirilmişdi. Bu səfərlər müxtəlif sahələrdə, o cümlədən idman sahəsində əlaqələrin hüquqi bazasının yaradılmasına öz təsirini göstərmişdi. Nəticədə 1996-cı il sentyabrın 16-da Bakıda "Azərbaycan və Qazaxıstan hökumətləri arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında saziş" bu sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdı [20, v.9]. Daha sonra idman sahəsində əməkdaşlıq əlaqələrini inkişaf etdirmək məqsədilə 1999-cu ildə Azərbaycan sərbəst və yunan-Roma güləşi federasiyasının nümayəndəsi Qazaxıstanda öz həmkarları ilə görüş-

müş və birgə yarışların təqvim planını imzalamışdı. 1999-cu ilin martında Novruz bayramına həsr olunmuş mini-futbol üzrə beynəlxalq turnirdə Qazaxıstanın "Aktau" komandası, həmin ilin sentyabrında isə Bakıda H.Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnirdə Qazaxıstanın doqquz nümayəndəsi iştirak etmişdi.

2000-ci ilin martında MDB ölkələri idman işləri üzrə dövlət orqanları rəhbərlərinin Moskvada keçirilən müşavirəsində Qazaxıstan dövlət idman orqanının rəhbəri ilə Azərbaycanın müvafiq qurum rəhbəri görüşmüşdü. Görüş zamanı mövcud əlaqələr və gələcək perspektivlər müzakirə edilmiş, onların genişləndirilməsi üçün bütün imkanlardan istifadə ediləcəyi barədə razılığa gəlinmişdi. Lakin yol xərclərinin baha olması əlaqələrin genişlənməsinə müəyyən maneçilik törətmişdi. Bu baxımdan gənclər və idman nümayəndə heyətlərinə güzəştli biletlər satılması barədə hökumətlərarası razılıq əldə olunması bu sahədə əlaqələrin daha intensiv olmasına şərait yaradardı.

2002-ci ildə boks üzrə yığma komandamız Astanada dünya kuboku yarışlarında iştirak etmiş və komanda hesabında beşinci yeri tutmuşdu. Qazaxıstan yığma komandası da 1996-cı ildən 2005-ci ilə kimi boks üzrə ənənəvi Ə.Çoudri kuboku uğrunda beynəlxalq Bakı turnirlərində iştirak etmişdir. Qazaxıstan boksçuları yeniyetmələrin beynəlxalq turnirlərinə, əməkdar məşqçi və əməkdar idman ustası A.Ağalarovun xatirəsinə həsr olunmuş beynəlxalq turnirlərə də dəvət olunmuşdular. Yuxarıdakı faktlar idmanın boks növü üzrə Qazaxıstan-Azərbaycan əlaqələrinin normal olduğunu göstərir.

26-30 iyun 2003-cü ildə mini-futbol və badminton üzrə Azərbaycan yığma komandası Astanada keçirilən zəhmətkeşlərin IV beynəlxalq idman oyunlarında və 10-16 iyun 2003-cü ildə Astanada keçirilən bilyardın piramida növü üzrə Asiya açıq çempionatında təmsil olunmuşdular.

Azərbaycan və Qazaxıstan respublikaları arasında əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın 28 fevral 2004-cü il tarix-

li ikinci iclas protokolunun icrasına dair ölkələrimiz arasında idman sahəsində müvafiq işlər görülmüşdü. 23-24 aprel 2004-cü ildə Bakıda keçirilmiş bədii gimnastika üzrə "World Cup 2004" dünya kubokunun mərhələ yarışlarında, 7-10 mayda Bakıda H.Ə.Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında beynəlxalq boks turnirində iştirak etmiş, həmçinin Qazaxıstanın ölkəmizdə fəaliyyət göstərən səfirliyindən aldığımız müraciətə əsasən "Nevada-Semipalatinsk" beynəlxalq nüvəyəqarşı hərəkatın təşəbbüsü ilə 21 iyun-25 avqust 2004-cü ildə "Sülh marafonu – 2004" veloyürüşü keçirilmişdi. Yürüşün marşrutunun bir hissəsi 14-18 iyul 2004-cü ildə bəzi rayonlarımızı əhatə etməklə Azərbaycan Respublikasının da ərazisindən keçmişdi. 2004-cü il aprelin 28-də Astanada futbol üzrə Azərbaycan-Qazaxıstan komandaları arasında keçirilən yoldaşlıq görüşü iki türk xalqı, türk dövləti arasındakı idman əlaqələrinin genişləndirilməsi baxımından əlamətdar bir hadisə sayılmalıdı.

Ölkələrimiz arasında idman sahəsində əlaqələrin genişlənməsi üçün Qazaxıstanın nümayəndələri respublikamızda keçirilmiş aşağıdakı yarışlara dəvət edilmişlər: H.Ə.Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında beynəlxalq boks turniri, Ə.Çoudrinin kuboku uğrunda beynəlxalq boks turniri, sərbəst və yunan-Roma güləşi üzrə beynəlxalq turnir, otüstü hokkey üzrə beynəlxalq turnir, futbol üzrə gənclər arasında beynəlxalq turnir, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general H.Aslanovun xatirəsinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnir.

Bunlardan başqa, 13-15 aprel 2005-ci ildə Bakıda Azərbaycan Gimnastika Federasiyasının kuboku uğrunda və 3-9 oktyabr 2005-ci ildə yenə də Bakıda bədii gimnastika üzrə dünya çempionatında Qazaxıstan idmançıları da iştirak etmişdilər. Sadalananlarla yanaşı, 23-27 sentyabr 2005-ci ildə Bakıda Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 60 illik yubileyinə həsr olunmuş MDB-yə üzv olan dövlətlərin "Sülh və sağlamlıq dostluqdadır" devizi altında beynəlxalq idman oyunlarında Qazaxıstan idmançıları daşqaldırma, badminton, stritbol, yüngül at-

letika, voleybol, darts, stolüstü tennis, kəndirdartma və mini-futbol növlərində də yarışmışlar. Həmçinin informasiya mübadiləsinin aparılması, hakimlər və məşqçilər üçün seminarların təşkil olunması, təkbətək mübarizə idman növləri üzrə yeniyetmələrdən ibarət seçmə komandaların birgə təlim-məşq toplanışlarının keçirilməsi üzrə Qazaxıstan ilə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdu. Azərbaycan idmançıları da öz növbələrində bu dost ölkədə keçirilən idman oyunlarında – 19-23 yanvar 2005-ci ildə Aktauda boks üzrə beynəlxalq turnirdə, 24-27 mart 2005-ci ildə cüdo üzrə S.Cardosovun xatirəsinə həsr olunmuş XII beynəlxalq turnirdə, 23-27 noyabr 2005-ci ildə Almatıda bilyard üzrə dünya çempionatında iştirak etmişlər.

Yuxarıdakı faktlar 2005-ci ildə Azərbaycan-Qazaxıstan iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın 22 may 2005-ci il tarixli üçüncü iclas protokolunun 7-ci bəndinin düzgün icra olunduğunu göstərir (protokolun 7-ci bəndində idman sahəsində əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tuturdu).

Azərbaycan Respublikasının qonşu Gürcüstanla əlaqələri də böyük maraq kəsb edir [140, s.131-135]. Belə ki, bu əlaqələrin çox xoş bir tarixçəsi var. Hələ SSRİ dövründə Azərbaycan digər sahələrlə yanaşı idman sahəsində də Gürcüstanla sıx dostluq əlaqələri saxlamışdı və bu əlaqələr hal-hazırda da davam etdirilir. Ölkəmızın idmançıları qonşu dövlətin idman tədbirlərində yaxından iştirak edirlər. Eyni zamanda respublikamızda keçirilən müxtəlif miqyaslı yarışlara digər ölkələrlə yanaşı Gürcüstan idmançıları da dəvət olunurlar. Qeyd etmək lazımdır ki, keçirilən bütün gənclər və idman tədbirlərinin və yarışlarının iştirakçılarına ölkəmizin həyatında baş verən mühüm ictimai-siyasi hadisələr barədə ətraflı məlumat verməklə yanaşı, qonaqların yemək, yataq xərcləri də respublikamızın hesabına ödənilmiş və onların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə mədəni-kütləvi tədbirlər təşkil olunmuşdur. Gənclər və idman sahəsində dövlət siyasətini ardıcıl həyata keçirən Gənclər və İdman Nazirliyi ya-

radıldığı ilk gündən Gürcüstanın gənclər və idman qurumları ilə sıx əlaqə yaratmağa başlamışdı. Belə ki, Gürcüstanda hələ gənclərlə iş üzrə heç bir dövlət qurumu fəaliyyət göstərmədiyi dövrdə belə nazirlik Gürcüstanın Gənclər Təşkilatlarının Milli Şurası və idman üzrə Dövlət Departamenti ilə əlaqələr yaratmışdı. Azərbaycan və Gürcüstan idmançıları, habelə iki ölkənin idman təşkilatları və müəssisələri arasında əməkdaşlıq əlaqələri yaratmaq məqsədilə qabaqcadan əldə edilmiş razılığa əsasən Gürcüstanın idman üzrə Dövlət Departamenti sədrinin birinci müavini C.Baqrationinin başçılığı ilə üç nəfərdən ibarət nümayəndə heyəti 26-27 dekabr 1995-ci ildə Bakıda olmuş və dekabrın 26-da iki ölkənin idman təşkilatları arasında idman sahəsində əməkdaşlıq haqqında xüsusi saziş imzalanmışdır ki, bu da nazirliyin tarixində imzalanmış birinci sazişdir [14, v.4]. Sazişə uyğun olaraq hər iki tərəf qarşılıqlı fəaliyyət barəsində aşağıdakı razılığa gəlmişlər: idman sahəsində fəaliyyət göstərən şəxslər, idarələr və təşkilatlar arasında birbaşa əməkdaşlığın, əlaqələrin təşviq edilməsi və onlara imkan yaradılması, idman problemləri ilə məşğul olan tədqiqat təşkilatları və ya mərkəzləri arasında birbaşa əməkdaşlıq, idman infrastrukturu və idman səhiyyəsini inkişaf etdirmək, idman avadanlığı və ləvazimatının istehsalı, idman qurğularının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı sahəsində əməkdaşlıq, birgə yarışlar və təlim-məşq toplanışları keçirmək, idman problemlərinə həsr edilmiş qəzetləri, jurnalları və broşurları qarşılıqlı surətdə bir-birinə göndərmək və s.

Yeri gəlmişkən qeyd edək ki, haqqında danışdığımız Gürcüstan nümayəndə heyəti həm də bu səfər zamanı Ə.Məmmədovun xatirəsinə mini-futbol üzrə beynəlxalq turnirin açılış mərasimində iştirak etmişdi.

Müvafiq olaraq Gənclər və İdman Nazirliyinin kütləvi bədən tərbiyəsi və idman idarəsi iki ölkə arasında bağlanmış sazişə uyğun olaraq Gürcüstan İdman Departamenti ilə birlikdə müəyyən işlər görmüşdü [14, v.8]. Məsələn, 1996-cı ildə Gürcüstan

və Azərbaycan respublikaları arasında idman sahəsində əməkdaşlıq uğurlu olmuşdu [14, Информация управления спорта Министерства Молодежи и Спорта Азербайджанской Республики о проделанной работе по сотрудничеству с Государственным Департаментом по Спорту Республики Грузия в области спорта 1996 г.]. 6-10 may 1996-cı ildə Saqarecoda cüdo üzrə Azərbaycan yığma komandası, 14-19 iyunda Kutaisdə qılıncoynatma üzrə beynəlxalq turnirdə Bakı yığması iştirak etmişdir. Bundan əlavə, 24 sentyabrda Qoridə iki ölkə arasında boks üzrə Azərbaycan və Gürcüstan yeniyetmə yığma komandalarının yoldaşlıq görüşü keçirilmişdir. 27-29 sentyabrda Tiflisdə Baxavadzenin şərəfinə sərbəst güləş üzrə beynəlxalq turnirdə, 4-10 noyabrda yenə də orada su polosu üzrə beynəlxalq turnirdə, 2-4 noyabrda isə qılıncoynatma üzrə Tiflis açıq çempionatında Azərbaycan yığma komandaları ölkəmizi layiqincə təmsil etmişdir.

Azərbaycan idmançıları Gürcüstanda keçirilən yarışlarda iştirak etdikləri kimi, Gürcüstan idmançıları da Azərbaycanda keçirilən yarışlarda çıxış etmək imkanlarını əldən vermirdilər. Məsələn, 22-26 fevral 1996-cı ildə Tiflis və Saqareco şəhərlərinin 15 nəfər cüdoçusu Bakının açıq birinciliyində, 16-22 martda Tiflis yığma komandası Bakıda Novruz bayramına həsr edilmiş mini-futbol üzrə 4-cü Bakı beynəlxalq turnirində, 27-31 martda cüdo üzrə Azərbaycanın açıq birinciliyində, 7-9 apreldə Kutaisi və Saqareco komandaları cüdo üzrə Bakı turnirində, 8-12 apreldə su polosu üzrə Bakı açıq çempionatında iştirak etmişdilər. Gürcüstan nümayəndələri 27 aprel-2 mayda Bakıda M.Məmmədovun xatirəsinə həsr olunmuş stolüstü tennis üzrə beynəlxalq turnirində, 20-29 sentyabrda şahmat üzrə yeddinci Bakı Beynəlxalq turnirində, 15-19 oktyabrda su polosu üzrə Bakı kuboku yarışlarında, 8-12 noyabrda qılıncoynatma üzrə Bakı beynəlxalq turnirində və başqa yarışlarda güclərini sınamışdılar. Bununla yanaşı qeyd edək ki, 27 sentyabr-3 oktyabrda Gürcüstanda keçirilmiş "Sülh dağları" beynəlxalq ictimai proqram çərçivəsində "Kaz-

bek” yüksəkliyinin fəth olunması üzrə beynəlxalq ekspedisiyaya Azərbaycan nümayəndələri də qatılmış, sərbəst güləş üzrə yığma komandamız 24-29 iyulda Tiflisdə dünya çempionu Balavadzenin beynəlxalq turnirində, kiokşinkayçılarımız isə 1997-ci ilin 15-16 mayında yenə də Tiflisdə beynəlxalq turnirdə fəal iştirak etmişdilər.

Ötən əsrin 90-cı illərinin sonlarına doğru bu iki qonşu ölkə arasında əlaqələr, o cümlədən idman əlaqələri daha da intensivləşmişdi. Bu illərdə də Gürcüstan idmançıları ölkəmizdə keçirilən müxtəlif miqyaslı yarışlarda fəal iştirak etmişlər [14, Azərbaycan-Ukrayna və Azərbaycan-Gürcüstan dövlətləri arasında qarşılıqlı dostluq əlaqələri haqqında qısa məlumat]. Məsələn, 1997-1999-ci illərdə onlar Novruz bayramı münasibətilə keçirilən mini-futbol üzrə yarışlarda, cüdo üzrə H.Aslanovun xatirəsinə həsr olunmuş turnirlərdə, sambo üzrə 25-ci Avropa çempionatında, şahmat üzrə VIII beynəlxalq Bakı turnirində, kiokşinkay karate üzrə, boks üzrə beynəlxalq turnirlərdə iştirak etmişlər [14, v.27]. Gürcüstan idmançılarının iştirakı ilə dəfələrlə futbol, həndbol, su polosu üzrə yoldaşlıq görüşləri keçirilmişdir. 25-29 may 1998-ci ildə Azərbaycan və Gürcüstan respublikalarının 80 illiyinə həsr olunmuş birgə marafon yürüşündə hər iki tərəfdən 45 idmançı iştirak etmişdir. Qeyd etmək lazımdır ki, son illərdə ölkələrimizin gəncləri və idmançılarının birgə keçirdikləri tədbir, görüş və yarışların sayı xeyli artmışdır. Sərbəst güləş üzrə dünya çempionu Balavadzenin şərəfinə hər il Tiflisdə keçirilən beynəlxalq turnirdə iştirak edən idmançılarımız dəfələrlə həmin yarışların qalibi olmuşlar.

Azərbaycan və Gürcüstan respublikaları arasında siyasi, iqtisadi və mədəni əlaqələr kontekstində idman əlaqələrinə xüsusi diqqət yetirilmişdi. Belə ki, 1998-ci ilin martında Bakıda hər iki tərəfin dövlət qurumları rəhbərlərinin ikinci iclasında Gürcüstan nümayəndə heyəti də iştirak etmiş və bu heyət mərhum prezident H.Ə.Əliyev tərəfindən qəbul edilmişdi. 7 oktyabr 1998-ci ildə Azərbaycan və Gürcüstan sərhədindəki Qırmızı Körpü ya-

xınlığında hər iki dövlətin prezidentləri H.Ə.Əliyev və E.A.Şevardnadzenin iştirakı ilə yeni körpünün açılış mərasimi olmuş, açılışda Gənclər, İdman və Turizm Nazirliyinin nümayəndələri və Respublika Olimpiya Mərkəzinin direktoru və digər rəsmi şəxslər iştirak etmişlər.

2000-2005-ci illərdə də Gürcüstan idmançıları Azərbaycanda H.Aslanovun xatirəsinə həsr olunmuş cüdo, Ə.Coudrinin kuboku uğrunda və əməkdar idman ustası, əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim A.Ağalarovun xatirəsinə həsr edilmiş gənclər arasında beynəlxalq boks turnirində, "20 yanvar" şəhidi, idman ustası M.İsayevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə yeniyetmələrin beynəlxalq turnirində, taekvondo üzrə gənclərin Avropa birinciliyində, otüstü hokkey üzrə yoldaşlıq yarışlarında, idman rəqsləri üzrə Azərbaycan çempionatında, Azərbaycan idmançıları isə Gürcüstanda keçirilən üzgüçülük və idman rəqsləri üzrə Gürcüstanın açıq çempionatlarında, atıcılıq idmanı və cüdo üzrə beynəlxalq turnirlərdə fəal iştirak etmişdilər.

Azərbaycan və Gürcüstan dövlətlərarası iqtisadi əməkdaşlıq komissiyasının 25 mart 2005-ci ildə Bakıda birinci və 18 iyul 2005-ci ildə Gəncədə ikinci iclası zamanı idmana aid də tədbirlər müzakirə olunmuşdur. İclasların protokollarında ölkələrimiz arasında idmançıların mübadiləsi və hər iki ölkədə keçirilən idman tədbirlərində nümayəndə heyətlərinin qarşılıqlı iştirakı istiqamətində əməkdaşlığın davam etdirilməsi nəzərdə tutulurdu [14, v.17]. İclaslardan sonrakı dövrdə protokolun müvafiq bəndlərinə uyğun olaraq hər iki ölkədə keçirilən turizm və idman tədbirlərində nümayəndə heyətləri qarşılıqlı olaraq iştirak etmişlər. 9-10 aprel 2005-ci ildə Bakıda cüdo üzrə kişilər arasında "A" kateqoriyalı beynəlxalq turnirdə Gürcüstan idmançılarının 11 nəfərlik komandası qüvvəsini sınamışdı. 23-25 sentyabr 2005-ci ildə Batumda bilyardın piramida növü üzrə "Qafqaz kuboku" beynəlxalq turnirində, 28 sentyabr-1 oktyabrda Batumda keçirilmiş kamandan oxatma üzrə beynəlxalq yarışda, 11-13 noyabrda Tiflisdə idman rəqsləri üzrə "Qafqaz kuboku" beynəlxalq birin-

cilikdə, 5-6 oktyabrda Borjomidə keçirilmiş beynəlxalq krossda, 29-30 yanvar 2005-ci ildə Tiflisdə kişilər arasında "A" kateqoriyalı beynəlxalq turnirdə, 21-25 dekabrda Tiflisdə üzgüçülük üzrə beynəlxalq turnirdə idmançılarımız ölkəmizi layiqincə təmsil etmişdilər.

İdmançılarımız SSRİ dövründə olduğu kimi müstəqillik illərində Azərbaycan Respublikası ilə mehriban qonşuluq əlaqələri saxlayan ölkələrin, o cümlədən qardaş Ukraynanın idman tədbirlərində də yaxından iştirak etmişlər. Ukraynanın gənclər və idman üzrə dövlət qurumları ilə əməkdaşlıq etmək məqsədilə hələ 1995-ci ildə Ukraynanın keçmiş Gənclər və İdman Nazirliyinə müraciət olunmuş, zəruri sənədlər göndərilmiş, bununla da əlaqələrin ilkin əsası qoyulmuşdur [39, v.7]. İki ölkə arasında mehriban əlaqələrin inkişafı və dərinləşməsində ümummilli liderimiz H.Ə.Əliyev və Ukraynanın o zamankı prezidenti L.Kuçma xüsusi rol oynamışdılar. Müstəqilliyin ilk illərindən bu günə qədər ölkələrimiz arasında münasibətlər strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Ukrayna prezidenti L.Kuçma Azərbaycan Respublikasının yüksək mükafatı olan "İstiqlal" ordeninə, müasir Azərbaycan dövlətinin banisi H.Ə.Əliyev isə Ukraynanın yüksək mükafatı olan "Yaroslav Mudrı" ordeninə layiq görülmüşdülər. Hazırda dost və qardaş Ukraynada H.Ə.Əliyevin adını daşıyan nüfuzlu institut fəaliyyət göstərir. Hökumət başçılarının qarşılıqlı səfərləri zamanı çoxlu sayda dövlətlərarası və hökumətlərarası müqavilələr imzalanmışdır ki, bu da ölkələrimiz arasında çoxtərəfli əməkdaşlığın inkişafında sanballı hüquqi baza yaratmışdır. Ölkələrimizin nümayəndələri Azərbaycan və Ukraynada keçirilən müxtəlif gənclər və idman tədbirlərinin iştirakçısı olmuşlar [39, v.1-40]. 1997-1998-ci illərdə Ukrayna şahmatçıları beynəlxalq Bakı turnirlərində iştirak etmiş, 1998-ci ilin payızında Xarkovda fəaliyyət göstərən "Xətai" Azərbaycan mədəniyyət mərkəzinin futbol komandası Bakıda görüşlər keçirmiş, Ukraynada 2001-ci ilin martında gənc idmançılar arasında keçirilən beynəlxalq turnirdə su polosu üzrə komandamız müvəffə-

qiyyətlə çıxış etmiş və yeddi komanda arasında birinci yerə çıxmışdı. Bunlardan başqa, karate-kontakt üzrə idmançılarımız 2-6 iyul 1998-ci ildə Kiyevdə keçirilən beynəlxalq turnirdə iştirak etmiş, 4-14 sentyabr 2001-ci ildə isə Kiyevdə MDB ölkələri üzrə zəhmətkeşlərin beynəlxalq oyunlarında ölkəmiz 28 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuşdur.

16 oktyabr 2001-ci ildə Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında gənclər siyasəti və idman sahəsində əməkdaşlıq haqqında saziş"in imzalanması ölkələrimiz arasında bu sahədə əməkdaşlıqda mühüm hadisə olmuşdur [39, "Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər kabineti arasında gənclər siyasəti və idman sahəsində əməkdaşlıq haqqında saziş"]. Saziş əsasən iki ölkə arasında qeyd olunan sahələrdə əlaqələrin qurulmasına, mübadilələrə və birgə tədbirlərin keçirilməsinə əlverişli şəraitin yaradılmasını nəzərdə tuturdu. Bununla əlaqədar olaraq 2002-ci ilin mayında MDB ölkələrinin Düşənbədə keçirilmiş gənclər nazirləri klubunun növbəti iclasında Ukrayna nümayəndə heyəti ilə danışıqlar aparılmış və Azərbaycan Respublikası tərəfindən birgə tədbirlər planının layihəsi müzakirəyə təqdim olunmuşdur [39, v.48]. Bu saziş çərçivəsində Ukrayna İdman Komitəsi heyətinin 2002-ci ilin sentyabrında Azərbaycana səfəri zamanı "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi və Ukrayna Bədən Tərbiyəsi və İdman Dövlət Komitəsi arasında 2002–2003-cü illərdə bədən tərbiyəsi və idman sahəsində ikitərəfli əməkdaşlıq protokolu" imzalanmışdır [39, "Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi və Ukrayna Bədən Tərbiyəsi və İdman Dövlət Komitəsi arasında 2002–2003-cü illərdə bədən tərbiyəsi və idman sahəsində ikitərəfli əməkdaşlıq protokolu"; 102]. Bu protokol idman mütəxəssislərinin mübadiləsinin genişləndirilməsini, idman tədbirlərində hər iki tərəfin idmançılarının qarşılıqlı iştirakını asanlaşdırmışdı [39, v.50]. Nəticədə iki idarənin elmi tədqiqat mərkəzləri arasında, habelə Gənclər, İdman və Turizm Nazirliyinin Gəncə şəhər Baş İdarəsi ilə Çerniqov Vilayətinin Gənclər və

Turizm işləri idarəsi arasında əməkdaşlıq haqqında saziş də bağlanmışdı [39, v.49]. Getdikcə dərinləşən bu idman əlaqələrinin nəticəsində UEFA kuboku yarışlarında iştirak edən Azərbaycanın qadınlardan ibarət futbol komandasını Ukrayna oyunçuları ilə komplektləşdirməyə imkan verdi. Bu barədə dünya çempionu X.İsayevin Azərbaycanın Ukraynadakı səfirliyinə müraciətindən sonra O.Krapivinin köməkliyi ilə ukraynalı idmançılar Azərbaycan komandasının tərkibində çıxış edərək Azərbaycan qadın futbolunu ləyaqətlə təmsil etmişlər [39, v.55].

Ukrayna bədən tərbiyəsi və idman məsələləri üzrə dövlət komitəsinin dəvəti ilə 18-21 may 2003-cü ildə Gənclər, İdman və Turizm Nazirliyinin nümayəndə heyəti Ukraynada səfərdə olmuşdur [39, v.56].

Demək olar ki, bütün dövrlərdə Azərbaycan idmançıları Ukraynada keçirilən çoxlu yarışlarda və beynəlxalq turnirlərdə fəal iştirak etmişlər. Belə ki, 2003–cü ilin fevralında bizim idmançılar sərbəst güləş və boks üzrə Kiyevdə keçirilən beynəlxalq turnirlərdə, martda Vinnitsa şəhərində keçirilən gimnastika üzrə beynəlxalq turnirdə iştirak etmişdilər. Eyni zamanda Ukrayna idmançıları da Azərbaycanda keçirilən bir çox idman tədbirlərinin fəal iştirakçısı olmuşlar [40, v.58]. 25-26 yanvar 2003-cü ildə Bakıda 13 ölkənin, o cümlədən Ukrayna idmançılarının da mübarizə apardığı taekvondo üzrə MDB ölkələrinin birinci açıq çempionatında [40, v.56], 7-10 may 2003-cü ildə Bakıda keçirilən Azərbaycanın ümummilli lideri H.Ə.Əliyevin müqəddəs xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnirdə, 23–24 avqust 2003-cü ildə cüdo üzrə gənclər arasında Avropa çempionatında, Ə.Çoudrinin şərəfinə Bakıda keçirilən lisenziyalı turnirində (Ukraynanın iki idmançısı Atlanta Yay Olimpiya oyunlarında öz ölkələrini təmsil etmək hüququnu məhz bu turnirdə qazanmışdılar) təmsil olunmuşlar. 16 may 2003-cü ildə T.Bəhramav adına Respublika Stadionunda veteranlardan ibarət Bakının "Neftçi" və Kiyevin "Dinamo" komandaları arasındakı görüşü xüsusilə qeyd etmək lazımdır. Eləcə də son dövrdə iki ölkə

arasında idman mütəxəssislərinin mübadiləsi genişlənmişdir. 18-21 may 2003-cü ildə ölkəmizin idman nazirliyinin nümayəndə heyəti Kiyevdə, 23 -27 iyul 2003-cü ildə isə Ukrayna İdman Komitəsinin nümayəndə heyəti Bakıda səfərdə olmuşdur. Ukraynaya səfər zamanı "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Ukrayna Bədən Tərbiyəsi və İdman Məsələləri üzrə Dövlət Komitəsi arasında bədən tərbiyəsi və idman sahəsində 2004-2005-ci illərdə yeni ikitərəfli əməkdaşlıq protokolu" imzalanmışdır [40, v.59]. Belə mühüm sənədlərin imzalanması Bakıya və Kiyevə idman rəhbərlərinin qarşılıqlı səfərlərini, idman qurumları arasında əlaqələrin müasir səviyyədə qurulmasını genişləndirmiş və bu əlaqələrin sonrakı inkişafını təmin etmişdir. Bundan bir həftə sonra, 1–2 avqust 2003-cü ildə Bakıda bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığa dair ukraynalı həmkarlarla görüş keçirilmişdi. Bu səfərlər zamanı idman təşkilatları arasında faydalı təcrübə mübadiləsi aparılmış, əməkdaşlığın inkişafı üçün yeni imkanlar araşdırılıb müəyyənləşdirilmişdir.

Ukrayna ilə Azərbaycan Respublikası arasında əlaqələr ayrı-ayrı şəhərlər və rayonlar səviyyəsində də mövcud olmuşdur. 12 sentyabr 1997-ci ildə Bakıda imzalanan Bakı və Kiyev şəhərləri arasında əməkdaşlıq haqqında sazişin 6-cı və 8-ci bəndləri tərəflər arasında idman əlaqələrinin bərpasını və uzunmüddətli əlaqələri nəzərdə tutmuşdur [40, v.24]. Həmçinin 27 iyun 2003-cü ildə Bakı şəhər Qaradağ rayonu İcra Hakimiyyəti və Kiyev vilayəti İrpen şəhəri rəhbərliyi arasında niyyət protokoluna əsasən tərəflər iqtisadi və humanitar sahələrdə, eləcə də müxtəlif idman növləri üzrə əməkdaşlıq etməyi qərara almışlar [40, v.63]. Ukrayna Respublikası Ailə, Uşaq və Gənclərlə iş Nazirliyi və Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi arasında imzalanmış 16 oktyabr 2001-ci il tarixli sazişə uyğun olaraq Xarkov vilayət rəhbərliyinin dəvəti ilə Sumqayıt şəhərinin nümayəndə heyəti şəhər İcra Hakimiyyəti başçısının sərəncamı əsasında Milli Məclisin deputatı A.İmaməliyevin rəhbərliyi ilə 23-28 iyun 2004-cü ildə Xarkovda işgüzar səfərdə olmuşdur

[40, v.63]. Nümayəndə heyəti burada bir sıra universitetlərdə olmuş, 27 iyun Ukrayna gənclər gününə həsr edilmiş tədbirdə yaxından iştirak etmişdir. 27 iyun 2004-cü ildə Sumqayıt şəhər Gənclər, İdman və Turizm Baş İdarəsi ilə Xarkov vilayəti Ailə və Gənclərlə İş İdarəsi və Xarkov vilayət Bədən Tərbiyəsi, İdman və Turizm idarəsi arasında gənclərlə iş, idman və turizm sahəsində əlaqələrin inkişaf etdirilməsi ilə bağlı niyyət protokolu imzalanmışdır [40, v.67]. 2004-cü il aprelin 26-dan mayın 3-dək Bakıda Ə.Çoudrinin şərəfinə boks üzrə 8-ci beynəlxalq lisenziyalı "KUP-2004", 12-14 may 2004-cü ildə Kiyevdə cüdo üzrə gənclər arasında beynəlxalq super "A" kateqoriyalı yarış, 7–10 may 2004-cü ildə Bakıda ümummilli liderimiz H.Əliyevin xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnir keçirilmişdi. Bu möhtəşəm idman tədbirlərində hər iki tərəfin atletləri fəal iştirak etmişdilər.

30 sentyabr-4 oktyabr 2004-cü ildə Ukrayna Bədən Tərbiyəsi və İdman Məsələləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavininin rəhbərlik etdiyi Ukrayna nümayəndə heyəti Azərbaycana səfər etmişdi [40, v.65]. Səfərdə Ukrayna və Azərbaycan idmançılarının 29-cu Yay Olimpiya oyunlarına birgə hazırlıq proqramı, həmçinin iki ölkənin idman sahəsində gələcək əməkdaşlıq perspektivləri müzakirə obyektinə çevrilmişdi.

Azərbaycan və Qırğızıstan respublikaları arasında beynəlxalq idman əlaqələrinə gəlincə qeyd etmək lazımdır ki, müstəqillik illərində hər iki ölkə idman sahəsində əlaqələr qurmuş və inkişaf etdirmişdi. Azərbaycan tərəfi Qırğızıstanın Azərbaycandakı fəxri konsulu Z.Hüseynovun xahişi ilə əlaqədar 27-30 sentyabr 2002-ci ildə Bakıda cüdo üzrə general H.Aslanovun xatirəsinə və oktyabrın 6-da Milli Olimpiya Komitəsinin yaradılmasının 10 illiyinə həsr edilmiş atıcılıq idmanı üzrə beynəlxalq yarışlara Qırğızıstan idmançıları da dəvət olunmuşdur [21, v.5]. İki ölkə arasında idman əlaqələrini daha da genişləndirmək məqsədilə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyində "Azərbaycan Respublikası Hökuməti ilə Qırğızıstan Res-

publikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş"in layihəsi 2003-cü ildə hazırlanmışdır [21, v.8]. Təəssüf ki, tədqiqata cəlb olunmuş dövrdə bu layihə ancaq kağız üzərində qalmışdır.

Digər bir Mərkəzi Asiya dövləti olan Türkmənistan Respublikası ilə idman əlaqələrinə gəldikdə isə, bu baxımdan, Türkmənistan prezidenti S.Niyazovun Azərbaycana səfəri zamanı 18 mart 1996-cı ildə Bakıda "Azərbaycan ilə Türkmənistan Hökumətləri arasında mədəniyyət və idman sahəsində əməkdaşlıq haqqında saziş" imzalanması həmin əlaqələrin inkişafı üçün yaxşı zəmin ola bilərdi [38, v.4]. Sazişi həyata keçirmək məqsədilə ölkəmizin müvafiq qurumları Azərbaycan və Türkmənistanın idman nazirlikləri arasında idman sahəsində əməkdaşlıq haqqında saziş layihəsini və 1996-cı ilin ikinci yarımili üçün təqvim planını Türkmənistan İdman Nazirliyinə göndərmişdir. Nazirliyimiz idman təşkilatları arasında əməkdaşlığı və idmançıların hər iki ölkədə keçirilən tədbirlərdə iştirakı üçün səy göstərmişdi [38, v.6]. Azərbaycan idmançıları Türkmənistanda keçirilən basketbol, voleybol, baydarka və kanoedə avarçəkmə yarışlarında iştirak etmişlər. Etiraf etmək lazımdır ki, o zamankı Türkmənistan rəhbərliyinin bir sıra məsələlərdə Azərbaycanla soyuq münasibətləri qarşılıqlı idman əlaqələrinə də öz mənfi təsirini göstərmişdi.

Ölkəmizin Özbəkistanla da qeyd olunan istiqamətdə əlaqələri mövcud olmuş və inkişaf etdirilmişdir [27, v.6; 91].

Azərbaycan ilə Asiya və Afrika ölkələri arasında beynəlxalq idman əlaqələrinə gəldikdə isə demək lazımdır ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əməkdaşlığın əsası ölkəmizin prezidenti H.Ə.Əliyevin 1994-cü ildə martın 7–11-də Çinə səfəri zamanı qoyulmuşdu [10, v.1]. Bu səfər zamanı Azərbaycan Respublikası ilə ÇXR arasında dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat qəbul edilmiş və bir sıra sahələrdə əməkdaşlıq haqqında hökumətlərarası sazişlər imzalanmışdı. Məhz bundan sonra Azərbaycan Respublikası Gənclər,

İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası, Çinin Dövlət İdman Baş İdarəsi, Azərbaycan və Çin gəncləri və idmançıları arasında əməkdaşlıq əlaqələri daim inkişaf etmiş və genişlənmişdir. Qeyd etmək yerinə düşər ki, Çində idmana rəhbərliyi Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi həyata keçirir. 1991-2005-ci illərdə Çin İdman Nazirliyinin strukturunda 20 idarə fəaliyyət göstərirdi. Dünyada yüksək idman göstəriciləri olan Çinlə idman əlaqələri Olimpiya oyunları zamanında da davam etdirilmişdir. Azərbaycan tərəfi ilk dəfə Atlanta Olimpiya oyunlarında iştirakla yanaşı, həm də dünya idmançıları ilə əlaqələrin maksimum qurulması üçün istifadə etmiş və burada Çin idmançıları ilə də əlaqələr yaradılmışdır [10, v.17]. 30 mart 1999-cu ildə Azərbaycan Respublikasının Çindəki və 6 aprel 1999-cu ildə ÇXR-in Azərbaycandakı səfirlikləri ölkələrin müvafiq qurumları ilə idman sahəsində ikitərəfli əməkdaşlığı müzakirə etmiş, nəticədə dövlətlərimizin birgə səyi nəticəsində ölkələrimiz arasında gənclər və idman sahələrində əməkdaşlıq uğurla inkişaf etmişdir [10, v.22]. Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi Ümumçin Gənclər Federasiyası və Çinin Baş İdman Administrasiyası ilə sıx əlaqələr qurmuşdur. 1999-2003-cü illərdə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin nümayəndə heyətləri Çinin dövlət gənclər, turizm və idman qurumlarının dəvəti ilə dörd dəfə bu ölkədə səfərdə olmuş, Çinin gənclər və idman qurumlarının nümayəndə heyətləri də Azərbaycana dörd dəfə səfər etmişdilər. Əldə edilmiş razılığa uyğun olaraq 2000-ci ilin mayında Bakıda Azərbaycan Respublikası İdman Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında ikitərəfli əməkdaşlıq haqqında, Çinin Dövlət İdman Baş İdarəsi ilə idman sahəsində əməkdaşlıq haqqında sazişlər imzalanmışdır. İdmanımıza kömək məqsədilə 2000-ci ilin axırında Çinin Dövlət İdman Baş İdarəsi tərəfindən Azərbaycana güləş üçün döşək və stolüstü tennis üçün ləvazimatlar göndərilmişdir [10, v.25]. Həyata keçirilmiş səfərlər zamanı qarşılıqlı olaraq ölkələrimizin gənclər və idman siyasəti öyrənilmiş, təcrü-

bə mübadiləsi aparılmışdır [89; 10, v.26]. Çin Boks Federasiyasındakı görüşlərdə Azərbaycan tərəfi yeniyetmə boksçular arasında 2001-ci ildə Bakıda keçiriləcək dünya çempionatında, habelə Ə.Çoudrinin şərəfinə beynəlxalq turnirdə Çin idmançılarının da iştirak etməsi barədə təklif irəli sürmüşdü. Təqdirəlayiq haldır ki, ölkəmizin ərazisinin 20 faizinin erməni təcavüzkarları tərəfindən işğalı ilə bağlı yaranmış vəziyyət qaçqın və köçkün gənclərin təlim-tərbiyəsində, bədən tərbiyəsi və idmanla məşğul olmasında, təhsilində, ümumən həyatında böyük problemlər yaratdığı görüşlərdə vurğulanmışdır. 11-14 avqust 2001-ci ildə Çin Dövlət Neft–Qaz İdman Assosiasiyasının (ÇDNQİA) dörd nəfərdən ibarət nümayəndə heyəti ölkəmizdə olarkən "Neftçi" İdman Sağlamlıq Mərkəzinin (İSM) rəhbərliyi ilə idman sahəsində əməkdaşlıq etmək haqqında niyyət protokolu imzalamışdı [89; 10, v.31]. Bu protokolla "Neftçi" İSM və ÇDNQİA iki xalq arasında dostluğu və qarşılıqlı anlaşmanı möhkəmləndirməyi, bədən tərbiyəsi və idman sahəsində əlaqələri genişləndirməyi, imkan daxilində birgə seminarlar, beynəlxalq turnirlər təşkil etməyi, kütləvi idman yarışları keçirməyi, dopinqə qarşı birgə mübarizə aparmağı qərara almışdı. "Neftçi" İSM-in nümayəndə heyətinin Çinə getməsi də nəzərdə tutulmuşdu. Yeri gəlmişkən onu da qeyd edək ki, bu əlaqələrin sıxlaşmasının bilavasitə nəticəsi kimi son illər Çində təhsil alan azərbaycanlı və Azərbaycanda təhsil alan çinli tələbələrin sayı daha da çoxalmışdı.

2001-ci ilin iyununda Azərbaycan velosipedçiləri Çində keçirilən dünya çempionatında, Azərbaycan idmançıları 15-25 avqustda Pekində tələbələrin Ümumdünya Universiadasında yüngül atletika və cüdo yarışlarında, 22-29 aprel 2002-ci ildə Şanxayda stend atıcılığı üzrə dünya kuboku yarışlarında iştirak etmişdilər. Çin idmançıları isə 12-22 noyabr 2004-cü ildə Bakıda hərbçilərin cüdo üzrə 30-cu dünya çempionatında güclərini sınamışdılar [10, v.30]. Azərbaycan Respublikasının Çindəki səfirliyinin işçiləri ilə Ümumçin Sənaye İşçiləri və İş Adamları Sənaye Konfederasiyasının nümayəndələri ilə keçirilən görüşləri nə-

ticəsində "Azərbaycan-Çin iqtisadi forumu, Pekin-2003" adı altında tədbirin hazırlanması və 2003-cü ilin aprelin ortalarında onun Pekində keçirilməsi barədə razılıq əldə olunmuşdur. Forumun məqsədi Azərbaycan və Çinin respublikalarının hazırkı iqtisadi vəziyyəti ilə tanışlıq, həmçinin qarşılıqlı faydalılıq şəraitində hər iki ölkənin dövlət təşkilatları və iş adamlarının ticarət-iqtisadi əməkdaşlığının inkişafına cəlb edilməsindən ibarət idi. Elə bu tədbirdə tərəflərin futbol və voleybol komandaları arasında dostluq görüşləri keçirilmişdir. Çin tərəfi forum iştirakçıları ilə əlaqədar bütün xərcləri, o cümlədən idmançılar qrupu və incəsənət nümayəndələrinin Bakı-Urumçi-Bakı reysləri ilə təyyarə biletlərinin 50 faizinin ödənilməsini öz üzərinə götürmüşdür.

Çinin dövlət gənclər və idman qurumları ilə rəsmi əlaqələrin qurulması məqsədilə hələ 1999-cu ildə Azərbaycan Respublikasının o vaxtkı Gənclər və İdman Nazirliyində "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş" layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 2000-ci və 2005-ci illərdə Çinə göndərilmişdi. Çin tərəfi bu sazişə dair öz rəyini son vaxta qədər bildirməmişdi. Lakin 2000-ci ildə Çin tərəfinin təklifinə əsasən bizim Gənclər və İdman Nazirliyimiz ilə Ümumçin Gənclər Federasiyası arasında ikitərəfli əməkdaşlıq haqqında və Çinin Dövlət Baş İdman İdarəsi ilə idman sahəsində əməkdaşlıq haqqında iki çərçivə sazişi, daha sonra Azərbaycan Respublikası Prezidentinin 2005-ci ilin martında Çinə səfəri zamanı "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Ümumçin Gənclər Federasiyası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdı [11, "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin ÇXR ilə əməkdaşlığı haqqında məlumat"]. 2005-ci ilin fevralında Çinin Azərbaycandakı səfirliyindən daxil olmuş notada göstərilmişdir ki, 2000-ci ildə iki ölkənin idman strukturları arasında idman sahəsində əməkdaşlıq haqqında sənəd imzalandığından Çin tərəfi höku-

mətlərarası sazişin imzalanmasını məqsədəuyğun hesab etmir. Çin tərəfi Çin və Azərbaycan milli olimpiya komitələri arasında əməkdaşlıq haqqında sazişin imzalanmasını təklif etmişdir. Əlbəttə ki, olimpiya komitələri arasında da əməkdaşlıq haqqında ayrıca sazişin imzalanması mümkündür və bunun gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişə maneçiliyi olmadığından ölkələrimiz arasında idman sahəsində mövcud əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsi üçün idman sahəsində hökumətlərarası sazişin imzalanması vacib hesab olunmalıdır. Mövcud olan əlaqələri genişləndirmək məqsədilə Azərbaycan Milli Olimpiya Komitəsi "Azərbaycan Milli Olimpiya Komitəsi ilə Çin Olimpiya Komitəsi arasında texniki və idman əməkdaşlığı haqqında saziş" layihəsini hazırlamışdı. Həmçinin Çin Dövlət Turizm İdarəsində keçirilmiş görüşdə ölkələrimizin bu sahədəki əməkdaşlığını inkişaf etdirmək məsələləri müzakirə olunmuşdu [11, v.4].

Asiyanın və eləcə də bütün dünyanın ən aparıcı dövlətlərindən biri olan Yaponiya ilə idman sahəsində əməkdaşlığa Azərbaycan idmançıları həmişə böyük əhəmiyyət vermişlər. XX əsrin sonu– XXI əsrin lap əvvəllərində Gənclər, İdman və Turizm Nazirliyi Yaponiyanın bir sıra qurum və təşkilatları ilə birgə layihələrdə, eləcə də Azərbaycan və Yaponiya idmançıları qarşılıqlı olaraq hər iki dövlətin ərazisində keçirilən idman yarışlarında fəal iştirak etmiş, birgə təlim-məşq toplanışları həyata keçirmiş, gənclərimiz müxtəlif proqramlar çərçivəsində Yaponiyaya səfərlər etmişlər [41, v.4]. Azərbaycan və Yaponiya hökumətləri arasında 3 may 1999-cu ildə bağlanmış notalar mübadiləsinə əsasən 2000-ci ildə Yaponiya hökumətinin "Mədəniyyət qrantı" çərçivəsində idman nazirliyi cüdo, boks və karate idman növləri üçün avadanlıq ilə təchiz olunmuşdur [41, v.8]. Bu kömək sonrakı illərdə də davam etdirilmiş, 12 sentyabr 2003-cü ildə respublika idman təmayüllü məktəbi ilə Yaponiyanın Azərbaycandakı səfirliyi arasında imzalanmış qrant sazişinə əsasən məktəbin tədris korpusunda təmir işləri həyata keçirilmişdir [41, v.9].

Hər iki ölkənin idmançıları Azərbaycan Respublikası və Yaponiyada keçirilmiş müxtəlif idman tədbirlərində qarşılıqlı iştirak etmiş, birgə təlim-məşq toplantıları həyata keçirmişdilər. Belə ki, 23–25 aprel 2004-cü ildə Bakıda keçirilən bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışlarında, 24–27 iyun 2005-ci ildə Tokioda keçirilən uşaq və gənclər, kişi və qadınlar arasında kosiki karate-do üzrə 24-cü Yaponiya açıq çempionatı–dünya kuboku yarışlarında, 3–9 oktyabr 2005-ci ildə bədii gimnastika üzrə dünya çempionatında, 27–29 oktyabr 2005-ci ildə Yaponiyada armsport üzrə 26-cı dünya çempionatında, 2006-cı ilin 12–22 yanvarında cüdo üzrə Tokioda Ciqaro Kanonun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə və başqa idman yarışlarında iştirak etmişdilər. 2005-ci ilin dekabrında Azərbaycan və Yaponiyanın bədii gimnastika üzrə yığma, 29 yanvar– 4 fevral 2006-cı ildə cüdo üzrə gənclərdən ibarət milli komandaları Bakıda birgə təlim-məşq toplanışları keçirmişdilər. Göründüyü kimi, Yaponiya ilə gənclər siyasəti və idman sahəsində əlaqələrimizin daha da inkişaf etdirilməsi qarşılıqlı fayda verdiyindən və iki ölkənin gənclər təşkilatları, təhsil ocaqları və tədqiqat müəssisələri arasında əlaqələrin qurulmasını mühüm hesab etmək olar. Həmçinin idman mütəxəssislərinin təcrübə mübadiləsinin təşkili əlaqələrimizin inkişafına böyük töhfə verə bilər.

Azərbaycan Respublikası ilə dünyanın ən qüdrətli müsəlman dövlətlərindən biri olan Pakistan arasında beynəlxalq idman əlaqələri də öz miqyasına görə diqqəti cəlb edir. 10 avqust 1995-ci və 5 mart 1996-cı illərdə Pakistanın Azərbaycandakı səfiri ölkəmizin müvafiq qurumlarının rəhbərləri ilə görüşərək, iki ölkə arasında birgə turnir təşkil edilməsi, idmançıların və idman komandalarının mübadiləsi, bir sıra idman növləri üzrə Pakistan komandalarının hazırlığına Azərbaycan məşqçilərinin köməyi və digər məsələləri müzakirə etmişdi [28, v.6].

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası hökumətləri arasında 30 oktyabr 1995-ci ildə Bakıda imzalanmış “Mədəni, elmi və humanitar əlaqələr haqqında saziş”in səkkizin-

ci maddəsində tərəflər idman, turizm sahəsində əməkdaşlığı inkişaf etdirməyi, gənclər təşkilatları, qadın cəmiyyətləri və başqa qeyri-hökumət təşkilatları arasında əlaqələrin möhkəmləndirilməsinə kömək etməyi qərara almışdılar. Bu sazişin yerinə yetirilməsi və genişmiqyaslı qarşılıqlı faydalı əməkdaşlığın təşviq edilməsi məqsədilə hər iki tərəf Azərbaycan–Pakistan birgə komissiyasının yaradılması haqqında 9 sentyabr 1995-ci ildə Bakıda razılığa gəlmişdir. Komissiya iqtisadiyyat, ticarət, elm və texnologiya, nəqliyyat vasitələri, informasiya, təhsil, turizm və mədəniyyət sahələrində qarşılıqlı maraq doğuran bütün məsələləri öyrənməli və bu sahələrdə əməkdaşlığın genişləndirilməsi barədə təkliflər verməliydi. Azərbaycan Respublikasının prezidenti H.Ə.Əliyevin 9-11 aprel 1996-cı ildə Pakistan İslam Respublikasına səfəri ölkələrimiz arasında digər sahələrdə olduğu kimi gənclər, idman və turizm sahələrində də əməkdaşlığın genişlənməsinə səbəb olmuş, bu əlaqələrin gələcək inkişafına müsbət şərait yaratmış, idman nazirliyimiz tərəfindən mütəmadi olaraq, Pakistanın idman qurumları ilə əlaqə saxlanılmış, informasiya və təcrübə mübadiləsi həyata keçirilmişdir [28, v.5]. Bu səfər zamanı aprelin 10-da İslamabadda idmana aid Anlaşma Memorandumu imzalanmışdır [28, "Azərbaycan və Pakistan arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığa dair məlumat"]. Azərbaycan Respublikasının müvafiq qurumları tərəfindən Pakistanın müvafiq qurumları ilə idman sahəsində əlaqələrin genişləndirilməsinə, idmançıların, mütəxəssislərin, idman xadimlərinin beynəlxalq yarışlarda və digər tədbirlərdə iştirakına şərait yaradılmasına, Pakistanda keçirilən müxtəlif tədbirlərdə gənclərin və idmançıların iştirakına diqqət yetirilmişdi [28, v.5-13]. Belə ki, Pakistan tərəfinin xahişi ilə beş nəfər məşqçi qadın 1996-ci ilin sentyabrında bir il müddətinə işləmək üçün Pakistana göndərilmiş, 1996-cı ilin 13-29 oktyabrında İslamabadda islam ölkələri qadınlarının ikinci oyunlarına hazırlıq məqsədilə yarışlarda (basketbol, atletika, otüstü hokkey, badminton, stolüstü tennis üzrə 5 növdə idmançılarımız 2 gümüş, 3 bürünc medal

qazanmışlar) 64 nəfərlik nümayəndə heyətimiz iştirak etmişdir. Elə buradaca təşkilatçıların təklifinə əsasən badminton yığma komandamız bir həftəlik təlim-məşq toplanışında olmuşdur [28, v.2-3]. Həmin ildən başlayaraq respublikamızda ənənəvi olaraq Beynəlxalq Həvəskar Boks Assosiasiyasının Prezidenti əslən Pakistandan olan professor Ə.Çoudrinin şərəfinə ənənəvi beynəlxalq turnirin keçirilməsinə başlanılmışdır. 2004-cü ildə turnir "A" kateqoriyası statusunu almış və həmin il olimpiya lisenziyalı turnir olmuş, Azərbaycan boksçularından A.Məmmədov, C.Əliyev və Ə.İsmayılov Olimpiya oyunlarına lisenziyanı məhz bu turnirdə əldə etmişdilər [28, v.6].

Pakistan komandası sonrakı illərdə də daimi olaraq bu turnirdə müvəffəqiyyətlə iştirak etmişdir. Çox təəssüf ki, iştirak edən Pakistan idmançılarının sayı qənaətbəxş olmamışdır (hər il 2-5 idmançı). Həm Azərbaycan, həm də Pakistan boksçularının idman ustalığının artmasında bu turnirin müstəsna əhəmiyyəti olmuşdur. Azərbaycan boksunun 1996-2002-ci illər ərzindəki nailiyyətlərinə nəzər saldıqda aydın olur ki, Avropa, dünya çempionatlarında və olimpiya oyunlarında qazanılan medalların əksər sahibləri məhz AİBA prezidentinin şərəfinə keçirilmiş beynəlxalq turnirlərin iştirakçıları olmuşdular. Qeyd edək ki, 1996-cı ildən 2003-cü ilə qədər Azərbaycanın boksçu idmançıları Avropa və dünya çempionatında qızıl, gümüş, bürünc medallar, Olimpiya oyunlarında isə bir bürünc medal qazanmışlar. 1996-cı ildə Azərbaycan boksçuları Kəraçidə keçirilən beynəlxalq yarışlarda iştirak etmişlər. Qeyd etmək lazımdır ki, Pakistan Boks Federasiyası Azərbaycan boks komandalarını onların razılığı ilə birinci beynəlxalq kadet və yeniyetmə boks turnirinə (15-20 sentyabr 1996) dəvət etmiş, Pakistan Boks Federasiyasının prezidenti 1500 ABŞ dolları dəyərində ləvazimatı ilkin olaraq, kömək üçün Azərbaycan Boks Federasiyasına bağışlamış, sonra isə Pakistan idman əşyalarını təqdim etmişdi. Bunlardan əlavə Pakistan Boks Federasiyasının prezidenti özünün 5000 ABŞ dolları məbləğində məvacibini də bizim federasiyaya bağış-

lamışdır. Azərbaycan boksçuları 1997, 1998 və 2003-cü illərdə də Kəraçidə keçirilən beynəlxalq yarışlarda iştirak etmişdilər. Bütün bunlar əyani şəkildə sübut edir ki, iki ölkə arasında boks sahəsində əlaqələrimiz daha geniş və intensiv olmuşdur. İdmanın digər sahələri üzrə də əlaqələrin qurulması istiqamətində işlər gedirdi. Belə ki, 2 sentyabr 1996-cı ildə Pakistanın otüstü hokkey, atletika, qayıq sürmə, boks federasiyaları Azərbaycandakı səfirlikləri vasitəsilə ölkəmizin müvafiq federasiyaları ilə əlaqələr qurmaq istəklərini bildirmiş, nəticədə ölkələrimizin boks, badminton, stolüstü tennis, otüstü hokkey üzrə federasiyaları arasında işgüzar əməkdaşlıq əlaqələri yaranmışdı. Bunlarla yanaşı təkcə bu ölkələrin özündə keçirilən idman yarışlarında deyil, digər beynəlxalq tədbirlərdə də əməkdaşlıq inkişaf edirdi. Məsələn, İslam Həmrəylik İdman Federasiyası tərəfindən təklif olunmuş və 1998-ci ilin martında Lahorda keçirilmiş "İdmanın təşkili və ona rəhbərlik" mövzusundakı kursda, habelə yenə də həmin federasiyanın Lahorda 2001-ci ilin 21-23 yanvarında keçirilmiş antidopinq kursunda da Azərbaycan Respublikasının nümayəndələri iştirak etmişlər.

Azərbaycan və Pakistan respublikalarının hökumətləri arasında ticarət, elm və texnologiya, nəqliyyat, informasiya, təhsil, turizm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli sərəncamı ilə yaradılmış Azərbaycan-Pakistan birgə komissiyasının 1-ci iclası 2000-ci ilin 28-29 sentyabrında Bakıda keçirilmiş və müvafiq protokol imzalanmışdı [28, v.13]. Azərbaycan-Pakistan birgə komissiyasının 2-ci iclası 2002-ci ilin aprelində İslamabadda keçirilmiş və burada həmçinin idman əlaqələrinin inkişaf etdirilməsi, genişləndirilməsi və s. bu kimi məsələlər müzakirə olunmuşdur. Digər ölkələrlə olduğu kimi Pakistanla da idman əlaqələrinə müqavilələrlə yanaşı birgə komissiyanın iclasları öz təsirini göstərmişdir.

İki ölkə arasında idman sahəsində idmançılar və idman təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsi məqsədi ilə Paki-

stan idmançıları 2002-2003-cü illərdə Azərbaycanda keçirilən aşağıdakı yarışlara dəvət olunmuşlar: 2003-cü ilin martında boks üzrə Ə.Çoudri kuboku, 2003-cü ilin mayında yeniyetmələr arasında güləş üzrə beynəlxalq turnir, 2003-cü ilin sentyabrında cüdo üzrə general H.Aslanovun xatirəsinə həsr edilmiş beynəlxalq turnir. Göstərilən yarışlarda iştirak edən idmançıların yaşayış və yemək xərclərini Azərbaycan tərəfi öz üzərinə götürmüşdü.

Eyni zamanda, düşünürük ki, Pakistanın idman təşkilatları tərəfindən Azərbaycan Respublikasının idmançıları üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uyğun olardı: otüstü hokkey komandaları arasında qarşılıqlı yarışların keçirilməsi, dopinqə qarşı əməkdaşlıq məsələlərinin müzakirəsi ilə əlaqədar ikitərəfli seminarların keçirilməsi; pakistanlı gənclərin və idmançıların Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alması (özü də burada təhsil haqqı çox aşağı olub-2002-2003-cü illərdə cəmisi 600 ABŞ dolları təşkil etmişdi). Yuxarıda sadalanan tədbirlərin həyata keçirilməsi idman sahəsində ikitərəfli əməkdaşlığın inkişafı və möhkəmləndirilməsinə, ölkələrimiz arasında bu sahələrdə gələcək əlaqələrin daha da genişləndirilməsinə əlverişli zəmin yarada bilər.

Bunu da qeyd etmək yerinə düşər ki, 13 oktyabr 2005-ci ildə Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri də Pakistanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri M.Hafizə Pakistanda 8 oktyabr 2005-ci ildə baş verən və xeyli insan tələfatına səbəb olan zəlzələ ilə bağlı başsağlığı vermişdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra ərəb dünyası ilə də əlaqələr (o cümlədən idman sahəsində) qurmuşdur. Belə ölkələrdən biri də İraqdır. Azərbaycan ilə İraq arasında beynəlxalq idman əlaqələrindən danışarkən qeyd etmək lazımdır ki, İraqda mövcud olan vəziyyət bu əlaqələrə də öz təsirini göstərməyə bilməzdi [16, v.1]. Buna baxmayaraq, respublikamızın Gənclər və İdman Nazirliyində Azərbaycan ilə İraq arasında 2000-ci ildə elmi və mədəni əməkdaşlıq haq-

qında müqavilə layihəsinin idmana aid bəndlərinə baxılmışdır. Lakin ABŞ-ın İraqı işğal etməsi bütün sahələrdəki əlaqələri qeyri-müəyyən müddətə təxirə salmışdı.

Gənclər və idman sahələrində əməkdaşlığın hüquqi bazasını gücləndirmək və əməkdaşlığı inkişaf etdirmək məqsədilə "Küveyt Dövləti Hökuməti və Azərbaycan Hökuməti arasında idman və gənclər sahələrində əməkdaşlıq haqqında saziş" layihəsi hazırlanmış və aidiyyəti nazirliklərlə müvafiq qaydada razılaşdırılaraq qarşı tərəfə təqdim olunmuşdur [76].

Yaxın Şərqdə, o cümlədən islam dünyasında nüfuzlu dövlətlərdən olan Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əlaqələrini genişləndirmək istiqamətində fəaliyyət də diqqəti cəlb edir. Belə ki, 1994-cü ilin iyulunda "Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq haqqında baş saziş" imzalanmış və bu saziş Azərbaycan Milli Məclisinin 4 aprel 1995-ci il qərarı ilə təsdiq edilmişdir [78]. Sözügedən sənədin icrasının təmin edilməsi məqsədilə mərhum prezident H.Ə.Əliyev tərəfindən müştərək komissiyanın Azərbaycan tərəfinin tərkibinin təsdiqi haqqında 25 aprel 2000-ci ildə sərəncam imzalanmışdır. Bu sazişin 7-ci maddəsinə uyğun olaraq 2001-ci il fevralın 20-22-də Bakıda Müştərək Komissiyanın 1-ci iclası, 2004-cü il fevralın 14-15-də ər-Riyadda 2-ci iclası keçirilmişdir. Bu iclaslarda iki ölkə arasında qarşılıqlı idman əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilmişdir. 2001-ci ilin fevralında daha yeni bir saziş- "Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmış və bu saziş 22 mart 2004-cü ildə qüvvəyə minmişdir. Bu sazişin yerinə yetirilməsi əlaqələrimizin inkişafına təsirsiz qalmamışdır. Ölkəmiz 3-4 aprel 2005-ci ildə Ciddədə islam ölkələrinin gənclər və idman nazirlərinin I konfransında təmsil olunmuşdur. Habelə 8-20 aprel 2005-ci ildə Səudiyyə Ərəbistanında I islam həmrəylik oyunlarında respublikamız 14 idman

növü üzrə 103 idmançı ilə təmsil olunmuş və atletlərimiz bu oyunlarda 15 medal-4 qızıl, 4 gümüş və 7 bürünc medal qazanmışdılar. 20-28 noyabr 2005-ci ildə gənclərdən ibarət Azərbaycan nümayəndə heyətinin Səudiyyə Ərəbistanına səfərində Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı hökumətləri arasında Müştərək Komissiyanın növbəti iclası ərəfəsində idman və turizm sahəsində investisiya üçün təkliflər paketi təqdim edilmişdi. Komissiyanın bu iclasından sonra idman-konsert kompleksi və Mingəçevirdəki "Kür Olimpiya İdman Mərkəzi"nin rekonstruksiyası ilə bağlı təkliflər Səudiyyə Krallığı tərəfindən təqdim olunmuşdu (hazırda bu baza təmir olunaraq idmançılarımızın xidmətinə verilmişdir). Əlaqələrimizin davamı olaraq sonrakı illərdə də mühüm addımlar atılmışdı.

Digər bir ərəb dövləti olan Qətərlə əlaqələrimizə gəldikdə demək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü ilin noyabrında Qətərə rəsmi səfəri zamanı "Azərbaycan Milli Olimpiya Komitəsi və Qətər dövləti Milli Olimpiya Komitəsi arasında idman sahəsində anlaşma memorandumu" imzalanmış və bu memoranduma əsasən respublikamızın Azərbaycan komandası 2005-ci ilin yanvarında Qətərdə təşkil olunmuş qılıncoynatma üzrə dünya çempionatı mərhələsində çıxış etmişdi [78]. 2005-ci ildə Çində keçirilmiş boks üzrə dünya çempionatında beynəlxalq həvəskar boks assosiasiyasının razılığı ilə iki Azərbaycan boksçusu Qətər komandasının tərkibində mübarizə aparmışdı. Bu komanda 2005-2006-cı ilin martında Bakıda Ə.Çoudrinin şərəfinə keçirilmiş boks üzrə beynəlxalq turnirlərdə də çıxış etmişdi. Qətər idmançılarının Asiya oyunlarına hazırlığına yardım etmək məqsədi ilə 2006-cı ildə Azərbaycan boksçularından bir qrupu Qətər idmançıları ilə təlim-məşq toplantılarında iştirak etmişdi.

1991-2005-ci illərdə Azərbaycan-İordaniya idman əlaqələrini araşdırdıqda isə görürük ki, əlaqələrimizi inkişaf etdirmək məqsədi ilə "Azərbaycan Gənclər və İdman Nazirliyi ilə İordaniya Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq

haqqında saziş" ölkəmizdə dövlətdaxili proseduradan keçirildikdən sonra qarşı tərəfə təqdim olunmuşdu [76].

Azərbaycanla Misir arasında beynəlxalq idman əlaqələri isə daha geniş olmuşdu. Hələ 1994-cü ilin sentyabrında prezident H.Ə.Əliyev BMT-nın rəhbərliyi altında çağırılmış inkişaf və əhali üçün beynəlxalq konfransda iştirak etmək üçün Misirə səfər etmişdi. Bu səfər zamanı H.Ə.Əliyev Misirin dövlət başçısı ilə görüşmüş, müxtəlif mühüm məsələlər üzrə fikir mübadilələri aparmışdı. Bu müzakirələr iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsində, Misir və Azərbaycan arasındakı əməkdaşlığın gücləndirilməsində böyük rol oynamışdı [79]. Azərbaycan Respublikası xarici işlər nazirinin 1994-cü ilin 7 aprelində Misirə rəsmi səfəri zamanı imzalanmış "İqtisadi və elmi-texniki əməkdaşlıq barəsində saziş"in 6-cı maddəsində digər əməkdaşlıq sahələri ilə yanaşı idman sahəsində də birgə müəssisələr yaratmaq, habelə hər iki tərəfin qarşılıqlı razılaşmasına əsasən digər əməkdaşlıq sahələrini müəyyən etmək, konkret layihə və proqramların yerinə yetirilməsi üçün müvafiq tədbirlər görmək nəzərdə tutulmuşdu [24, v.3]. Elə buna görə də ötən illər ərzində idmançılarımız qarşılıqlı olaraq, hər iki ölkədə təşkil olunmuş müxtəlif idman yarışlarında iştirak etmişlər [24, v.6]. Həmçinin Azərbaycan və Misir arasında hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək komissiyanın 25-26 dekabr 2005-ci ildə Qahirədə keçirilən ikinci iclasında "Azərbaycan və Misir hökumətləri arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında saziş"in layihəsi paraflanmışdı [24, v.14]. Ümid etmək olar ki, hüquqi bazanın yaradılması gələcəkdə əlaqələrin daha da genişlənməsinə təkan verəcək.

Azərbaycan ilə Liviya arasında beynəlxalq idman əlaqələrinə gəldikdə isə göstərmək lazımdır ki, Azərbaycan Prezidentinin 2001-ci il 24 mart sərəncamı ilə təsdiq edilmiş, 1992-ci il martın 16-da Bakıda imzalanmış "Mədəni əməkdaşlıq sahəsində Azərbaycan ilə Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi arasında saziş"in bir neçə maddəsində idman sahəsində əməkdaşlıq

əlaqələrinin qurulması və möhkəmləndirilməsi nəzərdə tutulurdu [22, v.2]. Sazişin 2-ci maddəsində göstərilirdi ki, tərəflər ali məktəblər arasında mühazirələr oxumaq, fikir və təcrübə mübadiləsi aparmaq üçün professor və müəllim heyəti mübadiləsinə şərait yaradacaqlar. Bu, idman təhsili sahəsinə də aid olunmuşdu. Sazişin 3-cü maddəsində isə hər iki tərəf öz imkanları daxilində bir-birinə təhsil təqaüdü, universitetlərdə və institutlarda oxumaq üçün yer ayırmalı, hər iki ölkədə tələbələrin oxumasına kömək məqsədilə onlara mümkün olan güzəştləri etməlidir. Sazişin 10-cu maddəsinə əsasən tərəflər gənclər və idman nümayəndə heyətlərinin qarşılıqlı gediş-gəlişi və bu sahələrdə məşğul olan təşkilatların əməkdaşlığına şərait yaratmaq barəsində öz üzərlərinə təəhhüdlər götürürlər. Təəssüf ki, göstərilən müqaviləyə baxmayaraq, Liviya ilə idman əlaqələrimiz demək olar ki, çox zəif inkişaf etmişdi.

Azərbaycan Respublikası tərəfindən Afrika ölkələrindən olan Sudanla da beynəlxalq idman əlaqələrinin qurulmasına cəhdlər göstərilmiş, 10 yanvar 1995-ci ildə Sudan səfiri ilə idman nazirliyində görüş keçirilmiş, hər iki ölkənin müvafiq nazirlikləri arasında əməkdaşlıq haqqında saziş bağlamaq barədə razılığa gəlinmişdir [35, v.1]. Elə bu əsasla da gənclər və idman sahəsində Sudanla sazişin layihəsi hazırlanmışdır. Lakin Sudanda mərkəzi hakimiyyətin zəifliyi, baş verən vətəndaş müharibəsi və bununla əlaqədar olan digər məsələlər əlaqələrimizin inkişafına maneə olmuşdu.

Məlumdur ki, beynəlxalq əlaqələrimizdə İsrail dövlətinin özünəməxsus yeri vardır. Tədqiqat üçün seçdiyimiz dövrdə bu dövlətlə də idman əlaqələrimiz böyük maraq kəsb etmişdir. Lakin bu sahədə əlaqələrimiz digər sahələrlə müqayisədə cox zəif olmuşdur. Elə buna görə də İsrail və Azərbaycan arasında idman, eyni zamanda gənclər və turizm sahələrində əlaqələri genişləndirmək və gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmək məqsədilə 27–28 iyun 2005-ci ildə nazir Ə.Qarayev İsrailə səfər etmişdir. Qeyd etmək lazımdır ki, İsraildə bu sahə ilə dövlətin

təhsil, mədəniyyət və idman nazirliyi məşğul olur [18, v.3]. Keçirilən bütün görüşlər zamanı təkcə sözügedən sahələrə deyil, Azərbaycanda baş verən sosial və iqtisadi proseslərə, həmçinin Qarabağ probleminə geniş yer verilmiş və ölkəmizin haqlı mövqeyi qarşı tərəfə çatdırılmışdır. Nəticədə, idman sahəsində əlaqələrimizin hüquqi bazasını yaratmaq məqsədilə İsrail ilə Azərbaycan arasında sazişin layihəsi hazırlanmışdı.

Azərbaycan Respublikası ilə Hindistan arasında nəzərə çarpan idman əlaqələri olmamış, lakin bu əlaqələrin yaradılması istiqamətində Azərbaycan və Hindistan arasında mədəniyyət, incəsənət, kinematoqrafiya, təhsil, elm, turizm, idman və kütləvi informasiya vasitələri sahəsində əməkdaşlıq haqqında sazişin layihəsi hazırlanmışdı (29.12.2005) [15, v.1].

Azərbaycan dövləti müxtəlif əlaqələr kontekstində bizimlə yaxın qonşu olan İranla beynəlxalq idman əlaqələrinə xüsusi əhəmiyyət vermişdir. Yuxarıda sadalanan bir çox ölkələrlə olduğu kimi, İranın gənclər və idman təşkilatları ilə əlaqələrin əsası mərhum prezident H.Ə.Əliyevin 1994-cü ilin iyulunda Tehrana səfəri zamanı qoyulmuş, bu əlaqələr Azərbaycan Respublikası və İran hökumətləri arasında elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq haqqında 1994–1996-cı illər üçün nəzərdə tutulmuş protokola əsasən tənzim edilməyə başlanmışdı [17, v.6]. Protokolun maddələrinə uyğun olaraq, nümayəndə heyətlərinin mübadilələri keçirilmiş, idman komandalarının və ayrı-ayrı idmançıların hər iki tərəfin təşkil etdiyi müxtəlif idman yarışlarında iştirakına xüsusi diqqət yetirilmişdi. Lakin həmin protokolun 9-cu və 13-cü maddələrinə əsasən ezam olunan heyətlərin ölkəyə qədərki yol xərclərindən başqa, bütün xərcləri dəvət edən tərəfin öz üzərinə götürməsi nəzərdə tutulmasına baxmayaraq İrana daxil olan hər bir idmançıdan 42 ABŞ dolları məbləğində rüsumun tələb edilməsi protokolun işləkliyini şübhə altına almışdı. Sonradan Gənclər və İdman Nazirliyi ilə İranın səfirliyi arasındakı razılığa əsasən idmançıların viza üçün ödənişdən azad olması haqqında razılıq əldə edilmişdi [17, v.7]. 1994-cü

ilin axırında İran tərəfinin dəvəti ilə idman nazirliyinin nümayəndə heyəti İranda olmuş, əməkdaşlığı daha da genişləndirmək üçün danışıqlar aparılmışdı. Daha sonra iki dövlət arasında 9 dekabr 1994-cü ildə imzalanmış mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişin 12-ci maddəsində göstərilir ki, tərəflər hər iki ölkənin idman təşkilatları arasında əməkdaşlığı təşviq etməli, idman komandaları arasında dostluq yarışlarının keçirilməsinə şərait yaratmalı, maraq doğuran sahələr üzrə məşqçilərin cəlb olunması üçün lazımi tədbirlər görməli, idmanın maddi–texniki bazası sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməli, idman infrastrukturunun və idman səhiyyəsinin yaradılması və fəaliyyəti sahəsində əlaqələrin inkişafına şərait yaratmalı idilər [17, “İran İslam Respublikası və Azərbaycan Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş”]. Dövlətlərarası hüquqi sənədlərin məğzinə uyğun olaraq 23 yanvar 1995-ci ildən ölkəmizin cüdo üzrə yığma komandası İranda keçirilən “Dəheye Fəcr” beynəlxalq turnirində iştirak etmişdi. Ümumiyyətlə, ölkəmizin müxtəlif idman növləri üzrə yığma komandaları hər il İslam inqilabının ildönümünə həsr edilmiş beynəlxalq “Fəcr” turnirində, həmçinin sərbəst və yunan-Roma güləşi növləri üzrə Tehranda ənənəvi olaraq keçirilən “Taxtinin” kuboku uğrunda beynəlxalq turnirdə müntəzəm iştirak etmişlər. Məhz sonra bağlanan müqavilə və görülən işlər nəticəsində 1996-cı ildə bədən tərbiyəsi və idman tədbirləri və yarışlarında iştirak etmək üçün Azərbaycandan İrana 536 nəfər idmançı rüsum tutulmadan viza verilərək göndərilmiş, eyni dövrdə Azərbaycanda keçirilən beynəlxalq yarışlara İrandan isə 40–50 idmançı gəlmişdi [17, v.10]. Bu idmançılar müxtəlif turnirlərdə, ayrı-ayrı yarışlarda iştirak etmişlər. Təsadüfi deyil ki, Azərbaycanın 1996-cı ildə ən çox idman əlaqələri İranla olmuşdu [17, v.12]. Ümumiyyətlə, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında bədən tərbiyəsi və idman sahəsində əlaqələr xeyli möhkəmlənmişdi. Hər il İranda keçirilən müxtəlif idman yarışlarında Azərbaycandan 300 nəfərdən artıq nümayəndə

iştirak etmişdir. Astara, Biləsuvar rayonları, NMR Gənclər və İdman İdarələri İranın sərhəd rayonlarının idman təşkilatları ilə sıx əlaqə saxlamış, müxtəlif idman tədbirlərinə qatılmışdılar. Azərbaycan Respublikası və İranın idman qurumları arasında təcrübə mübadilələri, beynəlxalq və rəsmi yarışlar ərəfəsində birgə təlim-məşq toplantıları, eləcə də idman mütəxəssislərinin seminarları keçirilmişdi. İdmançılarımız İranda keçirilən cüdo, stolüstü tennis, yüngül atletika, yunan–Roma və sərbəst güləş növləri, badminton, taekvondo, qılıncoynatma, velosiped idmanı üzrə beynəlxalq turnirlərdə, aykido üzrə beynəlxalq seminarda iştirak etmişlər. 2000-ci il martın 15-dən 22-dək Bakıda Novruz bayramına həsr olunmuş minifutbol üzrə ənənəvi beynəlxalq turnirdə İran futbolunu "Təbriz" futbol komandası təmsil etmişdi. 2001-ci il oktyabrın 25-dən 30-dək Tehranda və Rəştdə keçirilmiş islam ölkələri qadınlarının 3-cü idman oyunlarında Azərbaycan yüngül atletika, badminton, basketbol, karate, tennis, atıcılıq, şahmat, qılıncoynatma, üzgüçülük, futzal və həndbol növlərində 135 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuş və idmançılarımız həndbol, karate, güllə atıcılığı, üzgüçülük, futzal növlərində yüksək nəticələr göstərmişlər [17, "Tehranda keçirilmiş islam ölkələri qadınlarının 3-cü idman oyunlarında Azərbaycan qadın idman nümayəndə heyətinin iştirakı haqqında hesabat"].

İran idmançıları 2001-ci ildə Bakıda keçirilmiş "20 Yanvar" şəhidlərinin xatirəsinə həsr edilmiş İran-Azərbaycan veloyürüşündə (Tehran-Bakı, Bakı-Tehran), sərbəst güləş üzrə beynəlxalq turnirdə, beynəlxalq boks federasiyasının prezidenti, professor Ə.Çoudrinin şərəfinə beynəlxalq turnirdə və qılıncoynatma üzrə beynəlxalq turnirdə iştirak etmişlər. Göründüyü kimi, idman əlaqələrinin intensivliyi bu sahədə müqaviləyə ehtiyac hiss etdirdiyindən 20 may 2002-ci ildə Tehranda Respublikamızın Gənclər, İdman və Turizm Nazirliyi ilə İranın Bədən Tərbiyəsi Təşkilatı arasında idman sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır [17, "Azərbaycan Respublikasının

Gənclər, İdman və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Bədən Tərbiyəsi Təşkilatı arasında idman sahəsində əməkdaşlıq haqqında saziş”]. Saziş idman sahəsində hərtərəfli əməkdaşlığı nəzərdə tutur.

Bununla yanaşı qeyd etmək vacibdir ki, əməkdaşlığa zərər vuran hallar da mövcud olmuşdur. Belə ki, qondarma “Dağlıq Qarabağ Respublikası” hökuməti tərəfindən bu qurumun mövcudluğunu dünya ictimaiyyətinin beyninə yeritmək məqsədilə 8–18 mart 2004-cü ildə beynəlxalq şahmat yarışının keçirilməsi və İran idmançılarının bu yarışda iştirakı buna misal ola bilər [17, v.21]. Bununla əlaqədar Azərbaycan tərəfi İranla yanaşı bu tədbirdə iştirak edən digər ölkələrin müvafiq qurumlarına da idmançılarını geri çağırmaları haqqında məktub göndərmişdi.

Hökumətlərarası sazişlərlə yanaşı 20 iyun 1996-cı ildə Naxçıvanda İranın Qərbi Azərbaycan İdman İdarəsi ilə NMR Gənclər və İdman Nazirliyi arasında və 1 iyun 2005-ci ildə “Azərneftyağ” neft emalı zavodu “Neftçi” idman sağlamlıq mərkəzi və Ərdəbilin Kol Tərbiyəbədənisi arasında idman sahəsində əməkdaşlıq haqqında niyyət protokolu imzalanmışdı. Yuxarıda göstərilən saziş və müqavilələrin nəticəsi olaraq Azərbaycan idmançıları İranda keçirilən müxtəlif yarışlarda iştirak etmişlər. 2002-ci ildə idmançılarımız İranda keçirilən yunan-Roma güləşi, sərbəst güləş, velosiped idmanı, taekvondo, boks, yüngül atletika, badminton və cüdo üzrə beynəlxalq turnirlərdə iştirak etmişlər [17, v.22]. 2002-ci ilin yanvarında Tehranda üzgüçülük və suya tullanma üzrə Azərbaycan milli komandaları şahzadə Feysəlin kuboku uğrunda beynəlxalq yarışda, 28 yanvar-2 fevralda badminton üzrə “Fəcr” beynəlxalq turnirində, 5-11 fevral 2002-ci ildə idman gimnastikası üzrə yığma komanda Tehranda beynəlxalq yarışda, 7-9 fevral 2002-ci ildə yüngül atletika üzrə beynəlxalq turnirdə, 10–15 fevral 2002-ci ildə boks üzrə beynəlxalq turnirdə, 18–22 fevral 2002-ci ildə yunan-Roma güləşi üzrə “Taxtı” beynəlxalq turnirində, taekvondo üzrə 21-23 fevralda keçirilmiş “Fəcr” beynəlxalq turnirində, 2002-ci ilin martında otüstü xok-

key üzrə oğlanlardan ibarət yığma komandamız Tehranda keçirilmiş beynəlxalq turnirdə, 31 iyul-3 avqust 2002-ci ildə Saridə keçirilmiş universitetlər arasında beynəlxalq turnirdə, 2002-ci ildə sərbəst güləş üzrə İranda keçirilən iki yarışda, 14-16 avqust 2002-ci ildə sərbəst güləş üzrə veteranların dünya çempionatında, 4-7 sentyabrda dünya çempionatında və cüdo üzrə "Fəcr" beynəlxalq turnirində təmsil olunmuşlar. Hər il Azərbaycan velosipedçiləri İranda ənənəvi keçirilən çoxgünlük yürüş – "Azərbaycan turu" beynəlxalq şose yarışında və ənənəvi "Axvas" turu beynəlxalq yarışında iştirak etmişlər.

Bakıda isə İran idmançılarının iştirak etdiyi iki cüdo turniri – 30-31 may 2002-ci ildə Bakı beynəlxalq turniri və H.Aslanovun xatirəsinə həsr edilmiş beynəlxalq turnir keçirilmişdir. Ə.Çoudrinin şərəfinə keçirilən beynəlxalq boks turnirində hər il İran idmançıları fəal iştirak etmişlər. Bu faktlar ölkələrimiz arasında sözügedən istiqamətlərdə düzgün münasibətlərin olmasından və bu əlaqələrin yaxşı inkişaf perspektivlərindən xəbər verir. Belə əlaqələr həm də İİR-in əhalisinin böyük əksəriyyətini təşkil edən soydaşlarımızla sıx münasibətlərin saxlanılması baxımından vacibdir.

## § 3. Azərbaycan Respublikası və dünya olimpiya hərəkatı

Azərbaycan Respublikasında olimpiya hərəkatının özünəməxsus tarixi var. Bu tarixi şərti olaraq üç dövrə bölmək olar: 1952-1988-ci illərdə SSRİ dövrü, 1992-ci ildə ölkəmizin sonuncu SSRİ və MDB yığma komandası tərkibində iştirak etdiyi dövr və Azərbaycanın müstəqil dövlət kimi Beynəlxalq Olimpiya Hərəkatına qoşulduğu 1992-ci ildən sonrakı dövr [82, s.8]. Araşdırmalardan məlumdur ki, Azərbaycan SSR idmançıları SSRİ yığma komandasının tərkibində olimpiya oyunlarının doq-

quzunda 46 idmançı ilə çıxış edərək, 10 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışdılar [139, s.5-6]. 1952-ci ildə Helsinkidə keçirilmiş XV Yay Olimpiya Oyunlarında Azərbaycan SSR-nin beş idmançısı çıxış etmiş və sərbəst güləşçimiz R.Məmmədbəyov gümüş medal qazanaraq, Azərbaycanın ilk olimpiya medalçısı olmuşdu. 1956-cı ildə Melburnda keçirilən XVI, 1960-cı ildə Romada keçirilən XVII, 1964-cü ildə Tokioda keçirilən XVIII, 1968-ci ildə Mexikoda keçirilən XIX, 1972-ci ildə Münhendə keçirilən XX, 1976-cı ildə Monrealda keçirilən XXI, 1980-ci ildə Moskvada keçirilən XXII, 1988-ci ildə Seulda keçirilən XXIV Olimpiya Oyunlarında da Azərbaycan idmançıları SSRİ komandası tərkibində iştirak etmiş və uğurlu nəticələrə nail olmuşdur [82, s.11].

1992-ci ildə ölkəmizdə respublikamızın milli federasiyalarının və Milli Olimpiya Komitəsinin (MOK) yaranması zərurəti də dövlətin suverenliyinin tələbi kimi meydana çıxmış və operativ surətdə həll olunmuşdur. Lakin 1992-ci ildə Barselonada Olimpiya oyunları başlananda ölkəmizin Milli Olimpiya Komitəsi hələ Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən tanınmamışdı. Ona görə də ölkəmizin yalnız dörd idmançısı MDB-nin yığma komandasının tərkibində Barselona oyunlarında iştirak edə bilmişdir [104, s.10]. Barselonada keçirilmiş XXV Yay Olimpiya Oyunlarında ölkəmizin iki idmançısı – cüdoçu N.Hüseynov və gimnast V.Belenki olimpiya çempionu olmuşlar [103, s.256-257].

Yuxarıdakı faktlardan göründüyü kimi, ölkəmiz bir müddət Olimpiya Hərəkatına müstəqil dövlət kimi qoşula bilməmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi 1992-ci il yanvarın 14-də keçirilən Ümumrespublika konfransında təsis edilmiş, MOK elə həmin ildə Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmış, 1992-ci ilin noyabrında Avropa Olimpiya Komitəsinin Akapulkoda keçirilmiş Baş Assambleyasında Azərbaycan MOK-nun qitə təşkilatına daxil olması haqqında qərar qəbul edilmiş, 1993-cü ilin sentyabrında isə Beynəlxalq Olimpiya Komitəsinin Mo-

nakoda keçirilmiş Baş Assambleyasında BOK Azərbaycan MOK-nı tanımışdı. Respublikamızın müvafiq idman təşkilatları 1994-cü ildə Avropa Futbol Birliyinə (UEFA) və başqa beynəlxalq idman təşkilatlarına üzv qəbul olunmuşdu [103, s.12; 137, s.3]. MOK-un yaradılması ilə ölkəmizin Olimpiya hərəkatında yeni bir dövr başlamışdır. Artıq ölkəmiz müstəqil bir dövlət kimi Beynəlxalq Olimpiya Hərəkatına qoşularaq, öz idman potensialını tam nümayiş etdirmək imkanı əldə etmişdir. MOK ilk növbədə Olimpiya Hərəkatının öyrənilməsi və təbliğinə diqqət yetirməli, müstəqil dövlətin bu hərəkatda iştirakı üçün zəruri olan əsasları müəyyənləşdirməli, respublikada idmanın inkişafına qayğı göstərməli, MOK-nın beynəlxalq əlaqələrini qurmalı, komitənin maddi-texniki bazasını yaratmalı, Milli Olimpiya Hərəkatının tarixi, ölkə olimpiyaçıları ilə bağlı materialları toplamalı və təhlil etməli idi. Təəssüf ki, Olimpiya Komitəsi fəaliyyətə başladığı ilk dövrdə hələlik işini tələb olunan səviyyədə qura bilməmişdi. Onun fəaliyyəti çox zaman BOK-un keçirdiyi bir sıra tədbirlərdə rəhbər işçilərin "növbətçi" iştirakı, 1992-1997-ci illər ərzində ölkəmizin iki dəfə beynəlxalq qaçış gününə qatılması ilə məhdudlaşmışdı [103, s.14].

H.Ə.Əliyevin prezident seçilməsindən sonra ölkəmizdə bütün sahələrdə olduğu kimi idmana da münasibət kökündən dəyişmişdi. Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar müharibə ölkənin iqtisadiyyatına böyük zərbələr vursa da, idmanın inkişafına kifayət qədər vəsait ayırmaq çətin olsa da, bu sahəyə xüsusi diqqət yetirilmişdi. 1993-cü ilin noyabrında ölkə başçısı dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş idmançıları qəbul edərkən idmanın inkişafı üçün geniş imkanlar yaradılacağını bildirmişdi [139, s.13]. Bundan sonra idmanımızın, MOK-un inkişafı və beynəlxalq əlaqələri genişlənməyə başlanmışdır. Belə ki, 1994-cü ilin aprelində ölkə başçısı BOK prezidenti X.A.Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) prezidenti M.V.Rananı, Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti J.Roqqu qəbul etmişdi [139,

s.14; 37, s.12]. Bu görüşlərdən üç ay sonra prezidentin fərmanı ilə respublikamızın Gənclər və İdman Nazirliyi yaradılmışdı [103, s.14]. Olimpiya oyunlarında ölkəmizin layiqincə təmsil olunması üçün ölkə başçısı Atlanta Oyunlarına hazırlıqla bağlı 1995-ci il fevralın 26-da xüsusi sərəncam imzalamışdı [103, s.14]. Görülən işlərin nəticəsində ilk dəfə müstəqilliyinin beşinci ilində Atlanta Olimpiya Oyunlarının lisenziya yarışlarında idmançılarımızın idmanın on növündə 23 lisenziya qazanması bu sahədə ciddi hazırlıq işləri aparıldığından xəbər verirdi. Beləliklə, Azərbaycan Respublikası ilk dəfə 1996-cı il XXVI Atlanta Yay Olimpiadasında 23 nəfərdən ibarət milli komanda ilə çıxış etmişdir. Sərbəst üsulla güləşçi N.Abdullayevin həmin yarışlarda qazandığı gümüş medal isə müstəqil ölkə idmanının ilk yüksək nəticəsi kimi qiymətlidir. 197 ölkənin iştirak etdiyi bu oyunlarda ölkəmizin 61-ci yer tutması idmanımızın uğuru sayıla bilər [103, s.258-265 ].

Ölkəmizin və onun dövlət rəhbərinin idmana göstərdiyi diqqət və qayğı beynəlxalq idman və olimpiya təşkilatlarının da nəzərini özünə cəlb etmişdi. 1997-ci ildə Milli Olimpiya Komitələri Assosiasiyasının Reykyavikdə keçirilən Baş Məclisi Azərbaycan prezidentini Olimpiya Hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə görkəmli dövlət xadimlərinə verilən "Olimpiya ləyaqəti mükafatı" ilə təltif etmişdi [139, s.28-29].

Azərbaycan Respublikası MOK-nun 1997-ci il iyulun 31-də keçirilmiş Baş Məclisində təşkilat məsələlərinə baxıldı. MOK-un yeni idarə heyətinin seçilməsi komitənin fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə Olimpiya Hərəkatının sürətli inkişafına təkan vermiş və onun Beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmasını təmin etmişdir. MOK beynəlxalq əlaqələrə xüsusi diqqət yetirmiş, beynəlxalq əlaqə və əməkdaşlığı düzgün qurmuş, bu da öz növbəsində respublikamızın Olimpiya Hərəkatında iştirakına təkan vermiş, idmanın inkişafı üçün geniş perspektivlər açmışdır. 1997-ci ildən MOK-un rəhbərliyi BOK-un, Milli Olimpiya Komitələri Assosiasiyasının, Avropa Olimpiya Komi-

təsinin baş məclislərində, digər tədbir və görüşlərində, seminarlarda fəal iştirak etmişdir ki, bunu da komitənin beynəlxalq əlaqələrə xüsusi diqqətinin nəticəsi hesab etmək olar [180, s. 16-17]. Təsadüfi deyil ki, MOK-un prezidenti İlham Əliyevin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti X.A.Samarançla, AOK-un prezidenti J.Roqqla keçirilmiş görüşlərində də respublikada olimpiya hərəkatının, bütövlükdə idmanın vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuş, beynəlxalq əlaqələrin genişləndirilməsi, əməkdaşlığın gücləndirilməsi məsələlərinə diqqət yetirilmişdir.

Müxtəlif beynəlxalq olimpiya təşkilatlarının komissiya və işçi qruplarına ölkəmizdən də üzvlərin daxil edilməsi respublika MOK-nın beynəlxalq nüfuzunun artmasına dəlalət edirdi [103, s.117-118]. Avropa Olimpiya Komitəsinin XVII Baş Assambleyasında Azərbaycan MOK-nın vitse-prezidenti Ç.Hüseyinzadə AOK-nın "Olimpiya Oyunlarına hazırlıq", baş katib A.Abiyev isə "Texniki əməkdaşlıq" komissiyasına üzv seçilmişlər. MOK-nın vitse-prezidenti, "Ədalətli Oyunlar" komissiyasının sədri X.İsayev Avropa Ədalətli Oyunlar təşkilatının keçirdiyi tədbirlərdə müntəzəm iştirak etmişdi. MOK beynəlxalq əlaqələr istiqamətində aparılan işləri ardıcıl şəkildə davam etdirmişdi. Təkcə onu demək kifayətdir ki, 1997-ci ildən 2001-ci ilin əvvəlinə qədər MOK-nın üzvləri 70 dəfə xarici ölkələrdə xidməti ezamiyyətdə olmuş, bu da birbaşa beynəlxalq əlaqələrimizə müsbət təsir göstərmişdi [180, s.17]. 1998-ci ildən başlayaraq beynəlxalq əlaqələrin yaradılması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətini gücləndirməsi nəticəsində MOK-nın təklifi qəbul edilərək, Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin 2001-ci ildəki ilk iclasının Bakıda keçirilməsi barədə yekdilliklə qərar qəbul edilmiş və buna da müvafiq olaraq 2001-ci ilin fevralında komissiya öz iclasını Bakıda keçirmişdir.

Azərbaycan beynəlxalq idman arenasında təkcə yay olimpiya oyunlarında deyil, həm də qış olimpiya oyunlarında iştiraka diqqət yetirmişdir. Azərbaycan idmançıları ilk dəfə olaraq 1998-

ci ildə Yaponiyanın Naqana şəhərində keçirilmiş XVIII Qış Olimpiya Oyunlarında güclərini sınamışdılar [103, s.16, 266-267]. Azərbaycan Respublikası MOK bu ənənəni davam etdirərək, 2002-ci ildə ABŞ-ın Solt Leyk Siti şəhərində keçirilən qış olimpiya oyunlarında da iştirak etmişdir [103, s.16, 294-296]. Ümumiyyətlə, ölkəmizin böyük idman yarışlarında, o cümlədən qış olimpiya oyunları kimi mötəbər tədbirdə iştirakı müvafiq idman strukturlarının əsas qayəsi olmuşdur. Bu oyunlarda iştiraka beş lisenziya qazanan Azərbaycan idmançıları fiqurlu konkisürmə üzrə qoşa və tək yarışlarda və dağ xizəkçiliyi idman növündə təmsil olunmuşdular. İdmançılarımız yarışlarda yüksək nəticələr göstərməsələr də, mülayim iqlimli ölkəmizin Qış Olimpiya Oyunlarına qoşulması ölkə idmanının tarixində mühüm hadisədir.

Ölkəmizdə idmanın inkişafını və təbliğini, idmançıların sosial vəziyyətinin yaxşılaşdırılmasını əsas götürərək Azərbaycan Respublikası MOK, ilk növbədə, öz vəsaiti hesabına təqaüdlər təsis etmişdi. Azərbaycan Respublikası MOK İcraiyyə Komitəsinin təsdiq etdiyi əsasnaməyə uyğun olaraq, 1998-1999-cu illərdə üç kateqoriya üzrə aylıq təqaüdlər vermişdir. 2000-ci ildə təqaüd kateqoriyalarının sayı artıq dördə çatdırılmışdı [180, s.18]. Azərbaycan Respublikası MOK ölkəmizdə idmanın inkişafında müstəsna xidmətləri ilə seçilən, hazırda fəaliyyətdə olmayan idmançılar üçün də xüsusi təqaüd təyin etmiş və 1998-ci ildən bu təqaüdlər ödənilir. Məhz bunun nəticəsi idi ki, Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandıqları nailiyyətlər sürətlə artmağa başlamışdı [180, s.19].

MOK respublikada idmanın kütləviliyini artırmaq, yeniyetmə və gənclərin idmana cəlb olunması məsələsinə də diqqət yetirmək məqsədilə 1998-ci ildə Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə Azərbaycanda ilk dəfə Yeniyetmələrin Respublika Oyunlarını keçirmişdi. Bu oyunların ilkin mərhələsində respublikanın hər yerində kütləvi idman yarışları təşkil olunmuşdu. 1998-ci il ma-

yın 12-dən 22-dək Bakıda keçirilən final mərhələsində respublikanın 57 şəhər və rayonundan 2614 nəfər idmançı, o cümlədən 403 qız iştirak etmişdi. Bu respublika oyunlarının proqramına 14 növ üzrə yarışlar daxil edilmişdi. Yüksək nəticə və təcrübə qazanıldığından MOK-un təşəbbüsü ilə bu ənənə davam etdirilmiş və 2000-ci ildə Yeniyetmələrin II Respublika oyunları təşkil olunmuşdu.

MOK-un yeniyetmə idmançılara göstərdiyi diqqət və qayğı yalnız respublika oyunları ilə məhdudlaşmamışdı. Ötən əsrin lap sonlarında MOK Olimpiya Hərəkatı ilə bağlı iki mötəbər tədbirdə yeniyetmələrin iştirakını təmin etmişdi. 1998-ci ildə Moskvada keçirilmiş Yeniyetmələrin Ümumdünya Oyunlarında Azərbaycan Respublikası oyunların proqramına daxil edilmiş 14 idman növünün 12-də təmsil olunmuşdu. İdmançılarımız Moskva oyunlarında uğurla çıxış edərək cüdo və güləş növləri üzrə medallar qazanmışdılar.

Respublika Milli Olimpiya Komitəsində elmi-metodiki sahədə də böyük işlər görülmüşdü. Bu missiyanı həyata keçirmək məqsədilə Olimpiya xartiyasının tələb və prinsiplərinə müvafiq olaraq 1998-ci ilin aprelində Milli Olimpiya Akademiyası yaradılmış, onun işinə təcrübəli, yüksək ixtisaslı alimlər cəlb edilmişdi. Komitənin bu struktur qolu Azərbaycan Respublikasında idmanın inkişaf etdirilməsinə, Olimpiya Hərəkatının təbliğinə, olimpizmin öyrənilməsinə böyük yardım göstərmişdir. Həmçinin Olimpiya Akademiyası olimpizmin tarixi və fəlsəfəsi problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirmişdir. Konfransda Azərbaycan alimləri ilə yanaşı, başqa ölkələrdən olan mütəxəssislər də iştirak etmişdilər.

Respublika Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin göstərişi ilə MOK-nın yeni strukturunda analitik informasiya və nəşriyyat qrupu yaradılmışdı. Qrup MOK-da informasiya bazasının formalaşdırılması, Olimpiya hərəkatı, Olimpiya oyunları, olimpizm, Azərbaycan idmanı və olimpiyaçıları haqqında məlumatların toplanıb nəşr edilməsi istiqamətində böyük

işlər görmüşdü. MOK-un fəaliyyətini işıqlandırmaq və əhali arasında olimpizmi təbliğ etmək məqsədilə 1998-ci ilin mayında ölkəmizin mətbuat tarixində ilk idman jurnalı olan "Olimpiya" jurnalının ilk nömrəsi nəşr edilmişdi [103, s.147]. Bu jurnalın ilk sayının 1998-ci ilin iyununda keçirilən təqdimat mərasimində MOK-nın prezidenti İ.H.Əliyev jurnalın ikinci nömrədən başlayaraq Azərbaycan dili ilə yanaşı ingilis dilində də çapdan çıxarılmasını, onun Beynəlxalq Olimpiya Komitəsinə, Beynəlxalq Federasiyalara və idman təşkilatlarına göndərilməsini zəruri bilmişdi. Sevindirici haldır ki, bu jurnal dünyanın üç yüzdən yuxarı idarə və təşkilatlarına göndərilir. 1999-cu ildən isə MOK özünün aylıq bülletenini nəşr etməyə başlamışdı [103, s.147]. Milli Olimpiya Komitəsi 2001-ci ilin noyabrından özünün "Olimpiya dünyası" adlı yeni mətbuat orqanının da nəşrinə başlamışdı [103, s.149].

MOK və İdman Nazirliyinin təsis etdiyi "Azəridmanservis" müəssisəsi Olimpiya Hərəkatını və idmanı təbliğ etmək məqsədi ilə "Sidney-2000" xeyriyyə marafonu təşkil etmişdi. Ümumiyyətlə, Sidney Olimpiya Oyunlarına hazırlıqla bağlı MOK bir sıra tədbirlər həyata keçirmişdi. MOK tərəfindən Gənclər və İdman Nazirliyi ilə birgə 1998-2000-ci illəri əhatə edən kompleks proqram hazırlanmışdır. Hazırlıq prosesində ayrı-ayrı idmançılar və habelə komandalar beynəlxalq turnirlərə, dünya və Avropa çempionatlarına, kubok yarışlarına göndərilmiş, onların lisenziya yarışlarında və təlim-məşq toplanışlarında iştirakı təmin edilmişdi. 1998-ci ilin fevralında prezident H.Ə.Əliyev "XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" xüsusi sərəncam imzalamışdı. Həmin sərəncama əsasən 14 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılmış, Nazirlər Kabinetinə hazırlıqla əlaqədar konkret tapşırıqlar verilmişdi.

Azərbaycan MOK ölkəmizdə Olimpiya hərəkatının və idmanın inkişafı ilə bağlı məqsədyönlü, ardıcıl fəaliyyət göstərərək, qısa müddət ərzində uğurlu göstəricilər əldə etmişdi. İdmançılarımızı Sidneydə keçiriləcək XXVII Yay Olimpiya Oyunları-

na yüksək səviyyədə hazırlamaq və hazırlıq mərhələsində onların rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədilə prezidentin "XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" 20 fevral 1998-ci il tarixli sərəncamı MOK-nın daha məqsədyönlü iş aparması üçün geniş imkanlar açmışdı. Ölkədə idmanın inkişafı üçün müasir qurğuların, maddi-texniki bazanın zəruriliyini nəzərə alan MOK 1999-cu ildə ölkənin müxtəlif bölgələrində olimpiya idman obyektlərinin tikintisinə başlamışdı.

1999-cu il iyulun 10-dan 16-na kimi Danimarkanın Esbyorq şəhərində keçirilmiş Avropa Yeniyetmələrinin V Olimpiya günlərində Azərbaycan Respublikası 33 idmançı ilə təmsil olunmuş və onlar Vətənə 4 bürünc medal gətirmişdilər.

MOK 1999-2000-ci illərdə BOK-nın təşkil etdiyi "Olimpiya, idman, incəsənət-2000" müsabiqəsinə qoşulmuşdu. Milli mərhələdə heykəltəraşlıq və rəsm əsərlərinin baxışı keçirilmiş, iki nominasiya üzrə qalib əsərlər Lozannada (İsveçrə) keçirilmiş beynəlxalq müsabiqəyə təqdim edilmişdi [103, s.18]. Sənətkarlarımızın xüsusi diploma layiq görülmüş iki əsəri XXVII Yay Olimpiya Oyunları zamanı Sidneydə təşkil olunan sərgidə nümayiş etdirilmişdi.

Respublika prezidentinin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi Sidney oyunlarına hazırlıqla bağlı bir sıra toplantılar keçirmiş, konkret işlər görmüşdü. MOK ən perspektivli 38 idmançı və onların məşqçiləri üçün xüsusi təqaüd təsis etmişdir. İdmanın on növü üzrə gərgin yarışlarda ölkənin 31 idmançısı Olimpiadada iştirak etmək hüququ (lisenziya) qazanmışdı.

Oyunlara hazırlıq işinin vaxtında və dövlət səviyyəsində aparılması öz müsbət nəticələrini vermişdir. Tədbirlər nəticəsində ölkə idmançılarından 31 nəfər 10 idman növü üzrə 2000-ci il XXVII yay Olimpiya Oyunlarına vəsiqə qazanmış və Azərbaycan ikinci dəfə müstəqil dövlət kimi Olimpiadada iştirak etmişdi [103, s.268-291]. 2000-ci il sentyabrın 15-də Sidneydə başlayan bu yarışlarda idmançılarımız yüksək idman nəticələri göstərmişlər. Stend atıcısı Z.Meftahətdinova və güləşçi N.Abdullayev qı-

zıl, boksçumuz V.Ələkbərov isə bürünc medal qazanmışlar. 199 ölkənin iştirak etdiyi Sidney Olimpiadasında ölkəmizin 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutması milli idmanımızın böyük qələbəsi idi. Bunu ölkəmizdə aparılmış gərgin, planlı, məqsədyönlü işin nəticəsi hesab etmək olar.

2000-ci il oktyabrın 21-də ölkədə MOK-nın tikdirdiyi idman kompleksi istifadəyə verilmiş və ölkəmizdə səfərdə olan Avropa Olimpiya Komitəsinin prezidenti J.Roqq və həmin komitənin baş katibi M.Peskante idmana qayğıya görə minnətdarlıq əlaməti olaraq, Avropa Olimpiya Komitələri adından prezident H.Ə.Əliyevə dövlət başçıları üçün xüsusi hazırlanmış "Olimpiya Xartiyası"nı, üstündə Avropanın təsvir olunduğu gümüş nimçəni və Avropa Olimpiya Komitəsinin bayrağını təqdim etmişdi [139, s.39]. Sonra BOK idmana göstərdiyi qayğıya görə 2000-ci il münasibətilə Azərbaycan Prezidentinə "2000-ci ilin olimpiya qapıları" adlı əsəri hədiyyə etmişdi [139, s.14].

Yeniyetmələrin birinci respublika oyunlarının gedişi göstərdi ki, bu tədbirin ənənə şəklinə salınması məqsədəuyğundur. MOK-nın təşəbbüsü ilə 2000-ci ildə yeniyetmələrin ikinci respublika oyunları təşkil olunmuşdu. Birinci mərhələ yarışlarında 50 mindən çox atlet idmanın 14 növündə mübarizəyə qoşulmuş və 5 mindən çox yeniyetmə Bakıda keçirilən final oyunlarına vəsiqə qazanmışdır. Prezident H.Ə.Əliyev idmana qayğısını nümayiş etdirərək, 1998-ci ildə olduğu kimi, bu dəfə də təntənəli açılış mərasimində iştirak etmişdi. Respublikanın prezidenti yeniyetmələrə müraciətlə çıxış edərək onları idmanı sevməyə, Olimpiya Hərəkatına fəal qoşulmağa, sağlam və mübariz ruhda tərbiyə almağa çağırmışdı.

Olimpiya hərəkatının təbliğinə və idmanın kütləviləşməsinə xidmət edən tədbirlərdən biri də 2000-ci ildən Bakıda və Gəncədə təşkil olunmuş və hər il BOK-nın himayəsi altında keçirilən Beynəlxalq Olimpiya Qaçış günüdür. Bu tədbirlərdə üç mindən yuxarı qaçış həvəskarı iştirak etmişdi.

Ümumiyyətlə, 2000-ci ildə Azərbaycan Respublikasının id-

mançıları müxtəlif beynəlxalq yarışlarda 53 qızıl, 38 gümüş və 69 bürünc medal qazanmışdılar. Həm də Olimpiya oyunları dövründə hər bir nümayəndə heyəti öz ölkəsini tanıtdırmaq, mədəniyyətini, incəsənətini nümayiş etdirmək imkanı qazanır. Ölkəmiz də belə bir imkandan istifadə edərək avqustun 18-də Sidneydə "Recent" otelində Azərbaycan günü keçirmişdi [180, s.16].

MOK-nın hərtərəfli fəaliyyətinin sübutu onun göstərilən sahəyə xərclədiyi vəsaitdən də aydın olur [180, s.22]. Belə ki, 2000-2005-ci illərdə ölkənin bir çox şəhər və rayonlarında müasir, yüksək standartlar əsasında inşa olunmuş Olimpiya İdman Kompleksləri istifadəyə verilmişdi [138, s.81-112]. Bu komplekslərin mövcudluğu Azərbaycanın beynəlxalq idman və olimpiya əlaqələri sistemində layiqli yer tutmasına kömək etmişdi.

2001-2004-cü illərdə isə MOK-nın beynəlxalq əlaqələri daha böyük vüsət almışdı. 2001-ci il martın 27-də MOK-nın yeni inzibati binasının açılış mərasimi keçirilmişdi [180, s.28]. Bu, beynəlxalq əlaqələrin genişlənməsinə də öz müsbət təsirini göstərmişdi. Avropa Olimpiya Komitəsinin 2000-ci ilin noyabrında Varşavada keçirilən XXIX Baş Assambleyasında Avropa Olimpiya Komitəsinin prezidenti J.Roqq öz çıxışında Olimpiya Hərəkatında fəal mövqe tutan ölkələr cərgəsində Azərbaycanın da adını çəkmişdi. Və artıq qeyd etdiyimiz kimi, baş Assambleyada ölkəmizin təklifi qəbul edilərək, Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin 2001-ci ildəki ilk iclasının Bakıda keçirilməsi qərara alınmışdı [103, s.20, 116-117]. 2001-ci il aprelin 6-da Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin növbəti iclasının Bakıda MOK-nın yeni tikilmiş iqamətgahında keçirilməsi əlamətdar bir hadisə olmuşdu. Doktor J.Roqqun BOK prezidenti vəzifəsinə namizədliyi də məhz Bakı iclasında irəli sürülmüşdü.

Respublika Prezidenti MOK-nın fəaliyyətini yüksək qiymətləndirərək, 12 dekabr 2001-ci ildə "Azərbaycan MOK-nun yaradılmasının onillik yubileyi haqqında" xüsusi sərəncam imzalamışdı [139, s.5-6]. 11 oktyabr 2002-ci ildə Respublika Sara-

yında MOK-nın on illik yubileyi təntənəli şəkildə qeyd edilmişdi [118, s.52-56].

Beynəlxalq əlaqələrin yaxşı təşkili ölkədə keçirilən mötəbər yarışların sayının sürətlə artmasına səbəb olmuşdur. Əgər 1998-2000-ci illərdə Azərbaycanda üç beynəlxalq turnir və bir Avropa çempionatı keçirilmişdirsə, 2001-2004-cü illərdə ölkəmizdə 3 Olimpiya təsnifat turniri, 4 dünya çempionatı, 3 Avropa çempionatı, dünya kuboku, Avropa kuboku, 2 dünya kubokunun mərhələ yarışı, dünya və Avropa çempionatlarının seçmə mərhələ turnirləri, müxtəlif idman növləri üzrə 16 beynəlxalq turnir keçirilmişdi. [118, s.56]. 2000-2004-cü illərdə MOK prezidenti İ.H.Əliyevin Monako, Polşa, Malayziya, Yunanıstana səfərləri zamanı, habelə Bakıda Beynəlxalq və Avropa Olimpiya Komitələrinin rəhbərləri, ayrı-ayrı Milli Olimpiya Komitələrinin prezidentləri ilə keçirdiyi şəxsi görüşlər, onlarla apardığı danışıqlar MOK-nın beynəlxalq idman aləmində nüfuzunun artmasında müstəsna rol oynamışdı [181, s.12]. Həmçinin olimpiya oyunları arasındakı illərdə Beynəlxalq və qitə Olimpiya Komitələrinin himayəsi altında bir sıra mötəbər idman yarışları keçirilmişdi. MOK yeniyetmə idmançılarımızın üç belə idman tədbirində iştirakını təmin etmişdi [181, s.14]. MOK idmançılara beynəlxalq təqaüdlər almaqla yanaşı, BOK-nın, eləcə də Avropa Olimpiya Komitəsinin proqramlarına qoşula bilmişdi. Proqram layihələrinin həyata keçirilməsi üçün MOK-a 560 min ABŞ dolları həcmində vəsait daxil olmuşdu [181, s.16]. 2001-2004-cü illərdə MOK idmanın mədəniyyət və incəsənətlə vəhdətini təbliğ edən bir çox işlər görmüşdü [181, s.18]. Belə mötəbər yarışların ölkəmizdə keçirilməsi BOK-nın, Beynəlxalq idman federasiyalarının MOK-a böyük inamı nəticəsində mümkün olmuşdu. 2003-2004-cü illərdə də MOK-nın prezidenti beynəlxalq və qitə idman qurumlarının rəhbərləri və nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişdi [118, s.56]. Bundan başqa, 2004-cü il iyunun 22-də Yunanıstan prezidenti K.Stefanopulosun ölkəmizə rəsmi səfəri çərçivəsində MOK-nın inzibati binasında təşkil olunmuş “Olimpiya

ruhu" sərgisində Azərbaycan və Yunanıstan prezidentləri iştirak etmişlər [181, s.14]. Yunanıstan Mədəniyyət Nazirliyinin sponsorluğu ilə bu ölkənin Bakıdakı səfirliyinin təşkil etdiyi sərgi "Antik Olimpiya Oyunları", "Müasir Olimpiya Oyunlarının bərpası" və "Afina-2004" mövzularını əhatə etmişdi [104, s.152]. Bu faktlara əsasən demək olar ki, MOK-nın beynəlxalq əlaqələri lazımi səviyyədədir və bu əlaqələr yüksələn xətt üzrə inkişaf etməkdədir.

Ölkəmizdə Olimpiya hərəkatının inkişafı qarşılıqlı əməkdaşlıq müqavilələrinin bağlanmasına ehtiyac yaratmışdı. İlk belə addım Rusiya Olimpiya Komitəsi ilə birgə atılmışdı. 2004-cü il iyulun 31-də MOK-nın inzibati binasında Rusiya və Azərbaycan Olimpiya Komitələri arasında idman sahəsində qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdı [118, s.58]. Ardınca prezident İ.H.Əliyevin Qətər dövlətinə rəsmi səfəri çərçivəsində, 2004-cü il noyabrın 30-da Azərbaycan və Qətər Milli Olimpiya Komitələri arasında idman sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdı [118, s.58]. Bu sənəd idman sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə qarşılıqlı marağı əks etdirirdi. Sənəddə Azərbaycan mütəxəssislərinin Qətərə dəvət olunması və yerli idman mütəxəssislərinin hazırlanmasına kömək göstərilməsi nəzərdə tutulurdu. Daha sonra 2005-ci ilin 25 fevralında Azərbaycan prezidenti İ.H.Əliyevin İtaliyaya rəsmi səfəri zamanı İtaliya və Azərbaycan Olimpiya Komitələri arasında əməkdaşlıq sazişi imzalanmışdı [118, s.59]. 2005-ci il martın 17-də Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin Çinə səfəri zamanı bir sıra sənədlərlə yanaşı Çinin Olimpiya Komitəsi ilə Azərbaycan Respublikası MOK-u arasında "Texniki və idman əməkdaşlığı haqqında" saziş də imzalanmışdı [118, s.59]. Bu sənədə əsasən idman və olimpiya hərəkatı sahələrində çoxaspektli əməkdaşlıq etmək nəzərdə tutulmuşdu. Bu isə hər iki ölkənin Pekin Olimpiadasına hazırlığında əsaslı rol oynamışdı.

Azərbaycan Respublikasının rəhbərliyi ayrı-ayrı tanınmış

idmançılara da xüsusi qayğı ilə yanaşır. Təqdirəlayiq haldır ki, Olimpiya çempionları İ.A.Ponomaryova və F.S.Mansurova ölkə başçısının xüsusi sərəncamı ilə olimpiya təqaüdləri verilmişdi [118, s.60]. Bundan başqa, xalqımızın sağlamlığının qorunması və möhkəmləndirilməsində, gənclərimizin fiziki inkişafında, ölkəmizin idman şərəfinin beynəlxalq aləmdə daha da uca zirvələrə qaldırılmasında bədən tərbiyəsinin əhəmiyyətini və rolunu nəzərə alaraq martın 5-i (4 mart 2005-ci ildən) ölkəmizdə "Bədən tərbiyəsi və idman günü" kimi qeyd olunmağa başlanmışdı [118, s.60].

2004-cü ildə Afina olimpiadasında ölkəmizin 38 idmançı ilə təmsil olunması hazırlıq dövrünün uğurlu olduğunu, qarşıya qoyulmuş tapşırıqların tam şəkildə yerinə yetirildiyini göstərmişdi. Afinada təmsil olunan 202 dövlətdən yalnız 75-i medal qazana bilmişdir. Ölkəmiz medal əldə etmiş dövlətlər sırasında keyfiyyətə görə 50-ci, kəmiyyətə görə 37-ci, Avropa dövlətləri arasında isə 26-cı yerdə olmuşdu. Afinada 48 Avropa dövlətindən 13-ü, o cümlədən Ermənistan medal qazana bilməmişdi [181, s.12]. Atlantada 1, Sidneydə 3, Afinada qazanılan 5 medal, 16 idmançının isə birinci səkkizlikdə yer alması Azərbaycanda idmanın inkişaf dinamikasını çox gözəl əks etdirir [104, s.266-277]. Atlantada paraolimpiyaçılarımız da ölkəmizi uğurla təmsil etmişdilər [92, s.36-38]. Həmçinin Milli Paraolimpiya Komitəsinin rəhbərliyi Beynəlxalq və Avropa paraolimpiya komitələrinin müvafiq tədbirlərində ölkəmizi təmsil etmişlər. Bu dinamika dövlətin idmana göstərdiyi qayğının real bəhrəsi idi. Həmçinin Azərbaycan Mədəni Olimpiada Komitəsinin prezidenti Mehriban Əliyevanın təşkilatçılığı ilə "Divani-Karavel" otelində keçirilən "Azərbaycan günü" vətənimizin hərtərəfli tanıdılması, ona olan rəğbət və məhəbbətin artırılması və beynəlxalq əlaqələrimizin genişləndirilməsi baxımından böyük əhəmiyyət daşımışdı [84, s.24-26].

Azərbaycan prezidentinin 10 oktyabr 2005-ci il sərəncamı ilə ölkədə 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət

Proqramı təsdiq edilmişdi [137, s.10].

Beləliklə, idmana dövlətin qayğısı və MOK-nın fəaliyyəti nəticəsində ölkəmiz beynəlxalq və qitə olimpiya təşkilatlarının bütün tədbirlərinin iştirakçısı olmuş, beynəlxalq əlaqələrimiz daha da genişlənmişdi. Bakıda Avropa Olimpiya Komitəsinin Texniki Əməkdaşlıq Komissiyasının, AOK İcraiyyə Komitəsinin iclaslarının yüksək səviyyədə keçirilməsinə nail olunmuşdu [85, s.38, 42, 48]. Təbii ki, bu, təkcə idman uğurları deyil, ölkəmizin tanınması, təbliği, problem və nailiyyətlərinin dünya ictimaiyyətinə çatdırılmasında bir vasitə idi.

Azərbaycan Respublikası MOK ölkədə Olimpiya Hərəkatının daha da genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançılarımızın hazırlıq səviyyəsinin yüksəldilməsi üçün onların beynəlxalq yarışlarda iştirakının təmin olunması yolunda xeyli faydalı işlər görmüşdür. Qeyd etmək lazımdır ki, MOK-nın bu mühüm vəzifələrin həyata keçirilməsi üçün ölkənin müxtəlif dövlət və ictimai qurumları ilə, habelə dünyanın ayrı-ayrı olimpiya və idman təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri yarada bilməsi ümid verir ki, ölkəmiz sonrakı olimpiya yarışlarından daha böyük qələbələr gözləsin.

Olimpiya oyunları dövründə hər bir nümayəndə heyəti öz ölkəsini tanıtmaq, mədəniyyətini nümayiş etdirmək imkanı da qazanır. Təqdirəlayiq haldır ki, ölkəmiz belə imkanlardan həmişə yetərincə istifadə etmişdir. Belə tədbirlərin keçirilməsi əlaqələrimizin artması, beynəlxalq olimpiya və idman təşkilatları, başqa ölkələrin Milli Olimpiya Komitələri ilə əməkdaşlığın güclənməsi üçün vacibdir. "Azərbaycan günü"ndə qonaqlara ölkəmizin ictimai-siyasi vəziyyəti, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyonadək vətəndaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi haqqında ətraflı məlumat verilmişdi [104, s.18-20]. Həmçinin tədbirlərdə iştirak edənlər ölkəmizin iqtisadi, ictimai, mədəni və idman həyatı ilə yaxından tanış olmuşlar. Qonaqlara MOK-nın fəaliyyəti ilə bağlı geniş məlumat verilmiş, gələcək

əlaqə və əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi də aparılmışdır. Ölkə mədəniyyətini, incəsənətini, ümumiyyətlə, respublikanı təbliğ etmək, onun haqqında həqiqətləri dünyaya yaymaqla bağlı işlər də geniş aspektdə həyata keçirilmişdir. Məsələn, MOK 1997-ci ildə BOK-nın "Olimpiya Oyunları uşaqların gözü ilə" beynəlxalq müsabiqəsinə qoşularaq ölkə məktəblilərinin 122 rəsm əsərini təqdim etmiş, onlardan biri birinci, digəri isə dördüncü yerə layiq görülmüşdür. Olimpiya Komitəsi 1999-2000-ci illərdə yaşlılar arasında BOK-nın təşkil etdiyi "Olimpiya, idman, incəsənət-2000" müsabiqəsinə də qoşulmuşdu [104, s.20].

Beləliklə, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra keçən ilk 15 il ərzində ümumdünya olimpiya hərəkatına qoşulmağımız hər bir baxımdan böyük mədəni, siyasi-təbliğati və ideoloji əhəmiyyətə malik idi. BOK və AOK çərçivələrində müxtəlif forumlarda bizim nümayəndələrimiz idman sahəsində nailiyyətlərimizi nümayiş və sübut etməklə yanaşı Azərbaycan Respublikasının çağdaş həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sayəsində müntəzəm və hərtərəfli iş aparmışdılar.

# II FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ TURİZM SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## §1. Azərbaycan Respublikasında turizmin müasir vəziyyəti

Azərbaycanın füsunkar təbiəti, əsrarəngiz tarixi abidələri, bütövlükdə, ölkəmiz və xalqımız hələ qədim və orta əsrlərdən müxtəlif məqsədli səyyahları aləmziba kimi özünə cəlb etsə də, Şimali Azərbaycanda idman kimi, turizmin də inkişaf tarixi SSRİ dövründən başlanır [206, s.122-128]. Xüsusən də, müharibədən sonrakı onilliklərdə turizm-ekskursiyalar işində mütərəqqi dəyişikliklər və yeniliklər baş vermiş (xüsusilə 70-80-ci illərdə), turizmin maddi bazası ildən-ilə genişlənmiş, zəhmətkeşlərin istirahətinin təşkilində yeni xidmət formaları-turist qatarları, çay gəmiləri istifadəyə verilmiş, Xəzərdə kabotaj gəmiçilik və s. yaradılmışdı [206, s.123-125]. Öz növbəsində bütün bunlar xarici turizmin genişlənməsinə təkan vermiş və respublikamızın ərazisindən keçən beynəlxalq turist marşrutlarının sayını artırmışdı [147, s.124]. Lakin Sovet dövründə Azərbaycan SSR əcnəbi turistləri sərbəst şəkildə qəbul hüququna malik deyildi. SSRİ "İnturist"i üzrə Azərbaycan şöbəsinin təşkil edilməsinə baxmayaraq, bütün turistlər mərkəzləşmiş şəkildə qəbul edilirdilər. Yal-

nız az miqdarda turist əsas turist marşrutunun bir hissəsi kimi Azərbaycana göndərilirdi. Beləliklə, ölkənin turizm maraqları müdafiə olunmur, beynəlxalq turizmdən gələn gəlirin əsas hissəsi mərkəz tərəfindən mənimsənilirdi.

Bunlara baxmayaraq, sovet dövründə Azərbaycan turizmi müəyyən nailiyyətlər də əldə etmişdi [175, s.500]. Ancaq gəlmə turizm 1988-ci ilədək dövlətimiz üçün müəyyən qədər intensiv inkişaf edən sahə olmuşdursa, 1988-ci ildə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr nəticəsində yerli və xarici turistlərin axını xeyli azalmış, Xankəndi, Şuşa, Sumqayıt və Bakıda fövqəladə vəziyyətin tətbiqi, əslində bu regionlarda bir sıra turizm təşkilatlarının fəaliyyətlərinin dondurulmasına səbəb olmuşdu. Belə ki, erməni ekstremistlərinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasəti, ölkəmizə yüz minlərlə qaçqının gəlməsi ilə nəticələndi. Hökumətin qərarı ilə 1988-ci ilin dekabrından Ermənistandan – öz tarixi torpaqlarından qovulmuş soydaşlarımızın respublikanın turist bazalarında və sanatoriya-kurort müəssisələrində yerləşdirilməsinə başlandı. Nəticədə, 1990-cı ilin birinci rübündən etibarən Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. 1990-1993-cü illərdə ölkədə mürəkkəb ictimai-siyasi vəziyyət, maliyyə və iqtisadi böhran, 20% Azərbaycan torpaqlarının Ermənistan qoşunları tərəfindən işğalı, qaçqın və məcburi köçkünlər problemi, onların yerləşdirilməsi və s. dövlətin turist-ekskursiya təşkilatlarını böhran vəziyyətinə salmışdı. Turizm-ekskursiya təşkilatları böhran vəziyyətindən çıxmaq üçün imkanlar axtarır, yerli əhaliyə göstərilən turist-ekskursiya xidmətinin genişləndirilməsinə yönəldilmiş tədbirlər həyata keçirirdilər.

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici turist qəbulunda MDB ölkələri birinci yerdə durmuşdur Bu ölkələrdən gələnlərin də böyük əksəriyyətini Rusiya, Ukrayna, Orta Asiya respublikaları və Gürcüstanda yaşayan azərbaycanlılar təşkil etmişdi [175, s.505-506]. Ölkəmizə gələn turistlər

içərisində ikinci yeri İran vətəndaşları tutmuşdu. İrandan Azərbaycana gələnlərin böyük əksəriyyətini sərhədyanı ticarət məqsədilə gələnlər təşkil etmişdir. Iranla müqayisədə Türkiyədən Azərbaycana gələn turistlərin sayı az olmuş və azalmağa meyillilik müşahidə olunmuşdu [175, s.505-506]. Avropa ölkələrindən, habelə ABŞ, Kanada və İsraildən gələnlərin sayı isə 1997-ci ildən sonra azalmışdı [175, s.505-506]. 1997-ci ildən sonra Azərbaycana gələn turistlərin sayı tədricən artsa da, onlara göstərilən xidmətlərin həcminin azalması hiss olunurdu. 1997-ci ildə gəlmə turizmdən daxil olmalar 162 milyon, 2000-ci ildə bu rəqəm, təqribən, 2,6 dəfə azalaraq 63 milyon ABŞ dolları həcmində olmuşdu. Onu da qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində – yəni ötən əsrin 90-cı illərində Azərbaycanın beynəlxalq turizm əlaqələrində əsasən "alış-veriş məqsədli səfərlər" – "Shopinq-tur"lar üstünlük təşkil etmişdir. Bu dövrdə əsas turist axını Kiş adası və İstanbul, Kəraçi və Dehli, Urumçi və Dubaya olmuşdur.

Qeyd edək ki, tədqiqat üçün seçilmiş dövrdə – XX əsrin son və XXI əsrin ilk illərində Azərbaycan Respublikasının turizm bazarı formalaşma mərhələsində idi və bu formalaşma çox sürətlə gedirdi. Bu formalaşmanın əsas amilləri siyasi və iqtisadi vəziyyətin sabitliyi idi. Bazarın formalaşmasının daha vacib amili Azərbaycan və dünyanın aparıcı neft şirkətlərinin konsorsiumu arasında imzalanan "Əsrin müqaviləsi"nin, həmçinin 1998-ci ilin sentyabrında transkontinental nəqliyyat koridorunun (TRASEKA) inkişaf etdirilməsi üzrə əsas çoxtərəfli razılaşmanın imzalanması ilə əlaqədar olan xarici partnyorlarla işgüzar əlaqələrin fəallaşdırılmasıdır. Bundan əlavə iqtisadi, nəqliyyat və turizm baxımından böyük əhəmiyyəti olan və Ümumdünya Turizm Təşkilatının (ÜTT) UNESCO ilə əməkdaşlığı sayəsində bərpa edilən "Böyük İpək Yolu" turist transkontinental marşrutuna Azərbaycan da daxil edilmişdir. Başqa sözlə, neft sənayesinin inkişafı, Bakının Avrasiya nəqliyyat koridoru üstündə yerləşməsi ölkəyə xarici işgüzar adamların axınının artmasına gəti-

rib çıxarmışdı ki, bu da öz növbəsində xidmətin keyfiyyətini də dəyişdirmişdi. Nəticədə, yeni restoranlar, mehmanxanalar və əyləncə mərkəzləri açıldı. Azərbaycanda xarici qonaqların, o cümlədən turistlərin qəbulu üçün beynəlxalq standartlara uyğun yeni aeroport tikildi ki, burada da üçü yerli olmaqla, iyirmi aviaşirkət fəaliyyət göstərirdi. Son illər paytaxtı regionlarla birləşdirən rahat yolların çəkilməsi, otellərin, istirahət zonalarının və iaşə müəssisələrinin təmiri və yenilərinin tikilməsi ölkəyə turizm cəlbi üçün böyük imkanlar yaradır [201, s.5]. Hotel və istirahət zonaları, əyləncə mərkəzləri ilə yanaşı Bakıda fəaliyyət göstərən və xarici qonaqları qəbul etmək səviyyəsində olan yerli və xarici yeməkləri təklif edən restoran, kafe və barlar da fəaliyyət göstərir. Bundan əlavə paytaxt və rayonlarda inşa edilmiş müasir olimpiya kompleksləri ölkədə idman turizminin inkişafı üçün geniş imkanlar yaratmışdı.

Turizmin inkişafı üçün 2001-ci il aprelin 18-də yaradılmış Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən də çoxlu işlər görülmüşdü [76]. Demək olar ki, ölkənin bütün ərazisini əhatə edən və turizm, mədəni-tarixi obyektlərinin əksəriyyəti daxil edilən, böyük maraq oyadan, şəhər və rayonlardan keçən yeddi marşrut təsdiq olunmuşdu [147, s.66-77]. Bölgələrdə turizmin yeni növlərinin inkişafı üçün və turizm infrastrukturu, xidmət obyektləri yaratmaq məqsədilə investisiya qoyuluşlarının layihələri hazırlanmışdı. Ardınca Azərbaycan Respublikasının bütün ərazisində turizmin inkişafı və vətənimizin beynəlxalq turizm üçün maraqlı bir ölkə kimi imicinin yüksəldilməsi məqsədilə 6 iyul 2001-ci ildə ictimai birlik olan Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqı (ATSİİ) yaradıldı. 2001-ci ildən başlayaraq, Azərbaycan Respublikası bir neçə böyük sərgilərdə – MİTT – Moskvada, WTM – Londonda, İTB – Berlində, MTE – İstanbulda hər il iştirak edir. Beynəlxalq turizm sərgilərində iştirakla yanaşı, 2002-ci ildən başlayaraq Bakıda hər il keçirilən Beynəlxalq Turizm Sərgisi (AİTF) Azərbaycan Respublikasının turizm potensialını təqdim etməklə, beynəlxalq turizm əlaqələ-

rini genişləndirmək baxımından da böyük əhəmiyyətə malik olmuşdu.

Azərbaycan Respublikasının turizm bazarının inkişafı turistlərin sayını, göstərilən xidmətlərin, xüsusilə beynəlxalq turistlərə göstərilən xidmətlərin həcmini, həmçinin bu sektorda fəaliyyət göstərən şirkətlərin sayını və turizmdən gələn gəlirlərin həcmini artırmışdı [206, s.284-292; 147, s.98]. Turizmin inkişafı prioritet sahə kimi böyük iqtisadi əhəmiyyət kəsb etdiyindən bu istiqamətdə müxtəlif qərarlar qəbul edilmişdir. Bu proses turizm sənayesinin inkişafı sahəsində ÜTT-nin tövsiyələrinə uyğun olaraq, dünya təcrübəsi əsasında qəbul edilmiş "Turizm haqqında qanun" vasitəsilə tənzim olunur [194, s.3-17]. Qəbul edilmiş qanun və digər sənədlər ÜTT-nin tövsiyələri və dünya təcrübəsi əsasında turizm sənayesinin dolğun milli inkişaf proqramının hazırlanmasına, respublikamızın inteqrasiya yolu ilə dünya turizm infrastrukturlarına daxil olunmasına və turistlərə yüksək standartlara uyğun servis xidməti göstərilməsinə imkan vermişdir.

Beynəlxalq turizm sərgilərində, yarmarkalarında, birjalarında iştirak nəticəsində Azərbaycan Respublikası Avropa və dünyanın turizm birliyinə daxil olmuşdur. Ölkəmiz öz turizm məhsullarını turistlərə müxtəlif formalarda təklif etmişdir: mədəni tanış olma turları; Azərbaycan Respublikasının bütün ərazisi üzrə idman, ekstremal, xüsusi, tematik, etnoqrafik və dini turlar; Böyük Qafqazın dağlıq hissəsində dağkeçisinin ekzotik ovlanması; Xəzər Dənizinin sahil zonasında (7 istirahət zonası var) istirahət; Bakı-Şamaxı-Balakən-Gürcüstan marşrutu üzrə "İpək yolu"nun Azərbaycan hissəsi boyunca avtobus turu və s.

Ölkənin turizm potensialının tanıdılması müstəqil Azərbaycan Respublikasının xarici turizm siyasətinin ən başlıca vəzifələrindən biridir. ÜTT-nin çap etdirərək yaydığı "İpək yolu" adlı kitabçada Azərbaycan haqqında da bölmə var. Bu kitabça, həmin layihədə iştirak edən ölkələrin turizm marketinqinin vacib aləti rolunu oynayır. Ümumiyyətlə, Azərbaycanın zəngin təbiəti-

nin, tarixinin, tarixi abidələrinin, qədim mədəniyyətinin olması, mətbəxi, bu tarixi özündə əks etdirən müxtəlif mövzulu muzeylərin fəaliyyət göstərməsi ölkəni turistlər üçün cazibədar etməkdədir. Bunlar turizmin əsas məhsuludur və bu məhsullarla ölkəmiz beynəlxalq turizm bazarına çıxmaqdadır [175, s.525-529; 162, s.208].

Hal-hazırda turizm sənayesinin inkişafı istiqamətində fəal işlər görülür. Əsasən investisiya layihəsinin hazırlanması və bölgələrdə xidmət sahəsinin qaldırılması istiqamətində tədbirlər həyata keçirilir. Infrastrukturun vəziyyətinin öyrənilməsi, köhnə turist marşrutlarının bərpası və yeni turist marşrutlarının işlənilib hazırlanması, yeni istirahət zonalarının və qoruqlarının müəyyənləşdirilməsi istiqamətində işlər görülmüşdür. Məsələn, fransız turist təşkilatının köməkliyi ilə yeni ekoturizm marşrutu hazırlanmışdır. "Şahdağ milli parkı" və "Qala" etnoqrafiya parkı yaradılmışdır. Ekoturizm marşrutu ilə bələdçilər üçün treninq kurslar və treninq mərkəzlər təşkil olunmuşdur. Azərbaycan Respublikası hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "Mədəni irsin müdafiəsi" layihəsinin reallaşdırılması üzrə xüsusi saziş imzalanmışdır. Bu layihə çərçivəsində bərpa və qorunma işləri aparılmış, həmçinin UNESCO tərəfindən dünyanın əhəmiyyətli abidələri siyahısına daxil olunmuş Şirvanşahlar sarayı və Şəki xan sarayı, Möminə xatın və Qarabağlar məqbərələrinin müvafiq turizm infrastrukturu yaradılmışdır. Layihə 8 milyon ABŞ dolları dəyərində olmaqla, Dünya Bankı tərəfindən ayrılmış vəsaitlər hesabına yerinə yetirilir [5].

Turizm potensialının ən vacib hissəsi müxtəlif təbii landşafta və qum çimərliklərinə malik Xəzər dənizinin günəşli sahili, rekreasiya və müalicəvi turların təşkili üçün əlavə imkanları yaradan çoxsaylı mineral və palçıq mənbələrinin olması turizm potensialını artırdığından bu sahələrdə də imkanlar araşdırılmış və layihələr hazırlanmışdır. Lakin yeni turizm məhsullarının hazırlanması investisiyaların cəlb edilməsini tələb edir. Bu baxımdan ölkəmiz dünyanı pulla təmin edən müəssisələr ilə möhkəm əla-

qələr qurmalı və xarici investisiyaları turizmin inkişafına cəlb etməlidir.

Ölkəmizin rayon mərkəzlərində, turistlərin axını olan yerlərdə, həmçinin turizm obyektlərində reklam üçün böyük əhəmiyyətə malik olan xalq sənətkarlığı məhsullarının satışı təşkil olunur. Son zamanlar Azərbaycan Respublikasının turizm potensialını əks etdirən reklam məhsulunun buraxılışı üzrə böyük iş aparılmışdır. "Welcome to Azerbaijan" CD diski, rus və ingilis dillərində "Azərbaycana xoş gəlmişsiniz" kataloqu, "Azərbaycan olduğu kimi" atlası, "Turist üçün informasiya" kitabçası, Şimali Azərbaycan və Bakı üzrə turist marşrutlarının xəritəsi, "Turizm xəbərləri" aylıq qəzeti, iki ayda bir dəfə rus və ingilis dillərində çıxan "Azerbaijan review" jurnalı, həmçinin Azərbaycan, rus və ingilis dillərində Şimali Azərbaycan üzrə soraq kitabçası buraxılmışdır [5].

Turizm sahəsində beynəlxalq əlaqələrin inkişafı və möhkəmləndirilməsi üçün turizmə dair əməkdaşlıq üzrə beynəlxalq müqavilələrin bağlanmasına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə turizm sahəsində əməkdaşlıq barədə hökumətlərarası sazişlər Azərbaycan Respublikası ilə Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Bolqarıstan, Moldova, Qətər, Yunanıstan, Belarus, Qazaxıstan, Latviya hökumətləri arasında imzalanmışdır [26]. Bunlardan əlavə turizm sahəsində Böyük Britaniya, Misir, Rusiya Federasiyası, Avstriya, Fransa, Birləşmiş Ərəb Əmirliyi, Səudiyyə Ərəbistanı və İsrail ilə də əməkdaşlıq haqqında imzalanmaq üçün sazişlərin layihələri hazırlanmışdır [26]. Bağlanmış sazişlər turizm sahəsində rəsmi dövlət orqanları arasında əməkdaşlıq koordinasiyasına, xidmətin yeni növlərinə, personal üçün məşq-kursların təşkil olunmasına, ekspert qruplarına, informasiya mübadiləsinə, sərgilərin, konqreslərin və mədəni tədbirlərin təşkil olunmasına yönəldilmiş birgə layihələrin hazırlanmasını təmin edirdi. Həmçinin Azərbaycan Respublikası üzv olduğu bir sıra beynəlxalq və regional təşkilatların turizm tədbirlərində fəal iştirak etmişdir

[26; 65].

Azərbaycan Respublikasının turizmə göstərdiyi dövlət qayğısı turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi üçün əlverişli şərtlərlə bir sıra vacib sənədlərin qəbul edilməsində, onlar üçün vergi güzəştlərinin nəzərdə tutulmasında, turistlər üçün viza rejiminin sadələşdirilməsində, müvafiq hüquqi bazanın təkmilləşdirilməsində öz əksini tapmalıydı [194, s.19-31, s.32-48; 172, s.129-140; 5]. Yəni görülən tədbirlərin davamı olaraq Azərbaycan Respublikası prezidentinin 27 avqust 2002-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş 2002-2005-ci illər üçün "Turizmin İnkişafının Dövlət Proqramı" təsdiq olunmuş və proqrama dair "Tədbirlər proqramı" hazırlanmışdır. Proqramın 7.2 bəndinə uyğun olaraq ölkə ərazisində beynəlxalq standartlara cavab verən 4 əsas və 3 əlavə marşrutun yaradılması məsləhət bilinmişdir [194, s.19-31; 147, s.66-77]. Bunlar aşağıdakılardır: Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Balakən, Bakı-Qazax marşrutları əsas, Bakı-Abşeron yarımadası-Qobustan, Bakı-Naxçıvan, Bakı-Şuşa əlavə marşrutlardır [172, s.132-140]. Ölkə ərazisində mövcud olan qoruqların əsasında milli parkların yaradılması da turizmin inkişafı üçün böyük əhəmiyyətə malik idi. Şahdağ Milli Parkının yaranması çərçivəsində yeni ekoturizm marşrutu açılmış, azərbaycanlı və fransız turistləri onun ilk iştirakçıları olmuşdur.

Dövlətin turizm sahəsində gördüyü işlər nəticəsində 2003-cü ilin aprelinə qədər turizm fəaliyyəti üçün xüsusi icazə almış 65 turizm firması fəaliyyət göstərmiş, sonrakı illərdə bu rəqəm daha da artmışdı.

2003-cü ilin noyabr ayının 24-də ölkə prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafı tezləşdirmək məqsədilə tədbirlər haqqında"kı qərarında və 2004-cü il "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının proqramı (2004-2008)" barəsində fərmanında da turizmin inkişafına xüsusi diqqət yetirilmişdir [147, s.98].

2004-cü ilə qədər Bakıda 50 turizm agentliyi, 10 mehman-

xana fəaliyyət göstərmiş, ictimai iaşə müəssisələrinin sayı xeyli artmışdı [194, s.19]. "Böyük ipək yolu", "Babaların zəfər və şəhadət yolu", "Aleksandr Düma Qafqazda" və digər turizm marşrutları işlənib hazırlanmışdır. Hazırda Azərbaycan Respublikasında turizmin müxtəlif istiqamətlərində işləyən 100-dən çox turizm şirkəti və 270 mehmanxana mövcuddur. Artıq Azərbaycan Respublikasında işləyən turoperatorlar müştərilərin hər hansı xahişini yerinə yetirə və onların arzularını nəzərə almaqla turizm proqramını təşkil edə bilirlər [78].

Son illərdə Azərbaycan Respublikasında turizmin inkişafı istiqamətində müsbət irəliləyişlər baş verir. Avrasiya nəqliyyat dəhlizində Bakının əlverişli mövqedə yerləşməsi, imzalanmış beynəlxalq neft müqavilələri son zamanlar əcnəbi işgüzar adamların ölkəyə gəlişinin artmasına səbəb olmuşdur. Ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi, bütün sahələrdə olduğu kimi turizm sahəsində də investisiyaların artımını stimullaşdırır. Beləliklə, dövlətin turizm sahəsində yeritdiyi daxili və xarici siyasət, görülən işlər turizmin maddi-texniki bazasını möhkəmləndirmiş, daxili və xarici turizmin inkişafı üçün şərait formalaşdırmış, beynəlxalq turizm əlaqələrini genişləndirməyə imkan vermişdir. Qısa müddət ərzində Sovet dönəmində bu sahədə mövcud olmuş vəziyyətin respublikamız üçün arzuolunmaz elementləri aradan qaldırılmış, ölkəmizdə turizm biznesinin çağdaş tələblərə cavab verən bazasının yaradılması sahəsində böyük uğurlar qazanılmışdır.

## § 2. Beynəlxalq turizm və Azərbaycan Respublikası

Məlumdur ki, hər bir xalq özünün dövlət müstəqilliyini qazandıqdan sonra onu möhkəmləndirmək və inkişaf etdirmək kimi çox ciddi problemlərlə qarşılaşır. Bu problemlərin həlli isə həmin xalqdan böyük mübarizə əzmi, güclü qətiyyət, möhkəm birlik və sarsılmaz iradə tələb etməklə yanaşı, həm də onun qar-

şısına ümummilli maraqlara cavab verən, düşünülmüş xarici siyasət strategiyası, xüsusilə, yaxın və uzaq dövlətlərlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin yaradılması kimi mühüm tarixi vəzifələr qoyur. Azərbaycan xalqı da dövlət müstəqilliyini bərpa etdikdən sonra belə mürəkkəb problemlərlə qarşılaşmış və onların həlli istiqamətində dönmədən mübarizə aparmış və dünyanın müxtəlif xalqları arasında olan tarixi əlaqələrin yeni müstəvidə inkişaf etdirilməsinə və genişləndirilməsinə ciddi səylər göstərmişdir. Bu baxımdan 1991-2005-ci illərdə iqtisadiyyatın möhkəmlənməsinə və inkişafına, ölkənin tanınmasına xidmət edən beynəlxalq turizmin Azərbaycan Respublikası üçün müstəsna əhəmiyyəti olmuş və olmaqda davam edir. Beynəlxalq turizm – vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə ödənişli fəaliyyətlə məşğul olmamaq şərti ilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və s.), iş, peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri(səyahətləri)dir. Ölkəmiz beynəlxalq aləmdə bərabərhüquqlu üzv kimi tanındıqdan sonra xarici ölkələrin turizm nazirlikləri və digər təşkilatları ilə ikitərəfli əməkdaşlıq haqqında müqavilələr və protokollar əsasında birgə əməkdaşlığın yaradılması, turist mübadiləsi, xarici ölkələrdə sərgilərin keçirilməsi, turizm nümayəndəliklərinin yaradılması və Beynəlxalq Turist Təşkilatına (BTT) üzv olmaq imkanı əldə etdi. Respublikamızın öz mövcud turizm potensialını beynəlxalq aləmdə tanıtdırmaq üçün fəaliyyətində geniş imkan və şərait yarandı.

Belə qətiyyətli və işgüzar fəaliyyətin məntiqi nəticəsi olaraq Azərbaycan xalqı ilə Avropa xalqları arasında bütün sahələrdə əməkdaşlıq münasibətləri yaradılmış və fəal əlaqələr müstəvisində inkişaf etdirilmişdi. Nəticədə, Azərbaycan Respublikası bu gün artıq Avropa dövlətləri də daxil olmaqla dünyanın 150-yə yaxın dövləti ilə ictimai həyatın əsas inkişaf istiqamətləri sahələrində-siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələr

yaratmışdır. Bu əlaqələr durmadan genişləndirilir və inkişaf etdirilir. Azərbaycan Respublikası bu kompleks prinsiplərə və dünya dövlətləri ilə yaranmış sıx əməkdaşlıq xəttinə sadiq qalmaqla yanaşı, Avropa İttifaqı və Avropa dövlətləri ilə hərtərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi strategiyasını da uğurla həyata keçirir.

Belə əlaqələr sistemində 1991-2005-ci illərdə Azərbaycan Respublikasının Avropa İttifaqı və Avropa dövlətləri ilə turizm əlaqələri maraq kəsb edir və onun tədqiqinə böyük ehtiyac duyulur. Bu baxımdan qeyd etmək lazımdır ki, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında 1996-cı il aprelin 22-də imzalanmış və 1999-cu ilin 22 iyununda qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin 63-cü maddəsi turizm sahəsində əməkdaşlığı nəzərdə tuturdu [45, v.4]. Göründüyü kimi, məhz bu sazişlə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında rəsmi turizm əlaqələrinin əsası qoyulmuşdu. Daha sonra – 1999-cu il iyunun 25-də şuranın növbəti–ikinci iclası keçirilmişdi [45, v.5]. İclasın nəticələrinə görə “Yekunlar və gələcək ikitərəfli əməkdaşlığın prioritetlərinin qiymətləndirilməsi” adlı sənəd qəbul edilmişdi. Ikinci iclasın yekun sənədində turizm ilə bağlı heç bir müzakirə obyekti olmamışdı. Lakin Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə uyğun olaraq Əməkdaşlıq Şurasının ikinci iclasının protokolunun 5-ci maddəsində göstərildiyi kimi iki məsələ qaldırılmışdı: Azərbaycan Respublikası ərazisinə daxil olmaq üçün vizaların verilməsi qaydasının sadələşdirilməsi və onların qiymətinin aşağı salınması, Binə Beynəlxalq Aeroportunda sərnişinlərin qəbulunun idarə edilməsinin təkmilləşdirilməsi, daha asan və daha xoş səyahət. Təbii ki, yuxarıda sadalananlar ölkəmizin maraqlarına uyğun idi və Azərbaycan Respublikasında biznes üçün imkanları genişləndirə bilərdi [45, v.6]. Bu baxımdan bunlar nəzərə alınaraq və ümumiyyətlə turizm sahəsində beynəlxalq əlaqələri genişləndirmək üçün prezidentin 27 avqust 2002-ci il tarixli 1029 saylı sərəncamı ilə “2002-2005-ci illərdə Azərbaycanda tu-

rizmin inkişafına dair dövlət proqramı" və onun həyata keçirilməsi istiqamətində tədbirlər planı təsdiq edilmişdi [172, s.132-140]. Gənc dövlətimiz üçün ilkin olan bu proqramın əsas məqsədləri aşağıdakılardır: Azərbaycanda turizmin inkişafına nail olmaq üçün ölkənin turizm potensialından səmərəli istifadə etmək; turizm sahəsində orta və kiçik sahibkarlığı inkişaf etdirmək; rəqabət qabiliyyətli turizm bazarı yaratmaq; turistlərə göstərilən xidmətin keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək. Göründüyü kimi, ölkəmizin müharibə vəziyyətində olmasına baxmayaraq, bu proqram dövlətin və hökumətin turizmə qayğısının bariz ifadəsi və nəticəsidir. Bundan başqa ölkə prezidentinin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Ayrı–ayrı fəaliyyət növlərinin təkmilləşdirilməsi haqqında" yeni qaydalara uyğun olaraq turizm fəaliyyəti müəyyən edilən 30 fəaliyyət növünə daxil edilmişdi [45, v.4]. Eyni zamanda yeni qaydalara uyğun olaraq lisenziya 5 il müddətinə verilir. Lisenziyaların verilməsi üçün dövlət rüsumu 8.000.000 manatdan (2 il üçün) 2.750.000 manatadək endirilmişdir [45, v.5]. Respublika Turizm Nazirliyinin təklifi ilə "Dövlət rüsumu haqqında qanun"a dəyişiklik edilmiş və bu dəyişikliyə görə xarici turistlər vauçer təqdim etdikdə viza almaq üçün əvvəlki kimi 40 ABŞ dolları deyil, 20 ABŞ dolları həcmində rüsum ödəməliydilər [45, v.6]. Bu istiqamətdə dövlət səviyyəsində ölkədə turizmin inkişafına geniş imkanlar yaratmaq siyasəti davam etdirilərək, əlavə olaraq 1 yanvar 2003-cü ildən vergi məcəlləsində də bir neçə dəyişikliklər edilmişdi. Vergiyə cəlb edilmə maddəsində edilən dəyişikliyə görə turizm fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər üçün gəlir vergisi 20% həcmində müəyyən olunmuşdu (digər hüquqi şəxslər 25%). Beləliklə, tərəfdaşlıq və əməkdaşlıq sazişinin qüvvəyə minməsindən etibarən turizm sahəsində həyata keçirilən tədbirlər kifayət qədər geniş və hərtərəfli olmuşdu [45, v.6]. Turizm sahəsində sahibkarlığın inkişafı üçün əlverişli investisiya mühiti yaradılmış, turizm sahəsində lisenziyalaşdırma sadələşdirilmiş, turistlər üçün daha əlverişli viza rejimi yaradılmış və

Turizm üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün tədbirlər görülmüş, turizmdə informasiya, təbliğat, reklam işi yaxşılaşdırılmışdı. Bakı, Şəki, Lənkəran, Şamaxı, Naxçıvan, Quba və Xaçmaz informasiya-təbliğat, reklam və əlaqələndirmə mərkəzlərinin yaradılması istiqamətində də xeyli iş görülmüşdü. Nəticədə, Avropa İttifaqına daxil olan bir neçə ölkə ilə Azərbaycan Respublikası arasında rəsmi turist əlaqələri qurulmuşdu.

Bu sahədə dövlətimizin göstərilən qitənin ən iri dövlətlərindən biri olan Böyük Britaniya ilə əlaqələrinə nəzər salaq. Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında turizm sahəsində ölkəmizdə beynəlxalq və istirahət turizminin inkişafına və beynəlxalq turizm bazarına çıxmasına dair Britaniya parlamentinin üzvü lord Nüellə 1999-cu il avqustun 10-da niyyət protokolu imzalanmışdı [50, v.4]. Təəssüflə qeyd etmək lazımdır ki, protokolun imzalanmasından sonra turist əlaqələrinin inkişafında heç bir yenilik olmamışdı. 25-29 fevral 2001-ci ildə Britaniya Xarici İşlər Nazirliyinin Şərq Departamentinin rəhbəri A.Prinqlinin ölkəmizə səfəri zamanı Xarici Turizm Şurası turizm əlaqələrinin inkişafı üçün öz təkliflərini vermişdi [50, v.5]. Lakin bu təkliflər də əlaqələrə təkan verməmişdi. Çətinliklərə baxmayaraq, Britaniya ilə turizm əlaqələri sonrakı illərdə daha çox Azərbaycanın turizm potensialının tanıdılması istiqamətində davam etdirilmişdi. Belə ki, ilk dəfə ölkəmiz 11-14 noyabr 2002-ci ildə hər il Londonda keçirilən beynəlxalq turizm sərgisində iştirak etmişdi [50, v.6-8]. Bu sərgidə Azərbaycan Respublikası 9 kvadrat metrlik stendlə təmsil olunmuşdu. Sərgidə başda respublika turizm naziri olmaqla 4 nəfər dövlət rəsmimizin iştirak etməsi Azərbaycan tərəfinin bu sərgiyə böyük əhəmiyyət verməsinin təzahürü idi. Eyni zamanda, qeyd etmək lazımdır ki, həmin sərgidə Azərbaycanı "Avroturizm", "İmproteks Travel", "Hotel Avropa", "Azcot Travel" kimi özəl şirkətlər də təmsil etmişdilər [50, v.9]. Azərbaycan Respublikasının turizm imkanları haqqında prezentasiya isə ölkəmizin Londondakı səfirliyində keçirilmişdir. Lon-

dondakı sərgidə iştirak Azərbaycanın turizm imkanlarının tanıtdırılmasında mühüm rol oynamışdır. Belə ki, sərgidən sonra Azərbaycana jurnalistlərin gəlməsi və bir neçə turist şirkətinin ölkəmizlə maraqlanması bunu deməyə əsas verir. 10-13 noyabr 2003-cü ildə Londonda keçirilən beynəlxalq turizm sərgisində Azərbaycanın birinci dəfə sərgidə iştirakından fərqli olaraq ikinci sərgidə stendimizin sahəsi iki dəfədən çox artaraq 19,5 kvadrat metrə çatmışdı [50, v.10]. Bu sərgidə də Azərbaycanı müvafiq qurum rəhbəri olmaqla üç nəfər və özəl turizm şirkətləri olan "Grand Otel Evropa", "Vahid S", "AB Travel", "Abşeron Tur", "İmproteks", "İnter Tur" şirkətləri təmsil etmişdir. Bu iki sərgidə iştirak Azərbaycanın turizm potensialının reklam və tanıdılmasında mühüm rol oynamışdı. Britaniya ilə qurulan turizm əlaqələri hədər getməmiş, iki ölkə arasındakı əlaqələri, o cümlədən turizm sahəsindəki əlaqələri genişləndirmək üçün hökumətin rəsmi dəvəti ilə 15-20 fevral 2004-cü ildə əlahəzrət Kent şahzadəsi Maykl Azərbaycana səfər etmişdi [50, v.11-12]. O, ölkəmizin turizm imkanları geniş olan bölgələrinə getmiş və Azərbaycanın turizm potensialını yüksək qiymətləndirmişdir. Beləliklə, Azərbaycan Respublikasının Britaniya ilə turizm əlaqələri qeyri-qənaətbəxş və məhdud olsa da, hər halda mövcud olmuşdur.

Tədqiq olunan dövrdə, yəni 1991-2005-ci illərdə Azərbaycan Respublikası ilə Almaniya arasında da beynəlxalq turizm əlaqələri faktiki olaraq yaranıb inkişaf etmişdi. Lakin qeyd etmək lazımdır ki, Almaniya ilə Azərbaycan Respublikasının rəsmi turizm qurumları arasında əlaqə 1991-2003-cü illərdə yaradılmamışdı [44, v.1]. Ancaq bu, o demək deyil ki, Azərbaycan ilə Almaniya arasında heç bir turizm əlaqəsi olmamışdı. Bu illər ərzində Azərbaycan ilə Almaniya arasında turist axını sərbəst şəkildə olmuşdu. Əgər Almaniyadan ölkəmizə əsasən biznes ilə əlaqədar gəlirdilərsə, ölkəmizdən Almaniyaya əsasən iş, təhsil, yaşayış, müalicə və səyahət məqsədilə getmişdilər. Turizm sahəsində ölkələrarası əlaqələrin inkişafında reklam və təbliğatın çox əhəmiyyətli olduğunu nəzərə alan nazirlik 2003-cü ildən Berlin-

də hər il keçirilən "İTB–Berlin" Beynəlxalq Turizm Sərgisində ölkəmizin turizm potensialını əks etdirən çoxlu çap məhsullarının, milli suvenirlərin, milli naxışlarla bəzədilmiş xalçaların və s. nümayişini təşkil etmişdi. Qeyd olunan sərgidə iştirak nəticəsində, Britaniya ilə olduğu kimi, Azərbaycanla Almaniya arasında da rəsmi turizm əlaqələri möhkəmlənir və turizmin müxtəlif sahələrinin inkişafına stimul yaradırdı. İki ölkə arasında turizm əlaqələrinin inkişafında Avropada yaşayan azərbaycanlıların da imkanlarından istifadə ölkədə turizm siyasətini icra edən müvafiq nazirliyin diqqətində olmuşdu. Məsələn, 17-18 aprel 2004-cü ildə Berlindəki Hilton hotelində Avropa-Azərbaycan Təşkilatları Assambleyasının (AATA) təsis toplantısı keçirilmişdi [44, v.7]. Azərbaycanda xarici turizmin inkişafında AATA-nın potensialından istifadə olunmasında gözəl imkanın yaranması nəzərə alınaraq "Azərbaycanda turizm potensialının imkanları" mövzusunda məruzə ilə çıxış olunmuşdu. Göstərmək lazımdır ki, Almaniya ilə yaradılan turizm əlaqələrinin nəticəsi bu gün lazımi səviyyədə olmasa da, bu sahədə atılan ilk addımlar gələcək üçün möhkəm baza rolunu oynayır.

Turizm sahəsində Azərbaycanın əlaqələrini genişləndirmək istədiyi Avropa ölkələrindən biri də güclü turizm ehtiyatlarına malik İtaliyadır. Yuxarıda qeyd etdiyimiz Britaniya və Almaniyadan fərqli olaraq, respublikamız İtaliya ilə rəsmi turizm əlaqələrini iki ölkənin bu sahədə maraqlarına uyğun olaraq sazişlə əsaslandırmışdır. Belə ki, bu iki cənub respublikası hər iki ölkənin iqtisadiyyatı və iki xalq arasında daha yaxşı anlaşma üçün turizmin vacibliyini qəbul edərək Romada 25 sentyabr 1997-ci ildə 8 maddədən ibarət xüsusi saziş imzalamışdır [65]. Bu müqavilə iki ölkə arasında turizmin inkişafı üçün hüquqi baza yaratsa da, təəssüflər olsun ki, turizm əlaqələrinin inkişafına heç bir təsir göstərməmişdi. Xüsusilə qeyd etmək lazımdır ki, İtaliya ilə Azərbaycan arasında turist mübadiləsi etmək üçün həmin ölkələrin turizm şirkətləri arasında da müqavilə bağlanmışdı. Məsələn, iki ölkə arasında turizm mübadiləsi həyata keçirmək üçün

"Ulduz-Tur" turizm şirkəti İtaliyanın "Mir–İtaly" turizm şirkəti ilə 3 mart 2004-cü ildə əməkdaşlıq müqaviləsi imzalamışdı [65; 60, v.1]. Bağlanmış müqavilənin şərtlərini gerçəkləşdirmək məqsədilə "Ulduz-Tur" turizm şirkəti yerli vətəndaşları İtaliyaya turist vizaları ilə təmin etməli idi. Yuxarıdakı faktlardan da göründüyü kimi, İtaliya ilə Azərbaycan arasında rəsmi və qeyri-rəsmi turizm əlaqələri yaradılmış, lakin bu, hələ ki, sabit və artan turizm axınlarına səbəb olmamışdı.

Göstərilən illərdə ölkəmiz Polşa, Latviya, Litva və Estoniya ilə də beynəlxalq turizm əlaqələrinə xüsusi diqqət yetirmişdi [68, v.10]. Belə ki, ölkələrarası səmərəli turizm əlaqələrinin inkişafında hüquqi baza əsas olduğundan ilk əvvəl həmin ölkələrlə müqavilə imzalanmasına diqqət yetirilmişdir. Nəticədə, Azərbaycan Respublikası və Polşa hökumətləri ikitərəfli turizmin inkişafı sahəsində daha səmərəli əməkdaşlığa cəhd göstərərək, Varşavada 26 avqust 1997-ci ildə 10 maddədən ibarət xüsusi saziş imzalamışdılar [68, v.11]. Lakin, təəssüflə qeyd etmək lazımdır ki, son vaxtlara qədər iki ölkə arasında imzalanmış sazişin müddəaları həyata keçirilməmişdi. Bununla yanaşı turizm sahəsində böyük təcrübəyə malik Polşa ilə zəngin turizm potensialı olan Azərbaycan Respublikası arasında sözügedən əlaqələrin bərpası və inkişaf etdirilməsi üçün lazımi zəmin vardır.

Baltikyanı ölkələrə gəldikdə isə, qeyd etmək lazımdır ki, turizm sahəsində nəzərəçarpacaq inkişafa nail olunmamışdı. Ona görə də Polşa və Baltikyanı ölkələrlə Azərbaycan Respublikası arasında turizm əlaqələrinin inkişafına təkan vermək üçün aşağıdakı işlərin görülməsi daha müsbət nəticələr verərdi: Azərbaycan Respublikası ilə Polşa, Latviya, Litva və Estoniyanın müvafiq rəsmi turizm qurumları arasında əlaqələrin yaradılması, hər ilin aprelində Bakıda keçirilən Beynəlxalq Turizm Sərgisinə Polşa, Latviya, Litva və Estoniya turizm şirkətlərinin dəvət olunması, ölkələrimiz üzrə qarşılıqlı turist mübadiləsi, Azərbaycanın turizm sektoruna Polşa, Latviya, Litva və Estoniya investorlarının cəlb olunması, Polşa, Latviya, Litva və Estoniya turist-

lərinin Xəzərsahili istirahət ocaqlarında dincəlməsinin təşkili, Azərbaycan turistləri üçün bu ölkələrə giriş–çıxış vizalarının alınmasının sadələşdirilməsi. Lakin belə fikrə gəlmək olmaz ki, tədqiq olunan illərdə ikitərəfli əlaqələrdə turizmin heç bir növü inkişaf etməmişdir. Azərbaycan ilə Polşa arasında bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar turizmin "şop turizm" növü kifayət qədər geniş olmuşdu.

1991-2005-ci illərdə Azərbaycan Respublikasının Bolqarıstanla da turizm əlaqələri maraqlıdır. Qeyd etmək lazımdır ki, hələ SSRI dövründə Moskvadan idarə olunsa da, sosialist ölkə kimi Sovet Azərbaycanının Bolqarıstanla turizm əlaqələri mövcud olmuşdu. Bu baxımdan bu əlaqələri davam və inkişaf etdirmək üçün digər Avropa ölkələri ilə müqayisədə Bolqarıstan daha üstün cəhətlərə və geniş imkanlara malik idi. Lakin müstəqil dövlət kimi Bolqarıstanla turizm sahəsində saziş yox idi və elə buna görə də Azərbaycan və Bolqarıstan respublikalarının hökumətləri arasında Bakıda 2 dekabr 1999-cu ildə hər iki ölkənin tarixi və mədəni irsi ilə, habelə təbii sərvətləri ilə daha yaxşı tanış olmağa köməklik edilməsi arzu olunaraq turizm sahəsində saziş imzalanmışdı [49, v.1]. Sazişin 1999-cu ildə imzalanmasına baxmayaraq, çox təəssüf ki, indiyə qədər onun müddəaları həyata keçirilməmiş və Bolqarıstan ilə Azərbaycanın müvafiq dövlət turizm qurumları arasında əlaqələr lazımi səviyyədə qurulmamışdı. Bununla əlaqədar olaraq ölkələrimiz arasında turizm əlaqələrinin bərpası və gələcək əməkdaşlığımızın genişləndirilməsi məqsədi ilə Turizm Nazirliyi Bolqarıstanın turizm üzrə müvafiq qurumu ilə əlaqələrin yaradılmasına köməklik göstərilməsi üçün Bolqarıstan səfirliyinə məktub göndərmiş, nazirliyin Turizm şöbəsində Bolqarıstanın səfiri ilə görüş keçirilmiş və qarşılıqlı perspektiv fəaliyyət imkanları müzakirə edilmişdi. Dövlət Sərhəd Xidmətinin 2002-ci il üçün verdiyi məlumata görə ölkəmizdən Bolqarıstana 374 və Bolqarıstandan ölkəmizə 359 nəfər səfər etmişdi. 2003-cü ilin 6 ayı ərzində isə ölkəmizdən Bolqarıstana 187 nəfər getmiş və Bolqarıstandan ölkəmizə isə 173 nəfər

gəlmişdi [49, v.3]. Bu isə geniş turizm imkanlarına malik olan hər iki tərəf üçün çox cüzi göstəricilərdir.

Iki ölkə arasında turizm əlaqələrini inkişaf etdirmək üçün bunları təklif etmək yerinə düşərdi: hər iki ölkənin rəsmi turizm qurumları arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, Azərbaycan–Bolqarıstan müştərək hökumətlərarası komissiya çərçivəsində turizm üzrə xüsusi işçi qrupun yaradılması və turizm sahəsində qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirə edilməsi, peşəkar turizm kadrlarının hazırlanmasında təcrübə mübadiləsi, hər il Bakıda keçirilən Beynəlxalq turizm sərgisinə Bolqarıstan turizm şirkətlərinin dəvət olunması, qardaşlaşmış şəhərlər olan Şəki və Qabrovoda qarşılıqlı olaraq turizm gülüş–yumor festivallarının keçirilməsi, Azərbaycan və Bolqarıstanın qardaşlaşmış digər (məs. Mingəçevir) şəhərlərində belə tədbirlərin təşkili, beynəlxalq və regional təşkilatlar çərçivəsində, o cümlədən ÜTT, QDİƏ təşkilatı çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi, turizm əlaqələrinin inkişafı baxımından Bakı–Sofya–Bakı aviareysinin açılması imkanlarının nəzərdən keçirilməsi, Azərbaycan turistləri üçün Bolqarıstana turizm viza rüsumunun aşağı salınması (hal-hazırda bu rüsum 60 ABŞ dollarıdır).

Turizm gəlirləri dövlət gəlirlərinin əsasını təşkil edən Yunanıstan ilə Azərbaycan Respublikası arasında yuxarıda göstərilən digər Avropa ölkələri ilə olduğu kimi rəsmi turizm əlaqələri müstəqilliyin ilk illərində qurulmamışdı (2005-ci il sazişinə qədər). Lakin iki ölkə arasında 1994-cü il iyulun 26-da turizm sahəsini də əhatə edən iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq sazişi imzalanmışdı [74, v.1]. Ardınca Azərbaycan və Yunanıstan hökumətləri arasında təhsil, mədəniyyət və elm sahəsində əməkdaşlıq haqqında 1997-ci ilin 11 aprelində Bakıda imzalanmış sazişin 12-ci maddəsinə uyğun olaraq mədəni, elmi və təhsil əlaqələrini inkişaf etdirmək arzusu ilə Azərbaycan və Yunanıstan hökumətləri 2001-2004-cü illər üçün mədəni, elmi və təhsil əməkdaşlığına dair proqram qəbul olunması haqqında 26 noyabr 2001-ci ildə razılığa gəlmişdilər [74, v.2]. Elə bu sa-

zişlərə uyğun olaraq, həm də ikitərəfli turizm əlaqələrini inkişaf etdirmək üçün prezidentin 2003-cü il 7 aprel tarixli fərmanına əsasən yaradılan Azərbaycan ilə Yunanıstan hökumətləri arasında iqtisadi, sənaye və texnoloji sahədə əməkdaşlıq üzrə birgə komissiyanın tərkibinə Turizm Nazirliyinin də nümayəndələri daxil edilmişdir. Görülmüş tədbirlər nəticəsində Yunanıstan tərəfi iki ölkə arasında turizm əlaqələrinə dair saziş layihəsini 10-11 aprel 2003-cü ildə Bakıda keçirilmiş Azərbaycan və Yunanıstan hökumətləri arasında iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə birgə komissiyasının ilk iclası zamanı hər iki ölkənin ekspertləri tərəfindən razılaşdırılmasını və həmin ilin may ayında planlaşdırılan Yunanıstan prezidentinin Azərbaycana səfəri zamanı imzalanmasını təklif etmişdir. Yunanıstan-Azərbaycan turizm əlaqələri həm də hər iki ölkənin üzv olduğu QDİƏT çərçivəsində də davam etdirilmişdir. Belə ki, 31 oktyabr–1 noyabr 2003-cü ildə Salonikidə Yunanıstan İnkişaf Nazirliyinin təklifi ilə keçirilən QDİƏT-in turizm sahəsində əməkdaşlıq üzrə işçi qrupunun iclasında Turizm Baş İdarəsinin nümayəndələri iştirak etmişdir. Yenə də 2003-cü ilin sentyabrında Bakıda keçirilmiş QDİƏT çərçivəsində təşkil olunmuş konfransda iştirak etmiş Yunanıstan inkişaf nazirinin müavini ilə ölkəmizin turizm naziri arasında görüş baş tutmuşdur [74, v.3]. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Şimali Kipr Türk Respublikasının "AİTF-2004" Bakı sərgisində iştirakı Yunanıstanın narazılığına səbəb olmuşdur. Lakin Azərbaycan tərəfi bildirmişdir ki, sərginin təşkili, keçirilməsi və iştirakçıların dəvət olunması baş ofisi Londonda yerləşən "İTEC Caspian LTD" şirkəti tərəfindən həyata keçirilir [50, v.5]. Yunanıstan-Azərbaycan turizm əlaqələrində Olimpiya oyunları ilə əlaqədar idman turizmini də qeyd etmək yerinə düşərdi. Yəni, 2004-cü ildə Afinada keçirilən XVIII Yay Olimpiya Oyunlarında ölkəmizin MOK-u və Turizm Nazirliyi Olimpiya oyunlarına turist səfərlərinin təşkilini "İmproteks" və "SI Travel " turist şirkətlərinə tapşırmışdı [74, v.7].

Turizm sahəsində böyük təcrübəyə malik ölkələrlə, o cüm-

lədən ABŞ-la əməkdaşlığı genişləndirmək və təcrübə mübadiləsi etmək son dərəcə böyük əhəmiyyətə malik idi. Belə ki, Azərbaycan turizm sektorunun inkişaf istiqamətlərinin fəaliyyət proqramında Amerika modelinin dəsti-xəttindən istifadə edilməsinin nəzərə alınması gözəl bəhrə verərdi. Ölkəmizin Turizm Baş İdarəsi əməkdaşlarının və turizm sahəsində çalışan mütəxəssislərin ABŞ-ın rəsmi turizm strukturunun fəaliyyəti və ümumiyyətlə ABŞ–da bu sahənin çalışma mexanizmi və iş prinsipi ilə tanış olub, təcrübə mübadiləsi etməsi bu dövlətlərin arasındakı turizm əlaqələrində bugünkü günə qədər əsas yer tutmuşdur. Respublika Turizm Nazirliyinə ABŞ səfirliyindən göndərilmiş 7 mart 2002-ci il tarixli məktubda Azərbaycanın turizm sahəsinin böyük imkanlara sahib olması və bu sahədə ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın qurulmasının vacibliyi bildirilir və qeyd edilirdi ki, iqtisadiyyatın gələcək inkişafı, infrastrukturun təkmilləşdirilməsi və viza prosedurlarının tezləşdirilməsi və sadələşdirilməsi Azərbaycan turizm sənayesinin inkişafına yardımçı ola bilər. Bu prosedurun tezləşdirilməsi üçün səfirlik bir neçə tədbirdə əməkdaşlıq etməyi təklif etmişdi [43, v.5]. Verilən təkliflərlə bağlı ABŞ səfirliyi ilə əlaqə yaradılmış, həmin məsələlərlə bağlı müzakirələr aparmışdı. Göründüyü kimi, əlaqələr yaradılmışdır, lakin bu əlaqələr turist axınına səbəb olmamışdı. Bununla belə, Azərbaycanla ABŞ arasında təhsil, elm, biznes və konqres turizmi müstəqillikdən sonra daim artımla müşayiət olunmuşdu. Azərbaycanın zəngin turizm potensialı ABŞ-ın bu sahədə çalışan mütəxəssislərinin diqqətindən yayınmamışdı. Buna misal olaraq ABŞ-ın ticarət və inkişaf agentliyinin turizmin inkişafı ilə məşğul olan "S.W.Associates LLC" şirkətinin prezidentinin Azərbaycanın turizm potensialını öyrənmək üçün 6-15 avqust 2003-cü ildə ölkəmizə səfərini və ABŞ-ın Ticarət və İnkişaf Agentliyi tərəfindən Azərbaycanın turizm strategiyasının inkişafına texniki kömək üçün 308.050 ABŞ dolları məbləğində qrant ayrılmasını göstərmək olar [43, v.6,8].

Bu istiqamətdə Azərbaycanın əlaqələrini genişləndirmək is-

tədiyi ölkələrdən biri də Rumıniyadır. Dünya Bankı, Rumıniya Nəqliyyat, Tikinti və Turizm Nazirliyi və turizm şirkətlərinin milli assosiasiyası tərəfindən dəstəklənmiş və 20-21 mayda Buxarestdə keçirilmiş I Qara Dəniz turizm konfransında səfirliyimizin nümayəndəsi də iştirak etmişdi. Haqqında danışdığımız dövrdə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin olmasına baxmayaraq, turizmdə bu özünü yazışmalar səviyyəsində göstərmişdir.

Azərbaycan zəngin tarixi abidələri və yüksək turizm potensialı olan İspaniya, Avstriya və Fransa ilə də turizm əlaqələri qurulmasına xüsusi diqqət yetirmişdi. Belə bir imkan ÜTT baş katibinin dəvəti ilə ölkəmizin turizm nazirinin 13-16 dekabr 2001-ci ildə İspaniyaya rəsmi səfəri zamanı yaranmışdır [73, v.17]. Yəni bu səfər çərçivəsində müvafiq qurum rəhbərləri ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmiş, İspaniya tərəfi isə öz növbəsində Azərbaycanın turizm potensialı və mehmanxana sənayesinin investisiya imkanlarının öyrənilməsinə maraq göstərmişdir. Maraq nəzərə alınaraq ölkəmizin mehmanxana sənayesinin investisiya imkanlarının İspaniyada prezentasiyası barədə razılığa gəlinmişdi. İspaniya turizm sənayesi barədə daha dolğun məlumat almaq üçün nazir Ə.Qarayev Madrid və Toledo şəhərlərinin mehmanxana və turist obyektlərinin fəaliyyəti ilə də tanış olmuşdu.

Məlumdur ki, haqqında danışılan dövrdə Azərbaycan Respublikası və Avstriya arasında kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq haqqında saziş qüvvədə idi. Həmin sənədin səkkizinci maddəsində göstərilir ki, hər bir dövlətdə qüvvədə olan qanunvericilik çərçivəsində turizmin inkişafına yardım edilməli, turizm sahəsində layihələrin yerinə yetirilməsi zamanı, habelə müvafiq infrastrukturun, ətraf mühitin qorunması və turizmin yüksək səviyyəli təşkili prinsipləri əsasında inkişafı üçün xüsusi iqtisadi, sənaye, texniki və texnoloji əməkdaşlığı həyata keçirməlidir. Göründüyü kimi, iki ölkə arasında mövcud turizm əlaqələri bu müddəalara görə inkişaf etdi-

rilməliydi [46, v.1]. Bu baxımdan bu sazişin ardınca Azərbaycan ilə Avstriya arasında turizm sahəsində əməkdaşlıq genişləndirilmiş və bunun nəticəsi olaraq, iki ölkənin rəsmi turizm qurumları arasında sıx əlaqələrin təməli qoyulmuşdu. Belə ki, ölkəmizin turizm naziri 10-13 dekabr 2001-ci ildə Avstriyaya rəsmi səfərə getmiş, turizm şirkətləri, nümayəndələri qarşısında ”Azərbaycan turizm sənayesinə sərmayə qoyuluşu imkanları” mövzusunda mühazirə oxumuş və müvafiq qurumlarla gənclər və idman əlaqələrini müzakirə etmişdi [46, v.4]. Nazirimiz orada habelə Avstriyanın bir necə dövlət xadimi və şirkət başçıları ilə görüşlər keçirmişdi [46, v.2]. Avstriyanın turizm üzrə dövlət katibi ilə ekoturizm, ailə turizmi, qış turizmi, turizm üzrə təhsil alma və ixtisasartırma imkanları, ölkələr arasında birbaşa hava əlaqələrinin qurulması və digər məsələlər müzakirə olunmuşdur. Əldə edilmiş razılıq nəticəsində 2-8 aprel 2002-ci ildə Avstriyanın turizm sahəsi üzrə ekspertlər qrupu ölkəmizə səfər etmişdir [46, v.5]. Onlar Azərbaycanın bir sıra nazirliklərində, BDU-da görüşlər keçirmiş və respublikamızın mövcud turizm potensialını öyrənmək məqsədi ilə bir sıra rayonlarımızı gəzmişdilər. Səfərin nəticəsi olaraq ekspertlər qrupu “Azərbaycan turizminin inkişafı imkanları” adlı hesabat hazırlayıb, Turizm Nazirliyinə göndərmişdir. Iki ölkə arasında yuxarıda qeyd olunan sazişə əsasən Azərbaycan və Avstriya arasında fəaliyyət göstərən birgə komissiyanın tərkibinə turizm nazirinin birinci müavini daxil edilmiş, 3-5 iyun 2002-ci ildə Bakıda keçirilmiş komissiyanın ikinci iclasında turizm sahəsi iki ölkə arasında əməkdaşlığın prioritet sahəsi kimi qeyd edilmiş və bu sahədə hər iki tərəfin iştirakı ilə birgə layihələrə baxılması haqqında razılığa gəlinmişdir [46, v.7]. Yenə də həmin sazişə əsasən Avstriyanın İqtisadi və Əmək Nazirliyi tərəfindən 13-20 oktyabr 2002-ci ildə Vyanada keçirilmiş ixtisasartırma kurslarında ölkəmizin Turizm Nazirliyinin nümayəndəsi iştirak etmişdi. [46, v.8]. Son dövrlər iki ölkə arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsini nəzərə alaraq, Azərbaycan Respublikası və Avstriya ara-

sında turizm sahəsində əməkdaşlıq sazişinin layihəsi hazırlanmışdı. Eyni zamanda Bakıda 2003, 2004, 2005-ci illərdə keçirilən "AİTF" Beynəlxalq Turizm Sərgisində Avstriya və Fransa turist şirkətləri və təşkilatları təmsil olunmuşdular. Həm də 18 iyun 2003-cü ildə Avstriyanın Klaqenfurt şəhərində yerləşən "Mini Mundus" adlı miniatür memarlıq abidələri muzeyində "Qız Qalası" abidəsinin modeli quraşdırılmışdır [46, v.9].

Fransa səfirliyinin nümayəndəsi ilə ölkəmizin Turizm Nazirliyində keçirilən görüşdə Parisdə yerləşən "Disney lend" əyləncə mərkəzinə Azərbaycan məktəblilərinin qrup şəklində turlarının təşkilinin həyata keçirilməsi imkanları müzakirə edilmiş və bununla əlaqədar Azərbaycan və Fransanın rəsmi turizm qurumlarının birgə əməkdaşlığı imkanları nəzərdən keçirilmişdi. Əlaqələri genişləndirmək üçün Fransanın turizm üzrə dövlət katibinin 2004-cü ilin sentyabrında Azərbaycana səfəri nəzərdə tutulmuşdu [45, v.7].

Bu istiqamətdə Azərbaycan və İsveçrə arasında rəsmi turizm əlaqələri qurulmasa da, Almaniya, Hollandiya, Belçika və Fransa ilə olduğu kimi turizm əlaqələri faktiki mövcud olmuşdu. Buna görə də bu ölkələrlə turizm əlaqələrini rəsmiləşdirib genişləndirmək üçün cəhdlər göstərilmişdir. 8-9 may 2003-cü ildə Bakıda Azərbaycan və İsveçrə arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə birgə komissiyasının birinci iclası olmuşdur [59, v.1]. İclasda hər iki ölkənin rəsmi turizm qurumları arasında əməkdaşlığın qurulması, turizm potensialının təbliği və təşviqinə dair məlumatların qarşılıqlı mübadiləsi 8-10 aprel 2004-cü ildə keçiriləcək III Azərbaycan Beynəlxalq Turizm Sərgisində (ABTS) İsveçrə turizm şirkətlərinin dəvət olunması, Azərbaycan Respublikasının rəsmi turizm qurumlarında və özəl sektorunda çalışan mütəxəssislər üçün İsveçrədə təcrübə kurslarının təşkili, Azərbaycanda qış turizminin infrastrukturunun yaradılmasına İsveçrə mütəxəssislərinin cəlb edilməsi məsələləri müzakirə edilmişdir. Nəticədə, hər iki tərəf turizmin inkişaf etdirilməsi üçün potensialın mövcud olduğu haqqında birgə fikrə gəlmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycanla Avropa ölkələri arasında beynəlxalq turizm əlaqələri müəyyən çətinliklərə baxmayaraq, 1991-2005-ci illərdə müsbət nəticələr də vermişdi. Statistik məlumatlara müraciət edək: Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən Azərbaycan Respublikasına gələn turistlərin sayı 1997-ci ildə Böyük Britaniyadan 8.636, ABŞ-dan 4.392, Almaniyadan 3.456, Fransadan 1.235, İtaliyadan 162, Kanadadan 503 nəfər, 1998-ci ildə Böyük Britaniyadan 5.197, ABŞ-dan 3.257, Almaniyadan 3.283, Fransadan 609, İtaliyadan 482, Kanadadan 93, 1999-ci ildə Böyük Britaniyadan 2.281, ABŞ-dan 1.763, Almaniyadan 1.423, Fransadan 348, İtaliyadan 239, Kanadadan 90 nəfər olmuşdu. Öz növbəsində Azərbaycandan gedən vətəndaşların sayı isə 1997-ci ildə Yunanıstana 1.722, Almaniyaya 3.207 nəfər, 1998-ci ildə Yunanıstana 1.750, Almaniyaya 4.160, 1999-cu ildə Yunanıstana 721, Almaniyaya 1.919 nəfər olmuşdur [98, s.295]. Yuxarıda əsaslandığımız materiallar, müraciət etdiyimiz qaynaqlar əyani surətdə göstərir ki, 1991-2005-ci illərdə Azərbaycan Respublikası ilə Avropa dövlətləri arasında beynəlxalq turizm əlaqələri çox əhəmiyyətli dərəcədə inkişaf etmiş və bu istiqamətdə lazımi tarixi təcrübə də toplanmışdır. Bu yöndə həyata keçirilmiş beynəlxalq turizm əlaqələrinin köməyi ilə Azərbaycan və Avropa xalqları biri-birilərini daha yaxşı tanımaq, ölkələrin tarixini qarşılıqlı səkildə öyrənmək imkanı əldə etmiş, elmi-texniki inkişafın nailiyyətləri sahəsində bilgilər qazanmış, tərəflər arasında ticarət əlaqələri canlanmış və bunlar hamısı birlikdə xalqların daha da yaxınlaşmasına və yeni iş yerlərinin yaranmasına səbəb olmuşdur. Beynəlxalq turist mübadiləsi nəticəsində Azərbaycan və Avropa xalqları arasında yaranan inam və qarşılıqlı anlaşma onların dostluğunu möhkəmləndirir, onlar arasında neqativ halların qarşısını alır ki, bu da gələcək nəsillər üçün planetimizin qorunub çiçəklənməsinə xidmət edir. Azərbaycanla Avropa dövlətləri arasında 1991-2005-ci illərdə yaranıb inkişaf edən beynəlxalq turizm əlaqələrinin qısa məzmun və göstəriciləri belə olmuşdur. Hal-hazırda bu əlaqələr

özünün yeni mərhələsindədir və yeni məzmunda həyata keçirilir.

1991-2005-ci illərdə ölkəmiz Türkiyə ilə hərtərəfli münasibətlərin qurulması və inkişaf strategiyasını da uğurla həyata keçirmişdir. Bu əlaqələrdə turizm özünəməxsus yer tutmuşdur. Ümumiyyətlə, beynəlxalq turizm Azərbaycan və Türkiyə üçün nədir? Hansı məqsədlərə xidmət edir? Sovet dövründə turizmin inkişafı tarixinə nəzər saldıqda görürük ki, ilk xarici turistlərin Şimali Azərbaycana gəlişi 1934-cü ilə təsadüf etmişdir. Ölkəmizə turist axını XX əsrin 80-ci illərində nəzərə çarpacaq dərəcədə fəallaşmış və turizm vacib bir sahəyə çevrilmişdi. Bir neçə misal gətirək. Ümumilikdə 1985-ci ildə ölkəmizə 30 min turist, 1986-cı ildə 40 min turist, 1987-ci ildə isə 60 min turist gəlmişdir [2, v.7]. Göstərilən illərdə ölkəyə gələn turistlərin sayının çoxalmasının əsas səbəblərindən başlıcası təbii ki, ötən əsrin 70-ci illərində yaradılmış infrastruktur olmuşdu. Lakin turizmin inkişafı prosesi 1988-ci ildə Dağlıq Qarabağ konfliktinin qızışması ilə dayanmışdır [2, v.7]. Daha sonra 1988-1991-ci illərdə Şimali Azərbaycana turist gəlişi ürəkaçan səviyyədə olmasa da, hər halda mövcud idi. Bu illərdə Şimali Azərbaycana gələn turistlərin çoxunu başda İran və Türkiyə olmaqla yaxın xaricdən gələn turistlər təşkil etmişdir [2, v.7]. Göstərilən münasibətlər SSRİ mərkəzinin-Moskvanın rəhbərliyi altında həyata keçirilmişdir. 1991-ci ildə Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini elan etməsi ilə əlaqədar beynəlxalq əlaqələrimiz artıq Moskvadan deyil, ölkədən idarə olunmağa başlamışdı [116, s.5-6]. Qeyd olunan illərdə və istiqamətlərdə müstəqil Azərbaycan Respublikasının qardaş Türkiyə ilə də geniş əlaqələri olmuş və inkişaf etmişdi. Nəticədə, elmi-tarixi nöqteyi-nəzərdən diqqəti cəlb edən ciddi təcrübə də toplanmışdı. Bu qardaş ölkələr arasında inkişafda olan əlaqələr yüksək dostluq və qardaşlıq ruhunda qurulmuş və hər iki xalqın milli mənafelərinə uyğun inkişaf etməkdədir. Daha doğrusu, Azərbaycan-Türkiyə əlaqələri həm formaca, istiqamət və xarakter baxımından, mahiyyət, məzmun, həm də miqyas keyfiyyətinə görə bir millət iki dövlətin milli maraqları-

na cavab verir və hər iki xalq arasında inkişaf etməkdə olan doğmalıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət göstərməkdədir. İki qardaş ölkənin ümumi beynəlxalq münasibətləri sistemində yaranmış turizm əlaqələri də həmin istiqamətdə ciddi rol oynamaqdadır. Bu baxımdan iki ölkə arasında mövcud əlaqələrin fonunda tədqiqat obyekti olan turizm əlaqələrini elmi cəhətdən təhlil etmək, 1991-2005-ci illərdə göstərilən sahədə yaranmış təcrübəni ümumiləşdirmək, onu müxtəlif mövqelərdən qiymətləndirmək və müvafiq nəticələr çıxartmaq elmi-tarixi baxımdan böyük siyasi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, göstərilən tədqiqat dövrü çərçivəsində iki ölkə arasında turizm əlaqələri sahəsində bir sıra ciddi addımlar atılmış və artıq onun hərtərəfli inkişafı üçün əhəmiyyətli nəticələr də əldə olunmuşdur.

Bütün sahələrdə olduğu kimi turizm sahəsində də ölkəmizin ilk əlaqə qurduğu ölkə Türkiyə olmuşdu. Beləliklə, müstəqil Azərbaycan Respublikasının Türkiyə ilə turizm sahəsində beynəlxalq əlaqələri 1991-ci ildən başlanmışdır [201, v.3]. Nəzərə alsaq ki, 1992-ci ilə qədər xarici vətəndaşların Şimali Azərbaycana gəlişi və Azərbaycan vətəndaşlarının xarici ölkələrə gedişi haqqında məlumatlar SSRİ sərhəd statistikasına əsasən qeydə alınmışdı, SSRİ-nin süqutundan sonra isə sərhəd qeydiyyatı MDB-yə keçmişdi və yalnız 1994-cü ildən Azərbaycan Respublikasının sərhəd xidməti bu işlə məşğul olmuşdu, onda xaricə gedən Azərbaycan vətəndaşlarını xaricə gedən ittifaq vətəndaşlarının tərkibindən seçib tam statistik göstərici almaq mümkünsüz olduğundan, biz bu məlumatları 1991-ci ildə Azərbaycan ilə Türkiyə arasında ilk turist səfərləri təşkil edən turist şirkətlərindən götürmüşük ki, bunlar da müstəqillik dövründə Azərbaycan ilə Türkiyə arasındakı ilk turist əlaqələrinin qurulması hesab oluna bilər [2, v.23]. Başlanğıc dövründə Azərbaycan-Türkiyə beynəlxalq turizm əlaqələri Beynəlxalq Gənclər Turizm Bürosu (BGTB) "Sputnik " təşkilatı Türkiyənin "Bumeranq" turist şirkəti ilə birgə İstanbul-Bakı və Bakı-İstanbul istiqamətində ilk

çarter reysi ilə həyata keçirilmişdi [1, v.19]. Onun ardınca 1991-ci ildə "Azintur" turist şirkəti və Türkiyənin "Duru" turist şirkəti birgə altı çarter reysi ilə turist mübadiləsi həyata keçirmişdi [2, v.29]. Beləliklə, Azərbaycan Respublikası ilə Türkiyə arasında ilk beynəlxalq turizm əlaqələri yuxarıda qeyd olunan təşkilatlar vasitəsi ilə başlanmışdır. 1991-ci ildə çarter reysləri ilə Azərbaycan Respublikasına Türkiyədən 1050 turist gəlmiş, bir o qədər də Azərbaycandan Türkiyəyə turist getmişdir [53, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında beynəlxalq turizm əlaqələri"]. Həmin ildə Azərbaycanla Türkiyə arasında turizm sahəsində olan əlaqələr bazar iqtisadiyyatına müvafiq qaydalar əsasında həyata keçirilirdi. 1991-2005-ci illərdə Azərbaycan Respublikası və Türkiyə arasında beynəlxalq turizm əlaqələri müxtəlif formada və növdə həyata keçirilmişdi. Məsələn, 1991-1992-ci illərdə Azərbaycan Respublikası ilə Türkiyə arasında həmin əlaqələrdə əsas yeri etnik turizm təşkil etmişdi. Uzun illərdən bəri öz qohum-əqrəbalarından ayrı düşən insanlar öz yaxınlarına qovuşmaq üçün Türkiyədən Azərbaycana və əksinə turist səfərlərinə gedirdilər. Bu səyahətlər qarşılıqlı xarakter daşıdığından yeni turist əlaqələri üçün zəmin hazırlayırdı. Belə turizm növlərindən biri də "Shop turizm", yəni ticarət turizmi olmuşdu. Turizmin bu növü həm Azərbaycan, həm də Türkiyə üçün əlverişli turizm formalarından idi. Belə ki, SSRİ-nin süqutu dövründə nəinki Azərbaycanda, bütövlükdə SSRİ məkanında iqtisadiyyatın dağılması bazarlarda hədsiz boşluğa səbəb olmuşdur ki, bunu da Türkiyənin inkişaf etməkdə olan yüngül sənayesi öz məhsulları ilə doldura bilərdi. Bu səbəbdən də ticarət turizmi hər iki ölkə arasında 1991-1992-ci illərdə yeganə forma kimi inkişaf etmişdi. İki ölkə arasında beynəlxalq turizm əlaqələrinin başqa formalara keçməsinə ehtiyac olmasına baxmayaraq separatizm, erməni terrorizmi, işğalçı Ermənistan və müstəqil Azərbaycan Respublikası arasında gedən müharibə nəticəsində ərazi itkisi Azərbaycanda turizmin digər sahələrinin inkişafına maneə olmuşdu. Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Res-

publikası ilə Türkiyə arasında bu istiqamətdə əlaqələr iki dövlətin turizm strukturları arasında davam etmişdi.

Demək lazımdır ki, bu əlaqələr elə-belə, əsassız olmamışdı. Onların inkişafına iki ölkə arasında 1992-2005-ci illərdə imzalanmış protokollar, sazişlər və digər sənədlər ciddi təsir göstərmişdi. Belə ki, həmin illərdə hər iki ölkə arasında əməkdaşlığın inkişafına yönəlmiş 119 müxtəlif beynəlxalq sənəd imzalanmışdı. Şübhəsiz ki, həmin sənədlərdə iki ölkə arasında ictimai həyatın başqa sahələrində olan əməkdaşlığın inkişafı ilə birlikdə beynəlxalq turizm münasibətlərinin genişlənməsi problemləri də öz əksini tapmışdı. Onların sırasında iki sənəd xüsusi olaraq Azərbaycan və Türkiyə respublikaları arasında beynəlxalq turizmin inkişafına aid olmuşdu. Bu sənədlərdən biri 1992-ci il noyabrın 2-də Ankarada imzalanmış Azərbaycan və Türkiyə hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında 12 maddədən ibarət müqavilə, ikincisi isə 1993-cü ilin martın 4-də Bakıda yenə də turizm sahəsində imzalanmış saziş olmuşdu [65]. Qeyd etmək lazımdır ki, ölkələrimiz arasında turizm əlaqələrinin sonrakı inkişafı bu sənədlərə əsaslanmalı və genişlənməli idi. Təəssüflər olsun ki, 1992-1993-cü illərdə iki ölkə arasında turist əlaqələrinin inkişafına bu müqavilə heç bir təsir göstərmək imkanına malik olmamış, kağız üzərində qalmışdı. Bunu həmin dövrün turizm haqqında ümumi statistik göstəricisi də təsdiq edir. 1993-cü ildə Azərbaycan Respublikasına turist səfərləri 80 % azalmışdı. Buna təbii ki, ərazimizdə davam edən müharibə, siyasi hakimiyyət uğrunda mübarizə və özbaşınalıq da öz təsirini göstərmişdir [191, s.254-280].

Lakin bu vəziyyət çox uzun çəkməmişdi. Mərhum prezident H.Ə.Əliyevin hakimiyyətə qayıdışı ilə əlaqədar olaraq bu sahədə də vəziyyət düzəlməyə başladı. Belə ki, məhz H.Ə.Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası ilə işğalçı Ermənistan arasında hərbi əməliyyatların dayandırılması turizm sahəsində müsbət dəyişikliklərə təkan verdi. 1994-cü ildə "Əsrin müqaviləsi", sonra "TRASEKA" layihəsi çərçivəsində nəqliyyat kori-

dorunun inkişafı sazişi turizm sahəsində də yenidən oyanışa səbəb oldu [153, s.213]. Bu istiqamətdə əldə olunan imkanlar Azərbaycan-Türkiyə əlaqələrinin məzmununa öz təsirini göstərmişdir. 9 fevral 1994-cü ildə prezident H.Ə.Əliyev tərəfindən Ankarada Azərbaycan və Türkiyə arasında elmi-texniki, sosial, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş imzalanmışdır. Bu müqavilə ölkələr arasında yuxarıda göstərilən sahələrdəki əlaqələrdə baza rolunu oynamaqla yanaşı, intensiv beynəlxalq turizm əlaqələrinin inkişafını da təmin etmişdir [153, s.213]. Nəticədə 1994-cü ildə Azərbaycana gəlmiş turistlərin sayına nəzər saldıqda görünür ki, Türkiyə ilə Azərbaycan arasında turist axını İrandan sonra ikinci yerdə durmuşdur ki, bunun da əsasını ticarət turizmi təşkil etmişdir [2, v.34]. Göstərilən illərdə Azərbaycan ilə Türkiyə arasında turizm sahəsində əməkdaşlıq həm də QDİƏT çərçivəsində həyata keçirilmişdir və keçirilir. Bu istiqamətdə QDİƏT tərkibində yaradılmış işçi qrupunun rolu az olmamışdı. QDİƏT-nin turizm üzrə işçi qrupunun ilk iclası Azərbaycan nümayəndələrinin iştirakı ilə 25-27 oktyabr 1994-cü ildə İzmirdə keçirilmişdir [53, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında beynəlxalq turizm əlaqələri"]. QDİƏT-nin turizm üzrə ikinci işçi iclası 20-21 noyabr 1997-ci ildə Rumıniyada, üçüncü iclası 23-24 iyun 1998-ci ildə Sofiyada keçirilmişdir. Bu iclaslarda Azərbaycanın turizm potensialı yüksək qiymətləndirilmişdi. Azərbaycan da Türkiyə kimi ÜTT və UNESCO-nun "İpək yolu" layihəsinin üzvüdür. "İpək Yolu" marşrutunun öyrənilməsində Türkiyənin çoxillik təcrübəsi onun turizm infrastrukturunun inkişafına imkan vermiş və tarixi abidələrin bərpası nəticəsində turist axını artmışdı. Türkiyə ilə bu təşkilatlarda birgə iştirak və onun təcrübəsindən istifadə iki ölkə arasında turizm sahəsində müqaviləyə uyğun olaraq Azərbaycana turist cəlbi üçün imkanlar açmışdı. Bu yolla 1991-2001-ci illər ərzində Azərbaycandan Türkiyəyə gedən turistlər Türkiyədən Azərbaycana gələn turistlərə nisbətən çoxluq təşkil etmişdi [2, v.14-27]. Buna baxmayaraq, 1995-ci ildə Azərbaycan və

Türkiyə arasında turist axını İrandan sonra ikinci yerdə dursa da, kəskin azalma (1994-cü ildə 591 nəfər idisə, 1995-ci ildə 132 nəfərə enmişdi) hiss edilir [2, v.26.]. 1995-ci ildə Azərbaycandan xaricə gedən turistlərin sayı barədə ölkələr üzrə statistik məlumat verilməmişdir, yəni ümumi məlumat verilmişdir ki, bu da 68788 nəfər təşkil edir [2, v.28]. Bu sırada Azərbaycandan Türkiyəyə gedən turistlərin sayı çoxluq təşkil etmişdir ki, bu da əsasən ticarət məqsədilə edilən turist səfərləri hesabına olmuşdu. Bu səfərlər digər illərdə də həyata keçirilmişdir. Məsələn, 1996-cı ildə Türkiyədən Azərbaycana gələn turistlərin sayı 1887 nəfər, Azərbaycandan Türkiyəyə gedən turistlərin sayı isə 18832 nəfər olmuşdur. Türkiyədən Azərbaycana gələn turistlərin sayı 1997-ci ildə 2439 nəfər, 1998-ci ildə 776 nəfər, 1999-cu ildə 10390 nəfər (digər ölkələrlə birlikdə), 2001-ci ildə 8493 nəfər olmuşdusa, Azərbaycandan Türkiyəyə gedənlərin sayı 1997-ci ildə 2439 nəfər, 1998-ci ildə 9968 nəfər, 1999-cu ildə 47056 nəfər, 2000-ci ildə 70191 nəfər, 2001-ci ildə 52156 nəfər təşkil etmişdir. 1994-1998-ci illərdə ölkəmizə Türkiyədən 5825 turist gəlmişdir ki, bu da Azərbaycana gələn turistlərin cəmisi 3%-ni təşkil etmişdir [2]. Yenə həmin illərdə ölkəmizdən Türkiyəyə 42132 turist getmişdir ki, bu da ümumilikdə Azərbaycandan gedən turistlərin 12 %-ni təşkil etmişdir [2]. Yuxarıdakı statistik göstəricilərdən də göründüyü kimi, iki ölkə arasında 1992-ci il noyabrın 2-də bağlanmış turizm sahəsində əməkdaşlıq haqqında sazişin verdiyi imkandan zəngin turizm potensialı olan Azərbaycan turizmi lazımınca yararlanmamışdır.

Göstərilən illərdə Azərbaycanla Türkiyə arasında beynəlxalq əlaqələrin, o cümlədən turizm sahəsində əlaqələrin inkişafına prezident H.Ə.Əliyevin 2001-ci il 18 aprel fərmanı ilə yaradılmış Gənclər, İdman və Turizm Nazirliyi Azərbaycanda turizmin inkişafı üçün güclü təkan vermişdir [53, v.26]. Onun səriştəli işi nəticəsində ölkəmizin Türkiyə ilə turizm sahəsində əlaqələri hər iki ölkənin milli maraqlarına uyğun olaraq daha da genişlənməyə başlamışdı. Ilk növbədə kadr məsələləri ciddi surət-

də gündəmə gətirilmişdi. Türkiyənin turizm nümayəndəliyi, habelə TİKA-nın təşəbbüsü və yardımı ilə iki ölkə arasında müqavilənin turizm təhsili haqqında bəndinə əsasən 2001-ci ilin sentyabr ayında 4 nəfər və 26 noyabr–6 dekabr tarixində 26 nəfər turizm sektorunda çalışan və təhsil alan tələbələr üçün Kəmərdə "İşbaşı tədris kursları" təşkil olunmuşdu [53, v.29]. Ön büro, mətbəx xidməti və yemək-içmək servisi sahələri üzrə keçirilən kurslar çox yüksək səviyyədə təşkil olunmuş və təcrübəli müəllimlər tərəfindən tədris olunmuşdu. Azərbaycan nümayəndələrinin həmin kurslarda hotelçilik və turizm sahəsində qazandığı geniş bilik turizm sektorunun inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdi. "İşbaşı tədris kursları"nı bitirmiş hər bir nümayəndə üzvünə xüsusi sertifikat verilmişdir [69, v.34].

Respublikamızın Turizm Nazirliyi öz fəaliyyətində Türkiyə Turizm Nazirliyi, TİKA (Türk İqtisadi Kalkınma Agentliyi) və TÜRSAB (Türkiyə Sənayeçilər Birliyi) ilə sıx əməkdaşlıq yaratmış, bunun da nəticəsində respublikamızın Turizm Baş İdarəsinin iki əməkdaşı Türkiyə Turizm Nazirliyində on günlük təcrübə keçmişdir [69, v.43]. 2002-ci ilin mayında ölkəmizdə fəaliyyət göstərən turizm şirkətlərində və mehmanxanalarda çalışanlardan ibarət yeni beş nəfərlik qrup Antalyada tədris kurslarında iştirak etmişdir [69, v.51]. Bundan əlavə mütəmadi olaraq TİKA və Turizm Nazirliyi ilə əlaqə saxlanılmış və birgə əməkdaşlıq haqqında müzakirələr aparılmışdır. Turizm Nazirliyi və Turizm Sənayesinin İnkişafı İttifaqının fəal dəstəyi və iştirakı İTE Group Pls və onun Azərbaycandakı partnyoru İteka Kaspian LTD şirkətinin təşkilatçılığı ilə 2002-ci il mayın 29-31-i tarixində Bakıda I Azərbaycan Beynəlxalq Turizm Sərgisi keçirilmişdir. Bu sərgi Azərbaycanın turizm potensialının təbliği baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Həmin sərgidə Türkiyə Turizm Nazirliyi əvəzsiz ayrıca stendlə təmsil olunmuşdur [213; 226]. Bundan başqa, QDİƏT çərçivəsində 2002-ci il martın 5-6-da İstanbulda keçirilən turizm üzrə işçi qrupun iclasında Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir [69, v.53-55].

Azərbaycan-Türkiyə beynəlxalq turizm əlaqələrinin təkmilləşməsi işinə hər iki dövlətin turizm təşkilatlarının qarşılıqlı səfərlərinin də əhəmiyyəti çox böyükdür. Bu istiqamətdə Türkiyə Turizm Nazirliyinin dəvəti ilə ölkəmizin turizm nazirliyinin nümayəndə heyətinin 15-18 avqust 2002-ci ildə Türkiyədə rəsmi səfərdə olması yüksək dərəcədə əhəmiyyətli olmuşdur [69, v.47]. Bu səfər zamanı bizim nazirliyin iki ölkə arasında turizm əlaqələrinin inkişafı ilə bağlı 21 bənddən ibarət təqdim etdiyi təklifləri Azərbaycan turizmini Türkiyədə təbliğ etməsi üçün ciddi siyasi sənəddir və o, Türkiyənin turizm mövzusunda yazan mətbuat nümayəndələrinin güclü marağına səbəb olmuşdur. Bunun ardınca onların 2003-cü ilin əvvəllərində Azərbaycana dəvət olunması və s. həmin istiqamətdə atılan lazımlı addımlardan idı.

Bu istiqamətdə mərhum prezident H.Ə.Əliyevin 27 avqust 2002-ci il sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" və onun həyata keçirilməsi tədbirlərinin təsdiq edilməsi Azərbaycan-Türkiyə arasında beynəlxalq turizm istiqamətində atılan ən mühüm addımlardan biri olmuşdu. Bu sənəd və beynəlxalq turizmə belə yüksək münasibət şübhəsiz ki, Azərbaycanın dünya turizm, o cümlədən Türkiyə beynəlxalq turizm sistemində öz layiqli yerini tutması üçün vacib siyasi bazis idi [194, s.18-31]. Həmin siyasi addımın arxasınca 22-24 noyabr 2002-ci ildə Beynəlxalq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən Kappadokiyada keçirilən "Turizmdə insan ehtiyatları ilə bağlı hədəflər və siyasət" mövzusunda keçirilən beynəlxalq konfransda Turizm Nazirliyinin əməkdaşlarının iştirakı da səmərəli olmuşdur [69, "Türkiyə 2002-2003", v.64]. Bu tədbirlər birtərəfli olmamışdı. Onlar bir qayda olaraq ikitərəfli əsasda həyata keçirilmişdi. Bu baxımdan həmin illərdə TÜRSAB nümayəndə heyətinin 12-15 dekabr 2002-ci ildə ölkəmizə rəsmi səfəri də maraqlı olmuşdur. Səfər çərçivəsində Türk Əməkdaşlıq və İnkişaf Agentliyi tərəfindən təqdim olunan yeni "Turizm peşə ixtisasının tədris proqramı"nda Azərbaycanın turizm sektoru üçün kadr hazırlan-

masını nəzərə alaraq Turizm Nazirliyi bir sıra ixtisaslar üzrə kursların keçirilməsi ilə bağlı təkliflər hazırlayıb Türkiyənın Baş Nazirliyinin, Türkiyə İş Birliyi və İnkişaf Agentliyinin Bakı proqram koordinatoruna təqdim etmişdi [69, v.59]. Bunun ardınca 22 fevral–2 mart 2003-cü ildə İstanbulda MTE–2003 Beynəlxalq Ağdəniz Turizm Sərgisi keçirilmişdi. Bu sərgidə ölkəmiz əvəzsiz ayrıca stendlə təmsil olunmuşdu [69, v.67]. Bu sərgidən sonra AİTF-2003 II ABTS-i 12-19 aprel 2003-cü ildə Bakıda keçirilmişdir. Bu sərgidə Türkiyə Turizm Nazirliyi yenə ayrıca stendlə təmsil olunmuşdu [227]. Yuxarıda göstərilən hər iki ölkənin müvafiq nazirlikləri və TİKA arasında əldə olunmuş razılığa əsasən Türkiyədən dəvət olunmuş mütəxəssislər tərəfindən 2004-cü il iyunun 22-dən-iyulun 2-dək ölkəmizin turizm sektorunda çalışan mütəxəssislər üçün Bakıda mehmanxana, turizm agentliyi və yemək-içmək servisi üzrə tədris kursları keçirilmişdi. Kursları müvəffəqiyyətlə tamamlayan 90 nəfər iştirakçıya müvafiq sertifikatlar verilmişdi [70, v.55]. Bu faktlar göstərir ki, iqtisadiyyatın aparıcı sahələrindən biri olan turizm sahəsində əməkdaşlıq nazirlik yaradılandan sonra yüksələn xətlə inkişaf etmişdi. Qeyd etmək lazımdır ki, 2003-cü ilin 27 fevral-2 mart, 2004-cü ilin 26-29 fevral və 2005-ci ilin 24-27 fevral tarixlərində İstanbulda keçirilmiş beynəlxalq turizm sərgilərində Azərbaycan Respublikası Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmiş və bu sərgilərdə ölkəmizin turizm imkanları geniş nümayiş olunmuşdur [70, v.61]. Həmin ildən sonra da belə tədbirlər-sərgilər davam etdirilmiş və o tədbirlərdə Türkiyə tərəfi də daha geniş stendlə təmsil olunmuşdur. Bu sərgilərin Azərbaycanda keçirilməsi təbii ki, həm turizm potensialının təbliğinə imkan vermiş, həm də turist sənayesinə sərmayə qoymaq üçün xarici turist şirkətlərinin diqqətini cəlb etmişdir. Bu sahədə əməkdaşlığın davam etdirilməsində hər iki ölkənin Turizm Nazirliklərinin “Babaların tarixi zəfər və şəhadət yolu” adlı birgə beynəlxalq turizm marşrutunun hazırlaması az rol oynamamışdı [70, v.44, 57, 70]. Həmin layihənin məqsədi 1918-ci il erməni işğal-

çılarının soyqırımına məruz qalmış Azərbaycan xalqının köməyinə gələn Nuru paşanın rəhbərliyi ilə qəhrəman türk ordu hissələrinin keçdiyi tarixi yolun iki qardaş xalqın yaddaşında qalmasını, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını və bunun bir beynəlxalq marşruta çevrilməsini təmin etməkdən ibarət olmuşdur. Qeyd olunan layihə 13-14 aprel 2005-ci ildə Ankarada keçirilmiş Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiyanın III iclasında da müzakirə edilərək protokola salınmışdır [37, v.53]. Marşrutun əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin tapşırığına əsasən yaradılmış Gənclər, İdman və Turizm Nazirliyinin, ATSİİ-nin, Milli Elmlər Akademiyasının, Təhsil, Mədəniyyət və Müdafiə Nazirliklərinin nümayəndələrindən ibarət işçi qrupu layihənin Azərbaycan hissəsində müvafiq hazırlıq işlərini tamamlaması ilə əlaqədar Azərbaycan və Türkiyə Respublikası nümayəndələrinin iştirakı ilə infotur keçirmişdi.

2005-ci il iyunun 1-3-də ÜTT və Türkiyə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən İstanbulda keçirilən "Şəhər turizmində idarəçiliyin yeni nümunələri" adlı beynəlxalq konfransda və 2005-ci il iyunun 6-16-da Kəmərdə keçirilən "İctimai davranışlar seminarı və yemək-içmək xidməti tətbiqi tədris"i kursunda respublikamızın Turizm Nazirliyinin də 11 nümayəndəsi iştirak etmişdir. Azərbaycan Respublikasının turizm naziri 21-25 iyun 2005-ci ildə Türkiyəyə və 27-28 iyun 2005-ci ildə İsrailə işgüzar səfərlər etmişdi [37, v.59]. Qardaş Türkiyəyə səfərin əsas məqsədi ölkəmizdə turizm sahəsində surətli inkişafın, yeni istirahət zonalarının, mehmanxanaların və digər turizm obyektlərinin tikintisi, regionlarda infrastrukturun qurulması və bu sahədə digər müsbət dəyişikliklərin baş verməsi və beləliklə, turizm sənayesinə investisiya qoyuluşu üçün müsbət şəraitin formalaşması haqqında Türkiyədə bu sahədə çalışan iş adamlarına geniş məlumat vermək və şirkətləri gələcəkdə ölkəmizdə fəaliyyət göstərməyə təşviq etmək idi. Bunun ardınca Azərbaycan Respublikasında inşa ediləcək yeni mehmanxanaların

müasir dünya tələblərinə uyğun tikilməsi məqsədilə texniki yardım göstərilməsi üçün Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin iki aparıcı memarı Azərbaycan Respublikası Turizm Nazirliyinin dəvəti ilə ölkəmizə səfər etmişdilər. Bundan başqa, 2006-2015-ci illərdə ölkəmizdə turizmin inkişafı üçün dövlət proqramlarının hazırlanması üzrə yaradılacaq işçi qrupunda çalışmaq üçün Türkiyədən iki mütəxəssis dəvət edilmişdi. Yeri gəlmişkən qeyd edək ki, artıq bu gün Azərbaycandan Türkiyəyə turist göndərən lisenziya almış 11 əsas turist şirkəti fəaliyyət göstərir [53, v.72]. Bütün bu yuxarıdakı faktlara əsaslanaraq deyə bilərik ki, Azərbaycanla Türkiyə arasında beynəlxalq turizmin müxtəlif sahələrində əməkdaşlıq dövlətin bu sahədə yeritdiyi siyasət nəticəsində yeni forma və xarakter alaraq inkişaf etmişdir. Buna son illərdə Türkiyə iş adamlarının ölkəmizin turizm sektorunda, o cümlədən mehmanxana biznesində fəaliyyətinin genişlənməsi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Bakıda nümayəndəsinin olması əyani sübutdur. Göründüyü kimi, 1991-2005-ci illərdə Azərbaycan-Türkiyə beynəlxalq turizm əlaqələri çox əhəmiyyətli dərəcədə inkişaf etmiş və bu istiqamətdə lazımi tarixi təcrübə toplanılmışdır. Bu yöndə həyata keçirilən beynəlxalq turizm əlaqələrinin köməyi ilə hər iki qardaş ölkənin xalqları biri-birilərini daha yaxşı tanımaq, qardaş ölkənin tarixini öyrənmək imkanı əldə etmiş, elmi-texniki inkişafın nailiyyətləri sahəsində bilgilər qazanmış, onlar arasında ticarət əlaqələri canlanmış və bunlar hamısı birlikdə yeni iş yerlərinin yaranmasına səbəb olmuşdur. Beynəlxalq turist mübadiləsi nəticəsində iki qardaş xalq arasında günü-gündən artan inam və qarşılıqlı anlaşma onların dostluğunu möhkəmləndirir, onlar arasında neqativ halların qarşısını alır.

Beləliklə, Azərbaycan-Türkiyə arasında 1991-2005-ci illərdə həyata keçirilən beynəlxalq turizm əlaqələrinin qısa məzmun və göstəriciləri belə olmuşdur. Hal-hazırda bu əlaqələr öz yeni mərhələsində olub, yeni məzmunda həyata keçirilməkdədir.

SSRİ-nin süqutu nəticəsində müstəqillik qazanmış respubli-

kalarla-MDB ölkələri ilə Azərbaycanın beynəlxalq turizm əlaqələrinin tarixi də kifayət qədər maraqlıdır. Məlumdur ki, Azərbaycan Respublikası 1993-cü il sentyabrın 24-də MDB-yə daxil oldu və bunun nəticəsində əldə edilən imkanlar ölkəmizin həmin ölkələrlə əlaqələrinin məzmununa da öz müsbət təsirini göstərdi [153, s.158]. Bu isə təsadüfi deyildir. Ona görə ki, MDB birliyi Azərbaycan Respublikasının turizm əlaqələri sahəsində böyük keçmişi olan ölkələrdən ibarətdir. Eyni zamanda, həm də MDB-ni təşkil edən ölkələrdə çoxlu sayda etnik azərbaycanlıların yaşadıqlarını nəzərdən qaçırmamaq lazımdır. Məhz buna görə də ölkəmizin xarici siyasətində MDB ölkələri ilə, xüsusilə azərbaycanlıların daha çox yaşadığı respublikalar ilə hərtərəfli əlaqələrin qurulub inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilmişdir. Bu istiqamətdə tədqiqat dövründə Azərbaycan Respublikası və MDB ölkələri dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri və həmin səfərlər zamanı çoxlu miqdarda dövlətlərarası və hökumətlərarası müqavilələrin imzalanması beynəlxalq əlaqələrimizdə az rol oynamamışdır. Həmin dövrdə müxtəlif sahələrdə saziş və müqavilələrin imzalanması ilə yanaşı, ölkələr arasında turizmin əhəmiyyəti nəzərə alınaraq bu sahədə də müqavilələr, sazişlər, protokollar və digər sənədlər imzalanmışdır. Məhz bu addımlar da Azərbaycan Respublikası ilə MDB ölkələri arasında beynəlxalq turizm sahəsində hərtərəfli əməkdaşlığın inkişafı üçün hüquqi bazanı formalaşdırmışdır. Bu baxımdan respublikamız üçün MDB ölkələri ilə turizm əlaqələrinin genişləndirilib inkişaf etdirilməsi təbii xarakter daşıyırdı. Göstərilən illərdə Azərbaycan Respublikası ilə MDB ölkələri arasında beynəlxalq turizm əlaqələrinin inkişafında Gənclər, İdman və Turizm Nazirliyi mühüm rol oynamışdır. Onun səriştəli işi nəticəsində ölkəmizin MDB ölkələri ilə turizm sahəsində əlaqələri milli maraqlarımıza uyğun olaraq daha da genişlənməyə başlamışdır.

MDB ölkələri ilə Azərbaycan Respublikasının turizm əlaqələrində əsas yerlərdən birini 2002-ci ildən ölkəmizdə hər il keçirilən beynəlxalq turizm sərgiləri və eyni zamanda, MDB ölkələ-

rində keçirilən eyni xarakterli tədbirlər olmuşdur. Qeyd etmək lazımdır ki, qarşılıqlı olaraq təşkil olunmuş bu turizm sərgilərində iştirak respublikamızın beynəlxalq turizm əlaqələrinin inkişafında, ölkəmizin turizm potensialının təbliğində əvzedilməz rol oynamışdır. Şübhəsiz ki, bu da öz əksini təcrübədə də tapmışdır. Odur ki, 1991-2005-ci illərdə ölkəmizə gələn turistlərin böyük əksəriyyətini MDB ölkələrinin sakinləri təşkil etmişdir. Buna misal olaraq aşağıdakı rəqəmləri göstərmək olar. Əgər 1997-ci ildə MDB ölkələrindən respublikamıza 132 min nəfər gəlmişdirsə, 2000-ci ildə bu rəqəm 2,6 dəfə artaraq 346,5 min, 2004-cü ildə isə 586,5 min nəfərə çatmışdır [175, s.505-506]. MDB ölkələrindən Azərbaycan Respublikasına gələnlərin böyük əksəriyyətini Rusiya, Ukrayna, Orta Asiya Respublikaları və Gürcüstanda yaşayan azərbaycanlılar təşkil etmişdir.

Prezident H.Ə.Əliyevin 27 avqust 2002-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət proqramı" və onun həyata keçirilməsi tədbirlərinin təsdiq edilməsi Azərbaycan-MDB ölkələri arasında beynəlxalq turizm əlaqələrini inkişaf etdirmək istiqamətində atılan ən mühüm addımlardan biri olmuşdur. Bu sənəd və beynəlxalq turizmə belə yüksək və ciddi münasibət şübhəsiz ki, Azərbaycan Respublikasında dünya turizm, o cümlədən MDB ölkələri ilə beynəlxalq turizm əlaqələrində öz layiqli yerini tutması üçün vacib siyasi bazis idi.

Göstərilən illərdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında yaranmış beynəlxalq turizm əlaqələri daha geniş olmuşdu. Belə ki, ölkəmizlə Rusiya arasında turizm əlaqələri həm də Moskva hökuməti və Rusiyanın bölgələri arasında yaranmışdı. 10 avqust 1993-cü ildə Azərbaycan ilə Moskva şəhər hökuməti arasında iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş imzalanmışdır [25, v.5]. 1996-cı il yanvarın 18-də Moskvada imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2000-ci ilə qədər olan dövrdə iqtisadi əməkdaşlığın əsas prinsip-

ləri və istiqamətləri haqqında saziş"in 15-ci maddəsinə əsasən tərəflər müxtəlif sahələrlə yanaşı turizm və idman sahəsində də qarşılıqlı münasibətlərin təmin olunmasında birgə tədbirlər görməliydilər [25, v.10]. Bununla yanaşı sazişin 11-ci bəndi "Gənclik" beynəlxalq turizm mərkəzi ilə əlaqədar olmuşdu. Bu saziş 13 iyun 1997-ci ildə Azərbaycan ilə Moskva Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş imzalanana qədər qüvvədə olmuşdu (13 iyun 1997-ci ildə imzalanmış sazişin 19-cu maddəsinə əsasən) [25, v.10]. 13 iyun 1997-ci ildə imzalanmış sazişin 5-ci və 10-cu maddələri tərəflər arasında turizm sahəsində əməkdaşlığın dəstəklənməsini və inkişaf etdirilməsini nəzərdə tuturdu. Bu əlaqələrin inkişafında şübhəsiz ki, iki ölkə arasında saxlanılan geniş siyasi əlaqələrin də rolu həlledici olmuşdu. Bu baxımdan 2001-ci ilin yanvarında Rusiya prezidentinin Azərbaycan Respublikasına ilk rəsmi səfəri və 2002-ci ilin yanvarında Azərbaycan Respublikası prezidentinin Rusiyaya səfəri Azərbaycan-Rusiya dövlətlərarası münasibətlərinin tarixində mühüm hadisələr olmuşdu. Bu səfərlər zamanı imzalanmış sənədlər ölkələrimiz, dövlətlərimiz arasında keyfiyyətcə yeni qarşılıqlı münasibətlərin etibarlı bünövrəsini qoymuşdu.

Azərbaycan Respublikası ilə Rusiya arasında turizm əlaqələrinin möhkəmlənib inkişaf etməsində iki ölkə arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın rolu da böyük olmuşdu. Bu barədə faktlar az deyil. Məsələn, 2001-ci il aprelin 24-də, habelə 2002-ci il aprelin 10-da Bakıda keçirilmiş Azərbaycan-Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci və 6-cı iclas protokolunda, həm də komissiya həmsədrlərinin 19 dekabr 2002-ci il görüş protokolunda turizm sahəsində əməkdaşlığa xüsusi diqqət yetirilmişdi [31, v.76]. Bu sahədə ölkəmiz ilə Rusiya arasında hər iki tərəfin turizm potensialının qarşılıqlı olaraq tanıdılması, turist məhsullarının təklifi və yenə də turizm əlaqələrinin genişlənməsi istiqamətində hər iki ölkədə təşkil olunmuş turizm sərgilərinin əhəmiyyəti az ol-

mamışdı. Azərbaycan Respublikası və Rusiya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 10 aprel 2002-ci il tarixli 6-cı iclasının protokolunun icrası ilə bağlı ölkəmizin Turizm Nazirliyi 27-30 mart 2002-ci ildə Moskvada keçirilən beynəlxalq "Səyahət və turizm sərgisi"ndə Azərbaycan Respublikasını 24 kvadrat metr stendlə təmsil etmişdi [87]. Bu sərgidə Azərbaycandan dörd mehmanxana kompleksi və doqquz özəl turist şirkəti iştirak edirdi [75, v.27]. Diqqəti cəlb edən əsas fərq isə milli ənənələrə uyğun stendlər, bukletlərin sərgiyə aparılması idı. Bu sərgidə iştirak edən Azərbaycan turist şirkətlərindən bir neçəsi Rusiya turist şirkətləri ilə ikitərəfli müqavilələr də bağlamışdı. Təbii ki, bu müqavilələr, sərgidə iştirak və bir sıra başqa işlər Azərbaycan Respublikasının turizm potensialının tanıdılması və turist cəlbi üçün mühüm işlər hesab olunmalıdır.

Göstərilən illərdə Rusiya ilə Azərbaycan Respublikası arasında müalicə turizmi sahəsində də beynəlxalq əlaqələr mövcud olmuşdu. Sovetlər Birliyi dövründə sıx münasibətləri qurulan Şimali Qafqazın istirahət və müalicə mərkəzlərinə 1991-1998-ci illərdə Azərbaycan Respublikasından turist sovet dövrü ilə müqayisədə az getsə də əlaqələr tam qırılmamışdı. Bu, hər iki tərəfin bazar iqtisadiyyatına keçidindən irəli gələn çətinliklə bağlı idi. "Fərid-N" turist şirkəti 12 avqust 2002-ci ildə Bakı-Mineralnı Vodı turist marşrutu təşkil etmişdi (Stavropol-Krasnodar) [33, v.11]. Ümumiyyətlə, lap yaxın keçmişdə ölkəmizə dincəlməyə gələnlərin 70-80 faizini Rusiyadan olan turistlər təşkil edirdilər. Bu turizm əlaqələrində əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən qurumlar-lisenziya almış turist şirkətlərindən "İmproteks travel" və "Yevroturizm" şirkətləri olmuşdu. Həmin şirkətlər geniş turist mübadiləsi həyata keçirməyə çalışırdılar.

2003-cü ilin MDB ölkələrində Sankt-Peterburq ili elan edilməsi ilə bağlı Azərbaycan Respublikasının Turizm Nazirliyi xüsusi tədbirlər planı (14) hazırlamış və yerinə yetirmişdi [75, v.17]. O cümlədən, 2003-cü il avqustun 7-də Bakıda "Böyük Volqa yolu" beynəlxalq konfransının iştirakçıları və 2003-cü il

sentyabrın 19-da Bakıda ümumdünya rus mətbuatı konqresinin iştirakçıları üçün ölkəmizin Turizm Nazirliyi tərəfindən ekskursiya proqramı tərtib edilib həyata keçirilmişdi [32, v.21].

2003-cü ildə MDB ölkələrinin turizm üzrə əsas iki tədbiri keçirilmişdi [63, "MDB ilə əlaqələr haqqında arayış"]. Birliyə daxil olan dövlətlərin milli turizm qurumlarının 25 mart 2003-cü ildə Moskvada növbəti görüşü olmuşdu. Görüşdə 13 oktyabr 2000-ci ildən keçirilmiş iclaslar, görülən işlərin hesabatı, növbəti iki illik dövrdə turizm üzrə təmsilçi şuraya seçkilər, MDB-yə üzv olan ölkələrin milli turizm qurumlarının beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığını fəallaşdırmaq, 2003-cü ildə turizm üzrə şuranın iş planını müzakirə etmək məsələlərinə baxılmışdı. Milli turizm qurumlarının 10-12 oktyabr 2003-cü ildə turizm üzrə Kişinyovda keçirilən görüşündə isə turizm sahəsində vahid hüquqi-normativ bazanın yaradılması, maddi-texniki bazanın təkmilləşdirilməsi, investisiya siyasəti və turizm infrastrukturlarının yenidən bərpası və tikintisi, milli turizm məhsulunun reklamı məqsədilə MDB ölkələri ərazisində turizm nümayəndəliklərinin yaradılması mümkünlüyünün araşdırılması, 2004-cü ildə turizm şurası iş planı layihəsinin müzakirələri keçirilmişdi.

Bütün təşkilatlarda olduğu kimi, ermənilər MDB-də də Azərbaycan Respublikasına qarşı yalan və böhtan kampaniyası apardıqları üçün respublikamızın gənclər, idman və turizm naziri Ə.Qarayev turizm sahəsində əməkdaşlıq haqqında sazişə üzv dövlətlərin katibi V.İ.Çıbuxa MDB-yə üzv dövlətlərin bəzilərinin turizmə aid internet səhifələrində Dağlıq Qarabağda turizmin inkişafına dair məlumatlar getdiyini bildirmişdi [63, v.8]. Nazir misal olaraq Ukrayna turist şəbəkəsi (www/ukrtravel.net) saytında ayrıca «Новости туризма» adı altında 18 oktyabr 2004-cü ildə turizm və turizmə aid Dağlıq Qarabağda qanun layihəsinin hazırlanması haqqında məlumatın verildiyini, həqiqətdə isə dünyada Dağlıq Qarabağ adlı heç bir siyasi qurumun olmadığını, Azərbaycan Respublikasının turizmə aid 1999-cu ildə qanun qə-

bul etdiyini və bütün Azərbaycan Respublikası ərazisində bu qanunun keçərli olduğunu, bu səhvin düzəldilməsinin vacibliyini bildirmişdi.

Rusiya ilə Azərbaycan Respublikası arasında turizm əlaqələri həmçinin hər iki ölkənin üzv olduğu QDİƏT-də də davam etdirilmişdi. Belə ki, 25-26 sentyabr 2003-cü ildə Bakıda keçirilən "QDİƏT regionunda turizm imkanları" beynəlxalq konfransında Rusiyanın İqtisadi İnkişaf və Ticarət Nazirliyinin Turizm Departamentinin nümayəndəsi iştirak etmişdi. Azərbaycan-Rusiya beynəlxalq turizm əlaqələrinin inkişafı baxımından aşağıda adları çəkilən tədbirlərin də böyük əhəmiyyəti olmuşdur. Məsələn, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının 7 aprel 2004-cü ildə Bakıda keçirilmiş 8-ci və 14 fevral 2005-ci ildə Moskvada keçirilmiş 9-cu iclaslarının protokollarında da iki ölkə arasında turizm əlaqələrinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdu [33, v.13]. Belə ki, 8-10 aprel 2004-cü ildə Bakıda keçirilmiş "AİTF-2004" III ABTS-də Rusiyada fəaliyyət göstərən 6 turizm şirkəti və Dağıstan Turizm Nazirliyinin nümayəndə heyəti, 24-27 may 2004-cü ildə isə Moskvada keçirilmiş "MİTT-2004" Beynəlxalq Turizm Sərgisində respublikamızın Turizm Nazirliyinin nümayəndə heyəti və ölkəmizin üç turist şirkəti iştirak etmişdi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə Rusiya arasında vizasız gediş-gəliş daim davam etmişdi.

Azərbaycan Respublikası ilə Rusiya arasında turizm əlaqələrinin təkmilləşməsi işinə hər iki dövlətin turizm təşkilatları rəhbərlərinin qarşılıqlı səfərlərinin də əhəmiyyəti böyük olmuşdu. Bu istiqamətdə 27-29 iyul 2004-cü ildə Rusiyanın Stavropol vilayətinin iqtisadi inkişaf və ticarət nazirinin birinci müavininin başçılıq etdiyi və Qafqaz mineral suları regionunun Pyatiqorsk, Kislovodsk və Yessentuki şəhərlərinin sanatoriya rəhbərlərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdə olmuş və onlarla ölkəmizdə fəaliyyət göstərən turizm şirkətlərinin nümayəndələri arasında işgüzar görüşlər keçirilmiş və turist mübadiləsi ilə bağlı

müvafiq müqavilələr bağlanmışdı. Bundan başqa Azərbaycan Respublikasının turizm və kurort-sağlamlıq potensialı, o cümlədən investisiya layihələri haqqında məlumat Moskva şəhər Turizm Komitəsinə göndərilmişdi. Eyni zamanda qeyd etmək lazımdır ki, 2005-ci il Rusiyada Azərbaycan ili elan olunmuşdu. Bununla əlaqədar 2005-ci ilin may-iyun aylarında respublikamızın Turizm Nazirliyi tərəfindən Tambov, Stavropol, Yekaterinburq, Nijni-Novqorod, İvanovo və Samara şəhərlərində "Azərbaycanın regionları" adlı turizm təqdimat sərgiləri keçirilmişdi [75, v.19]. Sərgilər çərçivəsində turist şirkətləri və kütləvi informasiya vasitələri üçün mətbuat konfransları da təşkil edilmişdi. Bu görüşlərdə Azərbaycan turizmi ilə bağlı reklam çarxı nümayiş etdirilmiş, reklam-çap məhsulları maraqlı tərəflərə paylanılmışdı. Ümumrusiya Azərbaycan Konqresinin təşəbbüsü ilə Moskvada keçirilmiş dəyirmi masada ölkəmizin Turizm Nazirliyinin nümayəndəsi iştirak etmişdi. Onun arxasınca 2005-ci ilin 14-16 iyununda Sankt-Peterburqda keçirilən 9-cu Peterburq Beynəlxalq İqtisadi Forumunda ölkəmizin turizm nazirliyinin nümayəndə heyəti iştirak etmişdi. 15-20 oktyabr 2005-ci ildə Rusiyada fəaliyyət göstərən "AZTUR" və Azərbaycanda fəaliyyət göstərən "STİ" turizm şirkətləri Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri üçün Azərbaycanın turizm potensialını tanış etmək məqsədi ilə press-info tur təşkil etmişlər. Göstərilmişdir ki, Azərbaycanda fəaliyyət göstərən "İmproteks Travel", "AİT Travel", "Yevroturizm" turist şirkətləri Rusiya ilə turist mübadiləsi aparırlar [32, v.51].

Həmin dövrdə Azərbaycan və Rusiya hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması da bu sahədə görülmüş işlərin inkişafına imkan vermişdi. Tədqiqat dövründə, təkcə istirahət mövsümü ərəfəsində Nabran istirahət zonasına gələnlərin 10-15 faizini Rusiya vətəndaşları təşkil etmişdi. Azərbaycana gələnlərə dair statistik məlumatlardan da görünür ki, Rusiyadan gələnlərin sayının çoxalması tendensiyası vardır: Azərbaycan Respublikasına 2002-ci ildə ümumi gələn

834.351 nəfər turistdən 216.923 nəfəri (25%), 2003-cü ildə 1.013.811 nəfərindən 401.502 nəfəri (40%) və 2004-cü ildə isə 1.348.655 nəfərindən 496.050 nəfəri Rusiyadan (37%) olmuşdu [32, v.78].

Tədqiqata cəlb edilmiş dövrdə, yəni 1991-2005-ci illərdə Azərbaycan Respublikası hələ SSRİ dövründə böyük əlaqələr saxladığı Ukrayna və onun şəhər və regionları ilə də beynəlxalq turizm əlaqələrinə xüsusi diqqət yetirmişdi. Məsələn, 12 sentyabr 1997-ci ildə Bakıda imzalanmış Kiyev və Bakı arasında əməkdaşlıq müqaviləsinin 6-cı və 8-ci maddələri turizm sahəsində əməkdaşlığı nəzərdə tuturdu [72, v.7]. Bu prosesə Azərbaycan ilə Ukrayna dövlət başçılarının qarşılıqlı səfərlərinin diqqətəlayiq təsiri olmuşdu. Eyni zamanda, xeyli dövlətlərarası və hökumətlərarası müqavilələr imzalanmışdı ki, bu da iki ölkə arasında hərtərəfli əməkdaşlığın inkişafı, o cümlədən beynəlxalq turizm əlaqələri üçün hüquqi bazanı formalaşdırmışdı. Bu baxımdan Azərbaycan və Ukrayna arasında bərabərlik və qarşılıqlı fayda əsasında turizm mübadiləsinin daha da inkişaf etdirilməsi üçün hüquqi bünövrə yaratmaq istəyi ilə Bakıda 1 iyul 1999-cu ildə 8 maddədən ibarət sazişin imzalanması əhəmiyyətli olmuşdu [71, v.45]. Lakin bu saziş demək olar ki, iki ölkə arasında beynəlxalq turizm əlaqələrinin yüksək inkişafına elə də güclü təsir göstərə bilməmişdi. Lakin bu hal iki ölkənin bu istiqamətdə səylərini zəiflətməmişdi. Əksinə Azərbaycan ilə Ukrayna arasında turizm sahəsində beynəlxalq əlaqələrin genişlənib daha da inkişaf etməsi problemlərinə hər iki tərəfdə marağın artmasına təkan vermişdi. Bu məqsədlə 19 mart 2000-ci ildə Azərbaycan Respublikası ilə Ukrayna arasında 2000-2009-cu illər üçün imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq proqramında və iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın bütün iclaslarında turizmə geniş yer ayrılması öz işini görmüşdü [71, "Azərbaycan Respublikası ilə Ukrayna Respublikası arasında 2000-2009-cu illər üçün imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və bu proqramın icrası haqqında ara-

yış"]. Hər iki ölkənin milli turizm idarələrinin, turist firmaları və mehmanxanalarının təmsilçiləri 3-11 sentyabr 2001-ci ildə QDİƏT çərçivəsində Antalyada təşkil olunmuş treninq kursda iştirak etmişdilər. 2001-ci ilin martında Moskvada MDB-yə üzv ölkələrin turizm üzrə şurasının işçi iclasında hər iki ölkənin turizm idarələrinin rəhbərləri iştirak etmiş və hər iki ölkə ÜTT-nin "İpək Yolu üzrə turizm layihəsi"nin reallaşmasında iştirakı məsələsini öz üzərlərinə götürmüşdülər.

Azərbaycan Respublikası ilə Ukrayna arasında beynəlxalq turizm əlaqələri təkcə yuxarıda qeyd olunanlarla bitməmişdi. Bu əlaqələrlə bağlı olan problemlər həmçinin digər beynəlxalq və regional təşkilatların yığıncaqlarında da müzakirə edilmişdi. Məsələn, 5-6 mart 2002-ci ildə İstanbulda QDİƏT-yə üzv ölkələrin turizm sahəsində əməkdaşlıq üzrə işçi qrupunun iclasında Azərbaycan Respublikası Turizm Nazirliyinin və Ukraynanın Türkiyədəki səfirliyinin nümayəndə heyətləri iki ölkə arasında turizm sahəsində əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparmışdılar. 25-26 sentyabr 2003-cü ildə Bakıda "QDİƏT regionunda turizm imkanları" mövzusunda keçirilmiş beynəlxalq konfransda Ukrayna səfirliyinin nümayəndəsi də iştirak etmişdir. GUÖAM çərçivəsində bu təşkilata üzv olan dövlətlərlə əlaqələr qurulmuş, turizm sahəsində əməkdaşlıq üzrə sahələrarası qrupun Azərbaycan tərəfinin tərkibi təsdiq olunmuş və Ukrayna tərəfinə göndərilmişdir [71, "İqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın iclas protokolları"; 54, "GUÖAM-a üzv dövlətlərlə əlaqələrə dair məlumat"].

Mövcud tədqiqat üçün seçilmiş dövrdə - 1991-2005-ci illərdə ölkəmiz Qazaxıstan ilə də rəsmi beynəlxalq turizm əlaqələri yaradıb inkişaf etdirmişdi. Bu proses hər iki ölkə arasında 22 oktyabr 1999-cu ildə imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq tədbirləri üzrə planın mədəniyyət, elm, turizm bəndində beynəlxalq turizmin inkişaf etdirilməsi, 1999-2000-ci illərdə aviaturların təşkili, Qazaxıstan və Azərbaycanın turist nümayəndəlikləri-

nin açılmasına kömək edilməsi, turizm informasiyalarının-reklam materialları, çap nəşrləri, filmlər və sərgilərin mübadiləsinin aparılmasının daha da fəallaşmasına güclü təsir göstərmişdi [61, v.9]. Planın turizmə aid olan 5.3, 5.5 bəndlərinin icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm Şurası tərəfindən turizm saziş layihəsi və Azərbaycan haqqında məlumat göndərilmiş, ÜTT və UNESCO tərəfindən keçirilən beynəlxalq görüş və forumlarda, eləcə də MDB Turizm Şurası çərçivəsində Turizm Nazirliyinin və Qazaxıstanın Turizm və İdman üzrə Agentliyinin nümayəndələri görüşlər keçirmişdilər. 22 oktyabr 1999-cu ildə Qazaxıstanla imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq tədbirləri üzrə planına müvafiq olaraq iki ölkə arasında beynəlxalq turizm tədbirləri sonrakı illərdə də uğurla davam etdirilmişdi. Belə ki, 2003-cü il ərzində planın 5.3 bəndinin icrası tələblərinə əsasən İstanbulda, Moskvada və Londonda keçirilmiş beynəlxalq turizm sərgiləri çərçivəsində Qazaxıstanın turizm nümayəndələri ilə əlaqələr qurulmuş, iki ölkənin turizm potensialı haqqında fikir mübadiləsi aparılmış və Azərbaycan Respublikasının turizm potensialını əks etdirən çap və reklam məhsulları Qazaxıstan tərəfinə təqdim olunmuşdu. Öz növbəsində Qazax Turizm Assosiasiyası öz fəaliyyəti haqqında məlumatı elektron poçt vasitəsilə ölkəmizin Turizm Nazirliyinə göndərmişdi [61, v.14]. Azərbaycanda fəaliyyət göstərən "İmproteks Travel", "Albanavia", və "Skylife" turizm şirkətləri Qazaxıstan ilə turizm mübadiləsi aparmışdı [61, v.16]. 2003-cü ildə planın turizmə aid 5.5 bəndinin icrası ilə bağlı "AİTF-2004" 3-cü ABTS-də Qazaxıstan turizm təşkilatının iştirakı ilə bağlı qarşı tərəfə xüsusi dəvət məktubu göndərilmiş və nəticədə Qazaxıstan da bu sərgidə təmsil olunmuşdur. Ümumiyyətlə hər ilin aprel ayının ikinci həftəsində keçirilən ABTS-də Qazaxıstan təşkilatları fəal iştirak etmişdir [61, v.32]. Nəhayət Qazaxıstan ilə əlaqələrin genişləndirilməsinə diqqət yetirilməsinin nəticəsi olaraq, 1 mart 2004-cü ildə Azərbaycan və Qazaxıstan respublikalarının hökumətləri arasında mədəniyyət, elm və turizm sahəsin-

də yeni uzunmüddətli əməkdaşlıq proqramı imzalanmışdı [61, v.35]. Proqramın 4-cü bəndi iki ölkə arasında turizm əlaqələrinin inkişafını nəzərdə tutmuşdur. Buna uyğun olaraq Azərbaycan və Qazaxıstan respublikaları arasında "Azal" şirkəti tərəfindən Bakı-Aktau və "İmair" şirkəti tərəfindən Bakı-Alma-Ata istiqamətlərində birbaşa aviareyslər həyata keçirilmiş, ölkəmizin bir sıra turist şirkətləri Qazaxıstanın turist şirkətləri ilə əməkdaşlıq etmişdi. Nəticədə Qazaxıstandan Azərbaycana 2004-cü ildə 6924 nəfər, 2005-ci ilin 6 ayı ərzində 3989 nəfər turist səfər etmişdi. Bu əlaqələrin nəticəsi olaraq 24 may 2005-ci ildə yeni "Azərbaycan və Qazaxıstan hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdı [61, v.53].

Azərbaycan Respublikasının beynəlxalq turizm sahəsində əlaqələr qurduğu ölkələrdən biri də Belarus Respublikası olmuşdu. Rusiya ilə olduğu kimi Belarusiya ilə də turizm əlaqələrini inkişaf etdirmək üçün müxtəlif müqavilə, saziş, protokol imzalanmış və xüsusi hökumətlərarası komissiyanın iclasında da turizm sahəsi əsas məsələlərdən biri kimi müzakirə olunmuşdu. Nəticədə 5 noyabr 2004-cü ildə Bakıda Azərbaycan Respublikası və Belarus Hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdı [47, v.6]. Lakin təəssüflər olsun ki, bu saziş ikitərəfli turizm əlaqələrinin inkişafına lazımi təkan verə bilməmişdi.

Tədqiqat dövründə Azərbaycan Respublikası zəngin turizm potensialı olan Mərkəzi Asiya respublikaları ilə də müxtəlif əlaqələr kontekstində beynəlxalq turizm münasibətlərinin inkişafına xüsusi diqqət yetirmişdi. Belə ki, Azərbaycan və Özbəkistan respublikaları hökumətləri ölkələrimiz arasında iqtisadi, sosial və mədəni əlaqələrdə turizmin əhəmiyyətli rolunu nəzərə alaraq 1996-cı il mayın 27-də Bakıda turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalamışdılar [66, v.14]. Bu saziş iki ölkə arasında turizm əlaqələrinin genişlənməsinə şərait yaratsa da, təəssüflər olsun ki, o, həmin əlaqələrin inkişafına lazımi təkan verə bilməmişdi. Ancaq Özbəkistanda yaşayan soydaşlarımız-azər-

baycanlılar ana vətənlərinə daimi ailəvi səfərlər etmişdilər. Bundan başqa, böyük "İpək Yolu"nun bərpası ilə əlaqədar olaraq hər iki ölkə arasında turizm sahəsində canlanma yaratmaq məqsədilə turizm layihələri hazırlanmaqdadır. Məsələn, 19 ölkənin imzaladığı 1994-cü il Səmərqənd deklarasiyasından, yəni "Böyük İpək Yolu" beynəlxalq klubunun yaradılmasından sonra bu sahədə sürətli inkişaf olmasa da, müəyyən irəliləyiş müşahidə edilməkdədir [48, v.4]. "Beynəlxalq İpək Yolu"nun Azərbaycana aid olan hissəsində əsas turist məhsulu olan dağılmış və yarıdağılmış karvansaraların, ovdanların, kəhrizlərin, məscidlərin aşkar edilib gələcəkdə populyarlaşdırılması və turist marşrutlarına daxil edilməsi üçün ölkəmizin Gənclər, İdman və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu ilə yaxından əməkdaşlıq etmişdi. Birgə əməkdaşlıq nəticəsində 30-31 may 2002-ci ildə "Böyük İpək Yolu-Avrasiya mədəniyyətlərinin dialoqu" mövzusunda elmi konfrans keçirmişdi [48, v.7]. "Böyük İpək Yolu" beynəlxalq klubuna üzv dövlətlərin 16-18 oktyabr 2003-cü ildə Krımın Sudak şəhərində beynəlxalq festival-yarmarka keçirilmişdi. Forumun işinin yekunu kimi "Böyük İpək Yolu Klubu" adlı beynəlxalq ictimai təşkilatın nizamnaməsi və forum iştirakçılarının müraciəti qəbul olunmuşdu. "BİY" marşrutunun inkişaf etdirilməsi və daha çox turistlərin cəlb olunması məqsədilə 2004-cü ilin oktyabrında Səmərqənddə ÜTT-nin layihəsi çərçivəsində İpək Yolu ofisi açılmışdı [48, v.9].

1991-2005-ci illərdə Azərbaycan Respublikası Qırğızıstan, Türkmənistan, Tacikistan və Gürcüstan ilə də belə formada beynəlxalq turizm əlaqələri yaratmışdı. 23 aprel 1997-ci ildə Bakıda Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında beynəlxalq turizm sahəsində daha səmərəli ikitərəfli əməkdaşlığa yönəlmiş on maddəlik saziş bağlanmışdı [62, v.8]. Bu saziş də ikitərəfli turizm əlaqələrinin inkişafına şərait yaratsa da iki ölkə arasında beynəlxalq turizmin inkişafına kifayət qədər nəzərə çarpan təkan verməmişdi və bu günə qədər də həmin saziş de-

mək olar ki, işləmir. 1998-ci il noyabrın 9-da Azərbaycan və Gürcüstan respublikaları hökumətləri arasında bərabərlik və qarşılıqlı fayda əsasında iki ölkə arasında beynəlxalq turizmi inkişaf etdirməyə yönəlmiş qarşılıqlı marağı əsas götürərək Bakıda 12 maddədən ibarət xüsusi müqavilə imzalanmışdı [55, v.24]. Bu müqavilə də ikitərəfli turizm əlaqələrinin inkişafına təkan verməmişdi. Lakin qeyd etmək lazımdır ki, Gürcüstanda öz tarixi torpaqlarında yaşayan azərbaycanlılar iki ölkə arasında etnik və şop turizmin inkişafına nail olmuşlar və bu istiqamətdə işlərin gələcəkdə də davam etdirilməsinə ümid hisləri yaşamaqdadır. Haqqında danışdığımız dövrdə Gürcüstanla turizm əlaqələri həm də hər iki ölkənin üzv olduğu GUÖAM çərçivəsində genişləndirilməyə istiqamətlənmişdi. 24-26 yanvar 2002-ci ildə Gürcüstanda GUÖAM ölkələrinin milli əlaqələndiricilərinin növbəti görüşü keçirilmişdi [54, v.3]. Iclasda Ukrayna GUÖAM təşkilatına üzv dövlətlərin hökumət başçılarının görüşünü 2002-ci ildə Kiyevdə keçirməyi təklif etmişdi [54, "GUÖAM-a üzv dövlətlərlə əlaqələrə dair məlumat"]. Görüşdə qəbul olunmuş protokolun ikinci bəndinə əsasən GUÖAM ölkələrinin prezidentləri Nyu-York memorandumunda GUÖAM çərçivəsində əməkdaşlığın əsas vəzifəsi kimi dərin sahələrarası korporasiyanın yaradılması və bu məqsədlə üzv ölkələrin müvafiq dövlət qurumları arasında birbaşa əlaqələrin təsis edilməsini müəyyən edirdilər. Bununla əlaqədar bir sıra sahələrdə, o cümlədən turizm sahəsində işçi qrupun yaradılması və GUÖAM ölkələrində yuxarıda göstərilən sahələr üzrə müvafiq nümayəndələrin təyin olunması təklifləri irəli sürülmüşdü.

Demək lazımdır ki, 1991-2005-ci illərdə Azərbaycan Respublikası ilə MDB ölkələri arasında beynəlxalq turizm əlaqələri yuxarıda göstərilən çətinliklərə baxmayaraq bir sıra müsbət nəticələr vermiş, bu sahədə xeyli uğurlar əldə olunmuşdu. Məlumatlara müraciət edək: MDB ölkələrindən ölkəmizə 1997-ci ildə 132151, 1998-ci ildə 301287, 1999-cu ildə 427564, 2000-ci ildə 346482, 2001-ci ildə 320229, 2002-ci ildə 791051, 2003-cü ildə

25534, 2004-cü ildə 586416 nəfər turist gəlmiş, respublikamızdan isə MDB ölkələrinə 1997-ci ildə 291183, 1998-ci ildə 800416, 1999-cu ildə 724250, 2000-ci ildə 691408, 2001-ci ildə 542052, 2002-ci ildə 1136935, 2003-cü ildə 18513, 2004-cü ildə 14765 nəfər turist getmişdi [97, s.308; 98, s.295]. Bu rəqəmlər şübhəsiz ki, göstərilən istiqamətdə atılan addımların əhəmiyyətli və elmi dəyərli olmasından xəbər verir. Beləliklə, göründüyü kimi, 1991-2005-ci illərdə respublikamızla MDB ölkələri arasında beynəlxalq turizm əlaqələri diqqəti cəlbedici dərəcədə inkişaf etmiş və bu istiqamətdə lazımi tarixi təcrübə toplanmışdı. MDB ölkələri ilə beynəlxalq turist əlaqələri və mübadiləsi nəticəsində yaranan yeni münasibətlər, şübhəsiz ki, həmin ölkələrin xalqlarının dostluğunun möhkəmləndirilməsinə müsbət təsir etmiş və yeni əlaqələr üçün imkanlar açmışdı. Hazırda bu əlaqələr yeni məzmundadır və böyük perspektivlər vəd edir. Eyni zamanda, turizmin inkişafı, böyük iqtisadi səmərəsi və perspektivi bu gənc dövlətlərin büdcələrinə milyonlarla gəlir vermişdi.

Azərbaycan Respublikası dünya dövlətləri ilə yaranmış sıx əməkdaşlıq xəttinə sadiq qalmaqla yanaşı, müxtəlif tarixi köklərlə bizə yaxın olan Asiya, habelə bir sıra Afrika ölkələri ilə hərtərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi strategiyasını da uğurla həyata keçirir. Bu əlaqələr sistemində ölkəmizin Asiya və Afrika ölkələri ilə turizm əlaqələri xüsusi maraq doğurur. Təkcə həmin sahədə respublikamız Asiya qitəsinin ona yaxın ölkəsi ilə müqavilə və saziş bağlamışdır. Bundan başqa Azərbaycan Respublikası turizm ilə bağlı olan beynəlxalq və regional təşkilatların əksəriyyətinin üzvüdür. Bu baxımdan vətənimizin göstərilən ölkələrlə beynəlxalq turizm əlaqələri probleminin elmi-texniki baxımdan araşdırılıb öyrənilməsinə və toplanmış təcrübənin qiymətləndirilməsinə xüsusi elmi-praktik ehtiyac vardır və tarixi zərurət yaranmışdı. Bu istiqamətdə dövlətimizin göstərilən qitənin ən iri dövlətlərindən biri olan İran İslam Respublikası ilə turizm əlaqələrinə nəzər salmamaq olmaz. Ölkəmiz müstəqillik əldə edəndən sonra İran ilə ictimai həyatın başqa sa-

hələrində olduğu kimi, turizm sahəsində də əməkdaşlığın yeni dövrünə qədəm qoymuşdu. 9 dekabr 1994- cü ildə Azərbaycan ilə İran respublikaları arasında bağlanmış mədəniyyət sahəsində əməkdaşlıq haqqında sazişin 13-cü maddəsinə əsasən tərəflər iki ölkə xalqları arasında daha yaxşı anlaşma yaranmasına kömək edən turizmin təşkilini nəzər-diqqətdə saxlamalı idilər. Qeyd edək ki, bu hüquqi cəhd nəticəsiz qalmamışdı [17, "İran İslam Respublikası dövləti ilə Azərbaycan Respublikası dövləti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş"]. Tədqiq olunan illərdə Azərbaycandan İrana turist axınının ilbəil artması həm də bu sazişin müsbət bəhrəsi idi. Belə ki, ölkəmizdən İrana 2000-ci ildə 16.651 nəfər, 2001-ci ildə isə 347.061 nəfər turist səfər etmişdi [17, v.9]. 2001-ci ildə İrandan ölkəmizə 321.882 nəfər səfər etmişdir ki, bunun da əksəriyyəti turistlər olmuşdu [17, v.9]. Başqa bir fakt: İrandan ölkəmizə 1996-2001-ci illər ərzində 68.031 nəfər turist gəlmiş və bu dövrdə ölkəmizdən İrana isə 89.948 nəfər turist getmişdi [1, v.31, 34]. Maraqlı orasındadır ki, həmin dövrdə ölkəmizə gələn turistlərin 90 faizini məhz İran vətəndaşları təşkil etmişdi. DSX-nin məlumatına əsasən isə tədqiqat dövründə gələn və gedən turistlərin sayına görə İran ikinci yer tutmuşdu. Bu səfərlər əsasən qohumluq əlaqələri olan vətəndaşlar, ticarət, müqəddəs yerlərə ziyarət–dini turizm və s. məqsədlərlə gedən turistlər tərəfindən həyata keçirilmişdi [17, v.9]. 30 avqust 2001-ci ilin məlumatına əsasən ölkəmizdə fəaliyyət göstərən lisenziyası olan on iki turist şirkəti İranla turizm sahəsində əməkdaşlıq etmişdi [17, v.11]. Bu rəqəm 2002-ci ildə dörd olmuş, 2003-cü ildə turist mübadiləsi edən şirkətlərin sayı artaraq yeddiyə çatmışdı [57, v.28]. 18 avqust 2003-cü ilə qədər olan müddətdə isə ölkəmizdə fəaliyyət göstərən 9 turist şirkəti İranın müvafiq şirkətləri ilə müqavilə əsasında turist mübadiləsi ilə məşğul olmuşdur [57, v.29].

29-30 yanvar 2002-ci ildə İranın Kiş adasında keçiriləcək BMT-nin Asiya və Sakit okean hövzəsi üçün iqtisadi və sosial komissiyanın (ESCAP – Asiya-Sakit Okean ölkələri komissiya-

sının 55-ci sessiyasında Honkonqda 1999-cu ilin aprelində turizmə aid tədbirlər planı qəbul olunmuşdu. Plan 1999-2005-ci illəri əhatə etmişdi; Bu plan ölkəmizin maraqlarına tam uyğundur) İran Turizm və Səyahət Təşkilatı ilə birlikdə təşkil etdiyi turizm üzrə Asiya Sakit okean Təhsil və Təlim İnstitutları şəbəkəsinin (APETİT) İcraiyyə Komitəsinin 7-ci iclası keçirilmişdi [52, v.2]. İclasda ölkəmizin Turizm Baş İdarəsinin Beynəlxalq Turizm Şöbəsinin rəisi E.Qafarlı da iştirak etmişdi. Tədbirdə təşkilat çərçivəsində yaradılmış beynəlxalq mərkəzlərin işində əldə olunmuş tərəqqi qiymətləndirilmiş və APETİT-in fəaliyyəti ilə əlaqədar olan digər məsələlər müzakirə edilmişdi.

Asiya ölkələri ilə də turizm əlaqələrinin genişləndirilməsində əsas yerlərdən birini tutan tədbirlər ölkəmizdə hər il keçirilən beynəlxalq turizm sərgisi və eyni zamanda göstərilən ölkələrdə keçirilən turizm sərgiləri böyük əhəmiyyət kəsb etmişdi. Məsələn, 6-10 fevral 2003-cü ildə İranın Kiş adasında keçirilmiş “Səyahət və turizm” sənayesi üzrə Kiş beynəlxalq sərgisində Azərbaycan Respublikası nümayəndə heyəti iştirak etmişdi [57, v.19]. Həmin sərgiyə dəvət olunmuş bir çox dövlətlər məlum “İraq məsələsi” ilə bağlı iştirak edə bilməmişdilər. Lakin Azərbaycan, Türkiyə, Bolqarıstan və Bəhreynin nümayəndə heyətləri bu tədbirdə iştirak etmişdi [57, v.19]. DSK-nin məlumatına əsasən, Azərbaycan Respublikasından İrana gedənlərin ümumi sayı 1997-ci ildə 172.180, 1998-ci ildə 180.022, 1999-cu ildə 255.167, 2000-ci ildə 335.804, 2001-ci ildə 347.061, 2002-ci ildə 4.079 (220.656 nəfər turist [57, v.20]), 2003-cü ildə 5.564 (245.081 nəfər turist [57, v.20]), 2004-cü ildə 4.792 nəfər turist, İrandan ölkəmizə gələnlərin ümumi sayı 1997-ci ildə 103.724, 1998-ci ildə 139.300, 1999-cu ildə 121.604, 2000-ci ildə 242.354, 2001-ci ildə 321.882, 2002-ci ildə 155 (239.694 nəfər turist [57, v.20]), 2003-cü ildə 3.950 (249.574 nəfər turist [57, v.20]), 2004-cü ildə 60 nəfər turist təşkil etmişdi [97, s.308; 98, s.295].

Ölkəmiz Pakistan İslam Respublikası ilə də beynəlxalq tu-

rizm əlaqələrinə xüsusi diqqət yetirmişdi. 9 oktyabr 1995-ci ildə Bakıda imzalanmış Azərbaycan və Pakistan respublikaları hökumətləri arasında mədəni, elmi və humanitar əlaqələr haqqında sazişin 8-ci maddəsində tərəflər idman və turizm sahəsində əməkdaşlığı inkişaf etdirmək barəsində öz üzərlərinə təəhhüdlər götürürdülər [28, v.2]. Elə həmin gün turizm əlaqələrini inkişaf etdirmək baxımından mühüm olan 9 oktyabr 1995-ci ildə Bakıda iki ölkə arasında hökumət səviyyəsində Azərbaycan-Pakistan birgə komissiyasının yaradılması haqqında xüsusi protokol da imzalanmışdır [28, v.3]. Protokola əsasən tərəflər sənaye, kənd təsərrüfatı, ticarət, elm, təhsil, texnologiya, nəqliyyat, informasiya, mədəniyyət sahələri ilə yanaşı turizm sahəsində də qarşılıqlı maraq doğuran bütün məsələləri öyrənməli və bu sahədə əməkdaşlığın genişlənməsi barədə təkliflər verməliydilər. Ölkələrimiz arasında turizm sahəsində inkişafda olan əlaqələrin genişlənməsinə prezident H.Ə.Əliyevin Pakistan İslam Respublikasına 1996-ci ildəki səfərinin böyük təsiri olmuşdu. Prezident H.Ə.Əliyevin bu səfəri zamanı 10 aprel 1996-cı ildə İslamabadda Azərbaycan və Pakistan respublikaları arasında “Turizm sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu” imzalanmışdı [65]. Həmin memorandumun 12-ci maddəsində gələcəkdə turizm sahəsində sazişin bağlanmasının vacibliyi qeyd olunmuşdu. Elə həmin tarixdə İslamabadda Gəncə və Multan arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında birgə bəyannamə də imzalanmışdı [28, v.3].

9 oktyabr 1995-ci ildə Bakıda “Azərbaycan ilə Pakistan hökumətləri arasında mədəni, elmi və humanitar əlaqələr haqqında saziş” və 1996-cı il aprelin 10-da İslamabadda “Azərbaycan Gənclər və İdman Nazirliyi ilə Pakistan Mədəniyyət, İdman və Turizm Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu”ndan irəli gələn vəzifələri həyata keçirmək üçün bizim nazirlik 1997-ci ilin oktyabrında Pakistanda keçiriləcək İslam ölkələri qadınları arasında 2-ci idman həmrəyliyi oyunlarında və 1996-cı ilin oktyabrın 19-dan 24-dək 2-ci oyun-

lara hazırlıq ərəfəsində keçirilən milli oyunlarda Azərbaycandan turist və azarkeş qruplarının iştirakını böyük uğurla təşkil etmişdi [28, v.4-5].

1993-1998-ci illər ərzində iki ölkə arasında turist mübadiləsi aparılmasında Bakı-Kəraçi aviareysinin fəaliyyət göstərməsinin böyük rolu olmuşdur. Lakin həmin reysin fəaliyyətinin dayandırılması ölkələr arasında turizm əlaqələrinin zəifləməsinə səbəb olmuşdur. Qeyd olunan reysin bərpası ilə əlaqədar respublikamızın Turizm Nazirliyi "AZAL dövlət konserni"nə xüsusi məktub da göndərmişdi.

Azərbaycan ilə Pakistan respublikaları arasında turizm əlaqələrinin möhkəmlənib inkişaf etməsində iki ölkə arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın rolu da böyük olmuşdu. Azərbaycan ilə Pakistan hökumətləri arasında iqtisadiyyat, ticarət, elm, təhsil, texnologiya, nəqliyyat, informasiya, mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli sərəncamı ilə yaradılmış Azərbaycan–Pakistan birgə komissiyasının 1-ci iclası 28-29 sentyabr 2000-ci il tarixində Bakıda keçirilmişdi [28, v.8]. Həmin dövrdə Azərbaycan və Pakistan respublikaları arasında turizm sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu çərçivəsində bir sıra işlər görülmüşdü. Belə ki, Pakistanın "PİA" və "Azərbaycan Hava Yolları" tərəfindən mütəmadi olaraq çarter aviareysləri təşkil olunmuşdu. Bundan başqa aparılmış araşdırmalar nəticəsində qeyd olunanları əsas tutaraq Azərbaycan Respublikası Turizm Nazirliyi Azərbaycan-Pakistan birgə komissiyasının 2-3 sentyabr 2002-ci ildə İslamabadda keçirilmiş iqtisadi və texniki əməkdaşlıq üzrə ikinci iclasının gündəliyinə turizm əlaqələrinin inkişafı yolları barəsində məsələlərin salınmasını məqsədəuyğun hesab etmişdi [28, v.6]. Komissiyanın iclasının yekun protokolunun mədəniyyət və turizm hissəsi 1996-cı ildən bəri asılı vəziyyətdə qalmış turizm sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması üçün lazımi tədbirlərin görülməsinə imkan verirdi. Belə ki, mədəniy-

yət və turizm bölməsinin 26-cı maddəsinə əsasən hər iki tərəf turizm sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması istiqamətində danışıqların davam etdirilməsi barədə razılığa gəlmişdilər [28, v.7]. Eyni zamanda, bu protokolda Azərbaycan tərəfi Pakistan sərmayədarlarının ölkəmizin turizm sektorunda iştirak etmələrini təklif etmişdir. Pakistan tərəfinin təqdim etdiyi və Azərbaycan Respublikası XİN-nin etdiyi dəyişikliklərin əks olunduğu saziş layihəsinə ölkəmizin Turizm Nazirliyində baxılmış və müvafiq rəy bildirilmişdir. 2003-cü il 25 fevralda Pakistan səfiri ilə Azərbaycan Respublikasının Turizm Baş İdarəsində görüş keçirilmişdi [28, v.8]. 5-6 iyul 2004-cü ildə Bakıda keçirilən birgə komissiyanın 3-cü iclas protokolunun mədəniyyət və turizm bölməsində 2-ci iclasda olduğu kimi əməkdaşlığa dair sazişin hazırlanması və imzalanması, o cümlədən hər iki ölkədə təşkil olunan incəsənət, folklor və turizm sərgilərində iştirak, arxeologiya və turizm bölmələrində məlumat mübadiləsi sahəsində əməkdaşlıq nəzərdə tutulmuşdu [28, v.9]. Bu iclasda respublikamızın Turizm Nazirliyinin nümayəndələri iştirak etmişdilər [28, v.8]. Yuxarıda göstərilən komissiya iclaslarının nəticəsi olaraq Pakistan prezidentinin ölkəmizə rəsmi səfəri çərçivəsində 7 iyul 2004-cü ildə Bakıda "Azərbaycan və Pakistan hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdı [65]. Bütün bunlar imkan vermişdir ki, ölkəmizdə keçirilən turizm tədbirlərində Pakistan nümayəndələri davamlı olaraq dəvət olunsunlar. 7-9 aprel 2005-ci ildə Bakıda keçirilmiş "AİTF-2005" 4-cü ABTS-də də iştirak etmək üçün Pakistanın müvafiq dövlət qurumuna dəvət məktubu göndərilmişdi [28, v.14]. Hal-hazırda ölkəmizdə fəaliyyət göstərən "İmproteks Travel" şirkəti Pakistanla turist mübadiləsi həyata keçirir [28, v.17].

9-12 sentyabr 2006-cı ildə Bakıda keçirilmiş İKT-nın turizm nazirlərinin iclasında Pakistanın turizm naziri də iştirak etmişdir. Qeyd etmək lazımdır ki, 2002-ci ilə nisbətən 2006-cı ildə Pakistandan ölkəmizə gələn turistlərin sayı iki dəfə artmışdı (2006-cı ildə ölkəmizə 1185 pakistanlı turist səfər etmişdi). Nə-

ticə isə belədir: DSK-nin məlumatlarına əsasən Pakistandan ölkəmizə gələn turistlərin sayı 1997-ci ildə 1.362, 1998-ci ildə 728, 1999-cu ildə 411 nəfər, ölkəmizdən Pakistana gedən turistlərin sayı isə 1997-ci ildə 5.236, 1998-ci ildə 3.260, 1999-cu ildə 2.222 nəfər olmuşdur [97, s.308; 98, s.295]. DSX-nin verdiyi məlumata görə 2001-ci ildə Pakistandan ölkəmizə 763 nəfər və ölkəmizdən Pakistana 754 nəfər, 2002-ci il ərzində Pakistandan ölkəmizə 532 nəfər, ölkəmizdən Pakistana isə 534 nəfər, 2003-cü il ərzində Pakistandan ölkəmizə 808 nəfər, ölkəmizdən Pakistana isə 870 nəfər, 2004-cü il ərzində Pakistandan ölkəmizə 1.145 nəfər və ölkəmizdən Pakistana 978 nəfər səfər etmişdi [28, v.18; 67, v.10].

Bu istiqamətdə daha bir fakta müraciət edək: göstərilən dövrdə respublikamızın Turizm Nazirliyi tərəfindən mütəmadi olaraq Pakistanın idman və turizm qurumları ilə əlaqə saxlanılmış, turizm sahəsində əməkdaşlıq inkişaf etdirilmiş, informasiya və təcrübə mübadiləsi həyata keçirilmişdi. Ümid etmək olar ki, 2004-cü ilin iyulunda Bakıda imzalanmış Azərbaycan və Pakistan hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş ölkələrimizin bu sahədə əməkdaşlığına böyük təkan verəcəkdir.

Lakin bütün bunlarla yanaşı turizm əlaqələrimizi qənaətbəxş hesab etmək olmaz və iki tərəfin turizm nazirlikləri və turizm təşkilatları arasında çoxlu işlər görülməlidir. Bu baxımdan ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən gənclər, idman və turizm sahələrində əlaqələrin genişlənməsində Bakı-Karaçi aviareyslərinin bərpası çox mühüm rol oynaya bilər. Bu istiqamətdə əməkdaşlığın güclü inkişafı üçün hər cür potensial imkanlar var.

Turizm sahəsində Azərbaycan Respublikasının əlaqələri genişləndirmək istədiyi ölkələrdən biri də Çin Xalq Respublikasıdır (ÇXR). Azərbaycanın turizm sahəsində qardaş Türkiyədən sonra müqavilə bağladığı ilk ölkə ÇXR olmuşdu. Qeyd etmək lazımdır ki, Çin dünyada turist qəbuluna görə qabaqcıl yerlərdən birini tutur. Bu baxımdan müstəqillik illərində turizm sənayesi

və turizm potensialı çox yüksək olan Çinlə ölkəmiz arasında turizm əlaqələrinin qurulub inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb etmişdi. Azərbaycan və Çin arasında əməkdaşlığın əsası hələ 7-11 mart 1994-cü ildə Çin dövlət başçısının dəvəti ilə ölkəmizin prezidenti H.Ə.Əliyevin Çinə ilk 5 günlük rəsmi səfəri zamanı qoyulmuşdu. Bu səfər zamanı Çin ilə turizm sazişinə xüsusi əhəmiyyət verilmişdi [10, v.4]. Nəticədə bu görüş zamanı Azərbaycan ilə Çin arasında dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat qəbul edilmiş və bir sıra sənədlər arasında "Turizm sahəsində əməkdaşlıq haqqında hökumətlərarası saziş"lə yanaşı "Azərbaycan ilə Çin hökuməti arasında qrup turist səfərləri zamanı vizaların alınmaması haqqında saziş" də imzalanmışdı [11, v.1-2]. Azərbaycan ilə Çin hökumətləri arasında qrup turist səfərləri zamanı vizaların alınmaması haqqında saziş 1994-cü il yanvarın 4-də Pekində başlanmış və artıq 1994-cü il mayın 1-dən qüvvəyə minmişdir [51, v.2]. Bu sazişin bağlanması ilə hər iki ölkəyə turist səfərləri xeyli asanlaşmışdı. Bu iki dövlətin hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş isə 7 mart 1994-cü ildə imzalanmışdı [65]. Bu sazişin bəndlərindən irəli gələn tələblər əsasında ikitərəfli turizm əlaqələrinin inkişafında əhəmiyyətli irəliləyiş olmuşdu. 1999-cu il noyabrın 18-dən 25-dək Ümumçin Gənclər Federasiyasının dəvəti ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 6 nəfərlik nümayəndə heyəti nazir Ə.Qarayevin rəhbərliyi ilə ÇXR-rə rəsmi səfər zamanı bir sıra gənclər təşkilatları ilə yanaşı Çin Gənclər Turizm Bürosunda da olmuşdu [51, v.5]. Bu əlaqələr sonrakı illərdə də davam etdirilmişdi. 18-22 aprel 2001-ci ildə respublikamızın turizm nazirinin birinci müavininin başçılığı ilə nümayəndə heyəti ÇXR-də olmuş, idman və gənclər təşkilatları ilə yanaşı Çinin Dövlət Turizm İdarəsində (ÇDTİ) də keçirilmiş görüşdə ölkələrimizin bu sahədə əməkdaşlığını inkişaf etdirmək məsələləri müzakirə olunmuşdu [89]. 18-25 aprel 2002-ci ildə ölkəmizin Turizm Nazirliyinin nümayəndə heyəti ÇXR-də səfərdə olmuş, Gənclər, İdman, Uşaq və Qadın Federasiyaları,

Ümumçin Xalq Nümayəndələri Məclisi, Şanxay meriyası ilə yanaşı ÇXR Gənclər Turizm İdarəsində də görüş olmuşdu [11, “Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin Çin Xalq Respublikası ilə əməkdaşlığı haqqında məlumat”]. 7 mart 1994-cü ildə imzalanmış turizm sahəsində əməkdaşlıq haqqında sazişin birinci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Turizm Nazirliyi Çin səfirliyi ilə birgə ölkə məktəbliləri arasında “Çin haqqında nə bilirsiniz ?” adlı respublika müsabiqəsi təşkil etmiş və müsabiqənin 10 nəfər qalibi 2002-ci il iyulun 24-dən 31-dək Çində səfərdə olmuş, Ümumçin Qadınlar Federasiyası tərəfindən qəbul edilmişdilər [51, v.15].

Azərbaycan Respublikası Turizm Nazirliyi Çinin ölkəmizdəki səfirliyinə iki ölkə arasında turizm sahəsində əməkdaşlıq haqqında hökumətlərarası sazişin canlandırılması üçün 18 fevral 2003-cü ildə xüsusi məktub göndərmişdi [51, v.16]. Nəticədə 25 fevral 2003-cü ildə Çinin ölkəmizdəki səfiri ilə bizim turizm naziri arasında Turizm Baş İdarəsində turizm əlaqələrinin genişləndirilməsi barəsində görüş keçirilmişdi [51, v.16]. 17-24 oktyabr 2003-cü ildə Pekində keçirilmiş ÜTT-nın Baş Assambleyasının XV sessiyasında Azərbaycan Respublikası Turizm Nazirliyinin 3 nəfərlik nümayəndə heyəti iştirak etmişdi [51, v.17]. 7 mart 1994-cü ildə imzalanmış turizm sahəsində əməkdaşlıq haqqında sazişin 9-cu maddəsinə, yəni turizmə həsr olunmuş beynəlxalq konfrans və sərgilərin təşkilində əməkdaşlığa uyğun olaraq respublikamızın turizm naziri başda olmaqla 23-27 noyabr 2004-cü ildə Çin Milli Turizm İdarəsinin (ÇMTİ) dəvətinə əsasən Şanxayda keçirilən Beynəlxalq Turizm Sərgisində iştirak etmişdi [51, v.15]. Səfər çərçivəsində nümayəndə heyəti Şanxayda ÇMTİ-nın sədri və sədr müavini ilə görüşlər keçirmişdi. Bu görüşlər və söhbətlər çərçivəsində ölkəmizin Çinin “Tövsiyə edilən turizm ölkələri statusu (TETÖS)” sisteminə qoşulması məsələləri müzakirə olunmuşdu. Keçirilən danışıqların əsas məqsədi Çin turistlərinin ölkəmizə cəlb olunması idi [11, v.3-6].

Yuxarıda sadalanan məlumatlar, aparılmış tədqiqatlar, elmi

təhlillər göstərir ki, bu əlaqələr davamlı olmuşdu və DSX-nin məlumatına görə 2001-ci ildə Çindən ölkəmizə 577 nəfər və ölkəmizdən Çinə 639 nəfər, 2002-ci il ərzində Çindən ölkəmizə 591 nəfər, ölkəmizdən Çinə isə 641 nəfər, 2003-cü il ərzində Çindən ölkəmizə 1.256 nəfər, ölkəmizdən Çinə isə 2003-cü ilin birinci yarım ili ərzində 481 nəfər, 2004-cü ilin 6 ayı ərzində isə 714 nəfər səfər etmişdi [51, v.17]. İki ölkə arasında turizm əlaqələri ardıcıl xarakter daşımışdır. Belə ki, Çin tərəfi 26 yanvar 2005-ci ildə Azərbaycan Respublikası Turizm Nazirliyinin məktubuna cavab olaraq "ÇMTİ ilə Azərbaycan Respublikası Turizm Nazirliyi arasında Çin vətəndaşlarının turist qrupları şəklində Azərbaycana səfər etmələrinin sənədləşdirilməsi haqqında anlaşma memorandumu" layihəsini təqdim etmişdi [11, v.16-19, "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin ÇXR ilə əməkdaşlığı haqqında məlumat"].

"AZAL" – AHYDK-nin statistik məlumatına əsasən ölkəmizdən Çinə 2002-ci il ərzində 935 nəfər, 2003-cü ilin 9 ayı ərzində isə 439 nəfər turist göndərilmişdi [51, v.18; 11, v.7-10]. Azərbaycan və Çin arasında (Çin turizm şirkətləri ilə) "AZAL", "CGTT", "İmprotex", "Vizittour", "Yevroturizm", "Sputnik" və Em Ay turizm (MI) şirkətləri turist mübadiləsi həyata keçirmişdi [51, v.19; 11, v.11]. 7-9 aprel 2005-ci ildə Bakıda keçirilmiş "AİTF-2005" 4-cü ABTS-də Çinin turist şirkətləri də iştirak etmişdi. 2005-ci ildə ÇMTİ-sı tərəfindən Dövlət Şurası üçün Azərbaycan Respublikasının TETÖS sisteminə qoşulmasına dair məlumat hazırlanmışdı. 2005-ci ildən iki ölkə arasında Bakı-Urumçi aviareysi "AZAL" DK tərəfindən həyata keçirilir.

Tədqiq olunan illərdə ölkəmiz ilə İsrail arasında da rəsmi beynəlxalq turizm əlaqələri yaranıb inkişaf etmişdi. Adı çəkilən ölkə ilə Azərbaycan arasında turizm sahəsində əməkdaşlıq həyata keçirilərkən ölkəmizdə yaşayan etnik yəhudilərin mövcudluğu nəzərə alındığından çox maraqlıdır. Bu baxımdan İsrail ilə Azərbaycan Respublikası arasında idman, gənclər və turizm sahələrində ölkələrimiz arasında əlaqələri genişləndirmək və gələcək

əməkdaşlıq perspektivlərini müzakirə etmək məqsədilə ölkəmizin turizm naziri 27-28 iyun 2005-ci ildə İsrailə səfər etmişdi. Onun turizm sahəsində çalışan hökumət və özəl sektor nümayəndələri və İsrailin turizm naziri ilə görüşlərində əsasən İsrail sərmayəsinin Azərbaycan iqtisadiyyatına cəlb olunması müzakirə olunmuşdu [18, v.1; 37, v.59].

Ölkələrimiz arasında turist mübadiləsi artımının təmin olunması üçün hazırda AHYDK-nin həftədə bir dəfə həyata keçirdiyi Bakı-Təl-Əviv reysinin həftədə iki dəfəyə qədər artırılması yaxşı imkan olardı.

Bunlarla yanaşı tədqiqat dövründə ölkəmizdə fəaliyyət göstərən "Bakı Səyahətlər və Ekskursiyalar Bürosu", "İmprotex Travel" və "İntur Turizm" şirkətləri də İsrail ilə turist mübadiləsi aparmışdılar [18, v.4]. DSK-nin verdiyi məlumata əsasən İsraildən ölkəmizə gələn turistlərin sayı təkcə 1997-ci ildə 8.157, 1998-ci ildə 1.898, 1999-cu ildə 822 nəfər, ölkəmizdən İsrailə gedən turistlərin sayı isə 1997-ci ildə 1.314, 1998-ci ildə 2.683, 1999-cu ildə 1.339 nəfər olmuşdu [97, s.308; 98, s.295]. Belə qarşılıqlı turist mübadiləsi sonrakı illərdə davam etmişdi. Məsələn, 2001-ci il ərzində İsraildən ölkəmizə 2.720, 2002-ci ildə 2.173, 2003-cü ildə 2.406 nəfər, ölkəmizdən İsrailə isə, təxminən, bir o qədər adam səfər etmişdi [58, v.4]. İsrailin respublikamızdakı səfirliyindən alınan məlumata əsasən 2003-cü il ərzində 1.465 Azərbaycan vətəndaşına turist vizası verilmişdi. 2003-cü ildə turist şirkətlərindən alınan statistik məlumatlara əsasən "Bakı Səyahətlər və Ekskursiyalar Bürosu" və "İmprotex" şirkətləri hər biri iki nəfər turisti İsrailə göndərmişdi [58, v.5]. DSX-nin məlumatına görə 2004-cü il ərzində İsraildən ölkəmizə 2.710 nəfər, ölkəmizdən İsrailə 2.852 nəfər turist səfər etmişdi [18, v.6].

Azərbaycan Respublikası haqqında danışdığımız dövrdə tarixi abidələrlə zəngin və turizm sənayesi inkişaf etmiş Misir ilə də beynəlxalq turizm əlaqələrinə xüsusi diqqət yetirmişdi. Misir hələ 1991-ci il dekabrın 26-da ölkəmizlə diplomatik əlaqələr yaradaraq onun müstəqilliyini tanımış ilk ölkələr sırasına daxil ol-

muşdu. 1993-2007-ci illər arasındakı müddət hər iki tərəfin məsul şəxslərinin etdiyi çoxlu sayda səfərlərin, xüsusilə də 1994-cü ildə mərhum prezident H.Ə.Əliyevin və 2007-ci ilin mayında prezident İ.H.Əliyevin Misirə səfərlərinin, eləcə də digər rəsmi səfərlərin, qarşılıqlı komitələrin işlərində, sərgi işlərində, Misirdə və ölkəmizdə keçirilmiş festivallarda iştirak etmək üçün işgüzar səfərlərin bu iki müsəlman ölkəsi arasında qarşılıqlı əlaqələrin, o cümlədən turist əlaqələrinin yaranıb inkişaf etdirilməsində böyük rolu olmuşdu [79]. Belə tədbirlər digər sahələrlə yanaşı idman, turizm və gənclər əlaqələrinə də müsbət təsir etmişdir. Misir ilə Azərbaycan hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında memorandumun layihəsi Azərbaycan tərəfindən 1994-cü ildə Misir tərəfinə təqdim olunmuşdu [64, v.3]. Misir tərəfi həmin sənədə bəzi dəyişikliklər etmiş, o cümlədən "Saziş" sözünü "Memorandum" sözü ilə dəyişmişdi. Lakin bu memorandum, təəssüf ki, hələ də imzalanmamışdı. Amma tədqiq olunan dövrdə Azərbaycan ilə Misir arasında ikitərəfli əsasda 9 sənəd imzalanmışdı. Azərbaycan Respublikası XİN-nin 7 aprel 1994-cü ildə Misirə rəsmi səfəri zamanı "İqtisadi və elmi-texniki əməkdaşlıq sahəsində imzalanmış saziş"in 6-cı maddəsinə əsasən digər sahələrlə yanaşı turizm sahəsində də konkret layihə və proqramlar hazırlanmış və onların reallaşdırılması istiqamətində müəyyən işlər görülmüşdü [24, v.1-2]. İki ölkə arasında turizm əlaqələrinin inkişafına hava daşımaları haqqında 17 fevral 1997-ci ildə imzalanmış saziş də bu işə öz müsbət təsirini göstərmişdi [24, v.3]. Misirlə əməkdaşlıq sonralar da davam etdirilmişdi. Belə ki, Misirin MDB ölkələri ilə Texniki Əməkdaşlıq Fondu Azərbaycan mütəxəssislərini həmişə olduğu kimi 2000-ci ildə də təlim proqramları ilə əlaqədar olaraq Misirə dəvət etmişdi. 2000-ci ildə bu xətlə onlarla adam (təxminən 80 nəfərə yaxın) belə təlim proqramlarında iştirak etmişdi [64, v.4]. Azərbaycan ilə Misir hökumətləri arasında 8 oktyabr 1992-ci ildə imzalanmış "İqtisadi, texniki, və elmi əməkdaşlıq haqqında saziş" əsasında yaradılmış "İqtisadi, texniki və elmi əməkdaşlıq

üzrə Azərbaycan-Misir birgə dövlətlərarası komissiyası"nın 1-ci iclası 24 oktyabr 2002-ci ildə Bakıda keçirilmişdi [24, v.4]. Həmin iclasın protokoluna əsasən turizm təşkilatları arasında əməkdaşlığı inkişaf etdirmək və bu işi dəstəkləmək, turizmə aid informasiyaların, broşurların, nəşrlərin və turizm statistik məlumatlarının mübadiləsi və s. nəzərdə tutulmuşdu. Həmin toplantıda investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında, turizm sahəsində əməkdaşlıq haqqında sazişlərin layihələri üzrə də müzakirələr yekunlaşmışdı. Lakin çox təəssüf ki, bu sazişlər sözügedən dövr çərçivəsində imzalanmamışdı.

Azərbaycan və Misir respublikaları arasında turizm sahəsində əməkdaşlıq əsasən ÜTT-e və İKT-e çərçivəsində aparılır.

Yuxarıda qeyd olunan dövlətlərarası komissiyanın birinci iclasının protokoluna əsasən təşkil olunmuş işçi qrupunun 29 iyun-5 iyul 2003-cü ildə Misirdə keçirilmiş iclasında hər iki ölkənin turizm qurumlarının vəzifəli şəxsləri təmsil olunmuşdu [64, v.5]. İclasın müzakirələrində Azərbaycanın səhiyyə, neft, kimya, təhsil, kənd təsərrüfatı, energetika və turizm sahələri nəzərdən keçirilmiş, turizm əlaqələrini inkişaf etdirmək üçün bir sıra təkliflər irəli sürülmüşdü. Səfər zamanı Misirin tanınmış turizm şirkətlərindən biri olan "Seti First Group"un rəhbəri ilə də görüş keçirilmişdi. Misirin MDB ölkələri ilə Texniki Əməkdaşlıq Fondu tərəfindən 22 fevral-5 mart 2003-cü ildə turizm sahəsi üzrə Misirdə keçirilmiş təlim kurslarında Azərbaycan tərəfdən Turizm Baş İdarəsinin bir nəfər mütəxəssisi, beş mehmanxana işçisi, iki turizm şirkətinin nümayəndəsi olmaqla cəmi səkkiz nəfər iştirak etmişdir [64, v.6]. Eyni zamanda hər iki tərəf qarşılıqlı olaraq təşkil edilən mədəni tədbirlərdə iştirak etmişdi. Belə tədbirlərdən biri də 2005-ci ilin noyabrında Qahirədə Azərbaycan və 2006-cı ilin aprelində Bakıda Misir mədəniyyət həftələri olmuşdu [79]. Ali təhsil, turizm və Bakı-Şarm əl-Şeyx xəttinin Qahirəyə çatdırılması imkanlarını öyrənmək üçün ekspertlər arasında danışıqlar aparılmışdı. Belə ki, bu xəttin olmaması turizmin inkişaf etdirilməsində, iqtisadi əməkdaşlığın və iş adamları-

nın fəaliyyətində və nəqliyyat qarşısında ciddi maneələr yaradır.

Görülən işlərin nəticəsində Misirlə Azərbaycan arasında turizm sahəsində əməkdaşlıq getdikcə genişlənmişdi. Məsələn Misirdən ölkəmizə gələn turistlərin sayı 2002-ci ildə 86, 2003-cü ildə 159, 2004-cü ildə 219, 2005-ci ildə 164, 2006-cı ildə 225, ölkəmizdən Misirə gedən turistlərin sayı isə 2000-ci ildə 369, 2001-ci ildə 462, 2002-ci ildə 1135, 2003-cü ildə 1199, 2004-cü ildə 2744 nəfər olmuşdu [79].

Təkcə turizm sahəsində deyil, müxtəlif istiqamətlərdə ölkəmizin əlaqələr qurduğu və genişləndirmək istədiyi ölkələrdən biri də İordaniyadır. Bu ölkə ölkəmizin müstəqilliyini 28 dekabr 1991-ci ildə tanımışdı [77]. Bu da təsadüfi deyildir. Çünki İordaniyanı Azərbaycanla bütün səviyyələrdə xüsusi əlaqələr bağlayır. Qeyd etmək lazımdır ki, hər iki ölkə arasında siyasi, iqtisadi, investisiya, mədəniyyət və s. sahələrdə əməkdaşlığın əsasının daha da genişləndirilməsi üçün böyük imkanlar vardır [77]. Iki ölkə rəhbərlərinin və rəsmi şəxslərinin qarşılıqlı səfərləri ikitərəfli aktual əhəmiyyət kəsb edən bütün sahələrdə güclü əməkdaşlıq əlaqələrinin yaranması istiqamətində birgə arzu və istəyi ifadə edir.

Tədqiq olunan dövrdə nüfuzlu ərəb ölkələrindən biri olan Səudiyyə Ərəbistanı Krallığı ilə ölkəmiz arasında da turizm əlaqələrinin yaradılması və inkişafına xüsusi diqqət yetirilmişdi. Hələ 1994-cü ilin iyulunda "Azərbaycan və Səudiyyə hökumətləri arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq haqqında Baş Saziş" imzalanmışdı [78]. Sazişin 7-ci maddəsinə uyğun olaraq 20-22 fevral 2001-ci ildə Bakıda Müştərək Komissiyanın I iclası, 14-15 fevral 2004-cü ildə Ər-Riyadda Azərbaycan-Ərəbistan Müştərək komissiyasının II iclası keçirilmişdi [78]. Təbii ki, bu iclaslarda müxtəlif məsələlərlə yanaşı ikitərəfli turizm əlaqələrini də genişləndirmək məsələsi müzakirə olunmuşdu.

4-7 may 2004-cü ildə Dubayda keçirilmiş "Arabian Travel Market 2004" (ATM-2004) Beynəlxalq Turizm Sərgisində iştirak edən Azərbaycan Respublikası Gənclər, İdman və Turizm

Nazirliyinin nümayəndə heyətinin rəhbəri Ərəbistanın Turizm üzrə Ali Komissiyasının nümayəndələri ilə görüş keçirmiş və görüş zamanı iki ölkə arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişin tezliklə imzalanması müzakirə edilmişdi [78]. Həmçinin ATM-2004 sərgisi zamanı keçirilən görüşlərdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı arasında hər iki ölkə vətəndaşlarının fərdi və qrup şəklində turist səfərlərinin təşkili ilə bağlı danışıqlar aparılmışdı. Turizm sahəsində əlaqələrə intensivlik vermək məqsədi ilə 2004-cü il iyunun 1-də Ərəbistanın Turizm Üzrə Ali Komissiyasının Baş Katibinin ölkəmizə səfəri ilə əlaqədar dəvət məktubu göndərilmiş və dəvət olunan nümayəndə heyəti tərkibinə sərmayəçilərin daxil edilməsi təklif edilmişdi [78]. Eyni zamanda hər iki ölkə İslam Konfransı Təşkilatının üzvü olduğundan bu təşkilatın çoxsaylı tədbirlərində də turizm əlaqələrinə diqqət ayırmışdılar. Məsələn, 2006-cı il 9-12 sentyabrda Bakıda keçirilmiş İslam konfransı təşkilatının V iclasında digər ölkələrin nümayəndələri ilə yanaşı Ərəbistanın Ali Turizm Təşkilatının Baş katibi də iştirak etmişdi [78].

DSX-nin məlumatına əsasən 2004-cü il ərzində Ərəbistandan Azərbaycana 177, Azərbaycandan Ərəbistana 148 nəfər səfər etmişdir (təbii ki, burada həcc və ümrə ziyarətləri nəzərə alınmamışdı) [78].

Tədqiq olunan dövrdə Azərbaycanın bu formada beynəlxalq turizm əlaqələri Malayziya, Tailand, İndoneziya, Bruney Sultanlığı və Hindistan ilə də olmuşdu [56, v.1-13]. Suraxanı Atəşgah məbədinin yenidən qurulması, Yanardağda xüsusi kompleks tikilməsi üçün Hindistan tərəfi ilə danışıqlar aparılmışdı. 2003-cü il aprelin 17-19-da II Azərbaycan Beynəlxalq turizm sərgisində 12 ölkə, o cümlədən Malayziya və Tailand iştirak etmişdi [227]. 12 ölkə və 27 turist şirkətinin iştirak etdiyi bu sərgini 3 gün ərzində 10.000 nəfər ziyarət etmişdi. Sərgidə iştirak turizm sənayesi inkişaf etmiş Asiya ölkələrinin turizm potensialının Azərbaycanda, Azərbaycanın turizm potensialının iştirakçı ölkələrdə tanıdılmasında və turizm şirkətləri arasındakı əlaqələrdə mühüm

rol oynamışdı. “Azərbaycan və İndoneziya, Malayziya, Bruney Sultanlığı Hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş” və “Azərbaycan və Hindistan arasında mədəniyyət, incəsənət, kinematoqrafiya, təhsil, elm, turizm, idman və kütləvi informasiya vasitələri sahələrində əməkdaşlıq haqqında saziş”in layihələri hazırlanmışdı [56, v.1-4].

Beləliklə, yuxarıda sadalanan dəlillər təsdiq edir ki, tədqiqat dövründə Azərbaycanın Asiya və Afrika ölkələri ilə əhəmiyyətli dərəcədə beynəlxalq turizm əlaqələri olmuş və bu gün də inkişaf etməkdədir. Həmçinin araşdırmalar və onların əsaslandıqları qaynaqların məlumatları göstərir ki, Azərbaycan Respublikası, xalqımız dövlət müstəqilliyinin yaratdığı imkanlardan bacarıqla bəhrələnərək qısa müddət ərzində ölkəmizi beynəlxalq turizm sisteminə qoşa bilmişdi.

Dövlət müstəqilliyinin qazanılmasından keçən ilk on beş il ərzində Azərbaycan Respublikasının zəngin təbiəti və təkrarolunmaz abidələrə malik olan ərazisi məşhur beynəlxalq turist marşrutlarına daxil olmuş, ölkəmiz ümumdünya turizm ailəsinin üzvünə çevrilmişdi.

Qısa müddət ərzində bu sahənin aşağıdan yuxarıyadək tənzimlənən bitkin strukturu yaradılmış turizm, o cümlədən də beynəlxalq turizm iqtisadiyyatımızın qeyri-neft strukturunun bir sıra başqa sahələri kimi ölkəmizin və xalqımızın firavanlığını təmin edən qaynaqlardan birini təşkil etməyə doğru yönəlmişdi.


























BLADE
SOCAR
SOCAR




UNIVERSIADE
KAZAN2013


QOBUSTAN






















SHAHDAG
HOTEL & SPA









# N Ə T İ C Ə

Sovetlər İttifaqının dağılmasından, yəni Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsindən əvvəl qızışdırılan Dağlıq Qarabağ separatizmi məcburən ölkənin bütün diqqətini bu problemin həllinə yönəldirdi. Eyni zamanda, hakimiyyətə gəlmək istəyən daxili siyasi qüvvələr Dağlıq Qarabağ problemindən məharətlə istifadə edirdilər. Belə bir şəraitdə Dağlıq Qarabağ və işğal olunmuş digər rayonlardakı idman və turizm obyektlərinin məhvi bir yana, Şimali Azərbaycanda idman və turizmin SSRİ-dən qalma maddi-texniki bazası nəinki qorunub saxlanıldı, əksinə bu sahəyə baxanların etinasızlığı ucbatından güclü dağıntılara məruz qaldı, Dağlıq Qarabağ müharibəsi nəticəsində əksər turizm və istirahət kompleksləri qaçqın və məcburi köçkün soydaşlarımızın istifadəsinə verildi. Sirr deyil ki, sanatoriya və istirahət mərkəzlərinin 90 faizində məhz onlar yerləşdirilmişdi. Ancaq paytaxt Bakıda yerləşən mehmanxanalar turist qəbul edəcək səviyyədə qorunub saxlanılmışdı. Bu baxımdan təbii ki, qaçqın probleminin köklü şəkildə həlli ölkəmizdə turizmin inkişafına müsbət təsir göstərəcəkdir.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası öz inkişafının yeni dövrünə qədəm qoydu. Şərait sırf düşüncə prosesindən çıxaraq praktiki fəaliyyət səviyyəsinə keçdi. Müvəqqəti olaraq Azərbaycan və Ermənistan respublikaları arasında atəşkəs müqaviləsi imzalandı, hakimiyyət uğrunda silahlı mübarizəyə son qoyuldu, Azərbaycan neftinin çıxarılmasına dair dünyanın aparıcı neft şirkətləri ilə müqavilələr bağlandı, Respublikanın iqtisadi, siyasi, hərbi, elmi,

mədəni və s. sahələrdə əlaqələri ilə yanaşı idman və turizm sahəsində də əlaqələri genişləndi.

Tədqiqatımız bir daha göstərdi ki, idmanın inkişafı dövlətin idmana münasibətindən çox asılıdır. Çünki bu münasibət özlüyündə idmana aid məsələlərin böyük hissəsinin həllinə birbaşa təsir göstərir. İqtisadi inkişaf nəticəsində ölkənin idman həyatında böyük canlanma, inkişaf yarandı. Azərbaycan 1992-ci ildən Beynəlxalq Olimpiya Komitəsinə, 1994-cü ildə Avropa Futbol Birliyinə (UEFA) və başqa beynəlxalq idman təşkilatlarına üzv qəbul olundu. Yenicə təşkil olunmuş Milli Olimpiya Komitəsinin işi 1997-ci ildən İlham Əliyevin ona prezident seçilməsindən sonra yenidən quruldu və daha da canlanıb geniş vüsət aldı.

Tezliklə respublika stadionu təmir edildi, beynəlxalq yarışları keçirəcək səviyyədə yenidən qurulmağa başlandı. 2000-ci ildən etibarən, Respublikanın əksər iri şəhər və rayonlarında olimpiya idman komplekslərinin istifadəyə verilməsi idman əlaqələri üçün geniş imkanlar açdı. Ölkəmizdə idmanın və Olimpiya Hərəkatının inkişafında respublika prezidentləri H.Ə.Əliyev və İ.H.Əliyevin müstəsna xidmətləri olmuşdu. Bu xidmətlər ölkədaxili idman quruculuq işlərini, idmançılara diqqət və qayğını, millətin sağlamlığı və fiziki tərbiyəsini özündə birləşdirməklə yanaşı, beynəlxalq idman və olimpiya əlaqələrinin də tam dairəsini əhatə etmişdi [104, s.128-158].

Bizim idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, o cümlədən dünya, Avropa çempionatlarında, olimpiya oyunlarında, digər beynəlxalq yarışlarda yüksək nəticələr göstərmiş, Azərbaycanımıza çoxlu medallar gətirmişlər [130, s.5]. Bununla yanaşı Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) və müxtəlif beynəlxalq idman federasiyalarının rəhbərləri dəfələrlə Azərbaycanda olmuş, onların iştirakı ilə ölkəmizdə müxtəlif beynəlxalq yarışlar keçirilmişdi [130, s.16]. Olimpiya Oyunları arasındakı illərdə BOK-un himayəsi altında bir sıra mötəbər idman yarışları keçirilmişdi. İdmançılarımız bununla əlaqədar olaraq Avropa yeniyetmələrinin Liqnano və Bel-

qrad festivallarında, I İslam Həmrəyliyi Oyunlarında, I Qara Dəniz Oyunlarında, Zəhmətkeşlərin V Beynəlxalq İdman Oyunlarında və digər beynəlxalq yarışlarda, iştirak etmişdilər [130, s.18; 137, s.76-97].

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi beynəlxalq əlaqə və əməkdaşlığı genişləndirərək, bir sıra ölkələrin milli olimpiya komitələri ilə Olimpiya Hərəkatı və idman sahəsində qarşılıqlı əməkdaşlıq haqqında memorandum və müqavilələr bağlamağa başladı. Başqa ölkələrin milli olimpiya komitələri ilə ikitərəfli müqavilə və memorandumların bağlanması beynəlxalq əlaqələrin yeni müstəvidə davam etdirilməsinə imkan açırdı. 2004-cü ildən başlayaraq, bu sahədə daha geniş işlər görülməyə başlandı. Ilk belə müqavilə Rusiya Olimpiya Komitəsi ilə bağlandı. MOK ilə Qətər, İtaliya (25.02.2005), Çin (17.03.2005), Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri (20.11.2006), Ukrayna (15.10.2008) milli olimpiya komitələri arasında "Olimpiya Hərəkatı və idman sahəsində qarşılıqlı əməkdaşlıq haqqında müqavilə və memorandum"lar bağlanmışdı [193, s.70-71; 137, s.5-6]. Bu sənədlər əlaqə və əməkdaşlığın genişlənməsinə xidmət etmişdi.

2006-cı ildə Turində XX Qış Olimpiya Oyunlarında ölkəmiz üçüncü dəfə idi ki, təmsil olunurdu. Ölkəmiz olimpiadada bir növdə-buz üzərində fiqurlu konkisürmənin rəqs növündə iki idmançı ilə təmsil olunmuş, 23 ölkə arasında bu idman növündə 19-cu olmuşdu (ölkəmiz qış idman növlərində iştirakını 2010-cu ildə Kanadanın Vankuver şəhərində də davam etdirmişdi) [137, s.56].

Daha sonra 2006-cı ilin 7 noyabrında Bakıda "Azərbaycan Respublikası ilə İordaniya Haşimilər Krallığı arasında Əməkdaşlığa dair saziş" və 2007-ci ilin mayında Azərbaycan prezidentinin Misirə səfəri zamanı doqquz müqavilə, o cümlədən gənclər, idman və turizm sahələrində əməkdaşlıq haqqında müqavilə imzalanmışdı. Bu sahədə dövlətlərarası müqavilənin olması gələcək əlaqələrimiz üçün böyük ümidlər yaradır [79]. Hal-

hazırda sözügedən sazişlərin müddəalarının həyata keçirilməsi istiqamətində işlər aparılır [76]. Bütün qeyd olunan bu sənədlər MOK-nın əlaqə və əməkdaşlıq məkanının genişlənməsi, əməkdaşlığın qarşılıqlı yardım, fayda və səmərə əsasında həyata keçirilməsinə xidmət etmişdi.

2007-ci il MOK-nın beynəlxalq əlaqələrinin genişlənməsi, əməkdaşlığın artırılması və idman nailiyyətləri baxımından əhəmiyyətli olmuşdu [148, s.12-15]. Ölkədə idman inkişaf etdikcə, digər dövlətlərlə idman əlaqələrimiz də sürətlə genişlənməkdədir. Bu baxımdan Birləşmiş Krallıqla yaradılan əlaqələr xüsusi önəm daşıyır. Bu əməkdaşlıq 2007-ci il dekabrın 1-də ölkələrimiz arasında idman sahəsində əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması ilə yeni mərhələsinə qədəm qoyub [88, s.4]. Həmçinin bu ildə MOK İcraiyyə Komitəsi "Olimpiya" ordeni təsis etmiş və ölkə başçısına təqdim etmişdi [131, s.10]. 2007-ci ildə Avropa və dünya çempionatlarının ölkəmizdə keçirilməsini mühüm idman hadisələrinin davamı hesab etmək olar [131, s.4]. Bu ildə ən mühüm hadisə-Bakının 2016-cı ildə Olimpiya Oyunlarını keçirmək üçün iddiaçı şəhərlər sırasına düşməsi idi [108, s.34-37].

Ölkəmizin milli komandasının 2008-ci ildə XXIX Pekin Yay Olimpiya Oyunlarında yeddi medal qazanması çox böyük nailiyyətdir [130, s.14]. Məhz bu oyunlarda İ.Zəkiyev ölkəmizin idman tarixində ilk dəfə olaraq ikiqat paraolimpiya çempionu adı qazanmışdı [130, s.12]. Pekində avqustun 10-da keçirilmiş "Azərbaycan günü" ölkəmizin tarixi, mədəni irsi, idmanı ilə yaxından tanış olmaq üçün mühüm vasitə olmuşdu [130, s.16]. Azərbaycan cüdoçusu E.Məmmədli 2008-ci ildə dünyanın ən güclü cüdoçusu, R.Bayramov isə dünyanın ən yaxşı yunan-Roma güləşçisi adlarına layiq görülmüş və Pekin Olimpiya Oyunlarında güləş yarışlarında hakimlik etmiş H.Şərifov Azərbaycandan ilk dəfə Olimpiya Oyunlarının ən yaxşı hakimləri sırasında yer almışdı [130, s.66]. Bu faktlar idmanımızın beynəlxalq səviyyədə qazandığı nailiyyətlərin nə dərəcədə yüksək olduğunu

bir daha təsdiq edir.

Azərbaycanda Ədalətli Oyunlar Hərəkatı ilə bağlı fəaliyyət son illər xeyli genişlənmiş və qitə miqyasında özünü göstərməyə başlamışdı. Bunun nəticəsidir ki, Avropa Ədalətli Oyunlar Hərəkatı (AƏOH) rəhbərliyi 2008-ci ildə Bakıda olmuş və AƏOH-un 15-ci Konqresi və İcraiyyə Komitəsinin yığıncağının 2009-cu ildə ölkəmizdə keçirilməsi qərara alınmışdı [80, s.58-61].

Təqdirəlayiq hadisələrdən biri də ölkədə bədən tərbiyəsi və idmanın hərtərəfli inkişafı üçün 2009-2020-ci illəri əhatə edəcək milli strategiya layihəsinin hazırlanması idi [130, s.12]. Bu strategiya 2020-ci ilədək ölkəni idmanda lider etmək məqsədini qarşıya ali məqsəd kimi qoymuşdu. Bundan başqa "Uşaq və yeniyetmələrin bədən tərbiyəsi və idman haqqında" qanun layihəsi hazırlanmış və Milli Məclisə təqdim edilmişdi [130, s.12].

"İdman təkcə uğurlar və nailiyyətlərdən ibarət deyil, həm də millətin gələcəyidir" deyən respublika prezidenti İ.H.Əliyev bildirmişdir ki, Azərbaycan idmanın inkişafı ilə bağlı öz siyasətini bundan sonra da davam etdirəcəkdir [137, s.7].

İdman sahəsində olduğu kimi turizm sahəsində də iri layihələrin həyata keçirilməsi, Azərbaycan Respublikasının turizm potensialını dünyaya tanıtdırmağa başlaması ölkənin bu sahədə aktiv siyasətinin nəticəsi idi. Bununla belə turizm təsərrüfatında həlli vacib olan problemlər çoxdur. Sosial infrastrukturun zəif inkişafı, əhalinin sosial-iqtisadi durumunun aşağı olması, turizm müəssisələrinin zəif reklamı (bu sektorla bağlı reklamların 90%-i xarici, yəni passiv turizmə aiddir), passiv turizmin üstünlüyü, xidmətlə qiymətlərin uyğunsuzluğu, turist obyektlərində ekoloji tarazılığın qorunmaması (ağacların qırılması, çirkab suların dənizə axıdılması və s.) bu qəbildən olan problemlərdəndir.

Xidmətlə qiymətlərin uyğunsuzluğu ölkəyə turist axınının qarşısını alan əsas maneələrdən biridir. Hazırda qiymətlərin xidmətə uyğunlaşdırılması və dünya standartları ilə eyniləşdirilmək yönümündə dövlət səviyyəsində iş aparılır. Bunun üçün isə standartlaşdırma və sertifikatlaşdırmanın ölkədə tətbiqi vacibdir.

Turizm təsərrüfatından maksimum istifadə prezidentlər H.Ə.Əliyev və İ.H.Əliyevin həmişə diqqət mərkəzində olmuşdu. İkitərəfli və çoxtərəfli müxtəlif yığıncaqlar, keçirdiyi görüşlər zamanı Azərbaycanın turizm potensialından çox böyük inamla danışan ölkə başçısı xarici investisiyanı bu sahəyə cəlb etməkdədir.

